The developed installation allows studying the processes of obtaining qualitatively new extracts and oils. The main technological parameters of extraction are temperature and pressure. Varying pressure and temperature alter the components of the obtained extracts [20]. Experiments provide insight into process kinetics, optimal hydrodynamic conditions, and the effects of temperature, internal structure, and other factors on mass transfer and extract composition. Experimental data indicate that lowering the temperature significantly reduces extraction speed and efficiency. However, solvent selectivity increases, as evidenced by the complete absence of fatty oil in all extraction samples at -40°C, unlike at 20°C [21].

Conducting extraction at subzero temperatures is unjustified unless necessary to enhance liquid CO_2 selectivity, as it significantly reduces the efficiency of extracting extractive substances. Research has shown that the highest yield of extractive substances is achieved at extraction temperatures between 15–20°C with corresponding solvent vapor pressure. Along with other considered factors, pressure significantly influences the rate of ingredient extraction from plant raw materials [22].

Conclusions. Based on the obtained data, it can be concluded that camel thorn is a promising phytotherapy agent, particularly for the complex treatment of pulmonary tuberculosis. Its high environmental purity and rich macro- and microelement composition allow its inclusion in the list of recommended medicinal agents. In Kazakhstan, camel thorn is already actively used in traditional medicine as a choleretic, wound-healing, and hemostatic agent, confirming its therapeutic potential.

This study examined the prospects of using camel thorn extract (Alhagi) as a functional ingredient for beverage enrichment. Due to its rich composition of biologically active compounds such as flavonoids, polyphenols, organic acids, and mineral elements, Alhagi extract possesses antioxidant, anti-inflammatory, and immunomodulatory properties, making it a valuable component for developing functional food products.

Supercritical CO_2 extraction enables the production of high-quality extracts without toxic solvents, preserving thermolabile compounds and ensuring high product purity. Optimizing technological parameters such as pressure, temperature, extraction time, and raw material particle size enhances process efficiency and improves the bioavailability of target components.

Further research may focus on studying the stability of bioactive compounds in the final product and evaluating their effects on consumer health. Implementing such technologies in the food industry expands the range of functional products that meet modern healthy nutrition requirements.

REFERENCES

1. Burasheva G.Sh., Rakhimov K.D., Abilov Zh.A. Preclinical studies of the substance "Alkhidin" and its pharmaceutical forms // Izvestiya NTO "Kahak", 2013. – S. 13-20.
2. Vafina R.A. Pharmacology of the phytopreparation "Alkhidin" // Vestnik KazNMU, 2010 – S. 45-50.
3. Nishanbaev S.R. Metabolites of Alhagi genus plants // Vestnik of the Karakalpak State University, 2010. – S. 60-65.
4. Sokolik V.I. Desert healer // Biology, 2015. – S. 22-25.
5. Verblyuzhya kolyuchka: lekarsvennoe rastenie, primenenie // LekTrava. URL: https://lektrava.ru/encyclopedia/verblyuzhya-kolyuchka/

6. Biological studies of camel thorn growth on different soils of Astrakhan region // ResearchGate.
7. Wikipedia: Verblyuzhya kolyuchka obykovnaya.
8. Lekarstvennye rastenia Sredney Azii. Tashkent: Fan, 2014.
9. Abilov Zh.A., Burasheva G.Sh. Neutron-activation analysis of biogenic elements in medicinal plants. // Izvestiya NAN RK, 2013. – S. 50-57.
10. Vafina R.A. Pharmacological studies of camel thorn//Vestnik KazNMU, 2014. S.67-72.
11. Journal "Phytochemistry": Spectrophotometric analysis of medicinal plants, 2015. – S. 90-98.
12. Research of the chemical composition of Alhagi in Kazakhstan // ResearchGate.
13. Sokolik V.I. Medicinal plants of Central Asia. Tashkent: Fan, 2016.
14. Nishanbaev S.R. Methods of determining toxic elements in plants // Vestnik of the Karakalpak State University, 2012. – S. 34-42.
15. Wikipedia: Verblyuzhya kolyuchka obykovnaya.
16. Kasymov A.S., Abdukarimov B.A. Macro- and microelements in medicinal plants of Kazakhstan // Vestnik KazGMU, 2017. – S. 22-28.
17. Biological studies of camel thorn growth in arid regions //Acta Botanica, 2018. S. 45-55
18. Pharmaceutical forms of preparations based on "Alkhidin" // Medical Almanac, 2020. S. 30-39.
19. Siddikov I.X., Fayziev Sh.I., Gafurov K.Kh., Ibragimov U.M. Automatic control system for the concentration of ingredients from vegetable raw materials using liquefied CO2. International Journal of Advanced Science and Technology, 2020, – S. 32-37.
20. Vodyanik A.R., Shadrin A.Yu., Sinev M.Yu. Supercritical fluid extraction of natural raw materials: global experience and the situation in Russia. "Supercritical Fluids: Theory and Practice", 2008. – S. 58-69.
21. Kasyanov G.A. Theory of gas-liquid technologies. URL: http://krkgi.ru/glav/co2tech/extraction.htm
22. Gafurov K.Kh., Ibragimov U.M., Fayziev Sh.I. Statistical-mathematical model of the process of extraction of pumpkin seeds by CO2-extraction. Austrian Journal of Technical and Natural Sciences, 2017. S. 59-63.

FORTIFICATION OF A FUNCTIONAL BEVERAGE WITH ALHAGI PLANT EXTRACT

M.M.Kuikolakova [1]
realmadina@mail.ru
G.I.Baigaziyeva [2]
I. Yu.Sergeeva[3]
Almaty Technological University[1,2]
Kemerovo State University[3]

The article discusses the potential use of camel thorn (Alhagi) as a functional ingredient for beverage enrichment. Camel thorn, with its rich composition of bioactive compounds such as flavonoids, polyphenols, and minerals, possesses antioxidant, anti-inflammatory, and immunomodulatory properties.

The extraction of bioactive substances using supercritical CO_2 extraction allows for the production of high-quality extracts without the use of toxic solvents. Optimizing extraction conditions enhances the bioavailability of active components. The development of functional drinks with camel thorn extract represents an innovative step in healthy nutrition and preventive medicine, offering natural and effective means to improve health.

Moreover, the incorporation of camel thorn extract into beverages can enhance not only their nutritional value but also their sensory characteristics, such as taste and aroma. The presence of essential minerals, amino acids, and vitamins further contributes to its potential as a functional ingredient. Studies indicate that camel thorn extract may support

digestive health, regulate blood sugar levels, and promote cardiovascular well-being. Future research should focus on optimizing formulations, ensuring stability, and evaluating long-term health benefits to fully harness its potential in the functional food industry.

Key words: camel thorn, Alhagi, functional beverages, supercritical extraction, bioactive compounds, antioxidants, healthy nutrition.

KƏND TƏSƏRRÜFATI HEYVANLARINDA BİRLƏŞDİRİCİ TOXUMANIN ROLU VƏ XÜSUSİYYƏTLƏRİ

Güloğlan Səfəralı oğlu Məmmədrzayev
sadoshe@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti

Ümumiyyətlə, kənd təsərrüfatı heyvanlarının orqanizmində 4 toxuma – epitel, birləşdirici, əzələ və sinir toxumasından təşkil olunmuşdur.

Orqanizmdə hər bir toxumanın özünə uyğun müəyyən rola və xüsusiyyətlərə malikdir. Embrional inkişaf dövründə mayalanmış hüceyrə bölünməyə başlayır və bölünmə prosesi yeni əmələ gəlmiş hüceyrələrdə də davam edir. Hüceyrələrdən toxuma formalaşır.

Ayrılan və xüsusi keyfiyyətlərə malik olan hüceyrə qrupları ilə aralıq maddəsinə birlikdə toxuma deyilir. Toxumalar orqanizmdə ayrı-ayrı yerləşmir, bir-birində asılı vəziyyətdə olaraq orqanı əmələ gətirir. Toxumanın xüsusiyyətindən asılı olaraq hüceyrə arasını dolduran maddə, müxtəlif quruluşda olur və müxtəlif rola malikdir.

Birləşdirici toxumalar qrupu çoxlu miqdarda lifli hüceyrəarası maddəyə, quruluş və vəzifəsinin müxtəlif olması ilə fərqlənən strukturasız maddəyə malikdir. Bu toxuma növü orqanizmdə dayaq və trofik yəni qidalandırıcı rolunu oynayır, orqanları bir-birinə birləşdirib orqanizmin formalaşmasında böyük rolu vardır.

Birləşdirici toxuma - lifli redikulyar, yağ, qığırdaq, sümük toxumasına malikdir. Bundan əlavə qan və limfa mənşə etibarı ilə birləşdirici toxumanın trofik qrupuna aiddir.

- Lifli toxuma – çoxlu liflərdən ibarətdir. Yapışqan xüsusiyyətinə malik olduğuna görə kollagen liflərdə deyilir;

- Lifli toxuma – boş, sıx və elastiki olur. Boş birləşdirici toxuma dərinin altında əzələlərin arasında yerləşərək bəzi orqanları bir-birinə birləşdirir. Lifli toxuma mexaniki və hüceyrəarası yarıqda qan dövran etdiyindən qidalandırıcı rol oynayır;

- Sıx birləşdirici toxuma əzələlərin vətərlərində aponevrozlarda, bağlarda təsadüf olunur;

- Elastik toxuma aralıq maddədə elastik liflərin miqdarı ilə fərqlənir və bağlarda qan damarlarında təsadüf olunur;

- Retikulyar – bir çox orqanların – limfa düyünlərinin, dalağın, iliyin dayağını təşkil edir, hüceyrələrində bir-biri ilə birləşən çoxlu çıxıntıları olur;

- Yağ toxuması – dəri altı qatda barmaqların yumşaq yerində, göz çuxurunun dibində və başqa yerlərdə yığışır, qida materialı yumşaq altlıq orqanizmi soyumaqdan və artıq qızışmadan qoruyur;

- Qığırdaq toxuması – lazım olan yerlər üçün təkanları və sarsıntıları yumşaltmaq rolunu oynayır və orqanizmdə 3 növü – hialin, elastik və lifli qığırdaq ayırd edilir;

- Sümük toxuması – birləşdirici toxumanın ən bərkidir, orqanizmin əsas dayağını əmələ gətirir. Bu toxuma – hüceyrələrdən, əsas maddədən və liflərdən əmələ gəlmişdir. Sümük toxuması sıx, kompakt və süngər maddədən təşkil olunmuşdur;

- Qan və limfa – birləşdirici toxumanın trofik, yəni qidalandırıcı qrupuna aiddir. Orqanizmdə rolu əhəmiyyətli dərəcədə böyükdür. Belə ki, nəqliyyat, qoruyucu, daxili sabitlik ifrazat məhsulları kənarlaşdırmaq qan itkisinin qarşısını almaq və s. rolunu oynayır.

THE ROLE AND PROPERTIES OF CONNECTIVE TISSUE IN FARM ANIMALS

Guloglan Safarali Mammadrzayev
sadoshe@gmail.com
Azerbaijan State Agrarian University

All types of connective tissue are formed from embryonic intermediate tissue - mesenchyme. The tissue develops very early from the mesoderm, and its cells move into the space between the germ layers. There are several types of connective tissue, which can be divided into two groups - nutritional (trophic) and supporting (mechanical) tissues. Its main role is to connect and bind different components of the body into a single whole, maintain internal stability, etc.

Key words: tissue, role, cartilage, blood, bone, cell.

AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ NAR SORTLARININ ƏKİLİB BECƏRİLMƏSİNİN İNKİŞAF PERİSPEKTİVLƏRİNİN TƏDQİQİ

Mehriban Sahib qızı Aslanova
aslanovamehriban@gmail.com
Gülər Nazim qızı Rüstəmli
rustmligulr@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Azərbaycanın nadir təbiətə malik Qarabağ bölgəsində narçılıq təsərrüfatının inkişafı üçün münbit şərait var. Çünki Qarabağ bölgəsi həm çoxlu su mənbəyinin olması, həm də torpaqlarının minerallarla çox zəngin olması ilə digər bölgələrimizdən fərqlənir. İşğaldan əvvəlki dövrlərin məlumatlarına əsasən demək olar ki, Qarabağ bölgəsində yetişən nar sortları Azərbaycanın başqa narçılıq bölgələrində yetişmir, yetişdirilsə də məhsuldarlıq və keyfiyyət baxımından eyni olmur. Bu Qarabağın təbiəti, torpağı və iqlimi ilə izah olunur. Bu baxımdan orada narçılığın inkişafı üçün münbit şərait vardır. Ümumilikdə, ölkədə nar bağlarının sahəsi 22,700 hektardan artıqdır. Yaxın 5 il ərzində ölkə üzrə nar bağlarının sahəsini 5 min hektar artırılması nəzərdə tutulmuşdur ki, bu da Qarabağ bölgəsinin payına düşür.

2020-ci ildə Azərbaycan əsgərinin qanı və canı bahasına işğaldan azad olunmuş Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ bölgəsinin flora və faunası uzun illər araşdırmalardan kənar qalmışdır. Belə ki, bəzi tədqiqatlar aparılsa da, onlar əsasən nəzəri xarakter daşımaqla, praktikaya tətbiq oluna bilməmişdir. Qeyd etmək lazımdır ki, bu ərazilərdə erməni işğalından əvvəliki dövründə narçılıq təsərrüfatı olmuşdur. İndi əsas məqsəd buranın əsas nar sortlarını tədqiq etməklə yeni araşdırmalar aparmaq və nəticələrin müsbət olduğu təqdirdə həmin ərazilərdə nar bağlarının salınmasını və mövcud bağların sahəsinin genişləndirilməsini həyata keçirməkdir.

Tədqiqat obyekti kimi Ağdamda yetişən Güleyşə nar sortları götürülmüşdür. Tədqiq olunan nar sortlarının keyfiyyət göstəriciləri Göyçay rayonundan götürülmüş Azərbaycan Güleyşəsi nar sortunun keyfiyyət göstəriciləri ilə müqayisə edilmişdir. Müasir analiz üsullarının köməyi ilə nar sortlarının tərkibini təşkil edən qida maddələri daha geniş öyrənilmişdir.

Tarixi qaynaqlardan və aparılan araşdırmalarla məlumdur ki, Azərbaycanda Qarabağda, Ağdamın yaxınlığında Şelli kəndi, Şirvan torpağında isə Göyçay narın beşiyi hesab olunur. Ölkə rəhbərliyinin göstərişi ilə işğaldan azad edilmiş Şelli kəndində 17 hektar ərazisində nisbətən salamat qalan nar bağının bərpası və becərmə işləri aparılmışdır. Məqsəd Şelli narının keçmiş şöhrətini qaytarmaq və Qarabağ bölgəsində nar sortlarının əkilib –becərilməsinin inkişaf perispektivlərini müəyyən etməkdir. Bunun üçün xeyli gərgin əmək sərf edilmiş və ilkin müsbət nəticələr əldə edilmişdir. Belə ki, 2023-cü ilin payız

mövsümündə "Azərşəkər" MMC-nin Ağdam rayonunun işğaldan azad edilmiş ərazilərindəki nar bağlarından ilk dəfə məhsul yığılmışdır.Yığılan məhsulun 133 tonunun satışı həyata keçirilələk 16 tona yaxın hissəsi Sinqapur, Kanada və Rusiyaya ixrac edilmiş, 117 tonu isə daxili bazarda satılmışdır. Məhsul satışından əldə olunan gəlirin bir hissəsi "YAŞAT" Fonduna ianə edilmişdir. Bölgədən gətirilən Güleşə nar sortunun fiziki-kimyəvi göstəriciləri analiz olunmuş və Azərbaycan Güleyşəsi nar sortu ilə müqayisə edilmişdir.

İlk öncə Ağdam rayonunun Şelli kəndi yaxınlığında yerləşən nar bağlarından gətirilmiş Güleyşə nar sortlarının fiziki-kimyəvi göstəricilərinin ekspertizası aparılmışdır[3]. Müqayisə aparmaq üçün eyni zamanda Göyçayın Azərbaycan Güleyşəsi nar sortunun da eyni qaydada ekspertizası aparılmışdır. Nəticələr cədvəl 1-də verilmişdir. Aparılan araşdırmalarla və bizim təcrübələrdən məlum olmuşdur ki, nar meyvəsi yüksək qidalılıq dəyərinə malik olmaqla, üzvi və qeyri-üzvi maddələrlə zəngindir[1].

Nar şirəsinin tərkibində 400-dən artıq üzvi və qeyri-üzvi maddələrin olması müəyyən ediulmişdir[2]. Nar şirəsinin həllolan quru maddəsinin əsasını karbohidratlar və ya sadə şəkərlər təşkil edir.

Cədvəl. Nar sortlarının əsas keyfiyyət göstəriciləri

№	Göstəricilər	Nar sortları	
		Güleyşə	Azərbaycan Güleyşəsi
1.	Həllolan quru maddələrin miqdarı, %-lə	17,2	16,1
2.	Ümumi şəkər, %-lə	13,43	14,9
3.	İnvert şəkərlər, %-lə	13,0	13,7
4.	Titirləşən turşuluq, %-lə	2,14	1,45
5.	Fenol maddələri, %-lə	1,0	1,3
6.	C vitamini, mq%-lə	7,3	6,6

Ağdam rayonunda yetişdirilən nar sortları tərkibində karbohidratların miqdarının və şirə çıxımının yüksək olması səbəbindən nardan müxtəlif çeşidli məhsullar istehsal olunması üçün daha əlverişli xammal hesab olunur. Bu Qarabağ bölgəsində nar sortlarının əkilib becərilməsinin inkişaf perispektivlərinin yüksək olduğunu göstərməklə, bu ərazilərdə yeni emal müəssisələrinin yaradılmasına şərait yaradar və işğaldan azad olunan ərazilərə qayıdan yerli əhalinin məşğulluğunun təmin olunmasına zəmin yaradar. Bu məqsədlə işğaldan azad olunan Ağdam rayonunda yetişən Güleyşə nar sortlarının əkin sahələrinin artırılması və bu sortların Azərbaycanın digər narçılıq bölgələrində yayılması iqtisadi baxımdamdan əlverişli olmaqla Ağdam narının keçmiş şöhrətini qaytarmağa şərait yaradır.

ƏDƏBİYYAT

1. Aslanova M.S., Nəbiyev Ə.Ə. Nar sortlarının müxtəlif üsullarla saxlanmasının tədqiqi / Monoqrafiya. Bakı: MBM nəşriyyatı, -2023, -240 s.

2. Гасанов З.М., Набиев А.А., Асланова М.С., Гаджиев З.В. Сортовое разнообразие и содержание биологически активных веществ в плодах граната (Punica Granatum). Современное садоводства. Электронный журнал. -Москва, -2015.

3. Асланова М.С., Курбанова С.О, Алиева Ф.И. Изучение основных показателей качества сортов граната, выращиваемых в Агдамском районе // Продукты питания: производство, безопасность, качество: материалы международной научно-практической конференции. 25 декабря, 2024 г. – Уфа: Башкирский ГАУ, 2025. – с. 41-48.

STUDY OF THE DEVELOPMENT PROSPECTS OF POMEGRANATE VARIETIES CULTIVATION IN THE KARABAKH REGION OF AZERBAIJAN

Mehriban Aslanova
aslanovamehriban@gmail.com
Guler Rustamli
rustmligulr@gmail.com
Azerbaijan Technological University

The fertile soil for the development of pomegranate farming in the Karabakh region of Azerbaijan, which has a unique nature, was selected as the object of the study: the Guleyshe pomegranate varieties grown in Aghdam. The quality indicators of the studied pomegranate varieties were compared with the quality indicators of the Azerbaijani Guleyshe pomegranate variety taken from the Goychay region. The pomegranate varieties grown in the Aghdam region are considered more suitable raw materials for the production of various products from pomegranate due to the high content of carbohydrates and juice yield. This indicates that the development prospects of planting and cultivating pomegranate varieties in the Karabakh region are high, which will create conditions for the establishment of new processing enterprises in these areas and will create a basis for ensuring employment for the local population returning to the liberated territories.

Key words: pomegranate, variety, juice, physicochemical indicators, carbohydrates, Karabakh.

TOKAY TİPLİ ŞƏRABLARIN İSTEHSALINDA İSTİFADƏ ONUNAN ÜZÜM SORTLARININ KEYFİYYƏTİNƏ OKSİREDUKTAZA VƏ HİDROLAZA SİNFİNƏ MƏNSUB FERMENTLƏRİN AKTİVLİYİNİN TƏSİRİ

Afaq Sahib qızı Bağırzadə
afaqbagirzade8@gmail.com
Sevda Oktay qızı Qurbanova
qurbanova-sevda@inbox.ru
Əhəd Əli oğlu Nəbiyev
ahad.nabiyev@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Ədəbiyyat materiallarının və apardığımız tədqiqat işinin araşdırmasından məlum olmuşdur ki, tənək üzərində üzüm salxımlarını buraraq gilələrin soluxdurulmasına, yumşalmasına, hətta büzüşməsinə, o cümlədən üzümün keyfiyyət göstəricilərinin miqdarca azalmasına əsas səbəb fermentlərin, əsasən də oksireduktazaların aktivliyinin artmasıdır [1,2]. Oksireduktaza fermentləri tədqiq olunan üzümün əsas keyfiyyət göstəricilərinin azalmasına təsir göstərirlər.

Hidrolaza sinfinə mənsub pektin fermentlərinin nümayəndəsi olan pektinesteraza isə üzüm gilələsinin yumşalmasına təsir göstərir. Bu fermentin təsiri ilə üzüm tərkibində olan pektɯn maddəsinin hidrolizi nəticəsində gilənin daxilində pektin turşusu və metil spirti əmələ gəlir. Əmələ gəlmiş metil spirti üzüm giləsinin hüceyrə quruluşunu pozaraq onun yumşalmasına səbəb olur. Bu hal hazırlanacaq Tokay şərabının keyfiyyətinə mənfi təsir göstərir. Bu baxımdan biz tədqiqat işimizdə Tokay tipli şərab materialı hazırlamaq üçün yetişmiş və əvvəlcədən soluxdurulmuş üzüm sortlarında bəzi oksireduktazalarıт və pektinesterazanın aktivliyinin dəyişmə dinamikasının öyrənilməsini qarşımıza məqsəd qoymuşuq.

Oksireduktazalar (askorbatoksidaza, o-difenoloksidaza, peroksidaza və katalaza) oksidləşmə-reduksiya redaksiyalarını kataliz edirlər. Askorbatoksidaza fermenti oksigenin iştirakı ilə C vitamininin və ya askorbin turşusunun d-hidro L-askorbin turşusuna

çevrilməsini kataliz edir. O-difenoloksidaza və ya polifenoloksidaza fermenti isə polifenolların geniş spektrda poli və o-fenolların monomer formaya çevrilməsini kataliz edir. Peroksidaza isə oksigensiz mühitdə aromatik aminlərin oksidləşməsini kataliz edir. Katalaza isə toxunma tənəffüsü prosesində suya və molekulyar oksigenə parçalayaraq bitkilərin zərərsizləşdirilməsinə təsir göstərir [3,4].

Üzümün yetişməsində soluxmasında və emalında mürəkkəb biokimyəvi biotexnoloji proseslər baş verir. Bu prosesləri tədqiqat işində tənzimləmək üçün qeyd olunan fermentlərin aktivliyinin öyrənilməsi müasir dövrümüzdə aktual məsələlərdəndir. Bu məqsədlə biz, Samux rayonu şəraitində yetişmiş və soluxdurulmuş üzüm sortlarından istifadə edərək fermentlərin aktivliyinin dəyişmə dinamikasını tədqiq etmişik. Bu göstəricilər qısaca olaraq cədvəl 1 və 2-də öz əksini tapmışdır.

Cədvəl 1-in rəqəmlərindən aydın olur ki, tədqiq olunan fermentlərin aktivliyi yetişmiş üzümlə müqayisədə soluxdurulmuş üzümdə xeyli yüksəkdir. Yetişmiş Bayanşirə üzüm sortunu tənək üzərində buraraq soluxdurduqda askorbatoksidaza fermentinin aktivliyi 86,1 %, Rkasitelidə isə 74,3% yüksəlmişdir. Bu göstəricilər digər fermentlərlə, tədqiq olunan üzüm sortları ilə eynilik təşkil etmişdir.

Cədvəl 2-in rəqəmlərindən məlum olur ki, tənək üzərində burularaq soluxdurulmuş üzüm sortlarında yetişmişlə müqayisədə pektinesteraza fermentinin aktivliyi xeyli yüksəlir. Bu göstərici Bayanşirə üzüm sortunda 69,3%, Rkasitelidə 66,5%, Kaberne-Sovinyonda 54,7%, Mədrəsədə isə 57,1% olmuşdur. Ağ üzüm sortları ilə müqayisədə qırmızı üzüm sortlarında pektinesteraza fermentinin aktivliyi xeyli az olmuşdur. Buna əsas səbəb ağ üzüm sortları ilə müqayisədə qırmızı üzüm sortlarının tərkibində fenol birləşmələrinin, o cümlədən antosianların miqdarca çox olmasıdır. Ona görə də fenol birləşmələri pektinesteraza fermentinin antioksidantı hesab olunur.

Cədvəl 1. Samux rayonunun aran zonasında yetişmiş və soluxdurulmuş üzüm sortlarında bəzi oksidoreduktaza sinfinə mənsub fermentlərin aktivliyinin müqayisəli təhlili

№	Fermentlər	Bayanşirə				Rkasiteli			
		Yetiş-miş	Solux-durul-muş	Fərq	%-lə	Yetiş-miş	Soluxdu-rulmuş	Fərq	%-lə
1	Askorbat-oksidaza	0,72	1,34	+0,62	86,1	0,78	1,36	+0,58	74,3
2	O-difenolok-sidaza	0,88	1,45	+0,57	64,5	1,01	1,64	+0,63	62,3
3	Peroksidaza	2,40	3,88	+1,48	61,7	2,50	4,06	+1,56	62,4
4	Katalaza	0,46	0,78	+0,32	69,6	0,48	0,82	+0,34	70,8
		Kaberne-Sovinyon				Mədrəsə			
1	Askorbat-oksidaza	0,66	1,14	+0,46	67,6	0,72	1,17	+0,45	62,5
2	O-difenol-oksidaza	0,72	1,16	+0,44	61,1	0,88	1,41	+0,33	60,2
3	Peroksidaza	2,10	3,40	+1,30	61,9	2,20	3,48	+1,28	58,2
4	Katalaza	0,44	0,70	+0,26	59,41	0,48	0,78	+0,30	62,5

Qeyd: fermenlərin aktivliyi 1 q nümunə çəkisinin 30 dəqiqə ərzində təsirindən parçaladığı substratın mq miqdarı ilə müəyyən edilir.

Cədvəl 2. Samux rayonunun aran zonasında yetişmiş və soluxdurulmuş üzüm sortlarında pektinesteraza fermentinin aktivliyinin müqayisəli təhlili

№	Üzüm sortları	Yetişmiş	Soluxdurulmuş	Fərq	%-lə
1	Bayanşirə	22,8	38,6	+15,8	69,3
2	Rkasiteli	24,5	40,8	+16,3	66,5
3	Kaberne-Sovinyon	27,4	42,4	+15,0	54,7
4	Mədrəsə	28,2	44,3	+16,1	57,1

Qeyd: aseton preparatının 1 mq nisbi vahidinə görə

Nəticə. Tədqiqatın nəticəsindən məlum olmuşdur ki, Tokay tipli şərab hazırladıqda elə şərait yaradılmalıdır ki, həm oksireduktaza həm də hidrolaza sinfinə mənsub fermentlərin aktivliyi tənzimlənməlidir. Əks halda fermentlərin aktivliyinin yüksəlməsi üzümün tərkibindəki əsas qida maddələrinin tənəffüs prosesinə sərf olunmasını sürətləndirir. Bu da sözsüz ki, hazırlanacaq Tokay şərabının keyfiyyətinə təsir göstərir. Ona görə də, şərab istehsalı zamanı fermentlərin aktivliyinin stabil olması ən əsas faktorlardan biri hesab olunur.

ƏDƏBİYYAT

1. Nəbiyev Ə. Ə. Qida məhsullarının biokimyası. / Ə. Ə.Nəbiyev, E.Ə.Möslemzadeh. – Bakı: Elm, - 2008. - 444 s.
2. Багирзаде, А.С. Сравнительное исследование качественных показателей сортов винограда, используемых в производстве Токайских вин / А.С. Багирзаде, Я.А., Омаров, А.А. Набиев, // Пиво и напитки. – Москва: - 2023. №1. –с. 30-34
3. Bagirzadeh A.,Omarov Y., Hacıyeva A. Improvement of the production technology of tokay wines based on the revealed effect of enzyme activity on the quality of grape variety / A Bagirzadeh,. Y Omarov, A Hacıyeva [et al.]. // Eastern-European Journal of Enterprise Technologies,-2023. Vol. 2(11 (122)) , -p.49-62
4. Baghirzade A.,Omarov Y.,Haydarov E.,Ismayilov M.,Gasimova A., Cavadov M.Nabiyev A. Importment of technoloji for producing wine material for tokay wine. Eastern- European Journal of Enterprise Technologies 2024 1(11(127),52-63 doi^https^//doi.org/10.15587/1729-4061.2024298.739

THE EFFECT OF THE ACTİVİTY OF ENZYMES BELONGİNG TO THE OXİDOREDUCTASE AND HYDROLASE CLASSES ON THE QUALİTY OF GRAPE VARİETİES USED İN THE PRODUCTİON OF TOKAY-TYPE WİNES

S.O.Qurbanova
qurbanova-sevda@inbox.ru
A.S.Bağırzadə
afaqbagirzade8@gmail.com
Ə.Ə.Nəbiyev
ahad.nabiyev@mail.ru
Azerbaijan University of Technology

The results of the study showed that when making Tokay-type wine, conditions should be created in which the activity of both oxidoreductase and hydrolase enzymes should be regulated. Otherwise, the increase in enzyme activity accelerates the consumption of the main nutrients in the grape for the respiratory process. This undoubtedly affects the quality of the Tokay wine to be made. Therefore, the stability of enzyme activity during wine production is considered one of the most important factors.

Keywords: Bayanshira, Rkasiteli grape varieties, enzymes: ascorbate oxidase, o-diphenol oxidase, peroxidase and catalase.

YERLİ VƏ İDXAL OLUNAN BUĞDA UNLARININ ÇÖRƏKBİŞİRİLMƏ XASSƏLƏRİNİN MÜQAYİSƏLİ EKSPERTİZASI

Eldəniz Bayramov
e.bayramov@atu.edu.az
Aytac Şəmmədova
aytadjshammadli@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Kənd təsərrüfatının strateji və son dərəcə mühüm əhəmiyyət kəsb edən sahəsi taxılçılıqdır. Azərbaycanda yerli və idxal olunan buğda unlarının müqayisəli ekspertizası zamnı apardığımız araşdırmalar göstərir ki, dünyada ekoloji vəziyyətin kəskin pisləşməsi ilə əlaqədar olaraq yerli buğda sortları və onlardan alınan unlar bir çox qida məhsullarının, o cümlədən çörək məmulatlarının istehsalı üçün kifayət qədər yararlı deyil [1]. Bununla yanaşı yerli buğda istehsalı əhalinin çörək və digər unlu məmulatlara olan tələbatını da yetərincə ödəmir. Ona görə Azərbaycana xarici ölkələrdən buğda sortları və unlarının idxal edilməsinə zərurət yaranır [2].

Yararsız unu çörəkbişirmə müəssisəsində istifadə etmək məqsədi ilə reseptura komponentlərini istehsalata hazırlamaq [6, 7] və vermək [8, 9], reseptura komponentlərinə energetik təsir etmək [10, 11, 12] üçün müxtəlif üsul və vasitələr tətbiq edilir ki, bu da texnoloji mərhələlərdə fiziki-kimyəvi proseslərin [13, 14, 15] optimal getməsinə, xəmirin strukturunun, nəticədə isə çörək məmulatlarının keyfiyyət göstəricilərinin yaxşılaşmasına səbəb olur.

Ona görə idxal olunan buğda unlarının keyfiyyət göstəriciləri və istifadəyə yararlığı haqqında məlumat bazasının yaradılması və istifadəsinə dair tövsiyyələrin hazırlanması günün aktual problemlərindən biridir.

İşin məqsədi – Azərbaycana idxal olunan və yerli buğda unlarının keyfiyyət göstəricilərini və istifadəyə yararlığını müqayisəli tədqiq etmək, çörəkbişirmə üçün tövsiyələr hazırlamaqdır.

Tədqiqat obyetki "Bismak" ticarət nişanlı yerli və idxal olunan "Совет хозяюшки" ticarət nişanlı əla sort buğda unlarıdır.

Tədqiqatın aparılma metodikası – unun çörəkbişirilmə xassələrinin təyini metodikasına əsaslanır. Yerli və idxal olunan unların çörəkbişirilmə xassələri məlum metodika üzrə "Gəncə-Dəyirman"ın laboratoriyasında yerinə yetirilmişdir [3, 4, 5].

Tədqiqatın predmeti – yerli və idxal olunan buğda unlarının çörəkbişirilmə xassələrini səciyyələndirən göstəricilərin müqayisəli ekspertizasıdır.

Tədqiqatın praktiki əhəmiyyəti – alınmış nəticələr un və çörək istehsalı ilə məşğul olan kiçik və orta biznesin sahibkarları üçün faydalı ola bilər.

Nəticələrin müzakirəsi. Ekspertiza nəticəsində müəyyən edilmişdir ki, yerli və idxal olunan buğda unlarının çörəkbişirilmə xassələrini xarakterizə edən keyfiyyət göstəriciləri o qədər də fərqli deyil və standartın tələbinə cavab verir.

Ekspertiza apararkən mineral qatışığın miqdarı, nəmlik, külün miqdarı, №43 ipək ələkdə qalıq, yaş kleykovinanın miqdarı, yaş kleykovinanın keyfiyyəti, glüten indeks, unun düşmə sayı, metal-maqnit qatışığı, ziyanvericilərlə yoluxması, rəngi təyin edilmişdir.

Unun nəmliyinin az olmasının səbəbi onun uzun müddət saxlanması üçün nəzərdə tutulmuşdur.

Cədvəldən göründüyü kimi "Bismak" ticarət nişanlı əla sort yerli buğda ununda yaş kleykovinanın miqdarı 30.3%, gluten indeksi 99.33, dartılma uzunluğu 16 sm olduğu üçün keyfiyyətinə görə II qrupa aid, ağlığı 62.7 vahid, düşmə sayı 362 san, külün miqdarı 0.537%, rəngi ağ, dadı buğda ununa xas, qoxusu buğda ununa xas, nəmliyi isə 12.8% olmuşdur.

Cədvəl

Yerli və idxal olunan buğda unlarının çörəkbişirilmə xassələrini xarakterizə edən keyfiyyət göstəricilərinin müqayisəli ekspertizasının nəticələri

Göstəricilərin adı	Göstəricilərin qiyməti		
	NS üzrə	Faktiki	
		Bismak	Совет хозяюшки
Mineral qatışığın miqdarı	-	hiss olunmur	
Nəmliyi, max.%	15.0	12.8	12.8
Külü, quru maddə hesabıyla, max.%	0.55	0.537	0.529
№43 ipək ələkdə qalıq, max.%	5	1.9	1.8
Yaş kleykovinanın miqdarı, min.%	28.0	30.3	30.6
Yaş kleykovinanın keyfiyyəti, qrup	min. II qrup	II qrup	I qrup
Glüten indeks, %		99.33	94.77
Düşmə sayı, min. san	185	358	355
Metal-maqnit qatışığı, max. mq/kq	3.0	yox	yox
Ziyanvericilərlə yoluxması	yol verilmir	yox	yox
Rəngi, min.vahid	54	62.7	64.4

Cədvəldən göründüyü kimi idxal olunan "Совет хозяюшки" ticarət nişanlı əla sort buğda ununda yaş kleykovinanın miqdarı 30.6%, gluten indeksi 94.77, dartılma uzunluğu 12 sm olduğu üçün keyfiyyətinə görə I qrupa aid, ağlığı 64.4 vahid, düşmə sayı 355 san, külün miqdarı 0.529%, rəngi ağ, dadı - buğda ununa xas, qoxusu - buğda ununa xas, nəmliyi isə 12,8% olmuşdur. Müqayisəli ekspertizanın nəticələri göstərir ki, yerli və idxal olunan buğda unlarının çörəkbişirilmə xassələrini xarakterizə edən göstəricilər standartın tələbinə uyğundur. Fərq yalnız ondadır ki, idxal olunan "Совет хозяюшки" ticarət nişanlı əla sort buğda unu birinci qrupa, "Bismak" ticarət nişanlı əla sort yerli buğda unu isə ikinci qrupa aiddir.

Aparılan ekspertizanın nəticələri cədvəldə göstərilmişdir.

Ekspertizanın nəticəsindən məlum olur ki, idxal olunan buğda unları yerli buğda unlarının çörəkbişirilmə keyfiyyətini yaxşılaşdırmağa və çörək məmulatları istehsalının optimal parametrlərini müəyyənləşdirməyə imkan verir.

Nəticə. Beləliklə, aparılan tədqiqat işində müəyyən olunmuşdur ki, "Bismak" ticarət nişanlı yerli və idxal olunan "Совет хозяюшки" ticarət nişanlı əla sort buğda unlarının çörəkbişirilmə xassələri standartın tələblərinə cavab verir və çörəkbişirmə üçün yararlıdır. İdxal olunan "Совет хозяюшки" ticarət nişanlı buğda unu I qrupa, "Bismak" ticarət nişanlı yerli buğda unu isə II qrupa aid olduğu üçün idxal olunan buğda unlarını yerli buğda unlarının çörəkbişirilmə keyfiyyətinin yaxşılaşdırılmasında və çörək istehsalının optimal parametrlərinin müəyyənləşdirməsində istifadə edilməsi məqsədəuyğundur. Buna tam əmin olmaq üçün yerli və idxal olunan unlardan istehsal edilən çörək nümunələrinin orqanoleptik göstəricilərinin ekspertizası aparılmalıdır.

ƏDƏBİYYAT

1. Шаммадова, А.З., Байрамов, Э.Э. Определение значимого органолептического показателя качества муки // Техника и технология пищевых производств: тезисы докладов XIII Междунар. науч. конф. студентов и аспирантов, – Могилев: БГУТ, – 18 апреля – 19 апреля, – 2024, – 468 с, – с. 76.

2. Bayramov, E.Ə., Şəmmədova, A.Z. Azərbaycanda bütün növ un ehtiyatlarinin statistik təhlili // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş "Dördüncü sənaye inqilabı dövründə elm və texnologiyaların mövcud vəziyyəti və inkişaf

perspektivləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, – Gəncə: ATU, – 6 may –7 may, – 2024, – 435 s., – s. 109-111.
3. Bayramov, E.Ə. Buğda ununda yaş kleykovinanın miqdarının təyin edilməsi: metodik göstəriş / – Gəncə: Əsgəroğlu, – 2017, – 28 s.
4. Bayramov, E.Ə. Buğda ununda yaş kleykovinanın keyfiyyətinin təyin edilməsi: metodik göstəriş / – Gəncə: Əsgəroğlu, – 2017, – 28 s.
5. Bayramov, E.Ə. Laboratoriyada hazırlanmış çörək nümunəsinə əsasən unun çörəkbişirilməyə yararlığının təyini: metodik göstəriş / – Gəncə: Əsgəroğlu, – 2017, – 40 s.
6. Байрамов, Э.Э. Совокупность способов и средств подготовки рецептурных компонентов теста // – Краснодар: Известия вузов. Пищевая технология, – 2016. №4(352), – с. 106-109.
7. Байрамов, Э.Э. Способы и средства подготовки рецептурных компонентов теста // Инновационные технологии в науке и образовании: сборник статей VI Международной научно-практической конференции, – Пенза: МЦНС, Наука и просвещение, – 5 ноября, – 2017. – 286 с. – с. 107-110.
8. Байрамов, Э.Э. Совокупность способов и средств подачи рецептурных компонентов теста в тестомесильную машину // – Краснодар: Известия вузов. Пищевая технология, – 2017. №4 (358), – с. 91-94.
9. Байрамов, Э.Э. Способы и средства подачи рецептурных компонентов теста // Наука – главный фактор инновационного прорыва в пищевой промышленности: сборник научных трудов юбилейного форума, посвященного 85-летию со дня основания ФГАНУ «Научно-исследовательский институт хлебопекарной промышленности», – Москва: Буки веди, – 23 ноября – 24 ноября, – 2017, – 280 с. – с. 245-246.
10. Байрамов, Э.Э., Годжаев, Т.Б. Энергетические воздействия, условия и средства подачи энергии при замесе теста // XI Международная научная конференция студентов и аспирантов «Техника и технология пищевых производств»,– Могилев: МГУП, – 18 апреля – 19 апреля, – 2019, – 425 с. – с. 83.
11. Байрамов, Э.Э. Совокупность энергетических воздействий, условий и средств передачи энергии рецептурным компонентам теста // – Краснодар: Известия вузов. Пищевая технология, – 2018. №2-3 (362-363), – с. 108-112.
12. Байрамов, Э.Э. Энергетические воздействия, условия и средства подачи энергии рецептурным компонентам теста // Актуальные направления инновационного развития животноводства и современных технологий продуктов питания, медицины и техники: сборник статьей международная научно-практической конференции, пос. Персиановский: Донской ГАУ, – 28 ноября – 29 ноября, – 2017, 339 с. с. 187-190.
13. Байрамов, Э.Э. Совокупность физико-химических процессов, развивающихся при замесе теста // – Москва: Хлебопродукты, – 2019. № 1, – с. 52-55.
14. Байрамов, Э.Э. Физико-химические процессы, развивающиеся при замесе теста на границе раздела компонентов // – Москва: Хлебопродукты, – 2019. №5, – с. 62-65.
15. Bayramov, E., Nabiev, A. Physical and chemical processes developing in the mass of components during dough mixing // – Odessa: Food science and technology. – 2019. Vol. 13, – Iss. 3, – p. 10-17.

COMPARATIVE EXPERTISE OF BREADING PROPERTIES OF DOMESTIC AND IMPORTED WHEAT FLOURS

Eldaniz Bayramov
e.bayramov@atu.edu.az
Aytac Shammadova
aytadjshammadli@gmail.com
Azerbaijan Technological University

The article analyzes the baking properties of imported wheat flour "Совет хозяюшки". It is established that wheat flour "Совет хозяюшки" is suitable for baking bread. The examination of baking properties of imported wheat flour shows that the use of imported wheat flour will further improve the quality of locally produced flour and determine the optimal parameters of bread baking.

Key words: flour, wheat, gluten, production

AZƏRBAYCANIN DAXİLİ SU HÖVZƏLƏRİNDƏ OVLANAN VƏTƏGƏ ƏHƏMİYYƏTLİ BALIQLARIN (ÇAPAQ VƏ ÇƏKİ TİMSALINDA) QİDALILIQ DƏYƏRİ VƏ KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

Gəray Surxay oğlu Mirzəyev
garay.mirzoev@mail.ru
Telli Mahir qızı Cavadova
Cavadovatelli8@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

Qida məhsullarının əsasını təşkil edən ərzaq məhsullarından biri də balıq və balıq məhsullarıdır. Bu məhsullar digər qida məhsullarından bir sıra xarakterik əlamətləri ilə fərqlənirlər. Belə ki, bu məhsullar dadı və şirəli olmaqla bərabər, həmçinin insan orqanizmi tərəfindən daha tez həzm olunma qabiliyyətinə malikdirlər.

Balıq ətinin elementar tərkib hissəsi, onun tərkibində olan müxtəlif kimyəvi maddələrin miqdarı ilə xarakterizə olunur. Aparılan analizlər nəticəsində məlum olmuşdur ki, balıq ətinin tərkibində 60-a qədər kimyəvi elementlər vardır. Belə ki. balıq ətinin tərkibində 2,6-3,1% - azot, 1,3 – 1,6% kalsium, 0,3% - kükürd, 9,8% - karbon, 10% - hidrogen və 7,5% - oksigen vardır.

Balıq ətinin qidalılıq dəyərliyini xarakterizə edən əsas maddələrdən biri zülallardır. Balıq ətinin belə yüksək dəyərliyə malik olmasının əsas səbəbi onların tərkibində olan əvəzedilməz amin turşularının orqanizm tərəfindən asanlıqla həzm olunmasıdır. Belə ki, müəyyən olunmuşdur ki, balıq ətinin zülallarının tərkibində 17-dən çox amin turşusu vardır. Balıq ətinin tərkibində orta hesabla 15-22%-ə qədər zülallar vardır ki, zülallar orqanizm tərəfindən 97% mənimsənilmə xüsusiyyətinə malikdirlər. Məhz, bu baxımdan tərəfimizdən əmtəəlik vətəgə əhəmiyyətli çapaq və çəki balığının orqanoleptiki və fiziki-kimyəvi keyfiyyət göstəricilərinin tədqiqi aparılmışdır. Aparılan tədqiqat işinin əsas məqsədi əmtəəlik vətəgə əhəmiyyətli çapaq və çəki balığının orqanoleptiki və fiziki-kimyəvi keyfiyyət göstəricilərinin qüvvədə olan dövlət standartlarının və normativ-texniki sənədlərin tələblərinə uyğun olmasını müəyyən etməkdən ibarət olmuşdur.

Orqanoleptiki üsulla aparılan qiymətləndirmə zamanı çapaq və çəki balığının konsistensiyası, xarici görünüşü, dadı və iyi təyin edilmişdir. Analiz üçün götürülən çapaq balığının uzunluğu – 32 sm, çəki balığının isə 38 sm olmuşdur. Bu balıqların xarici görünüşü və rənginin təyini zamanı onların üzəri təmiz və heç bir xəstəliklərin olmadığı müəyyən olunmuşdur. Lakin onların bədən səthində bir sıra mexaniki zədələnmə olduğu qeyd edilmişdir. Həmçinin onların bədən səthinin üzəri təmiz olmaqla bərabər, rəngi də növünə uyğun rəngdə, qəlsəmələrin rəngi isə tünd qırmızı rəngdə olduğu qeyd edilmişdir.

Bədənləri xaricdən iri pulcuqlarla sıx örtülmüşdür. Qarın hissəsinin girişində pulcuqla örtülü olmayan şırım vardır. Anus üzgəci uzun olub, şaxəsiz şüaya malikdir. Bədənləri yanlardan çox basılmış və udlaq dişləri bir sırada yerləşmişdir.

Çapaq və çəki balığının konsistensiyasını müəyyən edən zaman onların bədəni elastik, bərk və ya plastik olmasına diqqət yetirilmişdir. Qiymətləndirmə zamanı bu balıqların konsistensiyası elastiki bərk olduğu müşahidə edilmişdir. Fiziki-kimyəvi üsulla aparılan qiymətləndirmə zamanı çapaq və çəki balıqlarında azot əsaslı uçucu maddələrin miqdarı müəyyən olunmuşdur. Balığın kütlə tərkibini müəyyən etmək üçün əvvəlcə onun ümumi kütləsi müəyyənləşdirilir. Sonra balığın üzgəcləri, daxili orqanları çıxarılır, başı, dəri hissəsi və cəmdəyi diqqətlə ayrılır. Bu orqanlar ayrı-ayrılıqda tərəzidə çəkilərək kütləsi, sonra isə yeyilən hissəsinin miqdarı təyin edilmişdir.

Analiz üçün götürülmüş çapaq balığının ümumi kütləsi 755q olmaqla, bədən hissəsi – 440q, baş hissəsi – 130q, daxili orqanları – 75q, üzgəclər – 60q, pulcuqları – 50q-dır. əmtəəlik vətəgə əhəmiyyətli çapaq balığının kütlə tərkibi haqqında 1 saylı cədvəldə ətraflı məlumat verilmişdir.

Cədvəl 1.

Əmtəəlik çapaq balığının kütlə tərkibi

№	Balığın hissələrinin adları	Kütləsi, q-la	Balığın kütləsinə görə çıxarı, %-lə
1.	Bütöv balıq	755	100
2.	Bədən hissəsi	440	58,28
3.	Baş hissə	130	17,22
4.	Daxili orqanlar	75	9,93
5.	Üzgəclər	60	7,95
6.	Pulcuq	50	6,62

1 saylı cədvəldən göründüyü kimi çapaq balığının kütləsi 755q olmaqla, onun yeyilən bədən hissəsi balığın 58,28%-ni təşkil edir. Çapaq balığın ətinin tərkibində azot əsaslı uçucu maddələrin miqdarının təyini 3 mərhələdə aparılaraq aşağıdakı nəticələrə nail olunmuşdur:

I mərhələdə aparılan analiz nəticəsində çapaq balığın ətinin tərkibində azot əsaslı uçucu maddələrin miqdarı – 18,20 mq%;

II mərhələdə çapaq balığının ətinin tərkibində azot əsaslı uçucu maddələrin miqdarı – 18,205mq%;

III mərhələdə isə çapaq balığının ətinin tərkibində azot əsaslı uçucu maddələrin miqdarı 18,203mq% olmuşdur.

Beləliklə, çapaq balığı üzərində 3 mərhələdə aparılan paralel analizin nəticəsi göstərdi ki, çapaq balığının ətində azot əsaslı uçucu maddələrin miqdarı orta hesabla 18,20mq% olmuşdur. Sonra çəki balığının ətinin tərkibində azot əsaslı uçucu maddənin miqdarı təyin edilmişdir. Analiz 3 mərhələdə aparılaraq aşağıdakı nəticələrə nail olunmuşdur:

I mərhələdə azot əsaslı uçucu maddənin miqdarı -17,85mq%;

II mərhələdə azot əsaslı uçucu maddənin miqdarı -17,852mq%;

III mərhələdə azot əsaslı uçucu maddənin miqdarı -17,855mq%.

Nəticədə, çəki balığının ətinin tərkibində azot əsaslı uçucu maddənin miqdarı orta hesabla 17,85mq% olmuşdur.

RESEARCH ON THE NUTRITIONAL VALUE AND QUALITY INDICATORS OF FISH OF GREAT IMPORTANCE (SUCH AS MACKEREL AND BREAM) CAUGHT IN THE INLAND WATERS OF AZERBAIJAN

Mirzayev Geray
garay.mirzoev@mail.ru
Javadova Telli
Cavadovatelli8@gmail.com
Azerbaijan State Economic University (UNEC)

The article is devoted to the study of the nutritional value and quality indicators of fish of national importance (on the example of bream and bream) caught in the inland water bodies of Azerbaijan. During the evaluation conducted by the organoleptic method, the appearance, taste, smell and consistency of bream and bream were determined. During the evaluation conducted by the physicochemical method, the mass composition of mackerel and bream, the amount of nitrogen-based volatile matter and trimethyl nitrogen were determined.

Key words: inland water bodies of Azerbaijan, bream fish, evaluation, organoleptic method, physicochemical method.

TƏRƏVƏZÇİLİK ELMİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQ OLUNMASI

Elmar İlham oğlu Allahverdiyev
elmar.1985a@mail.ru
Zibeydə Abbas qızı Əliyeva
Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu

Əhalinin tərəvəz bitkiləri ilə etibarlı təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Bu istiqamətin həyata keçirilməsi həm də aqrar elmin inkişaf səviyyəsi və aqrar sahənin elmi təminatı səviyyəsindən çox asılıdır.

Respublikamızda aqrar sahənin elmi təminatının daha da yaxşılaşdırılması, ölkə əhalisini kənd təsərrüfatı məhsulları, o cümlədən müxtəlif çeşidli tərəvəzlərlə təmin olunması işində fəaliyyət göstərən "Tərəvəzçilik ET İnstitutu" publik hüquqi şəxsində üzərinə böyük vəzifələr düşür.

İnstitutun qarşısında duran başlıca məqsəd respublikanın müxtəlif regionlarının torpaq-iqlim xüsusiyyətləri nəzərə alınmaqla tərəvəzçiliyin, bostançılığın və kartofçuluğun elmi əsaslarla inkişaf etdirilməsini, yeni, yüksək məhsuldar sortların yaradılmasını, tərəvəzçiliyin dinamik inkişafına təminat verən əhatəli və kompleks proqramın işlənib həyata keçirilməsini, işlənmiş elmi nailiyyətlərin və qabaqcıl təcrübənin istehsalata tətbiqi və geniş yayılması sahəsində tərəvəzçiliklə məşgul olan təsərrüfat sahələrinə lazımi elmi-metodik köməklik göstərilməsini təçkil etməkdən ibarətdir [1].

İnstitutda uzun illər aparılmış elmi-tədqiqat işlərindən belə nəticəyə gəlinmişdir ki, tərəvəz bitkilərinin intensiv becərmə texnologiyası zamanı məhsuldarlığın artırılmasında əsas amillər aşağıdakılardır:

- yüksək məhsuldarlığa və yaxşı keyfiyyət göstəricilərinə malik, biotik və abiotik amillərə, xəstəlik və zərərvericilərə davamlı, müxtəlif vaxtlarda yetişən tərəvəz sortlarının yaradılması və onun istehsalata tətbiqi [3];
- tərəvəz sortlarının toxumçuluğu işinin elmi əsaslarla qurulması, superelit və elit toxum istehsalına elmi-metodiki köməyin həyata keçirilməsi;
- müxtəlif çeşidli tərəvəz növləri qarışığından emal texnologiyasının öyrənilməsi və konserv məhsullarının hazırlanması;

- elmin nailiyyətlərinin və qabaqcıl təcrübənin ümumiləşdirilməsi və istehsalata tətbiqinə və geniş yayılmasına metodiki rəhbərlik və köməklik göstərilməsi.

Kənd təsərrüfatı məhsulları istehsalının artımında seleksiya nailiyyətlərindən istifadə edilməsi mühüm rol oynayır. Belə ki, bitkilərin məhsuldarlığı və keyfiyyət göstəricilərinə görə sort tərkibinin müəyyən edilməsi və yeni sortların yaradılması da mühüm məsələlərdəndir. Bu məsələ seleksiyaçı alimlərin diqqət mərkəzində olmalıdır.

Unutmaq olmaz ki, hər yeni sort 8-10 il müddətində yaradılır və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyində sınaqdan keçirilir.

Çoxsahəli kənd təsərrüfatı əhəmiyyəti olan tərəvəzçiliyin respublikamızda inkişaf etdirilməsində "Tərəvəzçilik ET İnstitutu" publik hüquqi şəxsin gözə çarpacaq xidmətləri vardır.

Tərəvəz bitkilərinin məhsuldarlığının və istehsal olunan məhsulun keyfiyyətinin artırılmasında yüksək potensiala malik, xarici şərait amillərinə qarşı plastik təbiətli sortların əkilib becərilməsi çox əhəmiyyət kəsb edir. Bu istiqamətdə institutun seleksiyaçı alimləri əhatəli yaradıcı elmi axtarışlar apararaq uğurlu nəticələr əldə etmişlər [2,4].

Aparılan kompleks tədqiqatlar nəticəsində seçilmiş nümunələrin müxtəlif ekoloji bölgələrdə qiymətləndirilməsi nəticəsində çoxlu sayda perspektiv tərəvəz sortları yaradılmışdır. Hər bölgəyə uyğun sortların yaradılmasının prinsipləri müəyyənləşdirilmiş, ekoloji şəraitdən asılı olmayaraq həmin ərazilərdən yüksək sabit məhsul alınmasını təmin edən sortlar yaradılmışdır.

Yaradılan müxtəlif tərəvəz sortları özündə kompleks əlamətləri – tezyetişkənliyi, xəstəlik və zərərvericilərə,quraqlığa və s.stress amillərə davamlılığı,yüksək keyfiyyətliliyi əks etdirirlər.

1965-ci ildən institutda tərəvəz, bostan və kartofun 100-dən çox sortu yaradılmışdır ki, onlardan 17-si son üç ildə olmaqla 71-i rayonlaşmış, yeni yaradılmış 27 sort isə hazırda Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyində sınaqdan keçirilməkdədir. Bir acı bibər sortu Rusiyanın bütün bölgələrində rayonlaşmış və "Rossiya-2011" kataloqunda yüksək göstəricilərlə yer almışdır (səh. 76). Eyni zamanda bir ağbaş kələm sortu "Azərbaycan" Şimali Qafqazda Kabardino-Balkar Muxtar vilayətində rayonlaşmışdır.

"Tərəvəzçilik ET İnstitutu" publik hüquqi şəxsin fədakar alimlərinin bu illər ərzində yaratdığı saysız-hesabsız sortlar, seleksiya məktəbi, zəngin tərəvəz bitki genefondu, yazdıqları qiymətli elmi əsərlər Azərbaycan xalqının milli sərvəti olub, gələcək nəsillərə irs qalacaq və əsrlər boyu ölkənin ərzaq təhlükəsizliyinin və informasiya texnologiyalarının təminatçısı olacaqdır.

ƏDƏBİYYAT

1. Əliyeva Z.A. "Azərbaycan Elmi-Tədqiqat Tərəvəzçilik İnstitutu haqqında", Azərbaycan Aqrar Elm Mərkəzi, Bakı: -Müəllim, -2010, -s. 35-41.
2. Muradov A.N. "Azərbaycanda elmin potensialın inkişaf problemləri", "İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemlərinə həsr edilmiş beynəlxalq elmi-praktik konfransın materialları, Bakı: -2010, -s. 53-57.
3. Mirzəyeva H.Ə. "Kənd təsərrüfatında innovasiyalı inkişafın bəzi məsələləri", "İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemlərinə həsr edilmiş beynəlxalq elmi-praktik konfransın materialları, Bakı: -2010, -s. 112-113.
4. İsvəndiyarov A.A. "Regionlarda innovasiya fəaliyyətinin inkişaf problemləri" Reallıqlar və perspektiv inkişaf. Elmi-praktiki konfrans. Bakı: -2012, -s. 160-162.

APPLICATION OF INFORMATION TECHNOLOGIES IN VEGETABLE SCIENCE

Elmar Allahverdiyev
elmar.1985a@mail.ru
Zibeyda Aliyeva
Scientific Research Institute of Vegetable Growing

The application of information technologies in the agriculture, along with efficient development and the improvement of technologies, stems from ensuring the production of higher quality, ecological friendly and clean products. Nowadays, the problem of food security and the availability of ecologically clean agricultural products facing the modern world. The solution of this problem largely depends on effective application of scientific achievements in agriculture and the establishment of this sector based on modern technologies.

A number of measures have been taken to improve the management of vegetable science and the enhancement of information activities, including the development of scientific and technical programs. Innovative technologies have been applied and approved at the state level. In general, one of the reasons of the low level of investment activity in the agricultural sector so far has been the lack of innovation proposals, as this factor was not given due importance until recent times. It is advisable to implement certain measures to support the development of information technology by the state: the development of international cooperation in the field of information activity, staffing for innovation activities, the creation of national varieties and new types of products, the protection and evaluation of intellectual property rights for innovators, especially the creators of new varieties and species, and the existence of connections between science and information. Without sufficient coverage of scientific achievements, they will have no value for society and cannot be applied in practical activities.

In modern society, the development of science requires a significant improvement in the quality of information resources, making them operational and targeted.

The article is dedicated to the works, carried out by the "Vegetable Science Research Institute," a public legal entity, in this area.

Key words: food security, environment, information technologies, vegetable crops, breeding, variety.

AZƏRBAYCANDA ŞƏRABÇILIĞIN İNKİŞAFI VƏ İSTEHSAL OLUNAN ŞƏRABLARIN KEYFİYYƏTİNİN BEYNƏLXALQ STANDARTLARA UYĞUNLUĞUNUN TƏDQİQİ

Nazilə Fərman qızı Alverdiyeva
nazilaa@mail.com
Sevinc Elxan qızı Əmikişizadə
gsseva13@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycanda şərabçılığın inkişafı və istehsal olunan şərabların keyfiyyətinin beynəlxalq standartlara uyğunluğunun tədqiqi mövzusu geniş və çoxşaxəli bir sahəni əhatə edir. Şərabçılıq Azərbaycanda minilliklər boyu inkişaf etmiş bir sahədir və bu gün ölkənin mədəni irsinin ayrılmaz hissəsinə çevrilmişdir. Üzümçülük və şərabçılıq Azərbaycanda qədim dövrlərdən başlayaraq, indiyə qədər müxtəlif mərhələlərdən keçmişdir Sovet dövründə şərabçılıq müəyyən bir mərkəzləşdirilmiş plan üzrə inkişaf edib, müstəqillikdən sonra isə bu sahə yeni müstəqil inkişaf mərhələsinə qədəm qoymuşdur

Şərab istehsalı, Azərbaycanın kənd təsərrüfatının mühüm bir hissəsidir və iqtisadiyyata böyük töhfə verir. Şərabçılıq həm daxili bazarda, həm də beynəlxalq bazarda Azərbaycan üçün əhəmiyyətli bir ixrac məhsuludur. Bu sahə ölkə daxilində iş yerlərinin yaradılmasına, kənd təsərrüfatının inkişafına və turizm sektorunun güclənməsinə müsbət

təsir göstərir. Azərbaycan şərablarının beynəlxalq bazarda rəqabət qabiliyyətinin artırılması üçün keyfiyyətinin beynəlxalq standartlara uyğun olması vacibdir. Beynəlxalq şərab standartları, şərabın istehsalında istifadə edilən texnologiyalar, tərkib komponentləri, üzüm növləri, etiketləmə qaydaları və digər aspektləri əhatə edir. Azərbaycanda istehsal olunan şərablar zaman-zaman beynəlxalq yarışlarda və sərgilərdə yüksək qiymətləndirilsə də, daha geniş miqyasda beynəlxalq sertifikatların alınması və yüksək keyfiyyətli şərab istehsalı üçün daha çox yeniliklər və təkmilləşdirmələrə ehtiyac var. Azərbaycanda şərabçılığın inkişafında bir sıra çətinliklər mövcuddur, bunlara, ətraf mühitin qorunması, yerli üzüm sortlarının qorunması və inkişafı daxildir. Bəzi şərabçılar beynəlxalq standartlara uyğunluqda çətinliklər yaşayır, xüsusilə də keyfiyyətli şərab istehsal etmək üçün lazım olan təcrübə və resurslar bəzən məhdud olur. Yerli şərabçılıq ənənələri minilliklər boyu inkişaf etmiş, bu gün isə Azərbaycanda şərab istehsalı həm yerli, həm də beynəlxalq bazarda böyük əhəmiyyət kəsb edir. Azərbaycanın iqlimi və torpaq şəraiti, həmçinin müasir texnologiyaların tətbiqi, ölkənin şərabçılıq potensialını artırır və keyfiyyətli şərabların istehsalına imkan yaradır. Azərbaycanın müxtəlif bölgələrində müxtəlif üzüm sortları yetişdirilir. Hər bir bölgənin özünəməxsus iqlimi və torpaq xüsusiyyətləri şərabların dadını və keyfiyyətini müəyyən edir. Məsələn, Şəki, Quba, Gəncə, Mingəçevir və Tovuz bölgələri Azərbaycanın ən məşhur şərab istehsalçılarıdır.

Şərab istehsalında beynəlxalq standartlar, şərabın keyfiyyətinin təmin edilməsi, təhlükəsizliyi, etiketi və istehsal prosesləri ilə bağlı müxtəlif tələbləri müəyyən edir. Bu standartlar, şərabın dünya bazarında rəqabət qabiliyyətini artırmaq və istehlakçıları qorumaq məqsədilə təyin olunmuşdur.

ISO 9001 Keyfiyyət idarəetmə sistemləri üçün beynəlxalq standartdır. Şərab istehsalçıları bu standartı tətbiq edərək istehsal proseslərini optimallaşdırır və keyfiyyətin davamlı olaraq qorunmasını təmin edirlər. ISO 22000 qida təhlükəsizliyi idarəetmə sistemi üçün beynəlxalq bir standartdır və qida istehsalı proseslərinin hər mərhələsində təhlükəsizliyi təmin etməyə yönəlib. Bu standart, şərab istehsalında da geniş şəkildə tətbiq edilir və xammaldan (üzüm) başlayaraq son məhsulun (şərab) istehsalına qədər bütün proseslərin təhlükəsizliyini və keyfiyyətini təmin edir. ISO 22000, qida təhlükəsizliyini idarə etmək üçün həm keyfiyyətli idarəetmə prosedurları, həm də təhlükəsizlik risklərini qiymətləndirən və azaldan metodları nəzərdə tutur.

Şərab istehsalında fermentasiya prosesləri və mikrobioloji tərkib çox mühüm rol oynayır. ISO 22000, şərab istehsalı zamanı bakteriyaların, göbələklərin və digər mikroorqanizmlərin nəzarətini və qarşısını almağa kömək edir. İstehsal sahəsinin təmizliyinə və sanitariyasına xüsusi diqqət yetirilir. Şərab istehsal edən müəssisələrdə istifadə olunan avadanlıqların və alətlərin düzgün sterilizasiyası və təmizlənməsi vacibdir. Bu standart, həm şərabın istehsalının hər mərhələsində təhlükəsizlik risklərinin idarə edilməsini, həm də istehsal olunan şərabın istehlakçıya təhlükəsiz şəkildə çatmasını təmin edir. Şərab istehsalçıları bu standartı tətbiq etməklə məhsullarının keyfiyyətini və təhlükəsizliyini artıraraq, həm yerli, həm də beynəlxalq bazarda daha güvənli və tanınmış məhsullar təqdim edə bilərlər.

ISO 17025 Test və kalibrləmə laboratoriyalarının keyfiyyətinə dair tələbləri müəyyən edir. Şərab laboratoriyalarının testlərində istifadə olunur, məsələn, şərabın kimyəvi tərkibinin təhlilində.

1.Şərabın pH səviyyəsi, turşuluq, alkoqol miqdarı, şəkər tərkibi, cövhər miqdarı və digər kimyəvi xüsusiyyətlərin ölçülməsi aparılır.

2.Şərabın mineral tərkibi, mis, dəmir, kükürd dioksid və digər əlavə maddələrin miqdarlarının təhlilinin aparılması.

3. Şərabın fenollar, tanninlər və antosiyaninlər kimi tərkib hissələrinin müəyyən edilməsi.

Fiziki testlər - Şərabın rəngi, vizual xüsusiyyətləri, şərabın bulanıqlığı və başqa fiziki göstəricilərin qiymətləndirilməsi.

Mikrobioloji testlər - Şərabın mikrobioloji cəhətdən təhlil edilməsi, məsələn, fermentlər və bakteriyaların mövcudluğu və şərabın təhlükəsizliy göstəricilərinin yoxlanması.

ISO 17025 standartı laboratoriyanın işinin düzgünlüyünü təmin etmək üçün müstəqil auditlər, sənədləşdirmə, test metodlarının uyğunluğu və nəticələrin doğruluğu kimi müxtəlif sahələrdə tələblər irəli sürür. Şərab laboratoriyaları üçün bu standartın tətbiqi, şərabın keyfiyyətinin yüksək səviyyədə saxlanılmasına və bazarda etibarlı, təhlükəsiz məhsul təqdim edilməsinə kömək edir. Bu laboratoriyalar, həmçinin beynəlxalq tələblərə uyğun olaraq şərabın üzüm sortlarından, istehsal prosesindən və saxlama şəraitindən asılı olaraq hansı xüsusiyyətləri saxlamalı olduğunu müəyyən edən testlər aparır.

BRC Global Standards şərab istehsalında keyfiyyət və təhlükəsizlik idarəetməsi ilə əlaqəli beynəlxalq standartlar təqdim edir. Bu standart, şərab istehsalçılarını qida təhlükəsizliyi və keyfiyyət təminatı prinsiplərinə uyğun fəaliyyət göstərməyə təşviq edir.

Beynəlxalq standartlar şərab istehsalında keyfiyyətin təmin edilməsi, təhlükəsizlik, istehsal prosesləri və şərabın beynəlxalq bazarda tanınması üçün əsas tələbləri müəyyən edir.

ƏDƏBİYYAT

1. Шевченко В.В. Товароведение и экспертиза товаров народного потребления: - Учебник, -2011.
2. Matyukhina Z.P., Korolkova E.P.Commodity studies of food products: a textbook for beginners. prof. education / - 5th edition, reprint. - M.: Publishing house "Academy", -2007. - 272 p.
3. Vakarchuk L.T. "Grape processing technology": // Textbook /. - Moscow: - Agropromizdat, -2017.
4. Kosyura V.T. Şərabçılığın əsasları / VT Kosyura, Jl. V. Donchenko, V.D. Nadykta. M.: DeLi çap, -2004, -440 s.

RESEARCH ON THE DEVELOPMENT OF WINERY IN AZERBAIJAN AND THE COMPLIANCE OF THE QUALITY OF THE PRODUCED WINES WITH INTERNATIONAL STANDARDS

Nazila Alverdiyeva
nazilaa@mail.com
Sevinj Amikishizada
gsseva13@gmail.com
Azerbaijan State University of Economics

The development of winemaking in Azerbaijan has a very ancient tradition, and the country has a rich history in wine production, a variety of grape varieties, and favorable climatic conditions. The development of winemaking has achieved significant progress in recent years in terms of the application of modern technologies and compliance with international requirements. In Azerbaijan, the issue of compliance with international standards is taken seriously in wine production. For this purpose, systems based on international standards such as ISO 22000 (food safety), ISO 17025 (laboratory testing) and ISO 9001 (quality management systems) are applied.

Keywords: Grapes, production, quality, expertise, winemaking, tests, laboratory.

XROMOTOQRAFİYA METODU İLƏ ŞƏRABLARIN KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏYİNİ

Fatma İsmayıl qızı Əliyeva
fatma.aliyeva.1@mail.ru
Mehriban Sahib qızı Aslanova
aslanovamehriban@gmail.com
Azərbaycan Texnologiya Univesiteti

Üzümdən hazırlanan şərablar mürəkkəb kimyəvi tərkibə malıkdirlər. Bura 600 müxtəlif adda birləşmələr daxildir ki, bunların bir hissəsi üzümdən, digər hissəsi isə şərabda qıcqırma və saxlanma prosesi nəticəsində yaranır. Şərabın dadının, rənginin və tipinin formalaşmasında əsas rol fenol birləşmələrinin üzərinə düşür: katexinlər, antosianlar, tanin, flavanol və s. bu göstəricilər şərabların bioloji dəyərini müəyyən edir, çünki onlar P vitamini, bakterisid xüsusiyyətləri və antioksidant aktivliyə malikdirlər[1]. Şərab buketinin formalaşmasında uçucu aromatik birləşmələr kompleksi iştirak edir. Uçucu komponentlərin mürəkkəb qarışığına spirtlər, o cümlədən, yüksəkatomlu, çox atomlu və aromatik spirtlər, efirlər, uçucu turşular, aldehidlər, ketonlar və digər birləşmələr daxil olmaqla spirtlər daxildir[1]. Şərabın kimyəvi tərkibinin ayrı-ayrı komponentlərinin tərkibinin onun keyfiyyətinə və fərdi identifikasiya xüsusiyyətlərinə təsirinin müəyyən edilməsi mühüm elmi və praktiki vəzifədir. Xromatoqrafik üsullar maddələrin qarışıqlarını ayırmaqda ayrı-ayrı komponentlərin tərkibinin sonrakı identifikasiyası və kəmiyyətcə müəyyən edilməsi üçün ən universal və effektiv üsuldur[3].

Analiz metodları arasında ən çox istifadə olunanı xromatoqrafiyadır. Onu qarışıqları ayrı-ayrı komponentlərinə (tərkib hissələrinə) ayırmaq, qazşəkilli qarışıqları fərqləndirmək və identifikasiya etmək (təyin etmək), kimyəvi reaksiyaların gedişində reagentlərin qatılığının dəyişməsinə nəzarət etmək və s. üçün tətbiq edirlər. Bu analiz metodunu ilk dəfə rus alimi Mixail Svet 1903-cü ildə tətbiq etmişdir.

Tədqiqatın aparılması. Yüksək effektli maye xromotoqrafiyasında universitetimizdə istehsal edilən quru qırmızı şərab nümunələrində müəyyən üzvi turşularının və bəzi flavonolların tərkibini araşdırdıq[2]. Şərab Kabarne Savinyon, Bayanşirə üzüm sortlarından istehsal olunmuşdur. Xromotoqrafik analizlər "MiliXrom-5-3" xromotoqrafında aparılmışdır. Aşağıdakı cədvəldə təcrübi yolla alınan nəticələr əsasında ağ və quru qırmızı üzüm şərablarının tərkibindəki bəzi komponentlərin miqdarı göstərilib.

Cədvəl

Ağ və quru qırmızı üzüm şərablarının keyfiyyət göstəriciləri

Şərablar / Göstəricilər	Ağ şərablar	Qırmızı şərablar
Qliserin, q/dm3	4	6
Şərab turşusu, q/dm3	2	3
Alma turşusu, q/dm3	2	3
Süd turşusu, q/dm3	0,5	1,0
Limon turşusu, q/dm3	0,1	0,2
Yantar turşusu, q/dm3	0,1	0,1
Sirkə turşusu, q/dm3	0,3	1,0
Amin turşusularının cəmi, q/dm3	250	300
Arqinin, q/dm3	50	100
Treonin, q/dm3	50	100
Prolin, q/dm3	400	600
Fenilanin, q/dm3	3	3
Triptofan, q/dm3	5	5
Tirozin, q/dm3	5	5
Ali spirtlər, q/dm3	100	100
Feniletil spirti, q/dm3	50	50
Aldehidlər, q/dm3	25	-

Nəticə. Belə nəticəyə gəlmək olar ki, xromotoqrafiya metodu şərabın tərkibində olan komponentlərin keyfiyyət və kəmiyyətinin xarakteristikasını təyin edir, müəyyən kənar maddələrin konsentrasiyalarının təyin olunmasında çox geniş istifadə olunur. Müasir xromotoqrafiyanın sürətlə baş verən evolyusiyası aparılan analizlər nəticəsində təyin olunan keyfiyyət göstəricilərinin riyazi cəhətdən dəqiq olmasına etibar yaradır. Analiz nəticəsində universitetimizdə Kabarne Savinyon, Bayanşirə üzüm sortlarından istehsal olunmuş ağ və qırmızı üzüm şərablarının bəzi keyfiyyət göstəriciləri riyazi cəhətdən dəqiq təyin olunaraq cədvəldə qeyd edilmişir.

ƏDƏBİYYAT

1. Nəbiyev. Ə.Ə. Şərabın kimyası. Dərslik. Bakı: -Elm, -2010, -470 s.
2. Положишникова М.А., Перелыгин О.Н., Семикин В.В. Применение хроматографических методов для оценки качества идентификации виноградных вин // Российская экономическая академия им. Г.В. Плеханова. Москва: -Пищевая промышленность,- 01/2006, -с. 18-21.
3. Якуба Ю.Ф., Темердашев А. Хроматографические методы в анализе и идентификации виноградных вин // Аналитика и контроль. -2015. № 4 -с. 288-301.

DETERMINATION OF QUALITY INDICATORS OF WINES BY CHROMOGRAPHY

Fatma Aliyeva
fatma.aliyeva.1@mail.ru
Mehriban Aslanova
aslanovamehriban@gmail.com
Azerbaijan Technological University

Wines made from grapes have a complex chemical composition. Phenolic compounds play a key role in the formation of the taste, color and type of wine. Chromatography was used to determine the effect of the composition of individual components of the chemical composition of wine on its quality and individual identification properties. We investigated the composition of certain organic acids and some flavonols in dry red wine samples produced at our university using high-performance liquid chromatography. The wine was produced from Cabernet Sauvignon and Bayanshira grape varieties. Chromatographic analyses were conducted on a "MiliChrom-5-3" chromatograph. As a result of the analysis, some quality indicators of white and red grape wines produced at our university from Cabernet Sauvignon and Bayanshira grape varieties were mathematically accurately determined and recorded in the table.

Key words: chromatography, wine, phenolic compounds, acids, quality.

MODERNIZATION OF TRADITIONAL FERMENTED DAIRY PRODUCTS

Moldir Bakbergen
molya.asylbekovna@gmail.com
Fatima Dikhanbayeva
FDikhanbayeva@gmail.com
Gulshat Zhaksylykova
Almaty Technological University

In Kazakhstan, fermented dairy production is rooted in traditional, experience-based methods passed down through generations. However, modern trends emphasize the need to integrate these traditions with digital tools and automation to scale production without compromising authenticity [1].

Genetic technologies have enabled the development of advanced starter cultures that stabilize fermentation and improve flavor quality. Integrating these cultures into traditional recipes not only enhances taste but also improves consistency and safety, making products more reliable for broader markets [2-5].

To achieve this balance between innovation and heritage, strong collaboration is needed across research institutions, production facilities, and government bodies. This coordinated approach supports the creation of high-standard, export-ready products. Meeting global food standards requires streamlined production, quality control, and improved logistics and certification systems [6].

Yet, transitioning from small-scale to industrial-level production presents difficulties. One of the main concerns is maintaining the unique flavors of traditional products in mass production. Addressing this requires not just equipment upgrades, but deeper research into fermentation biochemistry and how scaling affects product characteristics [9].

Modernization also depends on people. The success of technological integration hinges on training qualified specialists through targeted education and industry-specific programs. Updating legal frameworks and regulatory standards is equally urgent to align with international trade requirements [5-7].

The adoption of digital technologies-such as the Internet of Things (IoT) and Artificial Intelligence (AI)-offers powerful tools for transforming production. These innovations increase control efficiency while reducing operational costs linked to quality checks and maintenance. Digital platforms, bioreactors, and automated systems now play a key role in maintaining quality and optimizing resources. These tools are essential for successfully scaling traditional production methods without sacrificing product integrity [6, 7].

Export expansion also relies on aligning production with international benchmarks and strengthening marketing strategies. Trust from global partners is built on consistent quality, backed by reliable monitoring systems. To accelerate adoption of innovation, Kazakhstan must invest in human capital. Active partnerships between universities, research centers, and producers support the rollout of effective technological solutions [6].

A skilled workforce ensures new systems are used effectively, bringing measurable results. The push for efficiency should also consider sustainability. Smart production technologies-combined with energy-saving equipment and green practices-help reduce both costs and environmental impact. These approaches are key to long-term growth [4].

Ultimately, modernizing the dairy sector is essential not only for preserving Kazakhstan's cultural heritage but also for positioning its products on the global stage. Combining tradition with innovation enables the production of high-quality, safe, and competitive dairy goods. Continued research in food technology and digital systems will unlock new efficiencies, helping the industry grow sustainably while keeping its identity intact.

Key words: Fermented dairy, Modernization, Digitalization, Food safety, Export

REFERENCES

1. Васильев А. Н. «Современные тенденции в традиционном производстве кисломолочных продуктов Казахстана». Алматы: Издательство «Аграрные исследования», 2021.
2. Рахимова Л. А. «Контроль качества традиционных кисломолочных продуктов в условиях модернизации». Астана: Издательство «Пищевые технологии», 2020.
3. Сагинбаев Е. Н. «Экономика и развитие экспорта кисломолочной продукции Казахстана». Алматы: Экономический журнал, 2021.
4. Турсунов М. Р. «Энергоэффективные технологии в современной молочной промышленности». Астана: Журнал «Экологическая промышленность», 2020.
5. Абдразаков Т. Б. «Интеграция традиционных рецептур и современных производственных линий». Журнал «Аграрные инновации», 2023.
6. Романов Д. П. «Перспективы интеграции традиционных рецептур и современных технологий в производстве кисломолочных продуктов». Алматы: Журнал «Аграрные перспективы», 2023.

7. Нурмаганбетов А. К. «Инновационные закваски и биотехнологии в производстве кисломолочных продуктов». Алматы: Издательство «Биотехнологии», 2022.
8. Батырбаев А. М. «Аналитические методы контроля качества молочной продукции». Алматы: Издательство «Пищевые инновации», 2021.

MODERNIZATION OF TRADITIONAL LACTIC ACID PRODUCTS

Moldir Bakbergen
molya.asylbekovna@gmail.com
Fatima Dikhanbayeva
FDikhanbayeva@gmail.com
Gulshat Zhaksylykova
Almaty Technological University

The article analyzes modern approaches to the industrial production of traditional lactic acid products in Kazakhstan. The scientific innovation lies in the combination of digital technologies (IoT, Artificial Intelligence) with genetically improved starter cultures, which preserves the stability of fermentation and the authentic taste of the product. The importance of automated control systems for bringing production into line with international food safety standards is emphasized. The study shows that inter-sectoral cooperation, updating the regulatory framework and training qualified personnel are the main conditions for effective modernization. The proposed approach increases the global competitiveness of the dairy industry by ensuring product quality, scale and environmental sustainability.

Key words: Lactic acid products, Modernization, Digitalization, Food safety, Export.

WHEAT (TRİTİCUM AESTİVUM L.) YARPAQLARINDA MİTOXONDRİAL VƏ SİTOZOLİK ASPARTAT AMİNOTRANSFERAZA AKTİVLİYİNİN TƏDQİQİ

Ulduzə Qurbanova[1]
ulduzagurbanova@gmail.com
Gülgün Nəsirova[2]
gulgunnasirova2@gmail.com
Molekulyar Biologiya İnstitutu[1]
Bakı Dövlət Universiteti[2]

Giriş. Aspartataminotransferaza fermenti (digər adı qlutamat-oksalasetat transaminaza (GDH)) karbohidrat mübadiləsi ilə aminturşu mübadiləsi arasında əlaqəni təmin edən aspartatın həm katabolizmi, həm də amabolizmində həmçinin purin əsaslarının biosintezində, qlikolitik və oksidləşdirici fosforlaşmada mühüm rol oynayır [2]. Aspartat aralıq metabilit kimi bitkinin böyümə və inkişafında, stresə davamlılıq mexanizminin formalaşmasında iştirak edir [3]. Aspartatın miqdarını, axının və bitkinin toxumalarında nəqlinin tənzimlənməsinin dəyişən əlverişsiz mühit şəraitinə uyğunlaşmada mühüm rola malikdir. Tədqiqatın əsas məqsədi yumşaq buğda genotiplərinin müxtəlif subhüceyrə fraksiyalarında aspartataminotransferaza fermentinin aktivliyinin tədqiq edilməsidir.

Material və metodlar. Bitkilər süni iqlim laboratoriyasında 16/8 saat işıq periodu və uyğun olaraq $24^0C/18^0C$ gündüz/gecə temperatur rejimində nisbi rütubət 50% saxlanılmaqla becərilmiş, 14 günlük cücərtilərə quraqlıq stresi verilmişdir. Tədqiqatlarda aparılan ölçmələrin etibarlılığı üçün eksperiment 10 bioloji və 3 texniki təkrarda 2 variantda randomizə edilmiş bütöv bloklar üzrə dizayn edilmişdir.

Aspartataminotransferaza (ASAT, EC 2.6.1.1) fermentinin sitozolik və mitoxondrial izoformalarının aktivliyini təyin etmək üçün reaksiya mühitinin tərkibi müvafiq olaraq, 100 mM HEPES-KOH (pH 7,4) və 100 mM Tris-HCl (pH 8,5), 2 mM EDTA, 2,5 mM 2-oksoqlutarat, 10μg/ml pirodoksalfosfat, 10 mM DTT, 12 U/ml MDH və 0,2 mM NADH-dan

ibarətdir. Mühitə 20µl yarpaq ekstraktı və 2,5 mM L-aspartat əlavə etdikdən sonra reaksiyanın başlanmasına start verilmişdir [1].

Nəticələr və onların müzakirəsi. ASAT fermenti bitki hüceyrəsinin qlikolizdən, karbon skeletlərinin sintezindən asılılığını azaltmaqla dəyişilmiş mühit şəraitində bitkinin tez mobilizasiya olunması üçün üzvü turşulardan ibarət ehtiyat fondun formalaşmasında iştirak edir. Bütün bunları nəzərə alaraq normal suvarılma və su çatışmazlığı şəraitində becərilmiş yumşaq buğdanın assimilyasiyaedici toxumalarının ayrı-ayrı subhüceyrə fraksiyalarında ASAT fermenti tədqiq olunmuşdur. Tədqiq olunmuş yumşaq buğda genotiplərində ASAT-ın ən yüksək aktivliyi mitoxondrial fraksiyada müşühidə edilmişdir (Cədvəl 1).

Zirvə-85 genotipinin mitoxondri fraksiyalarında ASAT-ın aktivliyinin faizlə nisbətində quraqlığın təsirindən heç bir dəyişkənlik baş verməsədə, stresə məruz qalmış bitkilərin sitozol fraksiyasında fermentin faizlə nisbəti azalmış, xloroplast fraksiyasında isə əksinə olaraq yüksəlmişdir.

Zirvə-85 və Aran genotiplərinin quraqlıq stresinə məruz qalmış nümunələrin sitozol fraksiyasında ASAT-ın aktivliyi suvarılan variantla eyni, Murov -2 sortunda isə 1,3 dəfə yüksək olmuşdur.

Sitozolik ASAT bir sıra məkik mexanizmlərdə, substratların və reduksiyaedici ekvivalentlərin sitoplazma ilə digər hüceyrə orqanoidləri arasında mübadiləsində iştirak edir.

Cədvəl

Buğda yarpaqlarının subhüceyrə fraksiyalarında ASAT aktivliyinin subhüceyrə paylanması

Genotiplər	Variant VAriant	Subhüceyrə fraksiyaları					
		Xloroplast		Sitozol		Mitoxondri	
		EU/mg zülal	%	EU/mg zülal	%	EU/mg zülal	%
Zirvə-85	K	0,34±0,05	9,9	1,269±0,1	37,0	1,82±0,3	53,1
	Q	0,57±0,06	13,8	1,322±0,2	32,0	2,24±0,7	54,2
Murov-2	K	0.46±0,01	8,7	1,72±0,15	32,8	3,07±0,6	58,5
	Q	0,94±0,08	13,7	2,30±0,2	33,7	3,58±0,6	52,6
Aran	K	0,121±0,01	2,3	1,72±0,1	32,5	3,45±0,5	65,2
	Q	0,103±0,01	2,5	1,59±0,15	40,4	2,25±0,3	57,1
Qızıl buğda	K	0,32±0,03	5,91	1,72±0,19	31,8	3,37±0,5	62,3
	Q	0,24±0,04	6,1	1,14±0,12	29,2	2,53±0,3	64,7

Qeyd: K-kontrol, Q-quraqlıq.

Zirvə-85 və Murov-2 genotiplərinin quraqlıq variantlarda bütün subhüceyrə fraksiyalarında ASAT-nın aktivliyi yüksəlmişdir. Zirvə-85 genotipinin xloroplast fraksiyasında ASAT aktivliyi ~1,7 dəfə, Murov-2 genotipində isə ~2,0 dəfə yüksəlmişdir. Aran və Qızıl buğda genotiplərinin quraqlıq stresinin təsirinə məruz qalmış bitki nümunələrindən ayrılmış bütün subhüceyrə fraksiyalarında fermentlərin aktivliyində azalma müşahidə edilmişdir. Belə ki, Qızıl buğda genotiplərinin yarpaqlarından ayrılmış xloroplast və sitozol fraksiyalarında ASAT-ın aktivliyi ~0,7 dəfə, mitoxondrial fraksiyada isə ~0,9 dəfə azalmışdır. Murov-2 genotipinin quraqlıq stresinə məruz qalmış variantlarında fermentin subhüceyrə paylanması xloroplast, sitozol və mitoxondri fraksiyalarında 13,7%, 33,7% və 52,6%-ə bərabər olmuşdur. Xloroplastlarda lokalizə olunmuş ASAT stres şəraitində əvəz olunmayan aminturşuların o cümlədən argininin sələfi olan argininsuksinatın sintezində və pirimidin nukleotidlərinin sintezində əsas rol oynayır. ASAT hüceyrənin müxtəlif kopmartmentləri - sitozol, xloroplast, mitoxondri və peroksisomlar arasında karbon və azot mübadiləsinin tənzimlənməsində mühüm və mürəkkəb rola malikdir.

ƏDƏBİYYAT

1. Alfonso S and Brüggemann W. Photosynthetic responses of a C3 and three C4 species of the genus Panicum with different metabolic subtypes to drought stress // *Photosynthesis Research*, -2012, v. *112*,- p. 175-191
2. Han M, Zhang C, Suglo P, Sun S, Wang M, Su T. l-Aspartate: An Essential Metabolite for Plant Growth and Stress Acclimation. Molecules. 2021 Mar 26;26(7):1887. doi: 10.3390/molecules26071887. PMID: 33810495; PMCID: PMC8037285.
3. Khan, N.; Bano, A.; Rahman, M.A.; Guo, J.; Kang, Z.; Babar, M.A. Comparative Physiological and Metabolic Analysis Reveals a Complex Mechanism Involved in Drought Tolerance in Chickpea (*Cicer arietinum* L.) Induced by PGPR and PGRs. *Sci. Rep.*2019, *9*,2097.

STUDY OF MITOCHONDRAL AND CYTOSOLIC ASPARTATE AMINOTRANSFERASE ACTIVITY IN WHEAT (TRITICUM AESTIVUM L.) LEAVES

Ulduza Gurbanova[1]
ulduzagurbanova@gmail.com
Gulgun Nasirova[2]
gulgunnasirova2@gmail.com
Institute of Molecular Biology[1]
Baku State University[2]

The enzyme aspartate aminotransferase (ASAT) plays an important and complex role in the regulation of carbon and nitrogen metabolism between various compartments of the cell - cytosol, chloroplast, mitochondria and peroxisomes. In the studied common wheat genotypes, the highest activity of ASAT was observed in the mitochondrial fraction. Although the percentage of ASAT activity in the mitochondrial fractions of the Zirve-85 genotype did not change under the influence of drought, it increased in the chloroplast fraction of stressed plants. Cytosolic ASAT plays an important role in a number of shuttle mechanisms, in the exchange of substrates and reducing equivalents between the cytoplasm and other cell organelles.

Key words: aspartate aminotransferase, drought, wheat

AZƏRBAYCANDA İQTİSADİ RAYONLAR ÜZRƏ YETİŞDİRİLƏN ƏSAS NAR SORTLARININ MEXANİKİ TƏRKİB GÖSTƏRİCİLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

Mehriban Sahib qızı Aslanova
aslanovamehriban@gmail.com
Yasər Yalçın oğlu İbrahimov
yaseribrahimov96@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Giriş. Dünyada narın 400, Azərbaycanda isə 70-ə yaxın sortu mövcuddur. Bəzi mənbələrdə İran, Qafqaz və Şimali Hindistan əraziləri narın vətəni hesab edilsə də, Anadolu və bütün Aralıq dənizi hövzələrində daha geniş sahələrdə qədimdən nar bitkisinin becərilməsi ilə məşqul olmuşlar[3].

Azərbaycanda ümumi nar bağlarının sahəsi 24.000 hektara yaxın təşkil edir. Ən yaxşı nar sortlarının kütləsi 800-1000 qrama, orta çəkisi isə 200-400 qrama çatır. Narın pomoloji sortlarının məhsuldarlığı da eyni deyildir. Nar sortlarından Məhsəti, Bala Mürsəl və Qırmızı Qabıq sortları ən yüksək məhsuldarlığa malikdir. Sortlar üzrə onların məhsuldarlığı 100-160 sentner təşkil edir.

Azərbaycanda ən çox rast gəlinən nar sortları Bala Mürsəl, Azərbaycan Güleyşəsi, Vələs, Qırmızı Qabıq, Məhsəti, Şah Nar, Zübeydə, Şelli Mələsi nar sortlarıdır[2].

İşin elmi yeniliyi. Azərbaycan nar müxtəlifliyi və nar sortlarının miqdarına görə dünyada birinci yerdədir. Bunlar həm morfoloji-bioloji xüsusiyyətlərinə, meyvələrin keyfiyyətinə, həm də yetişmə vaxtlarına görə bir-birindən fərqlənir. Azərbaycanda nar istehsal edən iqtisadi rayonlar sırasında Gəncə-Qazax bölgəsində Çəhrayı Güleyşə, Bala Mürsəl, Lənkəranda Çəhrayı Güleyşə, Azərbaycan Güleyşəsi, Nazik Qabıq, Vələs, Oleq, İridənə, Quba-Xaçmaz iqtisadi rayonunda Azərbaycan Güleyşəsi, Nazik Qabıq, Aran iqtisadi rayonunda Çəhrayı Güleyşə, Bala Mürsəl, Azərbaycan Güleyşəsi, Nazik Qabıq, Vələs, Oleq, İridənə, Dağlıq Şirvan bölgəsində Çəhrayı Güleyşə, Bala Mürsəl, Azərbaycan Güleyşəsi, Nazik Qabıq, Vələs, Oleq, İridənə, Qarabağ iqtisadı rayonunda Azərbaycan Güleyşəsi, Şah nar, Şelli Mələsi, Nazik Qabıq və s. sortlar becərilir[4]. Müəyyənləşdirilmiş nar qurşağı aqroiqliminə uyğun olaraq Azərbycanın üç iqtisadi rayonunda yetişdirilən eyni nar sortlarının mexaniki tərkib göstəricilərini öyrənilmişdir. İqtisadi rayonlar üzrə müxtəlif nar sortlarının xassələrinin öyrənilməsi iqtisadi zonalar üzrə hansı nar sortundan məhsul istehsalında daha səmərəli istifadəni müəyyən etməyə şərait yaradacaq.

Tədqiqatın obyekti və metodikası. Tədqiqat obyekti kimi Azərbaycanın 3 iqtisadi rayonu: Gəncə-Qazax, Aran və Qarabağ iqtisadi rayonlarında örtüksüz yetişdirilən Azərbaycan Güleyşəsi, Bala Mürsəl, Nazik Qabıq nar sortları götürülmüşdür. İqtisadi rayonlar üzrə götürülən nar sortlarının mexaniki tərkib göstəriciləri öyrənilmişdir. Nar şirəsinin keyfiyyət gostəricilərinin tədqiq edilməsində Beynəlxalq Standartlara cavab verən orqanoleptiki və fiziki-kimyəvi analiz üsullarından istifadə edilmişdir. Bunların əksəriyyəti mövcud metodlardır.

Tədqiqatın aparılması və onun müzakirəsi. 2022-ci ilin məlumatına əsasən Azərbaycanda nar bağlarının sahəsi 24 min hektara yaxın olmuşdur. Mövcud nar bağlarının 22,2 min hektarı və ya 93,4%-i barverən yaşdadır. Narın əsas istehsalçı rayonları olan Şəmkir, İmişli, Göyçay, Sabirabad, Kürdəmir və Hacıqabul rayonlarında məhsuldarlıq göstəricisi ölkə üzrə orta göstəricidən yüksəkdir. 2022-ci ildə Azərbaycana nar idxalı 2019-cu ilə nisbətən 24,3% azalaraq 23,1 ton olmuşdur. 2022-ci ildə ölkədən nar ixracı isə ən yüksək həddə çataraq 19,4 min ton olmuşdur. 2019-cu ilin ərzaq balansı məlumatlarına əsasən istehsal olunan 181,1 min ton və idxal olunan 31,0 min ton narın yalnız 9,7%-i emal olunmuş, 75,0%-i isə emal edilmədən istehlak edilmişdir[1].

Aparılan araşdırmalarla məlum olmuşdur ki, nar meyvələrinin istər mexaniki, istərsə də kimyəvi tərkibi, regionun coğrafi mövqeyinə, becərmə təcrübəsinə, iqlimə və saxlama vəziyyətinə görə fərqlənir. Meyvənin tərkibinə daxil olan maddələrin miqdarı onun sortundan, yetişdirildiyi iqlim şəraitindən, bağlarda tətbiq olunan aqrotexniki tədbirlərin düzgün yerinə yetirilməsindən asılıdır. Tədqiq olunan 3 iqtisadi rayon üzrə eyni nar sortlarının mexaniki tərkib göstəriciləri öyrənilmişdir.

Cədvəl

İqtisadi rayonlar üzrə nar sortlarının mexaniki tərkib göstəriciləri (bir ədəd nar meyvəsinə görə)

Nar sortlarının mexaniki tərkib göstəriciləri	İqtisadi rayonlar								
	Aran			Gəncə-Qazax			Qarabağ		
	Azər-bay-can Güley-şəsi	Bala Mür-səl	Nazik Qa-bıq	Azər-bay-can Gül-eyşə-si	Bala Mür-səl	Nazik Qa-bıq	Azər-bay-can Gül-ey-şəsi	Bala Mür-səl	Nazik Qa-bıq
Nar meyvəsinin orta çəkisi, qramla	362,0	290,8	370,4	371,0	293,5	362,8	365,0	295,3	380,1
Nar mevəsinin qabığının çəkisi, qramla	120,0	126,7	148,1	123,0	146,7	128,1	125,0	136,9	138,7

Nar meyvəsinin arakəsmələrinin çəkisi, qramla	12,0	13,5	8,3	11,9	13,8	9,1	13,2	12,5	10,3
Nar meyvəsində gilələrin sayı, ədəd	456	268	542	476	274	554	461	308	549
Nar meyvəsində gilələrin çəkisi, qramla	210,0	158,6	220	215,0	160,6	235	220,1	147,5	231
Bir gilənin orta çəkisi, qramla	0,44	0,59	0,41	0,43	0,49	0,51	0,53	0,59	0,41
Sıxılmış gilələrin (çiyidin) çəkisi, qramla	56,0	56	64	58,0	59	63	57,6	49	63
Qeyri-şəffaf şirə çıxımı, ml-lə	154	102,6	156	157	105,8	169	149	110,1	160
Nar meyvəsinin ümumi çəkisinə görə qabıq hissə, %-lə	33,15	43,7	40,0	33,2	49,98	35,3	34,2	46,4	36,5
Nar mevəsindəki gilələr, %-lə	58,01	54,5	59,4	57,95	54,7	64,8	60,3	49,9	60,8
Nar giləsindən ayrılmış şirə çıxımı (giləyə görə), %-lə	42,5	35,3	42,2	42,3	36,05	46,6	40,8	37,3	42,1
Nar giləsindən ayrılmış çiyid çıxımı (giləyə görə), %-lə	15,5	19,3	17,3	15,6	20,1	17,4	15,8	16,6	16,6

Nəticə. Aparılan tədqiqatlar əsasında 3 iqtisadi rayondan götürülmüş Azərbaycan Güleyşəsi, Bala Mürsəl, Nazik Qabıq nar sortlarının mexaniki tərkib göstəricilərinin ekspertizası aparılmışdır ki, bunun da sayəsində əldə edilən məlumatlara əsasən aşağıdakı nəticələrə gəlmək olar:

1. Narın sortları çox olsa da, bu sortlar içərisində yalnız müəyyən bir hissəsi həm təzə halda istehlak, həm də sənaye emalı üçün əhəmiyyətlidir.
2. Nar meyvələrinin mexaniki tərkibi, regionun coğrafi mövqeyinə, becərmə təcrübəsinə, iqlimə və saxlama vəziyyətinə görə fərqlənir. Meyvənin tərkibinə daxil olan maddələrin miqdarı onun sortundan, yetişdirildiyi iqlim şəraitindən, bağlarda tətbiq olunan aqrotexniki tədbirlərin düzgün yerinə yetirilməsindən asılıdır.
3. Qarabağ və Gəncə-Qazax iqtisadi rayonlarında yetişdirilən sortlar öz mexaniki tərkib və orqonoleptik göstəricilərinə görə təzə halda istehlak və üzünmüddətli saxlama üçün daha əlverişli hesab olunur.
4. Aran bölgəsində yetişdirilən nar sortları şirə çıxımının yüksək olması səbəbindən emal üçün daha əlverişli məhsul hesab olunur.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin məlumatı.
2. Aslanova M.S., Nəbiyev Ə.Ə. Nar sortlarının müxtəlif üsullarla saxlanmasının tədqiqi Monoqrafiya. Bakı: Ecoprint nəşriyyatı, -2023, -186 s.
3. Özhan Öztürk. Dünya Mitolojisi. Nika Yayınevi. Ankara: -2016, s. 861
4. Гасанов З.М, Набиев А.А., Асланова М.С., Гаджиев З.В. Сортовое разнообразие и содержание биологически активных веществ в плодах граната (Punica Granatum). Современное садоводства. Электронный журнал. -Москва, -2015.

COMPARATIVE ANALYSIS OF THE MECHANICAL COMPOSITION INDICATORS OF THE MAIN POMEGRANATE VARIETIES GROWING IN ECONOMIC REGIONS OF AZERBAIJAN

Mehriban Aslanova
aslanovamehriban@gmail.com
Yaser Ibrahimov
yaseribrahimov96@gmail.com
Azerbaijan Technological University

The main direction of the research is to conduct a comparative analysis of the quality of pomegranate varieties by economic regions and, based on the results obtained, to investigate the possibilities of using pomegranate in the production of various products.

Based on the conducted research, an examination of the mechanical composition indicators of the Azerbaijan Guleyshesi, Bala Mursel, and Nazik Gabyg pomegranate varieties taken from 3 economic regions was conducted, thanks to which, based on the information obtained, it was determined that although there are many varieties of pomegranate, only a certain part of these varieties is important for both fresh consumption and industrial processing. The mechanical and chemical composition of pomegranate fruits differs depending on the geographical location of the region, cultivation experience, climate, and storage conditions. The amount of substances included in the composition of the fruit depends on its variety, climatic conditions in which it is grown, and the correct implementation of agrotechnical measures applied in the gardens. Varieties grown in the Karabakh and Ganja-Gazakh economic regions are considered more suitable for fresh consumption and long-term storage due to their quality indicators. Pomegranate varieties grown in the lowlands are considered a more suitable product for processing due to their high juice yield.

Key words: pomegranate, variety, pomegranate juice, pomegranate zone, juice extraction, expertise, organoleptic indicators.

YABANI ZOĞAL (LAT. CORNUS) – UNİKAL QİDA MƏHSULUDUR

Aygün Arif qızı Hacıyeva
a.haciyeva@atu.edu.az
Hafiz Yusif oğlu Əsgərov
h.esgerov@atu.edu.az
Oruc Cəmil oğlu Şahmuradov
o.shahmuradov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə iqlim dəyişikliyi və ətraf mühitin çirklənməsi müxtəlif ekoloji hadisələrin baş verməsinə səbəb olan qlobal problemlərdən biridir. Ekspert təhlilinə əsaslanaraq qeyd etmək lazımdır ki, iqlim dəyişikliyinin ətraf mühitə təsiri qlobal istiləşməyə, quraqlıqlara, su çatışmazlığına, buzlaqların əriməsinə, biomüxtəlifliyin məhv olmasına, meşə yanğınlarının və zəlzələlərin baş verməsinə səbəb olur. Ətraf mühitin çirklənməsinin insan sağlamlığına mənfi təsiri problemi milli hüdudlardan kənara çıxaraq, getdikcə aktuallaşır [4].

Əhalinin sağlamlığının təmin edilməsi hazırda dövlətin strateji məqsədi olub, bu istiqamətdə mühüm işlər görülmüşdür. Prezident İlham Əliyev 2025-ci ilə qədər qida məhsullarının keyfiyyətinin yaxşılaşdırılması strategiyasına uyğun olaraq, "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı"nı təsdiq etmişdir. Bu da bilavasitə əhalinin sağlamlığının qorunmasına, rasional qidalanmanın təşkilinə və müxtəlif xəstəliklərin riskinin azaldılmasına xidmət edir.
Belə ki, proqramda əhali arasında xəstələnmə hallarının artması problemini həll etmək üçün müəyyən göstəricilərə malik yeni nəsil məhsulların istehsalı, kənd təsərrüfatı

xammalının emalı üçün innovativ texnologiyaların inkişafı və yeni növ sağlam qida məhsullarını əldə etmək üçün qida əlavələrinin istehsalı nəzərdə tutulur [1].

Müxtəlif sahələrdə çalışan alimlərin apardıqları tədqiqatlar belə nəticəyə gəlməyə əsas verir ki, bitki mənşəli məhsullar insanların sağlamlığının qorunmasında, əmək qabiliyyətinin yaxşılaşdırılmasında, müxtəlif əlverişsiz ekoloji amillərin təsirinə qarşı müqavimətin artırılmasında mühüm rol oynayır. Təbii bitki mənşəli məhsulların istifadəsinin azalması mədə-bağırsaq traktının funksional pozğunluqlarının və maddələr mübadiləsinin pozulması ilə bağlı xəstəliklərin artmasına səbəb olur. Buna görə də əhalinin sağlamlığının qorunması problemi bioloji cəhətdən tam olan və ekoloji cəhətdən təhlükəsiz olan bitki mənşəli qida məhsulların istehsalı ilə sıx bağlıdır [2].

Elmi ədəbiyyatların araşdırmaları nəticəsində müəyyən edilmişdir ki, respublikamızın əksər bölgələrində yetişdirilən yabanı zoğal meyvələri *(lat. Cornus)* qiymətli qida məhsulu olub, əsas diqqəti cəlb edən xammal hesab edilir. Bu meyvə ekoloji cəhətdən təmiz qida məhsulu olub, yüksək qidalılıq dəyərinə və orqanoleptik xüsusiyyətlərə malikdir [3].

Yabanı zoğalın rəsmi vətəni Kiçik Asiya və Qafqazdır, lakin bu meyvə Cənubi və Şərqi Avropada da geniş yayılmışdır. Hazırda bu meyvə qidalılıq, müalicəvi və pəhriz xüsusiyyətlərinə görə dünyanın bir çox ərazilərinə yayılmışdır. Azərbaycanda yabanı zoğal meyvəsi Böyük və Kiçik Qafqazın meşələrində, Talış dağlarının və Kür-Araz ovalığının meşələrində geniş sahələri əhatə edir [2].

Qədim zamanlardan bu günə qədər insanlar zoğaldan sağlam qida məhsulu kimi istifadə etmişdilər. Ona görə də Qafqazda belə bir atalar sözü vardır: "Zoğal olan yerdə həkimə ehtiyac yoxdur".

Yabanı zoğal *(lat. Cornus)* - bioloji aktiv maddələrlə zəngin olub, müalicəvi əhəmiyyət kəsb edən, qiymətli qida məhsuludur. Onun tərkibində karbohidratlar, üzvi turşular, pektin maddələr, fenol birləşmələri, qida lifləri, azotlu maddələr, vitaminlər, mineral maddələr, efir yağları, fitonsidlər, aşılayıcı və rəngləyici maddələr vardır [2].

Yabanı zoğal *(lat. Cornus)* zəngin antioksidant mənbəyi olub, tərkibində A, E, C, K, PP vitaminləri vardır. Bu meyvə orqanizmi ultrabənövşəyi şüalardan qorunmasında, immunitet sisteminin gücləndirilməsində və metabolik proseslərin tənzimlənməsində mühüm rol oynayır. Yabanı zoğal soyuqdəymə, qızdırma, qrip, boğaz ağrısı və anemiya xəstəlikləri üçün son dərəcə faydalı meyvədir. Bu meyvə ürək-damar xəstəliyindən, həmçinin yüksək təzyiqdən və artritdən əziyyət çəkən insanlar üçün faydalıdır [3].

Elmi araşdırmalar göstərmişdir ki, yabanı zoğal meyvəsi antimikrobioloji xüsusiyyətlərə malik olub, mədə-bağırsaq və dəri xəstəliklərinin müalicəsi üçün məsləhət görülür. Meyvələr bakterisid xüsusiyyətlərə malik olub, tərkibində olan maddələr bakteriyaların böyüməsinin və çoxalmasının qarşısını alır [3].

Yabanı zoğal *(lat. Cornus)* makro- və mikroelementlər mənbəyidir. Meyvələrin tərkibinə daxil olan mineral maddələr metabolik proseslərdə mühüm rol oynayırlar. Bu meyvənin tərkibində olan ən qiymətli elementlər dəmir, natrium, kalium, kalsium, maqnezium, fosfor, yod, xrom, sink və s.-dir. Yabanı zoğal tərkibində olan dəmirin miqdarına görə bitkilər arasında ən yüksək pillədə dayanır [2].

Apardığımız elmi ədəbiyyatların təhlilindən belə nəticəyə gəlmək olar ki, Azərbaycan respublikasında yetişdirilən yabanı zoğal meyvəsi çoxkomponentli kimyəvi birləşmələrdən ibarətdir. Qida sənayesində yüksək miqdarda bioloji aktiv maddələri, xüsusilə də C vitamini olan yabanı zoğaldan müxtəlif çeşidli təhlükəsiz qida məhsulları istehsal etmək olar.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası prezidentinin sərəncamı: – Bakı.: 29 aprel (№ 1143), 2019 – 19 səh.

2. Əhmədov Ə-C.İ., Əliyev N.T. Meyvə və tərəvəzin əmtəəşünaslığı. Dərslik.- Bakı.: 2009.- 437 səh.
3. Əhmədov Ə-C.İ. Yeyilən bitkilərin müalicəvi xassələri. Monoqrafiya. - Bakı.: İqtisad Universiteti, 2014.- 468 səh.
4. Коробкин В.И. Экология и охрана окружающей среды: учебник для студ. вузов / В. И. Коробкин, Л. В. Передельский. - М.: КНОРУС, 2013. - 336 стр.

WILD CRANBERRY (LAT. CORNUS) – A UNIQUE FOOD PRODUCT

Aygun Arif gizi Hajiyeva
ami2011.65@mail.ru
Hafiz Yusif oglu Askerov
h.esgerov@atu.edu.az
Oruj Jamil oglu Shahmuradov
o.shahmuradov@atu.edu.az
Azerbaijan Technological University

Ensuring the health of the population is currently a strategic goal of the state, and significant work has been done in this direction. As a result of research into scientific literature, it has been determined that wild cranberry fruits *(lat. Cornus),* grown in most regions of our republic, are a valuable food product and are considered a raw material that attracts the main attention. It contains carbohydrates, organic acids, pectin substances, phenolic compounds, dietary fiber, nitrogenous substances, vitamins, minerals, essential oils, phytoncides, tanning and coloring substances.

Wild cranberry *(lat. Cornus)* is a rich source of antioxidants and contains vitamins A, E, C, K, PP. This fruit has antimicrobial properties and is recommended for the treatment of gastrointestinal and skin diseases.

From our analysis of scientific literature, we can conclude that wild cranberry fruit grown in the Republic of Azerbaijan consists of multicomponent chemical compounds. In the food industry, it is possible to produce a variety of safe food products from wild cranberries, which contain a high amount of biologically active substances, especially vitamin C.

Key words: climate change, food safety, wild cranberry, antioxidant, vitamin C, antimicrobial properties, safe food products.

SPİRT İSTEHSALI ÜÇÜN BUĞDA VƏ QARĞIDALI UNLARININ KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

Azər Kərim oğlu Babayev
azer-babayev-91@mail.ru
Əhəd Əli oğlu Nəbiyev
ahad.nabiyev@mail.ru
İlham Bayram oğlu Qocayev
i.qocayev@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Son zamanlar dünyada və ölkəmizdə strateji qida məhsulu olan buğda qıtlığı müşahidə olunur. Buna əsas səbəb kimi əkin sahələrinin azalması, ekosistemin pozulması, qurqalıq, iqlim dəyişkənliyi, müharibələr və digər faktorları göstərmək olar. Bu səbəbdən bitkilərdə, o cümlədən buğda dənində fotosintez prosesinin mütəşəkkilliyi pozulur. Nəticədə dənli bitkilərin, həmçinin digər bitki mənşəli qida məhsullarının keyfiyyət göstəriciləri miqdarca xeyli azalır. Bu da sözsüz ki, insanların sağlamlığına mənfi təsir göstərir. Ekoloji sistemin pozulması nəticəsində bitki mənşəli məhsulların əkilib-becərilməsinə çoxlu sayda müxtəlif dərman peraparartları istifadə olunur. Buna əsas səbəb kimi bitkilərin tərkibində olan antioksidant qabiliyyətli vitaminlərin, fenol

birləşmələrinin ayrı-ayrı nümayəndələrinin az sintez olunması təsir göstərir. Bu baxımdan dənli bitkilərin, həmçinin buğdanın əkilib becərilməsində qarğıdalı ilə müqayisədə xeyli zərərli dərman peraparatlarından istifadə olunur. Nəticədə insanların sağlamlığına mənfi təsir göstərir və onlarda müxtəlif xəstəliklərin yaranmasına təsir göstərir. Hal-hazırda buğda unundan çörəkbişirmədə, qənnadı sənayesində, hətta spirt istehsalında belə xammal kimi istifadə olunur.

Dünyada buğda ununun qıtlığını nəzərə alaraq spirt istehsalı üçün buğda ununa alternativ olaraq qarğıdalı unundan istifadə olunması barədə geniş spektrdə tədqiqat işi aparmışıq.

Apardığımız tədqiqat işinin nəticəsindən aydın olur ki, buğda ununa nisbətən qarğıdalı unundan daha keyfiyyətli qida sənayesi üçün istifadə olunan (əsasən də araq istehsalında) daha keyfiyyətli spirt almaq mümkündür[3]. Bu baxımdan biz spirt istehsalı üçün ilk əvvəl buğda və qarğıdalı unlarının keyfiyyət göstəricilərini tədqiq etmişik. Məlumdur ki, spirt istehsalı üçün ən əsas göstərici xammalın tərkibində olan nişastanın miqdarıdır[1]. Spirt şəkərlli məhsulların qıcqırması nəticəsində əmələ gəlir.

Aparılan tədqiqat işinin nəticələri cədvəldə öz əksini tapmışdır.

Cədvəl.

Buğda və qarğıdalı unlarının keyfiyyət göstəricilərinin müqayisəli təhlili, q/100

№	Göstəricilər	Buğda unu	Qarğıdalı unu	Fərq	%-lə
1	Nəmlik	14,50	14,00	-0,5	3,4
2	Zülali maddələr	11,60	12,80	+2,8	12,2
3	Tiamin	0,44	0,54	+0,10	22,7
4	β-karotin	0,08	0,20	+0,12	1,5 dəfə
5	Qlükoza	0,80	1,20	+0,40	50,0
6	Fruktoza	0,60	0,80	+0,20	33,3
7	Saxaroza	0,85	1,50	+0,65	76,5
8	Rafinoza	0,30	0,15	-0,15	50,0
9	Sellüloza	2,50	2,1	-0,40	16,0
10	Pektin maddələri	0,24	izi	-0,24	100
11	nişasta	58,40	64,8	+6,4	10,9
12	Yağlar (lipidlər)	2,20	5,10	+2,9	1,3 dəfə

Qeyd: tiamin və β-karotin mq/100q ilə ölçülür.

Cədvəlin rəqəmlərindən aydın olur ki, buğda ununda 58,40% nişasta vardırsa, bu göstərici qarğıdalı ununda 64,8% olmuşdur. Qarğıdalı unu ilə buğda ununun müqayisəsindən məlum olur ki, qarğıdalı ununda nişasta buğda ununa nisbətən 10,9% çoxdur. Bu o deməkdir ki, qarğıdalı unundan alınmış spirt buğda unundan alınan spirtlə müqayisədə 10,9% artıqdır. Cədvəlin rəqəmlərindən məlum olmuşdur ki, buğda unu ilə müqayisədə qarğıdalı ununda zülali maddələr, B_1 vitamini xeyli çoxdur. Qarğıdalı dəninin buğda dənindən xeyli üstün cəhətləri vardır. Məsələn, buğda ununda qlüten olur, ancaq qarğıdalı ununda qlüten olmur[2]. Qlüten olan məhsullarda qıcqırma prosesi yaxşı getmir. Ona görə də qarğıdalı unundan fərqli olaraq buğda ununun qıcqırması zamanı qlütenin parçalanması üçün əlavə olaraq ferment pereparatı istifadə olunur ki, bu da iqtisadi cəhətdən səmərəli deyildir. Qıcqırma prosesi qurtardıqdan sonra əmələ gəlmiş maya çöküntüsü və ya barda heyvandarlıqda güçlü xammaldır. Bu əsas onunla əlaqədardır ki, qarğıdalı ununun qıcqırmasında alınmış maya çöküntüsünün tərkibində buğdaya nisbətən 1,3 dəfə çox yağ olur. Bu da heyvandarlığın inlişafı üçün çox əlverişlidir.

ƏDƏBİYYAT

1. Nəbiyev Ə.Ə., Bayramov E.Ə., Ələkbərov A.Y. İstehsalın texnoloji əsasları: Dərslik. Gəncə: Star, 2024, 524s.
2. Nəbiyev Ə.Ə., Moslemzadeh E.Ə. Qida məhsullarının biokimyası. Dərslik. Bakı: 2008, 444s.
3. Mikayılov V.Ş. Qida məhsullarının dequstasiyası. Kooperasiya nəşriyyatı, Bakı: 2012, 384 səh.

COMPARATIVE ANALYSIS OF QUALITY INDICATORS OF WHEAT AND CORN FLOURS FOR ALCOHOL PRODUCTION

Azer Karim oglu Babayev
azer-babayev-91@mail.ru
Ahad Ali oglu Nabiyev
ahad.nabiyev@mail.ru
Ilham Bayram oglu Gocayev
i.gocayev@atu.edu.az
Azerbaijan Technological University

Considering the shortage of wheat flour in the world, we have conducted a wide-ranging research on the use of corn flour as an alternative to wheat flour for alcohol production. The results of our research show that it is possible to obtain higher-quality alcohol, which is used in the food industry (mainly in vodka production), from corn flour compared to wheat flour. Comparing corn flour and wheat flour, it is clear that corn flour has 10.9% more starch than wheat flour. This means that the alcohol obtained from corn flour is 10.9% more than the alcohol obtained from wheat flour.

Key words: corn, wheat, flour, starch, gluten, protein substance.

TAXILIN VƏ ONUN EMALINDAN ALINAN MƏHSULLARIN SAXLANMASININ MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Afiq Ələkbərov
a.alekberov.@atu.edu.az
İlham Qocayev
i.gocayev. @atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Dənli bitkilərın dənlərinin emalından alınan (çörək, yarma, makaron və undan alınan başqa məmulatlar) qida məhsulları insan qidasının mühüm tərkib hissəsidir.Dənli paxlalı və yağlı bitkilərin emalından alınan qida məhsulları yeyinti vasitəsi və texniki xammal kimi insan həyatında mühüm əhəmiyyət kəsb edir.

Taxıl ehtiyatı ilə əhalini bütün il boyu taxıldan alınan qida məhsulları ilə, quş və mal-qaranın yemlənməsində istifadə olunan yemlərlə təmin etmək üçün taxılın və ondan alınan məhsulların düzğün saxlanmasını təmin etmək lazımdır [2].

Ölkəmizdə taxıl və ondan alınan məhsullar fermer təsərrüfatlarında, çörəkbişirmə sahələrində (elevatorda, çörəkbişirmə müəssisələrində, un, yarma qarışıq yem zavodlarında və s.) çörəkbişirmə sahələrinə aid olmayan (çörək zavodu, makaron zavodu, bitki yağları emal edən, nişasta-patoka istehsal edən pivə və spirt zavodları) sənayə sahələrində, ticarət şəbəkələrində saxlanılır [1].

Taxıl və onun emalından alınan məhsulların saxlanmasının dörd əsas vəzifəsi var.

1. Taxılın çəkisinin itkisiz yaxut minimal itki ilə saxlanılması. Taxıl məhsullarının keyfiyyətini artırmaq məqsədi ilə onun zibil qatışıqlarından təmizlənməsi və saxlanması zamanı quruma nəticəsində çəkisinin azalması itki hesab edilmir. Belə hallarda taxılın çəkisinin azalması normalara üyğun şəkildə müəyyənləşdirilir və müvafiq sənədlərlə rəsmləşdirilir.

Taxıl məhsullarının itkisi mexaniki və bioloji itkilərə bölünür. Mexaniki itkilərə-zədə, səpələnmə, parçalanma; bioloji itkilərə-nəfəsalma, cücərmə, mikroorqanizmlərin inkişafı, gənələrin və həşəratların inkişafı, öz-özündən qızışma, gəmiricilərlə məhvedilmə, quşlarla məhvedilmə aiddir. Bütün mexaniki və bioloji itkilərində kütlədə itki baş verir.Bütün bioloji itkilərdə və mexaniki itkinin zədələnmə mərhələsində keyfiyyətdədə itki baş verir İtkilərin yalnız bəzisi zəruri hesab edilir. Qalan itkilər isə taxılıın düzgün qaydada saxlanmaması nəticəsində meydana çıxır. Məsələn mexaniki itkilərdən tozlanma zəruri itki hesab edilir, çünki taxıl məhsullarının nəql olunmasında tozlanma nəzərə alınmır [1].

Bioloji itkiərdən isə taxılın nəfəs alması zəruri itki hesab edilir, çünki nəfəsalma nəticəsində taxılın tərkibində quru maddələrin itkisi baş verir.

Taxılın saxlanması düzgün təşkil olunduqda bu itkilər cüzi olur.Taxıl məhsullarının saxlanması və daşınması zamanı bu itkilər üçün normalar müəyyənləşdirilmışdır.Taxıl məhsullarının saxlanması prosesinin düzgün təşkil edilməsi bütün növ itkilərin aradan qaldırılmasını təmin edir.

2.Taxıl məhsullarının keyfiyyətinin dəyişmədən saxlanması.Taxıl məhsullarının keyfiyyətinin aşağı düşməsinin səbəbi saxlanma rejiminin pozulmasıdır.Bu saxlanma rejiminə düzgün rəayət edilmədikdə və lazımi nəzarət və qulluq göstərilmədikdə baş verir.Belə bir misal göstərək 70 hektar sahəyə buğda əkmək üçün nəzərdə tutulan toxumların saxlanma zamanı 1% cücərmə qabiliyyətinin aşağı düşməsi nəticəsində əlavə olaraq 90 ton toxum tələb olunur.Bu miqdarda buğdadan 70 ton ağ un istehsal etmək olar,yaxut 90 ton çörək-kökə məmulatları bişirmək olar. Saxlanma zamanı taxılın rənginin,iyinin və dadının dəyişməsi yarmanın, unun və çörəyin keyfiyyətini aşağı salır, taxılın yeyinti məqsədi ilə istifadəsini yararsızlaşdırır [2] .

Taxıl məhsullarının keyfiyyətinin aşağı düşməsinin səbəblərindən biri də onların uzun müddət saxlanmasıdır. Hər bir əmtəənin müəyyən saxlanma müddəti vardır. Bu müddətdən sonra onun istehlak xüsusiyyəti aşağı düşür.Məsələn un və yarma partiyaları iki-üc il saxlanıldıqda dərhal keyfiyyəti aşağı düşür.İki-dörd ildən sonra toxumların səpilmə keyfiyyətinin aşağı düşməsi müşahidə olunur. Ərzaq və yem tədarükü ücün nəzərdə tutulan dənli və paxlalı bitkilərın toxumları daha uzun müddətli olurlar, ancaq 7-10-15 ildən sonra onların texnoloji və qidalılıq xüsusiyyəti aşağı düşür.

Beləliklə, "köhnəlmə" hadisəsi taxıl məhsulları və toxum ehtiyatlarının vaxtaşırı əvəz olunmasına, onların keyfiyyətinin nəzərə çarpacaq dərəcədə aşağı düşənə qədər vaxtı-vaxtında realizasiyasına səbəb olur. Məhsulun keyfiyyətinin itkisiz saxlanması istənilən saxlanma sistemləri üçün əsas şərtdır.

3.Saxlanma zamanı taxıl məhsullarının kefiyyətinin artırılması. Taxıl istehsalının əsas şərtlərindən biri onun tamdəyərli istifadə olunmasını və istehsal xüsusiyyətini artırmaq üçün texnoloji üsullarla emal edilməsini təmin etməkdir.Taxıl və toxum partiyalarının yaxşı saxlannmasını təmin etmək onların emal edilməsi vacibdir.

Məlumdur ki, bəzi hallarda saxlanmanın müəyyən rejimlərində unun çörəkbişirmə keyfiyyətini yaxşılaşdırmaq olur.Ancaq fermer təsərrüfatlarında, çörəkqəbulu və taxıl emalı müəsisələrində toxum materialının və ərzaq –yem buğdasının emalı daha böyük əhəmiyyət kəsb edir [1].

4.Taxılın kəmiyyət və keyfiyyətcə yaxşı saxlanmasını ilə yanaşı taxılın vahid çəkisinə sərf olunan vəsaitin və əməyə çəkilən xərclərin azaldılması. Taxıl qəbulu müəsisələrinin və realizasiya bazalarının iş təcrübəsi onu göstərir ki,axın xətlərində taxılın emalı proseslərinin yeni üsullarının tətbiqi,istehsalın səmərəli idarə edilməsi, mütərəqqi texniki bazaların yaradılması, işçilərin ixtisaslarının artırılması taxıl məhsullarının saxlanmasına çəkilən xərcləri azaldır.

Taxıl məhsullarının səmərəli realizasiyası nəticəsində itkilər azalır.Taxılın realizasiyasının düzgün aparılmaması nəticəsində baş verən itkilərə aid çoxlu misallar

göstərmək olar. Məsələn pivə hazırlama sənayesinə aid olmayan arpa növündən istifadə edildikdə pivənin hasilatı azalır, keyfiyyəti pisləşir.

Mövcud taxıl ehtiyatlarının çox olması müxtəlif istehlakçılara göndərilən taxıl partiyalarının dəqiq seçilməsinə,onların istifadə olunma xüsusiyyətlərinin nəzərə alınmasına imkan verir. Saxlanma anbarlarında taxıl məhsullarını saxlamaq və istehlakçılara göndərmək ücün əvvəlcə taxıl məhsullarını hazır vəziyyətə gətirmək lazımdır.Bunun üçün mütərəqqi texnologiya tətbiq olunur.Bundan başqa saxlanma müddətində taxıl partiyalarına sistematik sürətdə nəzarətin təşkil edilməsi vacibdir [2].

Taxıl emalı sənayesində aşağıda göstərilən texnoloji üsullar tətbiq edilir:

1. Taxıl və toxum partiyalarının müxtəlif qatışıqlardan təmizlənməsi. Taxıl və toxum partiyalarında vaxtında yaxşı təşkil olunmuş təmizlənmə əməliyyatı aparılmadıqda taxılın etibarlı saxlanmasını və səmərəli istifadəsini təmin etmək olmaz.Taxılın təmizlənməsində müxtəlif məhsuldarlıqlı maşın və mexanizmlərdən istifadə edilir.
2. Taxıl kütləsinin qurudulması. Qurudulma onun eribarlı saxlanılmasını və müxtəlif məqsədlər üçün istifadəsini təmin edən nəmliyə qədər aşağı salınmasini təmin etməlidir.Bu məqsədlə elavator və anbarlarda müxtəlıf tipli və məhsuldarlıqlı quruducu qurğular quraşdırılır. Bundan başqa taxıl günəşin köməyi ilə də qurudulur [3].
3. Taxıl kütləsinin və taxıl məhsullarının soyudulması.Bu texnoloji əməliyyat əlverişli temperatur rejiminin yaradılması üçün aparılır.Bu məqsədlə müxtəlif taxıltəmizləmə maşınlarından və nəqliyyat mexanizmlərindən və ya xüsusi havalandırmadan istifadə edilir.
4. Taxıl kütləsinin və taxıl məhsullarının ziyanvericilərdən qorunması [3].

Bu texnoloji əməliyyat taxıl və taxıl məhsullarını həşaratlardan, gənələrdən qorunmaq üçün aparılır. Bu tədbir xüsusi kimyavi vasitələrin köməyi ilə aparılır.

5. Müəyyən məqsədli təyinat əsasında (ixrac, ehtiyat) iri taxıl partiyalarının hazırlanması.

Bu əsas üsullardan başqa elevator anbar təsərrüfatlarında paxlalı bitkiləri rənginə və ölçülərinə görə də növləşdirirlər. Sadalanan mühüm məsələlər elmi əsaslarla taxılın xüsusiyyətlərini və saxlanmanın texniki bazasını yaxşı bilən ixtisasçılar tərəfindən müvəffəqiyyətlə həll edilə bilər. Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, taxıl və onun emalından alınan məhsulların xarab olmadan saxlanmasının məqsədi insanların il boyu ekoloji təmiz və yüksək keyfiyyətli məhsulla təminatına zəmin yaratmaqdır.

ƏDƏBİYYAT

1. Ələkbərov A.Y., Məlikov Ə.Q. Un, yarma və qarışıq yemin texnologiyası Gəncə: 2011, 244s.
2. Пилипюк В.Л. Технология хранение зерна и семян. Москва:Вузовский учебник.2009, 326с
3. Трисвятский Л.А. Хранение зерна М. -Агропромиздат, 2017, 432с.

PURPOSES AND FUNCTIONS OF STORAGE OF GRAIN AND PRODUCTS OBTAINED FROM ITS PROCESSING

Afig Alakbarov
a.alekberov.@atu.edu.az
Ilham Gojayev
i.gocayev. @atu.edu.az
Azerbaijan Technological University

The article shows that compliance with the rules for storing grain and its processed products, such as bakery, cereals, and pasta, is of particular importance. Before being processed, grain products must meet the requirements of the standard. When these rules are followed, a high yield of flour and cereals is obtained. In production, as a result of processing these grains, high grades of flour and cereals are obtained.f stored correctly, they are well preserved, the consumer properties are improved and consumers receive This allows providing people with high quality grain products rich in vitamins and minerals

for a whole year. Therefore, in order to obtain a good technological effect, preservation must be carried out according to the rules of technological operations.

Key words: grain, cereals, legumes, bread baking, mechanical and biological losses, cleaning, technological methods.

TƏBİİ İÇLİKLİ KARAMEL MƏMULATININ İSTEHLAK XASSƏLƏRİ VƏ KEYFİYYƏTİNİN EKSPERTİZASI

Adəm Cəmil oğlu Əmirli
adememirli156@gmail.com
Fəridə Akif qızı Əkbərova
farida_akperova@mail.ru
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

Qənnadı məmulatlarının çeşidi beş məhsul qrupu ilə təmsil olunur: karamel, konfet, marmelad və pastila məmulatları, şokolad, unlu qənnadı məmulatları. Onlar istehsal üsuluna və istifadə olunan əsas və köməkçi xammalına və quruluşuna görə fərqlənirlər. İstehsal həcminə görə qənnadı məmulatları arasında karamel ilk yerlərdən birini tutur. Ona əhali arasında ənənəvi və sabit tələbat var.

Karbohidratlar insan qidasının əsasını təşkil edən üzvi maddələrin əsas qruplarından biridir. Karbohidratların əsas funksiyası bədəni lazımi enerji ilə təmin etməkdir: qidanın enerji tərkibinin 50 - 60% -i karbohidratlardan gəlir. Onların enerji vermə qabiliyyəti 1 q üçün 15,7 kCoul təşkil edir. Karamelin qida dəyəri karbohidratların (75-90%), yağların (0,2-10%), zülalların (0,1-2,0%) və az miqdarda mineralların (Ca, K, Mg, P, Fe) yüksək olması ilə əlaqədardır. Bədənin enerji ilə təmin edilməsində əsas rolu monosaxarid qlükoza oynayır. İçliklər tərkibi və xüsusiyyətləri ilə fərqlənir, şəkərdən əlavə onların tərkibində yağlar və zülallar var. Karamel məmulatı aşağı rütubətlə xarakterizə olunur və tərkibində az miqdarda lifin olması, onları yüksək kalorili və tez həzm olunmasının təmin edir. Karamelin tərkibində aromatik maddələr və qida turşuları da var. Karamel növlərinin əksəriyyəti vitamin baxımından çox zəifdir, çünki onlar xammalda demək olar ki, yoxdur və istehsal prosesi zamanı yüksək temperaturda parçalanır və yox dərəcəsində olur [2].

Patka nişasta hidrolizinin qalıq məhsullarının qarışığıdır, yəni müxtəlif polimerləşmə dərəcələrinə malik qlükoza polimerlərinin qarışığıdır. Karamel suda çox yaxşı həll olunur. Karamelin bütün sadalanan keyfiyyətlərini bir araya gətirərək, onun insan orqanizmi üçün dəyərli enerji tədarükçüsü olduğu qənaətinə gələ bilərik.

Tərkibinə, istehsal üsuluna, içliyin olub-olmamasına, içliyin növünə və örtüyünün mövcudluğuna görə müxtəlif karamel növləri var. Son zamanlar karamel texnologiyasının təkmilləşdirilməsi sahəsində əsas diqqət onun çeşidinin genişləndirilməsinə, resept tərkibinin onun fiziki-kimyəvi və orqanoleptiki xüsusiyyətlərinə təsirinin öyrənilməsinə, yeni avadanlıq növlərinin işlənib hazırlanmasına və onun istehsal texnologiyasının təkmilləşdirilməsinə yönəldilmişdir [2].

Çeşidinin genişləndirilməsi üsullarından biri də karamelin dadını, ətrini, konsistensiyasını və görünüşünü yaxşılaşdırmaq üçün təbii əlavələrdən istifadə etməkdir. Onun resept tərkibini dəyişdirərək yeni karamel növləri hazırlanmışdır. Karamelin enerji dəyərini azaltmaq üçün son illərdə karamel istehsalında dadlandırıcıların və şəkər əvəzedicilərinin istifadəsi getdikcə geniş yayılmışdır.

Karamel məmulatının keyfiyyət göstəricilərinin qiymətləndirilməsi iki əsas üsulla müəyyən edilir: orqanoleptiki və fiziki-kimyəvi. Orqanoleptiki üsulla ekspertiza zamanı

qablaşdırılmasının vəziyyəti, kağıza bükülməsi, karamelin və karamel kütləsinin növü və quruluşu, məhsulun forması, dadı, ətri, rəngi, səthinin vəziyyəti, içliyin növü, konsistensiyası və vəziyyəti müəyyən olunur [1].

Apardığımız tədqiqat obyekti kimi seçilmiş beş növ karamel məmulatı olmuşdur: Bim-Bom, Lilak, Milki rain, Detskaya, Apelsinovaya**.**Tədqiqat işimiz 3 paralel mərhələdə aparılıb. Karamel məmulatının orqanoleptik tədqiqi nəticəsində müəyyən edilmişdir ki, keyfiyyət göstəriciləri qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə uyğundur və standartdan kənara çıxma müşahidə edilmir.

Karamel məmulatı fiziki-kimyəvi göstəricilərə görə ölçüsü, karamel kütləsinin nəmliyi, içliyin, turşuluğu, reduksiyaedici şəkərin miqdarının təyini qiymətləndirilmişdir. Qeyd etmək lazımdır ki, etdiyimiz üç analizlərin nəticəsinə əsaslanaraq orta qiymət standart göstəricilərə uyğun olub.

Cədvəl.

Məhsulda göstəricilərin orta hesablanmış qiyməti

Karamelin adı	1 kq karamelin sayı, ədədlə	Karamel kütləsinin nəmliyi, %-lə	İçliyin miqdarı, %-lə	Turşuluğu, dərəcə	Reduksiyaedici şəkərin miqdarı, %-lə
Bim-bom	120	2,93	27,5	8,4	20,53
Lilak	188	6,5	23,8	6,7	20,1
Milki rain	125	4,9	25,7	6,1	20,4
Detskaya	158	6,4	24,6	7,1	21,35
Apelsinovaya	136	7,3	30,0	9,0	21,52

ƏDƏBİYYAT

1. Əhməd-Cabir İ. Əhmədov, Nizami X.Müsayev. "Ərzaq məhsullarının keyfiyyət ekspertizası" I hissə, Bakı: "Çaşıoğlu", 2005.
2. Казанцева, Н. С. Товароведение продовольственных товаров: учебник / Н. С. Казанцева. - М.: Дашков и К^0, 2007.

CONSUMER PROPERTIES AND QUALITY EXPERTISE OF CARAMEL PRODUCTS WITH NATURAL FILLING

Adam Amirli
adememirli156@gmail.com
Farida Akberova
farida_akperova@mail.ru
Azerbaijan State Economic University (UNEC)

The article is devoted to the study of consumer properties and quality examination of five types of caramel products with natural filling, sold in the retail network of Baku. During the organoleptic assessment of the quality indicators of the caramel products, the condition of the packaging and wrapping, the type and structure of the caramel mass, the shape of the product, the condition of the surface, the color, and the consistency of the filling were determined. In the course of our research, physicochemical methods were used to determine the amount of caramel in 1 kg, the humidity of the caramel mass, the amount of filling, acidity, and the amount of reducing sugar.

Key words: caramel products, indicators, consumer properties.

АНТИАЛИМЕНТАРНЫЕ ФАКТОРЫ ПИТАНИЯ

Афет Айят кызы Касумова
a.qasimova@atu.edu.az
Жаля Мехти кызы Бадалова
j.bedelova@atu.edu.az
Азербайджанский ТехнологическийУниверситет

Природные вещества, входящие в состав натуральных продуктов, которые не обладают общей токсичностью, но способны выборочно нарушать усвоение питательных веществ в организме являются антиалиментарными факторами питания. Данный термин применяется исключительно к соединениям природного происхождения, присутствующим в продуктах питания. Список таких факторов достаточно обширен [1].

Одними из наиболее известных являются ингибиторы пищеварительных ферментов, т.е. белковые соединения, подавляющие активность ферментов, участвующих в пищеварении, таких как пепсин, трипсин, химотрипсин и α-амилаза. Эти вещества могут снижать эффективность переваривания белков и углеводов. Источниками подобных ингибиторов являются: семена бобовых культур (например, соя, фасоль), злаки (пшеница, ячмень), картофель, яичный белок, а также некоторые другие продукты как растительного, так и животного происхождения. Кроме того, есть цианогенные гликозиды, представляющие собой гликозиды некоторых альдегидов и кетонов, способных при ферментативном или кислотном гидролизе выделять синильную кислоту (HCN). Последняя оказывает токсическое воздействие на нервную систему. Среди наиболее известных представителей этой группы можно выделить лимарин, присутствующий в белой фасоли, и амигдалин, содержащийся в косточках миндаля (до 8%), а также персиков, слив и абрикосов (в пределах 4–6%).

К антиалиментарными факторами питания также относятся биогенные амины. Это группа веществ, включающая серотонин, тирамин и гистамин, которые оказывают значительное физиологическое воздействие на организм. Они обладают сосудосуживающим эффектом, стимулируют сокращение гладкой мускулатуры, значительно усиливают секрецию соляной кислоты в желудке и могут вызывать аллергические реакции. Серотонин встречается преимущественно в овощах и фруктах. Например: в томатах его содержание составляет около 12 мг/кг, в сливах - до 10 мг/кг [2].

Тирамин преимущественно присутствует в ферментированных продуктах, таких как сыры, где его концентрация может достигать до 1100 мг/кг. Гистамин, как правило, обнаруживается в тех же продуктах, и его содержание часто коррелирует с уровнем тирамина — в сырах оно может варьироваться от 10 до 2500 мг/кг. Помимо пищевых источников, гистамин также вырабатывается в тканях животных в процессе их жизнедеятельности. В продуктах питания гистамин образуется в результате декарбоксилирования аминокислоты гистидина под воздействием микрофлоры, особенно при нарушении условий хранения..Среди микроорганизмов, ответственных за этот процесс, можно выделить представителей семейства Enterobacteriaceae (таких как *Escherichia*, *Enterobacter*, *Shigella*, *Salmonella*), а также некоторых представителей родов Pseudomonas, Streptococcus, Lactobacillus и Clostridium. Особую опасность представляет накопление гистамина в рыбной продукции, если не соблюдаются условия охлаждения, разморозки или хранения до термической обработки. Наибольший риск связан с такими видами рыб, как тунец, скумбрия и некоторые другие, в мышечной ткани которых при неправильном хранении уровень гистамина может достигать токсичных значений. Для взрослого человека безопасная доза гистамина составляет приблизительно 5–6 мг на килограмм массы тела.

Однако при содержании более 100 мг/кг продукт может представлять серьёзную опасность для здоровья [3].

Алколоиды тоже относятся к антиалиментарными факторами питания. Алкалоиды представляют собой большую группу органических соединений, оказывающих разнообразное воздействие на организм человека. Среди них встречаются как сильнейшие яды, так и ценные лекарственные вещества. На сегодняшний день хорошо изучены пуриновые алкалоиды, к числу которых относятся кофеин, теобромин и теофиллин. Содержание кофеина варьируется в зависимости от типа сырья и метода приготовления. Например, в зернах кофе и листьях чая его концентрация может составлять от 1 до 4%, а в готовых напитках — до 1500 мг/л для кофе и до 350 мг/л для чая. В популярных безалкогольных напитках, таких как пепси-кола и кока-кола, содержание кофеина может достигать 1000 мг/л и выше. Важно отметить, что регулярное потребление пуриновых алкалоидов в дозировках, превышающих 1000 мг в сутки, способно привести к формированию устойчивой потребности, схожей с алкогольной зависимостью. К другому важному классу относятся гликоалкалоиды, такие как соланин и чаконин, которые содержатся в картофеле. Эти соединения имеют общую агликоновую часть -соланидин, но различаются по составу сахарных остатков. Они считаются веществами умеренной токсичности и являются промежуточными продуктами биосинтеза α-соланина. Накопление гликоалкалоидов особенно выражено в позеленевших частях картофельных клубней, где их содержание может увеличиваться более чем в 10 раз и достигать 500 мг/кг. Это придаёт продукту горький вкус и может вызывать отравления с характерной симптоматикой. Кроме картофеля, соланин и чаконин также встречаются в баклажанах, томатах и табаке.

Таким образом, анализ литературных данных и проведенных исследований показали, что при разработке новой продукции важно принять во внимание антиалиментарные факторы питания.

ЛИТЕРАТУРА

1. Роева Н.Н. Безопасность продовольственного сырья и продуктов питания. Учебно-практическое пособие. М., МГУТУ, 2009, с. 306

2. Позняковский В.М. Гигиенические основы питания, качество и безопасность пищевых продуктов. М:, Колос, 2005, 522 с.

3. Рогов И.А., Дунченко Н.И., Позняковский В.М., Бердутина А.В., Купцова С.В. Безопасность продовольственного сырья и пищевых продуктов, М: ПП, 2007, 227 с.

ANTI-NUTRITIONAL FACTORS

Afet Gasimova

a.gasimova@atu.edu.az

Jale Badalova

j.bedelova@atu.edu.az

Azerbaijan Technological University

Natural substances that are part of natural products that do not have general toxicity, but are capable of selectively disrupting the absorption of nutrients in the body are anti-alimentary nutritional factors. This term is applied exclusively to compounds of natural origin present in food products. The list of such factors is quite extensive Some of the most well-known are inhibitors of digestive enzymes, biogenic amines, alkaloids and microorganisms. Therefore, when developing new products, it is important to take into account anti-alimentary nutritional factors

Key words: antialimentary nutritional factors, biogenic amines, digestive enzyme inhibitors, microorganisms, alkaloids.

MƏTBƏX MƏDƏNİYYƏTİNİN KULİNARİYA TURİZMİN İNKIŞAFINA TƏSİRİ

Mərdan Məhərrəm oğlu Tağıyev
merdanaztu@mail.ru
Fizuli Məmmədəli oğlu Musayev
f.musayev@atu.edu.az
Azərbaycan Texnologiya Unversiteti

Azərbaycan ta qədimdən əlverişli coğrafi mövqedə yerləşməsinə baxmayaraq ozünün tam sərbəst turizm idarəetmə sisteminə malik olmamışdır. Bu da azərbaycan mədəniyyətinin bir hissəsi olan mətbəx ənənələrini dünya xalqları arasında təbligində müəyyən çətinliklər yaratmışdır.Lakin müstəqillik qazandıqdan sonra ölkəmizdə turizmin idarə olunması sistemində köklü dəyişikliklər baş vermişdir.

Müstəqilliyin ilkin onilliyində Nazirlər kabineti nəzdində Xarici Turizm Şurası yardıldı ki, bu da müvafiq turizm strukturlarının yeni mərhələyə qədəm qoymasına təkan verdi. 1995-ci ildən başlayaraq mövcud sanatoriya-kurort və turizm müəssisələrinin özəlləşdirilməsinə başlandı. Bu da sahibkarlığın inkişafına stimul yaratmaqla, ölkə turizmində özəl bölmənin payının artmasına imkan yaratdı. Azərbaycanın turizm sektorunda müsbət tendensiyalar hiss olundu, ölkəyə səfər edən xarici turislərin sayında dinamiuk inkişaf qeydə alınmağa başladı.

1999-çu ildə Turizm haqqında Dövlət qanunun qəbul edilməsi [2] ilə turizmin hüquqi bazasının əsası qoyuldu. Qanunun qəbul edilməsi ilə turizm sferasına daxil olan bölmələrin idarəetmə strukturunda yaranmış problemləriin vahid bir təşkilat tərəfindən qanunun tələblərinə uyğun idarə edilməsinə nəzarətin həyata keçirilməsi zərurətini yaratdı. Buna görə də Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə ilkin olaraq turizmin idarəedilməsi məqsədilə İdman və Turizm Nazirliyi yaradıldı. Sonrakı dövrlərdə idarəedilmənin təkmilləşdirilməsi səlahiyyətləri 2006-cı ildə yardılan Mədəniyyət və Tuyrizm Nazirliyinə, 2018-ci ildə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə verildi [5].

Bu təşkilatların əsas fəaliyyət proqramlarında milli kulinariya nümunələrinin qorunması və təbliğinin təmin edilməsi əsas yerlərdən birini tutur. Çünki dünyanın hər yerinə səyahət edən turistlər özlərin qidaya olan ehtiyacını ödəmək üçün ilkin olaraq getdikləri ölkənin ənənəvi yerli yeməklərini dadmalı olurlar.[3] Buna görə də hər bir ölkədə turizm xidmətləri paketinə uyğun turistlərin yerli əhalinin mətbəx və ənənəvi qida məhsullarının xüsusiyyətləri ilə milli adət-ənənəyə uyğun tanış edilməsi və bu istiqamətdə xidmətlərin yüksək səviyyədə təqdimi, xüsusilə kulinariya turizminin inkişafının təşkilinin ən vacib elementlərindən biri hesab edilir[4].

Qeyd edək ki, müstəqillik illərindən başlayaraq ölkə vətəndaşlarımızın turist kimi xarici ölkələrə səfərlərinin artması, sahibkarlığın inkişafının təmin edilməsi, turizm müəssisələri arasında işgüzar münasibətlərin genişlənməsi, ölkəmizə gələn xarici turistlərin çoxluq təşkil etməsi mətbəx və qidalanma mədəniyyətimizin təbliğində və tanıdılmasında xüsusi əhəmiyyət kəsb etməklə turizmin inkişafına xüsusi təsir göstərə bilər.

Məlumdur ki, hər bir ölkəyə səfər edən tuistin qidalanmasının təşkilində yerli mətbəx məhsulları ilə tanışlıq xüsusi əhəmiyyət kəsb edir. Odur ki,, hər bir turistin olduğu ölkə baradə münasibətinin formalaşmasında yerli xalqın özünəməxsus mətbəx ənənələrinin təqdimatından çox aslıdır. Çünki, müxtəlif xalqların və ya ölkələrin mətbəxi dünyanın fərqli ərazilərindən olan maraqlı insanları maqnit kimi özünə cəlb edən bir vasitə hesab edilir[4].

Buna görə də hər bir ölkənin və bölgənin turizm işi ilə məşğul olan təşkilatları bazarda rəqabətə davamlılığını qoruyub saxlamaq, artan rəqabət şəraitində özünü başqalarından fərqləndirən unikal məhsullar təqdim etmə imkanları axtarır. Belə imkanlardan biri də yerli mətbəx ənənələridir. Hər bir turizm təşkilatı müştəriləri fəaliyyət

göstərdiyi bölgəyə və ya regiona cəlb etmək üçün marketinq vasitəsi kimi bölgənin özünəməxsus milli mətbəx məhsulları ilə tanışlıq platformasını təqdim edə bilər.

Ona görə ki, hər bir turist səyahət etdiyi ölkənin mədəniyyəti, adət-ənənələri ilə tanış olmaqla maddi mədəniyyətin əsas hissəsi olan milli mətbəxin daha çox tanınan xörəkləri haqqında özündə müəyyən təssüratlar formalaşdırır və öz ölkəsində yaxınları ilə öz xatirələrini bölüşür.

COVİD 19 pandemiyasından sonra Azərbaycanda turizm sahəsində yenidən canlanma müşahidə olunur. Ölkəmizə il boyu dünyanın 190-a yaxın ölkəsindən turist gəlir [1]. Bunlar da ölkəmizdə müxtəlif adət-ənənələrlə tanış olmaqla yanaşı, ən çox insanların qidalanmasında vaçib olan müxtəlif çeşidli xörək və tərəvəz məhsulları ilə qidalanırlar. Bu da onların yeni ağız dadı ilə tanışlığına şərait yaradır. Bu da onların mətbəx məhsullarına olan marağını artırır. Onlar çalışırlar ki, yerli xörəklərin hazırlanma texnologiyası ilə yerindəcə tanış olsunlar.

Odur ki, turistləri ölkəmizə çəlb etmək üçün həm Azərbaycan xalqı, həm də burada yaşayan 40 yaxın etnik qrup tərəfindən milli adət-ənənəyə uyğun yaradılmış və bu gün də qorunub saxlanan unukal çox zəngin və rəngarəng mətbəx məhsulları təqdim oluna biər.

Bu zənginlik və rəngarənglik tarixən Azərbaycanın müxtəlif ərazilərində məskunlaşmış əhali tərəfindən yaradılmış, hal hazırda unudulmaqda olan xörək və kulinar məmulatların: zilviyyə, səngah, təndir pitisi, yəxni və s. yenidən bərpa edilməsi turistlərdə xüsusi maraq yarada bilər.

Apardığımız araşdırmalardan belə nəticəyə gəlmək olar ki, Azərbaycana turis səfərinə gələn turistləri regionlarımıza cəlb etmək, kulinariya turizminin inkişafına nail olmaq üçün milli xörəklərimizin tanıdılması istiqamətində aparılan işlər genişləndirilməlidir.

Bunun üçün ilkin olaraq Azərbaycan mətbəxinin bölgələr üzrə toplanması və çap etdirilməsi çox vacibdir;

İkincisi Azərbaycanın hər bir turizm bölgəsində yerli mətbəx məhsullarının realizəsini yerinə yetirən milli restoranlar yaradılmalı. Bu restoranlarda bölgənin daha məşhur xörəklərinin hazırlanmasında turistlərin iştirakı təmin edilməli.

Üçüncüsü Azərbaycan mətbəxi nümunələrinin məsələn: şorbaların, plovların, kababların, kətələrin, dolmaların, yabanı bitkilərdən hazırlanan xörəklərin, şərbətlərin və s. ayrı-ayrılıqda rəngli foto şəkillərini və hazırlanma texnologiyasını özündə əks etdirən açıcaların çapı genişləndirilməlidir. Müşahidələr göstərir ki, turistlər belə toplulara xüsusi maraq göstərirlər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm. Statistik məcmuə. Bakı: -2024, -101 səh.

2."Turizm haqqında" Azərbaycan Respublikasının 1999-cu il 4 iyun tarixli 674-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, -1999, № 7.

3.Həsənova X. B. Dünya xalqlarının qida mədəniyyəti, adət və ənənələri / Bakı: -2021, -282 səh.

4. Новрасли Т.Н., Акперова Ф.Ф Кулинария как важная часть туристической привлекательности Азербайджана. Sumqayıt Dövlət Universiteti – "ELMİ XƏBƏRLƏR"– Sosial və humanitar elmlər bölməsi. Cild 14, № 1, -2018, -səh.82-86.

5.https://az.wikipedia.org/wiki/D%C3%B6vl%C9%99t_Turizm_Agentliyi_(Az%C9%99rbaycan)

THE IMPACT OF CUISINE CULTURE ON THE DEVELOPMENT OF CULINARY TOURISM

Mardan Maharram oglu Tagiyev
merdanaztu@mail.ru
Fizuli Mammadali oglu Musayev
f.musayev@atu.edu.az
Azerbaijan Technological University

In order to attract tourists to our regions and achieve the development of culinary tourism, the work carried out to promote our national dishes should be expanded.

For this, it is very important to initially collect and publish Azerbaijani cuisine by region;

Secondly, national restaurants that sell local cuisine products should be created in each tourist region of Azerbaijan. In these restaurants, tourists should be involved in the preparation of the most famous dishes of the region.

Thirdly, the publication of brochures that reflect the individual color photographs and preparation technology of Azerbaijani cuisine samples, such as soups, pilaf, kebabs, keta, dolma, dishes made from wild plants, sherbet, etc. should be expanded.

Key words: tourism, tourist, national cuisine, region.

RESPUBLİKAMIZIN İSTEHLAK BAZARINDA REALİZƏ OLUNAN UNLU QƏNNADI MƏMULATLARININ (PEÇENYE VƏ VAFLİ TİMSALINDA) KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

Gəray Surxay oğlu Mirzəyev
garay.mirzoev@mail.ru
Hatəm Fazil oğlu Dadaşzadə
hatem.dadashzade@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

Hazırda əhalinin iqtisadi vəziyyətinin yaxşılaşdırmaq məqsədilə respublikamızda müxtəlif çeşidli unlu-qənnadı məmulatlarının istehsalını daha da genişləndirmək və onları beynəlxalq standartlara uyğun istehsal etmək xarici bazarlara çıxartmaq, istehsal və istehlak olunan bu məmulatların keyfiyyətinə nəzarətin keçirilməsi çox mühüm əhəmiyyət kəsb etməklə bərabər, eyni zamanda çox aktualdır. Çünki əhalinin qida rasionunda mühüm əhəmiyyətə malik olan unlu-qənnadı məmulatları, o cümlədən peçenye və vafli məmulatları xüsusi əhəmiyyətə malikdir.

Peçenye yüksək həzm olunma xüsusiyyətinə malik olan, xoş iyli, cəlbedici, xarici görünüşü və yaxşı mənimsənilməsinə görə fərqlənirlər. Peçenyelər həmçinin xammal xüsusiyyətindən asılı olaraq, onları digər unlu qənnadı məmulatlarından fərqli olaraq vitaminsiz, bəzən isə, az vitaminli məhsul hesab edirlər. Peçenyelərin qidalılıq və enerji dəyərliyi onların tərkibində olan karbohidratların, yağların və zülalların olmasıdır.

Aparılan analizlərdən məlum olmuşdur ki, peçenyelərin tərkibində onların çeşidlərinin müxtəlifliyindən asılı olaraq 5,5-7,0%, 7,5-10,4%-zülal, 5,2-11,8%-yağ, 18,8-40,2%-şəkər, 36,6-56,8%-nişasta, 0,3-0,5%-üzvü turşular vardır. Peçenyelərin tərkibində mühüm əhəmiyyət kəsb edən mineral maddələrdə vardır. Bu maddələrin miqdar səviyyəsi eyni olmayıb, müxtəliflik təşkil edir. Belə ki, peçenyenin tərkibində çeşidindən asılı olaraq Na miqdarı-32-38 mq%, K-90-152mq%, Ca 20-43mq%, Mg-13-22 mq% vardır.

Hazırda geniş istifadə olunan və realizə olunan qənnadı məmulatlarından biri də vafli məmulatıdır. Vafli məmulatı digər unlu qənnadı məmulatlarından asan həzm olunmasına görə fərqlənirlər. Vafli məmulatlarının belə yüksək enerji və qidalılıq dəyərliyinə malik olması onların kimyəvi tərkib xüsusiyyələrindən bilavasitə asılıdır .

Məhz, bu baxımdan tərəfimizdən unlu qənnadı məmulatlarının, o cümlədən peçenye və vafli məmulatlarının orqanoleptiki və fiziki-kimyəvi keyfiyyət göstəricilərinin tədqiqi

aparılmışdır. Aparılan tədqiqat işinin əsas məqsədi unlu qənnadı məmulatlarının xarakterik növləri olan peçenye və vaflinin orqanoleptiki və fiziki-kimyəvi keyfiyyət göstəricilərinin mövcud standartların və normativ-texniki sənədlərin tələblərinə uyğun olmasını müəyyən etməkdən ibarət olmuşdur.

Orqanoleptiki üsulla aparılan qiymətləndirmə zamanı unlu qənnadı məmulatlarının, o cümlədən peçenye və vafli onların xarici görünüşü, məsaməliyi, kəsik hissədə onun görünüşü, dadı, iyi və forması təyin olunmuşdur .

Bunun üçün ilkin analiz aparılması məqsədilə nümunədən yağlı-şəkərli peçenye məmulatından götürülmüşdür. Aparılan analiz zaman müəyyən olundu ki, onların rəngi çəkisinə uyğun olaraq bircinsli, açıq-qəhvəyi, kəsik hissədə görünüşü zamanı səthində məsamələrin çox olması qeyd edilmişdir. Dad və iyi xoşagələn olmuş və həmçinin məmulatın növünə uyğun olmuşdur. Səthi düz və üzərindəki şəkil aydın görünmüş, forması isə dairəvi, kənarları isə zədələnməmiş olmuşdur.

Sonra təhlil üçün nümunə vafli məmulatından götürülmüşdür. Analiz üçün götürülmüş bu nümunələrin forması düzgün, eynicinsli, rəngi açıq-sarı olmuşdur. Kəsik hissədə təbəqələri eyni bərabərlikdə, içliyin konsistensiyası eyni cinsli, dadı və iyi isə çeşidinə uyğun olması müşahidə edilmişdir.

Fiziki-kimyəvi üsulla aparılan qiymətləndirmə zamanı peçenye və vafli məmulatlarında qələviliyin, şəkərin və yağın miqdarı müəyyən olunmuşdur.

Unlu qənnadı məmulatlarında qələviliyin miqdarını təyin etmək məqsədilə ilkin nümunə yağlı-şəkərli peçenyedən götürülmüşdür. Bu peçenyedə qələviliyin miqdarının təyini 3 mərhələdə aparılaraq aşağıdakı nəticələrə nail olunmuşdur:

I mərhələdə aparılan analiz nəticəsində yağlı-şəkərli peçenyenin bu çeşidində qələviliyin miqdarı-2,01^{o};

II mərhələdə qələviliyin miqdarı-2,02^{o};

III mərhələdə isə qələviliyin miqdarı-2,03^{o} olmuşdur.

Beləliklə, yağlı-şəkərli peçenyedə qələviliyin miqdarı orta hesabla 2,02^{o} olmuşdur.

Sonra qələviliyin miqdarının təyini üçün unlu qənnadı məmulatının digər bir növü olan vafli məmulatından gptürülmüşdür. Bu məmulatda qələviliyin təyini 3 mərhələdə aparılaraq aşağıdakı nəticələrə nail olunmuşdur:

I mərhələdə aparılan analiz nəticəsində vafli məmulatının bu çeşidində qələviliyin miqdarı-2,03^{o};

II mərhələdə qələviliyin miqdarı-2,04^{o};

III mərhələdə isə qələviliyin miqdarı-2,02^{o} olmuşdur.

Aparılan analizdən yekun olaraq məlum oldu ki, favli məmulatında qələviliyin miqdarı orta hesabla 2,03^{o} olmuşdur.

Yekun olaraq unlu qənnadı məmulatlarının peçenye və vafli növlərinin çeşidləri üzərində fiziki-kimyəvi üsulla aparılan qiymətləndirmə zamanı alınan nəticələrdən məlum oldu ki, bu məmulatların keyfiyyət göstəriciləri qüvvədə olan beynəlxalq standartların və normativ-texniki sənədlərin tələblərinə cavab verir və bu standartlardan fərqli olaraq xüsusi bir kənarlaşma halları qeyd olunmamışdır.

Aparılan tədqiqat zamanı 2 əsas metoddan: orqanoleptiki və fiziki-kimyəvi üsuldan istifadə olunmuşdur.

Orqanoleptiki üsuldan istifadə etməklə unlu qənnadı məmulatlarının (peçenye və vafli məmulatlarının timsalında) rəngi, kəsik hissədə olan görünüşü, dadı, iyi, səthinin vəziyyəti və forması müəyyən edilmişdir.

Fiziki-kimyəvi üsulla aparılan qiymətləndirmə zamanı isə unlu qənnadı məmulatlarında qələviliyin, şəkərin və yağın miqdarı təyin edilmişdir.

ƏDƏBİYYAT

1. Əhmədov Ə.C.İ, və b. Qənnadı mallarının əmtəəşünaslığı. Dərslik. Bakı: İqtisad Universiteti Nəşriyyatı, -2010, -370 səh.
2. О.Г. Бровка. Контроль качества кондитерских товаров в торговле. -М. Экономика, 1984, -102с.
3. Л.А.Бровикова, В.И.Базарова и др. Исследование продоволственных товаров.-М. -Экономика, 2006, -185с.
4. М.В.Сирохман. Кондитерские изделия из нетрадиционного сыря-Киев: -Техника, -1987, -116с.
5. А.Ф.Шепелева, А.В.Шмелев и др. Товароведения и экспертиза кондитерских товаров. Изд-во центр, Март, -2002, -992с.

RESEARCH OF QUALITY INDICATORS OF CONFECTIONERY PRODUCTS (INCLUDING COOKIES AND WAFER) SOLD ON THE CONSUMER MARKET OF OUR REPUBLIC

Geray Mirzayev
Hatem Dadashzade
Azerbaijan State Economic University (UNEC)

It was found that the alkalinity of the flour confectionery product was 2,02^{o}, the sugar content was 40,42%, and the fat content was 12,23%. Also, the mathematical calculation, it was found that the alkalinity varied between 1,98-2,02^{o}, with an error of 0,49%, the sugar content varied between 40,05-4,19%, with an error of 0,17%, and the fat content varied between 11,78-12,48% with an error of 2,04%.

Key words: flour confectionery products, biscuit product, nutritional value, evaluation, organoleptic method, physicochemical method.

ÜZÜMÜN DONDURULMUŞ HALDA SAXLANMASI

Elçin Şiraslan oğlu Məmmədov
e.memmedov @atu.edu. az
Fizuli Məmməd oğlu Musayev
f.musayev@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Son zamanlar Azərbaycan Respublikasında meyvə və giləmeyvələrin soyuducularda saxlanması geniş vüsət almışdır. Bunların içərisində gücü 1000 tonlarla olan sexlər mövcuddur ki, onlarda meyvə-tərəvəzləri dondurulmuş vəziyyətdə saxlamaq mümkündür [1].

Azərbaycanda bəzi üzüm sortlarını təzə halda 3-4 ay saxlamaq mümkündür. Ancaq ki, bu zaman itki böyük olur. Bunu nəzərə alaraq üzüm kimi qiymətli bir giləmeyvənin dondurularaq uzunmüddətli saxlamağın vacib olması maraq dairəmizdə oldu.

Biz 2023-cü ilin məhsulundan olan (Ağadayı, Şamaxı Mərəndisi və Qaragöz) bəzi üzüm sortlarını eksperimental soyuducuda Türkiyə istehsalı olan sürətli dondurma aparatının köməyilə və aşağı temperaturlu saxlama kamerasında dondurulmuş vəziyyətdə saxladıq.

Təcrübə üçün bərk və kövrək lətə malik rəngli üzüm sortlarından olan Şamaxı Mərəndisi və Qaragözdən istifadə etmişik. Ciddi sortlaşdırmadan və tam yararlı olmayan üzüm giləmeyvəsi ayrıldıaqdan sonra mənfi 40-45^{0}C temperaturda 3-4 saat ərzində dondurduq. Bundan sonra nümunələri temperaturu fasiləsiz mənfi 18-20^{0}C-də saxlaya bilən saxlama kamerasına köçürdük. Üzümlər karton qutularda bütöv salxımlar halında qablaşdırıldıqdan sonra dondurulmuşdur. Hansı ki, sonra qutular polietilen torbaya yerləşdirilmişdir və kəndirlə bağlanmışdır.

Sürətli dondurma prosesi və həmçinin dondurulmuş vəziyyətdə saxlana giləmeyvədə bütün qiymətli qida maddələrinin saxlanmasına imkan vermişdir [1] .

Giləmeyvədə bioloji aktiv maddələrin, tiaminin, pantonen turşusunun, piridoksinin, nikotin turşusunun, mineral maddələrin, o cümlədən yodun saxlanması xüsusi maraq kəsb edir. Cədvəldən göründüyü kimi saxlamadan sonra bioloji aktiv maddələrin saxlanması aşağıdakı kimi əks olunmuşdur: B qrup vitaminləri – 95-100% (təzə halda saxlananda 68-90,7%), askorbin turşusu 81,8-94,6% (təzə halda saxladıqda 65-67%), sərbəst katexinlər 68-91,6%-ə qarşı 40,3-46,5%, sərbəst amin turşularının cəmi 64-90%-ə qarşı 90-100%. Makro və mikroelementlər, kül elementləri, həmçinin yod təzə halda, istərsə də dondurulmuş halda saxlandıqda dəyişməz qalır. 8 aylıq saxlamadan sonra dondurulmuş üzüm sortlarının nümunələri kontrol dequstasiya zamanı yüksək qiymətləndirilmişdir [3].

Tünd qara rənglənmiş bərk kövrək lətə malik olan "Şamaxı Mərəndisi" sortu ən yüksək qiymətə layiq görülmüşdür.

Cədvəl

Dondurulmuş vəziyyətdə saxlama zamanı "Şamaxı mərəndisi" və "Qaragöz" üzüm sortlarının giləmeyvəsində ki, bioloji maddələrin miqdarı

Bioloji maddələr	Yığımdan sonra təzə giləmeyvədə quru çəkiyə görə,mq%-lə	Dondurmadan dərhal sonra		Saxlamadan sonra	
		Quru çəkiyə görə, mq%-lə	Saxlanma %-i	Quru maddəyə görə mq%	Saxlanma %-i
Şamaxı Mərəndisi					
B qrup vitaminləri:					
Tiamin	0,37	0,37	100	0,36	97,3
Pantoten turşusu	1,11	1,09	99,0	1,06	95,5
Piridoksin	0,16	0,16	100	0,16	100
Nikotin turşusu	10,4	10,4	100	10,4	100
Biotin	0,0034	0,0034	100	0,00318	97,1
Inozit	185,2	181,9	98,2	177,2	95,7
Askorbin turşusu	10,46	10,19	97,4	9,9	94,6
Sərbəst kotexinlər	53,62	34,12	64,3	24,64	46,5
Qaragöz					
B qrup vitaminləri:					
Tiamin	0,36	0,35	97,2	0,35	97,2
Pantoten turşusu	0,44	0,42	95,6	0,42	95,6
Piridoksin	0,16	0,15	93,7	0,14	87,5
Nikotin turşusu	9,7	9,7	100	9,7	100
Biotin	0,0032	0,0032	100	0,0031	100
Inozit	190,8	187,6	98,2	182,8	95,9
Askorbin turşusu	13,0	12,72	97,8	12,35	96,5
Sərbəst kotexinlər	58,0	43,34	74,7	25,51	44,0

Seçilmiş üzüm sortlarının saxlanma müddətini 10 aya qədər uzatmaq üçün onu mənfi 40^0C-də dondurub mənfi 18-20^0C-də dondurulmuş vəziyyətdə saxlamaq lazımdır. Dondurulmuş üzüm gilələrində həyati proseslər dayanır, nəticədə hüceyrədə insan orqanizmi üçün vacib olan əsas qiymətli maddələr konservləşir. Dondurulmuş üzümün polietilen torpaqlarda saxlanması suyun və qida maddələrin buxarlanması nəticəsində kütlə itkisinin və mikrobioloji xəstələnmənin qarşısını demək olar ki, aradan qaldırır. Gilələrin partlamasının qarşısını almaq və salxımın bütövlüyünü qorumaq üçün üzümün dondurulması və donunun açılmasını xüsusi karton bağlamalarda aparmaq sonradan isə polietilen plyonkalara yerləşdirmək lazımdır.

ƏDƏBİYYAT

1. Э Алмаши, Л.Эрдели, Т.Шарой. Быстрое замораживание пищевых продуктов.- Москва: "Легкая и пищевая промышленность", -1981, - 406с.
2. Аверин Г.Д.,Журавкая Н.К. и др. Физико-технические основы холодильной обработки пищевых продуктов. -Москва: -2015, -350с.
3. Филиппов В.Н.,Кременевская М.Н.,Куцакова В.Е.Технологические основы холодильной технологии пищевых продуктов. -Москва: -2014,-568 с.

STORAGE OF FROZEN GRAPES

Elchin Mamedov
e.memmedov @uteca.edu. az
Fizuli Musayev
f.musayev @uteca.edu. az
Azerbaijan Technological University

Recently, the storage of fruits and berries in refrigerators has become widespread in the Republic of Azerbaijan. Among them there is a workshop with a capacity of 1000 tons, in which you can store fruits and vegetables in a frozen state.

In Azerbaijan, some varieties of grapes can be stored fresh for 3-4 months. However, in this case, the losses are great. Taking this into account, we were interested in the importance of freezing and preserving such a valuable berry as grapes for a long time.

Key words: fast freezing; biologically active substances; hard and crispy crust; bursting berries.

BİOKİMYƏVİ TƏRKİBƏ GÖRƏ ƏTRAF MÜHİT AMİLLƏRİNƏ QARŞI DAVAMLI VƏ TƏHLÜKƏSİZ BADIMCAN SORT NÜMUNƏLƏRİNİN SEÇİLMƏSİ

Fəxrəddin Ağayev
fexreddin.agazade24@gmail.com
İradə Əliyeva
Nazlı Xubanova
Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu

Torpaq-iqlim şəraitindən, becərmə texnologiyasından, becərilən sortların bioloji xüsusiyyətlərindən asılı olaraq badımcan meyvələrinin biokimyəvi tərkibi xeyli dərəcədə dəyişilir. Ədəbiyyat məlumatlarına görə, inkişafdan asılı olaraq ba dımcan meyvələrində quru maddə 7,0-11,0 %, şəkərlər 2,7-4,0 %, zülallar 0,6-1,1 %, yağlar 0,1-0,4% arasında tərəddüd edir [1;2]. Badımcan meyvələrində göstərilən maddələrlə yanaşı, həmçinin çoxlu mineral elementlər (kalium, fosfor, kalsium və dəmir duzları), karotin (provitamin A), B və P qrupu vitaminləri, C vitamini vardır [1;3]. M.M.Yakubovun tədqiqatlarına görə, gübrə variantlarından asılı olaraq Avrora badımcan sort nümunəsinin meyvələrində 7,0-8,93 % quru maddə, 2,3-3,6 % şəkər, 3,87-4,17 mq/100 q (nəm kütlədə) askorbin turşusu, 44,8-244,7 mq/kq nitratlar toplanır [6]. Ədəbiyyat məlumatlarına görə, müxtəlif badımcan sortlarında askorbin turşusunun (vitamin C-nin) miqdarı 5,0-15,0 mq/100 q, nikotin turşusunun miqdarı 0,60 mq/100 q-a çatır [2;5]. Biokimyəvi tərkibin zənginliyinə görə badımcan meyvələri insan organizimində ürək-damar fəaiyyətini yaxşılaşdırır, duz balansını normallaşdırır, qaraciyərin, böyrəyin, mədə-bağırsaqın traktının işinə yaxşı təsir göstərir, hüceyrə membranlarının zədələnməsinin qarşısını alır, xərçəng xəstəliklərinin miqdarını azladır, qanda xolesterinin miqdarını aşağı salır, organizimdən artıq mayenin çıxarılmasına kömək edir, tənginəfəsliyi azaldır, maddələr mübadiləsini yaxşılaşdırır [2; 3]. Badımcan meyvələrinin həmçinin, atheresklerozda, piylənmədə, podaqrada, metabolik pozulmalarda və digər xəstəliklərdə istifadəsinin yaxşı təsir göstərməsi barədə də məlumatlar vardır [2; 4].

2023-2024- cü illərdə "Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu" (TETİ) publik hüquqi şəxsin Abşeron Yardımçı Təcrübə Təsərrüfatının boz-qonur, zəif humuslu (1,5-1,8 %), mineral maddələrlə zəif təchiz olunmuş torpaqlarında müxtəlif mənşəli 28 badımcan kolleksiya nümunəsi meyvələrinin biokimyəvi tərkibi öyrənilmişdir. Əkindən qabaq torpağa 20 t peyin və $P_{120}K_{100}$ (təsiredici maddə hesabı ilə) verilmiş və əkindən 20 gün sonra 1-ci yemləmə (N_{40} P_{20} K_{10}), meyvə əmələ gəlməsi fazasında 2-ci yemləmə (N_{40} P_{20} K_{10}), meyvələrin formalaşması fazasında (N_{30} P_{20} K_{10}) 3-cü yemləmə aparılmışdır.

Tədqiqatın nəticələri göstərmişdir ki, öyrənilən kolleksiya nümunələrində quru maddənin miqdarı 7,51-18,05%, ümumi şəkərlərin miqdarı 2,50- 6,80%, ekstraktiv maddələrin miqdarı (hüceyrə şirəsində həll olan maddələr) 3,85-7,38%, ümumi turşuluq 0,12-0,43%, nitratların miqdarı 32,3-111,8 mq/kq və şəkərlərin turşuluğa nisbəti 6,25-40,77 arasında dəyişir.

Kimyəvi tərkibin belə geniş intervalda dəyişməsi həm ayrı-ayrı komponentlər üzrə, həm də biokimyəvi göstəricilərin kompleksinə görə badımcan nümunələrini seçməyə imkan verir ki, onlar da təhlükəsiz, ekoloji cəhətdən təmiz məhsul almaq üçün aparılan seleksiyadan ötrü qiymətli donorlar ola bilər. Belə ki, quru maddənin ən yüksək miqdarı ilə 265 (14,76%), 161(14,78%), 243(15,03%), 69(15,55%), 236(15,65%), 259(15,78%), 170/A (16,53%), 177(18,05%) sortnümunələri səciyyələnmişlər. Bu nümunələrin demək olar ki, hamısı (161 nümunəsindən başqa, onda şəkərlərin və ekstraktiv maddələrin miqdarı müvafiq olaraq 4,32 və 5,42% təşkil edir) ilə səciyyələnir. Ümumi turşuluğun ən yüksək səviyyəsi ilə 198 (0,32%), 141(0,30%), 170/A(0,33%), 183(0,43%), 200/A(0,40%), 736(0,42%) seçilirlər.

Tərəvəz bitkilərinin qiymətləndirilməsi zamanı əksər hallarda şəkərlərin və ümumi turşuluğun səviyyəsi deyil, bu göstəricilərin kütlə nisbətinə diqqət yetirilir. Belə ki, bu nisbət 8-dən az olduqda tərəvəz yararsız, yüksək olduqda isə keyfiyyətli və təhlükəsiz sayılır. Əgər bu meyar əsas götürülərsə, onda demək olar ki, 200/A-dan başqa, bütün kolleksiya nümunələrinin meyvələri istifadə üçün bütün standartlara cavab verir. Onlarda bu nisbətin qiyməti 8,77-40,77 təşkil edir. Bununla belə, bu göstəriciyə görə 153(27,94), 759(23,19), 177(34,68), 257(37,25) və 255(40,77) xüsusi seçilirlər ki, onları ətraf mühitin əlverişsiz amillərinə qarşı davamlı sortların yaradılmasında valideyn formaları kimi istifadə etmək olar.

Qeyd etmək lazımdır ki, öyrənilən kolleksiya nümunələrinin meyvələrində toksik maddələrin miqdarı bu tərəvəz növü üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müəyyən etdiyi icazə verilən həddən (300 mq/kq) 2,68-9,29 dəfə azdır. Yəni tədqiq edilən kolleksiya nümunələrinin meyvələri qida təhlükəsizliyi baxımından heç bir təhlükə yaratmır. Tədqiq edilən nümunələrdə toksik maddələrin kifayət qədər az toplanmasına baxmayaraq, gələcək ekoloji təhlükəsiz məhsul alınması istiqamətində aparılacaq seleksiya üçün onların arasından xüsusi əhəmiyyət kəsb edə biləcək nümunələr seçmək mümkündür. Belə nümunələrə 170/A (32,3mq/kq), 236(33,5), 241/A(35,5), 258(35,8), 42(37,0), 157(38,2) və 200/A(38,2 mq/kq) aid edilə bilər.

Aparılan tədqiqat nəticəsində biokimyəvi göstəricilərin kompleksinə görə altı kolleksiya nümunəsi seçilmiş və onlar gələcəkdə keyfiyyətə görə aparılacaq seleksiya üçün qiymətli donorlar kimi seleksiyaçılara tövsiyə edilmişdir. Bu nümunələrə 255 (quru maddə 14,70 %, ümumi şəkərlər 5,30 %, ekstraktiv maddələr 6,70 %, ümumi turşuluq 0,13%, şəkərlər/turşuluq nisbəti 40,77 və nitratlar 44,5 mq/kq), 69 (müvafiq olaraq 15,55; 4,75; 5,88; 0,28; 8,99 və 43,2), 236 (15,65; 5,90; 7,22; 0,42; 14,25 və 33,5), 259 (15,78;

4,67; 5,89; 0,16; 29,19 və 43,2), 170/A (16,53; 6,10; 7,38; 0,33; 18,49 və 32,3) və 177 (18,05; 5,55; 6,69; 0,16; 34,69 və 69,8) nümunələri aid edilə bilər.

ƏDƏBİYYAT

1. E.İ.Allahverdiyev, F.N.Ağayev, Ə.T.Əsgərov və b. Tərəvəzçilik ensiklopediyası (Terminlər, anlayışlar və şərhlər) /– Bakı: " Şərq-qərb" ASC, - 2020, - 840 s.
2. М.И.Мамедов(и др.) Баклажан (Solarum SPP) Москва: ВНИИСООК, -2015, -264 с.
3. Понагушина А.А., Рябцева Н.А. Проблемы получения экологически чистой продукции // Приоритетные направления инновационного развития сельского хозяйства,1том. Нальчик: ФБГОУ в Кабардино-Балкарской ГАУ. – 2020, - с.55-52.
4. В.Ф Пивоваров, А.В. Солдатенко, О.Н. Пышная и.др. Овощеводство одно из приоритетных направлений сельско-хозяйственного производства // Овощи России. Москва: - 2020, -N1, -с.3-15.
5. Химический состав баклажанов. 11 июнь 2020 URL: / https // newsimyseldon.com.
6. Якубов М.М. Влияние различных норм минеральных и органических удобрений на рост и развитие урожайности баклажана на сероземах в условиях Узбекистана // Научное обеспечение отрасли овощеводства России в современных условиях(сборник научных трудов). Материалы международной научно-практической конференции 30.11 2015 -Москва: ФБГНУ ВНИИО. -2015. - с.437-444.

SELECTION OF RESISTANT AND SAFE EGGPLANT VARIETIES AGAINST ENVIRONMENTAL FACTORS ACCORDING TO BIOCHEMICAL COMPOSITION

Faxraddin Agayev
fexreddin.agazade24@gmail.com
Irada Aliyeva
Nazlı Khubanova
Scientific Research Institute of Vegetable Growing

In 2023-2024, biochemical composition of the fruits of 28 eggplant collection samples of various origins was studied on the gray-brown sails of the Absheron Auxiliary Experimental Farm of the "Vegetable Growing Scientific Research İnstitute" public legal entity. As a result of the study samples that differed in individual biochemical indicators and the complex of these indicators were selected and recommended to breeders to obtain safe, ecologically pure product. Samples selected for a complex of biochemical indicators can be valuable initial donors for future selection for quality and adaptability. Refers to such examples: 255(dry matter-14,70 % total sugars-5,30 %, extractive subtances-0,70 %, total acidity-0,13 %, sugars/acidity-40,77 and nitrates-44,5 mg/kq), 69 (15,55; 4,75; 5,88; 0,28; 8,99 and 43,2 respectively), 236 (15,65; 5,90; 7,22; 0,42; 14,25 and 33,5 respectively), 259 (15,78; 4,67; 5,89; 0,16; 29,19 and 43,2 respectively), 170/A (16,53; 6,10; 7,38; 0,33; 18,49 and 32,3 respectively) və 177 (18,05; 5,55; 6,69; 0,16; 34,69 and 69,8 respectively).

Key words: eggplant, collection samples, unital donors, selection, ecologically pure products, adaptablity.

TƏRƏVƏZ XAMMALINDAN PEKTİN POLİSAXARİDİNİN EKSTRAKSİYASI

Sevda Adıgözəlova
s.adigozalova63@gmail.com
Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu

Tərkibində təminatlı pektin olan tərəvəz əsaslı funksional içkilərin profilaktiki qidalanma rasionuna daxil edilməsi pektinin gündəlik istifadə dozasını nizamlamağa imkan verir. Pektinli içkilərin daha səmərəli texnoloji vasitə hesab edilməsi pektinin maye mühitində hidratlaşmış formada olub insan orqanizminə daha səmərəli fizioloji təsir göstərməsi ilə əlaqədardır. Tərkibində pektin olduğundan belə içkilərin istehlakı orqanizmin su balansını tənzimləyir, həmçinin ağır metal ionlarından təmizləyir və bununla da əlverişsiz ətraf mühit amillərinə qarşı orqanizmin müqavimətni artırır [1].

Pektinin xassələri xammal mənbəyindən, alınma üsulundan və onun parametrlərindən asılı olaraq fərqənir. Pektinin xassələrini qalaktron turşusu, eterifikasiya və polimerizasiya, molekulyar kütlə və s. kimi fiziki-kimyəvi göstəricilər müəyyən edir. Yüksək dərəcədə metilləşmiş pektinlər (eterifikasiya dərəcəsi>50%) az metilləşmiş pektinlərlə (eterifikasiya dərəcəsi <50%) müqayisədə daha yaxşı həll olur. Həllolma qabiliyyəti yüksək səviyyədə efirləşmiş və aşağı molekulyar çəkisiyə malik pektin nümunələrində üstünlük təşkil edir. Metoksil qrupundan məhrum olmuş pektinlər isə suda həll olmur. Ümumiyyətlə, həllolma qabiliyyəti efirləşmə dərəcəsi 60% - dən çox olan pektin polisaxaridlərində daha yaxşı, efirləşmə dərəcəsi 40% - dən az olan pektin polisaxaridlərində daha zəif olur [3].

Pektin polisaxaridlərinin özlük yaratmaq qabiliyyəti: eterifikasiya dərəcəsindən, pektin məhlulunun qatılığından, molekulyar kütləsindən, temperaturdan və elektrolitin iştirakından asılıdır. Temperaturun artması özlüyün zəifləməsinə səbəb olur [4].

Pektinin kompleks yaratmaq aktivliyi əsasən qalaktron turşusunun karboksil qruplarının efirləşmə dərəcəsindən asılı olur. Karboksil qrupunun mövcudluğu pektin polisaxaridlərinin polielektrolit xassələrini müəyyən edir. Pektinin kompleks yaratmaq aktivliyi, eyni zamanda xammalın mənşəyindən asılı olur. Tərəvəzlər pəhriz lifinin əsas mənbəyidir. Müəyən olunmuşdur ki, tərəvəz mənşəli pektin maddələri kiçik molekul kütləsinə, zəif efirləşmə dərəcəsinə malik olub, onlarda kompleks əmələ gətirmə kimi funksional xüsusiyyət yüksəkdir. Bu xüsusiyyət tərəvəz pektinlərdən profilaktiki qidalanmada, qida və tibbi sənayenin digər sahələrində istifadəsinə imkan verir.

Meyvə pektinləri yüksək dərəcədə metilləşmiş olduğundan onlarda kompleks əmələ gətirmə zəif, komalar yaratmaq qabiliyyəti isə yüksəkdir. Bu da onların qida sənayesində - xüsusi ilə jele - lokum istehsalında, sud əsaslı məhsulların istehsalında tətbiqinə yol açmışdır. Yüksək metilləşmiş pektinlər komaları hidrogen əlaqələri hesabına yaşadır, zəif metilləşmiş pektinlərdə isə koma qarşılıqlı təsir nəticəsində sərbəst karboksil qruplarının polivalent metal ionlarını möhkəm karkas şəklində bağlaması ilə yaranır.

Yabani bitkilər təbiətdə sərbəst şəkildə yetişən, becərilmədən təbii şəraitdə inkişaf edən və yüksək miqdarda bioaktiv maddələr toplayan bitkilərdir. Onların tərkibində antioksidantlar, fenol birləşmələri, flavonoidlər, taninlər, alkaloidlər, C vitamini, efir yağları və digər faydalı komponentlər mövcuddur. Bu maddələr orqanizmdə sərbəst radikalları zərərsizləşdirir, iltihab əleyhinə və immunostimulyator təsir göstərir. İtburnu, dağ nanəsi, cökə çiçəyi, qarağat yarpağı, böyürtkən, keçibuynuzu, zəfəran və digər yerli flora nümunələri bu baxımdan xüsusilə zəngin bioaktiv tərkibə malikdirlər. Yabani bitkilərdən əldə olunan tozlar qurudulmuş və üyüdülmüş formada daxilə qəbul üçün əlverişlidir və müxtəlif məhsullara xüsusən də içkilərə rahatlıqla əlavə edilə bilər. İçkilərin hazırlanmasında istifadə olunan bitki tozları əvvəlcədən gigiyenik normalara uyğun toplanır, təmizlənir, kölgədə və ya aşağı temperaturda qurudulur və sonra mexaniki üsulla incə toz halına salınır. Bu tozlar şirələrə, smuzilərə, bitki mənşəli içkilərə, çay əsaslı içkilərə və fermentasiya olunmuş məhsullara müəyyən proporsiyalarla əlavə edilir. Təcrübələr göstərir ki, bitki tozlarının içkilərə 1–5% aralığında əlavə olunması həm texnoloji cəhətdən uyğundur, həm də bioaktiv komponentlərin konsentrasiyasını artırır. Yüksək dozalar isə bəzi hallarda dad və rəngin dəyişməsinə səbəb ola bilər. Yabani bitki tozları əlavə olunmuş içkilər bir sıra göstəricilər üzrə analiz olunur [1].

Polifenol tərkibi – Folin-Ciocalteu metodu ilə ölçülür. Yabani bitki tozları əlavə olunan içkilərdə polifenol səviyyəsi nəzarət nümunələri ilə müqayisədə 2–3 dəfə yüksək olmuşdur.

Flavonoidlər – Alüminium xlorid metodu ilə müəyyən edilir.

Antioksidant aktivlik – DPPH və ya ABTS analiz metodları ilə ölçülür.

C vitamini miqdarı – Titrimetrik və ya HPLC analizləri ilə müəyyən edilir.

Bu göstəricilərin dəyərləndirilməsi göstərir ki, içkilərə əlavə edilən tozlar onların biofunksional dəyərini artırır və sağlamlıq üçün əlavə faydalar qazandırır.

Cədvəl. Yabani bitki tozları əlavə olunmuş içkilərin analiz cədvəli

Göstərici	İtburnu tozu (%)	Qarağat tozu (%)	Cökə çiçəyi (%)
Ümumi polifenollar (mg GAE/g)	4.94	3.75	2.68
Flavonoidlər (mg RE/g)	2.16	1.80	1.42
Antioksidant aktivlik (%)	45.83	38.50	32.10
C vitamini (mg/L)	739.7	612.3	498.6

İçkilərin istehlakçı qəbuluna və bazar uğuruna təsir edən əsas amillərdən biri onların sensor və texnoloji xüsusiyyətləridir. Bu xüsusiyyətlər məhsulun dadı, qoxusu, rəngi, görünüşü və teksturası kimi orqanoleptik parametrlərlə, eyni zamanda texnoloji baxımdan onun stabilliyi, saxlanma müddəti və işlənmə qabiliyyəti ilə əlaqədardır [2]. Xüsusilə funksional içkilər hazırlanarkən, onların yalnız qida dəyəri ilə deyil, həm də sensor cəlbediciliyi və istehsalat texnologiyasına uyğunluğu ilə seçilməsi vacibdir. Yabani bitki mənşəli tozların içkilərə əlavə olunması, məhsulun bioaktiv dəyərini artırmaqla yanaşı, onun orqanoleptik göstəricilərinə də əhəmiyyətli təsir göstərir. Bu əlavələr içkilərin rəngini daha təbii və doymuş edir, ətirli komponentlərlə zənginləşdirir və məhsula bitki mənşəli təravətləndirici dad qatır. Lakin bu təsirlər hər zaman müsbət olmaya bilər və əlavənin növü və miqdarından asılı olaraq içkinin acılığı, büzücülük dərəcəsi və bulanıqlıq kimi xüsusiyyətləri də dəyişə bilər.

Nəticə: Yabani bitki mənşəli tozların içkilərə əlavə olunması onların bioaktiv komponentlərlə zənginləşməsinə, beləliklə də funksional və sağlamlıq yönümlü məhsul kimi dəyərinin artmasına səbəb olur. İtburnu, dağ nanəsi, qarağat yarpağı, cökə çiçəyi və digər yerli flora nümunələri əsasında hazırlanmış tozların əlavə edilməsi nəticəsində içkilərdə polifenolların, flavonoidlərin, C vitamininin miqdarı artmış, antioksidant aktivlik əhəmiyyətli səviyyədə yüksəlmişdir. Bununla yanaşı, bu bitki tozları içkilərin sensor xüsusiyyətlərinə – rənginə, dadına, qoxusuna və ümumi qəbuluna – müsbət təsir göstərmiş, təbii görünüşlü və ətirli məhsulların alınmasına imkan yaratmışdır. Texnoloji baxımdan isə bu əlavələrin müəyyən nisbətlərdə istifadəsi məhsulun tərkibində sabitlik təmin etmiş, bəzi hallarda saxlama müddətini də uzatmışdır. Beləliklə, yabani bitki mənşəli tozlar əsasında hazırlanmış funksional içkilər, həm sağlamlıq üçün faydalı, həm də istehlakçıların estetik və dad tələblərinə cavab verən məhsul növü kimi qiymətləndirilə bilər. Bu yanaşma yerli bitki ehtiyatlarının dəyərə çevrilməsi, təbii resurslardan səmərəli istifadə və qida sənayesində innovativ həllərin tətbiqi baxımından perspektivlidir.

ƏDƏBİYYAT

1. Kaur C., & Kapoor H. C. (2001). Antioxidants in fruits and vegetables – the millennium's health. International Journal of Food Science & Technology, -36(7), -p.703–725.
2. Sakanaka, S., Tachibana, Y., & Okada, Y. (2005). Preparation and antioxidant properties of extracts of Japanese persimmon leaf tea (Kakinoha-cha). Food Chemistry, -89(4), -p.569-575.
3. Zielinska, A., & Nowak, I. (2014). Antioxidant properties of wild strawberry (Fragaria vesca L.) fruits. Journal of Food Science and Technology, -51(5), -p.1055-1061.
4. Dai, J., & Mumper, R.J. (2010). Plant phenolics: extraction, analysis and their antioxidant and anticancer properties. Molecules, 15(10), p.7313-7352.

EVALUATION OF BIOACTIVE COMPONENTS OF DRINKS WITH THE ADDITION OF WILD PLANT POWDERS

Nizami Tofiq oglu Huseynov[1]
nizik.official@gmail.com
Elsevar Baba oglu Farzaliyev[2]
elsevar.unec@gmail.com
Azerbaijan Technological University [1]
Azerbaijan State University of Economics [2]

In recent years, with the increasing interest in healthy nutrition, natural additives are preferred in the preparation of functional drinks. The aim of this study is to evaluate the change in bioactive components and increase in nutritional value of various types of wild plant powders (e.g., rose hips, mountain mint, currant leaves, linden flowers, etc.) as a result of adding them to drinks. The plant powders used in the experiment were collected from local flora, dried, powdered and mixed into various beverage bases (water, fruit juice, herbal tea). The addition of these powders increases the antioxidant activity of drinks, significantly increases the amount of beneficial components such as polyphenols, flavonoids and vitamin C. Also, the sensory properties of drinks, including color, taste and aromatic profile, changed positively. Chemical analyses have shown that herbal supplements enhance the therapeutic potential and health benefits of functional beverages. Adding wild plants in powdered form to beverages improves both their nutritional value and health-promoting properties. This approach opens up wide opportunities for more efficient use of natural resources and application of the potential of local flora in the functional food industry.

Key words: bioactive components, antioxidant activity, polyphenols, flavonoids, nutritional value, natural supplements.

ƏHALİNİN EKOLOJİ TƏMİZ ƏRZAQ MƏHSULLARI İLƏ TƏMİN OLUNMASI MƏSƏLƏLƏİNİN ARAŞDIRILMASI

Afət Ayyət qızı Qasmova
a.qasimova@atu.edu.az
Aymirə Rasim qızı Hüseynova
a.huseynova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Ekoloji təmiz məhsullar, tərkibində zərərli maddələrin miqdarı adi məhsullara nisbətən dəfələrlə az olan, normativlərə uyğun məhsullar hesab olunur. Ekoloji təmiz məhsullar mineral gübrələr, pestisidlər və digər texnogen təsirlərin olmadığı təmiz sahələrdən alınır. Təbii xammaldan minimal kənar qatqıların təsiri ilə alınan məhsulları da ekoloji təmiz hesab etmək olar. Ekoloji təmiz məhsullara bir çox Avropa ölkələrində orqanik məhsullar da deyilir. Avropa komissiyasının bu tipli məhsullara olan tələbləri əsasında sertifikatlaşdırılmış, təbii saxlama müddətinə malik, geni modifikasiya edilmiş komponentlərin, pestisidlərin, mineral gübrələrin, antibiotiklərin, boy hormonlarının, müxtəlif konservantların, antioksidantların, aromatizatorların, stabilizatorların, rənglərin, tamvericilərin və süni mənşəyə malik digər qatqıların tamamilə olmadığı təbii, ekoloji təmiz qida məhsulları başa düşülür.

Malların ekoloji təmiz olması onların etiketlərinə vurulan nişanlar ilə qeyd edilir. Müşahidələr göstərir ki, bu gün dünyada ekoloji təmiz qida məhsulları istehsalı imkanları baxımından bir sıra ölkələr daha böyük potensiala malikdir. Ekoloji təmiz qida məhsulları istehsal edən təsərrüfatların sayı Avropa, Asiya, Afrika və Latın Amerikası ölkələrində

böyük sürətlə artır. Məsələn, dünya üzrə ekoloji təmiz qida məhsulları istehlakının 70 faizi isə Şimali Amerika və Avropa ölkələrinin payına düşür.

Qeyd etmək lazımdır ki, sağlamlığın təmin olunması üçün insanların istifadə etdiyi ərzaq məhsulları standartlara cavab verməli və həyat üçün təhlükəsiz olmalıdır. Məsələn, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa görə hər bir istehlakçı istifadə etdiyi məhsulların keyfiyyət tərkibi haqqında məlumat almaq hüququna malikdir. Lakin təəssüflər olsun ki, ərzaq bazarında məhsulların keyfiyyət xüsusiyyətləri haqqında onlar tam lazımi məlumat verilmir. Ekoloji təmiz ərzaq məhsullarının istehsalı və əhalinin onlarla təmin edilməsi baxımından ölkəmizin mövcud imkanları və potensial ehtiyatları böyükdür. Onlardan daha səmərəli və məqsədyönlü istifadə edilməsi isə dövrümüzün tələbidir [2].

Son illərdə bu istiqamətdə normativ-hüquqi baza yaradılmış, müəyyən tədbirlər görülməyə başlanmışdır. Məsələn, ölkə Prezidentinin 13 iyun 2008 - ci il tarixli Sərəncamı ilə "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanun ölkəmizdə əhalinin, torpağın, suyun, bitkilərin və heyvanların sağlamlığını və təhlükəsizliyini təmin edən ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, emalı və dövriyyəsi ilə bağlı münasibətləri tənzimləyir.

Eyni zamanda, bu qanunda nəzərdə tutulmuş ekoloji təmiz kənd təsərrüfatı, ərzaq məhsullarının istehsal qaydaları, ekoloji təmiz kənd təsərrüfatında istifadəsinə icazə verilən təbii və qeyri-təbii vasitələrin siyahısı, bu subyektlərə verilən sənədin formasını və verilməsi qaydası nəzərdə tutulmuş ekoloji müşahidə və sertifikatlaşdırma qaydaları, akkreditasiya orqanlarının funksiyaları, beynəlxalq standartların tələbləri nəzərə alınmaqla bu tip məhsulların sertifikatlaşdırılması qaydaları, sertifikatların nümunəvi formaları, ekoloji təmiz kənd təsərrüfatı, ərzaq məhsullarının dövriyyəsi, markalanması, saxlanması və daşınması qaydalarının müəyyən edilərək lazımi tədbirlərin görülməsi isə ölkə hökumətinə tapşırılmışdır [1]. Əhalinin ekoloji təmiz məhsullarla təmin olunması üçün aşağıdakı tədbirlərin də görülməsini təklif edirik:

- ekoloji təmiz məhsulların istehsal həcmini artırmaq üçün kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan təsərrüfatlara, ölkə vətəndaşlarını zərərsiz ərzaqla təmin etdiklərinə görə, dövlət tərəfindən xüsusi güzəştlərin edilməsi;
- ekoloji təmiz məhsulların emal şəraitinin yüksək səviyyəli sanitariya-gigiyena qaydalarına uyğun olması, gigiyena standartlarının norma və tələblərinin yerinə yetirilməsi;
- buraxılan məhsulun ekoloji standartlara uyğunluğuna nəzarət üçün, ərzaq məhsullarının istehsalı ilə məşğul olan kənd təsərrüfatı qurumlarına ekoloji sertifikatın təqdim edilməsi;
- kənd təsərrüfatında tətbiqinə icazə verilən vasitələr istisna olmaqla sintetik mineral gübrələrdən, pestisidlərdən, boy hormonlarından (stimulyatorlardan), qida məhsulları istehsalı prosesində istifadə edilən sintetik qida əlavələrindən, anbarların və mal - qaranın saxlandığı binaların dezinfeksiyasında ekoloji təhlükə mənbəyi yaradan kimyəvi vasitələrdən imtina edilməsi;
- ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı prosesində genetik modifikasiya olunmuş orqanizmlər və onların törəmələrindən istifadə edilməsinə sərt qadağaların qoyulması;
- ekoloji cəhətdən təmiz ərzaq məhsullarının sağlamlıq üçün zəruri olduğu barədə ictimaiyyət içərisində geniş təbliğat işlərinin aparılması və əhalinin bu sahədə savadsızlığının aradan qaldırılması;
- təhlükəsiz və ekoloji təmiz ərzaq məhsullarının yaradılması istiqamətində sağlam məhsullar istehsalının yeni elmtutumlu texnologiyasının işlənib hazırlanması.

ƏDƏBİYYAT

1. "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli 818 nömrəli Fərmanı.
2. «Ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının markalanması Qaydası»nın təsdiq edilməsi haqqında. 6 noyabr 2018, N 474.

RESEARCH ON THE ISSUE OF PROVIDING THE POPULATION WITH ECOLOGICALLY CLEAN FOOD PRODUCTS

Afet Ayyat gizi Gasimova
a.qasimova@atu.edu.az
Aymira Rasim gizi Huseynova
a.huseynova@atu.edu.az
Azerbaijan Technological University

It should be noted that in order to ensure health, food products used by people must meet standards and be safe for life. In recent years, a regulatory and legal framework has been created in this direction, and certain measures have been taken. Measures to be taken to provide the population with ecologically clean products have been proposed**.**

Key words: ecologically clean products, state programs, measures to be taken.

YER ALMASININ SAXLANILMASI ZAMANI KİMYƏVİ TƏRKİBİNDƏ GEDƏN DƏYİŞİKLİKLƏRİN TƏDQİQİ

Aygün Arif qızı Hacıyeva
ami2011.65@mail.ru
Adilə Rövşən qızı Hüseynova
adilaguseynova061@gmail.com
Davud Mürşüd oğlu Babayev
babayevdavud071@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə ekoloji tarazlığın pozulması, iqlim şəraitinin kəskin dəyişməsi, ətraf mühitin çirklənməsi əhalinin sağlamlığının qorunmasına və qidalanma strukturunun pozulmasına öz təsirini göstərir. Dünyanın bir çox ölkələrində olduğu kimi, respublikamızda da əhalinin sağlam qida məhsulları ilə təmin edilməsi və qida təhlükəsizliyinin yaxşılaşdırılması istiqamətində islahatların aparılmasına baxmayaraq, qida ilə sıx bağlı olan bir sıra xəstəliklər ciddi ictimai sağlamlıq problemi olaraq müasir dövrümüzün qarşısında duran aktual məsələyə çevrilmişdir [3]. Bu məsələni həll etmək üçün alimlərimiz tərəfindən elm və səhiyyə sahəsində bir sıra tədqiqatlar aparılmışdır. Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, bir sıra sosial əhəmiyyətli xəstəliklərin, xüsusilə də şəkərli diabetin qarşısının alınması daha çox həllini tələb edən aktual məsələlərdən biridir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatna görə, sosial əhəmiyyətli xəstəliklər arasında şəkərli diabet ölüm hallarının sayına görə ən yüksək yerdə durur [2].

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, insanların sağlamlığını qoruyan, orqanizmdə maddələr mübadiləsini normallaşdıran, immunitet sistemini gücləndirən, təbabətdə müalicəvi əhəmiyyət kəsb edən, bir sıra xəstəliklərin yaranmasının qarşısının alınmasında perspektivli mənbə hesab edilən bitki mənşəli məhsullar respublikamızda böyük bir sahədə yetişdirilir.

Elmi ədəbiyyatların təhlilindən məlum olmuşdur ki, müasir dietologiyada inulin şəkərli diabetlə mübarizədə mühüm rol oynayır. Beləki, tərkibində yüksək miqdarda inulin olan bitki mənşəli xammal – yer alması, kasnı, ənginar, zəncirotu və s. təbabətdə şəkərli diabet xəstələrinin profilaktik müalicəsində mühüm əhəmiyyət kəsb edir [2]. Bu səbəbdən şəkərli

diabet xəstələrini il boyu ərzində yer almaası ilə təmin etmək üçün onun kök yumrularının uzun müddət saxlanılması istiqamətində tədqiqatlar aparılmışdır.

Aparılan elmi ədəbiyyatlardan və aparılan tədqiqat nəticələrindən müəyyən edilmişdir ki, yer almasının kök yumruları saxlanmaya qarşı davamsız olub, açıq havada tez xarab olur. Onun uzun müddət saxlanılmasını təmin etmək üçün ən perspektivli qablaşdırma polimer torbalardan və polietilen kisələrdən istifadə etməkdir. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, yer almasının kök yumrularının saxlanması üçün ən yaxşı qablaşdırma polietilen kisələrdir [1].

Bitki məhsullarının saxlanması zamanı temperatur şəraitinin, atmosfer tərkibinin və rütubət səviyyəsinin düzgün seçilməsi əsas kimyəvi komponentlərin (şəkər, vitamin, qida lifləri) itkisinin miqdarını azaltmağa imkan verir [2]. Bununla əlaqədar olaraq, laboratoriya şəraitində yer almasının kök yumrularının uzunmüddətli saxlanılması istiqamətində aparılan tədqiqatlarda onun kimyəvi tərkibindəki dəyişiklikləri öyrənməyi qarşımıza məqsəd qoyduq.

Tədqiqat işi Azərbaycan Texnologiya Universitetinin (ATU) "Qida mühəndisliyi və ekspertizası" kafedrasının laboratoriyasında aparılıb. Tədqiqat işində tədqiqat obyekti kimi Göygöl rayonunda yetişdirilən yer almasından istifadə edilmişdir. Tədqiqatı aparmaq üçün yer almasının kök yumruları 3 üsulda saxlanılmışdır: açıq havada, polimer torbalarda və polietilen kisələrdə [1].

Tədqiqatın əsas məqsədi yer almasının kök yumrularının uzunmüddətli saxlanılması zamanı onun tərkibində olan C vitamininin miqdarının öyrənilməsidir.

Tədqiqat işi 5 ay davam etmişdir və hər ay ərzində aparılan tədqiqatın nəticələri qeyd edilmişdir. Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, normal atmosfer şəraitində 5 ay müddətində saxlanılan yer almasının kök yumrularında kütlə itkisi 50%-ə çatdıqda, onlarda C vitamininin izləri aşkar edilmişdir. 5 ay müddətində polimer torbalarda saxlanılan yer almasının kök yumrularında C vitamininin itkisi 45%, polietilen kisələrdə olanlarda isə 15%-dir. Deməli, 5 ay müddətində polietilen kisələrdə saxlanılan yer almasının kök yumrularında olan C vitaminin miqdarı 85% təşkil edir ki, bu da polimer torbalarda saxlanılan kök yumrularından 40% çoxdur.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, yer almasının kök yumrularının yüksək keyfiyyətdə uzun müddətli saxlanmsını təmin etmək üçün ən əlverişlii qablaşdırma polietilen kisələrdir.

Apardığımız tədqiqat işindən belə nəticəyə gəlmək olar ki, Azərbaycan respublikasının Göygöl rayonu ərazisində yetişdirilən yer almasından şəkərli diabet xəstələri üçün tərkibində yüksək miqdarda inulin olan müxtəli növ profilaktik və müalicəvi konserv məhsullarını il boyu ərzində istehsal etmək məqsədilə kök yumrularının uzun müddət saxlanılması mümkündür.

ƏDƏBİYYAT

1. Hacıyeva A.A., Hüseynova A.R., Babayev D.M. Müxtəlif şəraitdə saxlanılan yer almasının müqayisəli təhlili. // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş "Dördüncü sənaye inqilabı dövründə elm və texnologiyaların mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları.- Gəncə.: ATU, 2024, səh. 94 - 96.

2. Катренко Л.В. Топинамбур. Источник целебной фруктозы. СПб.: «ДИЛЯ», 2011.- 144с.

3. Коробкин В.И. Экология и охрана окружающей среды: учебник для студ. вузов / В. И. Коробкин, Л. В. Передельский. - М.: КНОРУС, 2013. - 336 с.

STUDY CHANGES IN THE CHEMICAL COMPOSITION OF TOPINAMBUR DURING STORAGE

Aygun Hajiyeva
ami2011.65@mail.ru
Adila Huseynova
adilaguseynova061@gmail.com
Davud Babayev
babayevdavud071@gmail.com
Azerbaijan Technological University

As a result of the research, it was determined that the prevention of a number of socially significant diseases, especially diabetes, is one of the most urgent issues that requires further resolution. In order to provide diabetic patients with Jerusalem artichoke throughout the year, research has been conducted on the long-term storage of its tubers.

The main objective of the study is to study the amount of vitamin C contained in Jerusalem artichoke tubers during long-term storage. As a result of the conducted studies, it was determined that when the mass loss in Jerusalem artichoke tubers stored for 5 months under normal atmospheric conditions reached 50%, traces of vitamin C were detected in them. The loss of vitamin C in Jerusalem artichoke tubers stored in polymer bags for 5 months was 45%, and in those in polyethylene bags it was 15%.

From our research, we can conclude that it is possible to store the tubers for a long time from Jerusalem artichoke grown in the Goygol region of the Republic of Azerbaijan in order to produce various types of preventive and therapeutic canned products containing high amounts of inulin for diabetics throughout the year.

Key words: Jerusalem artichoke, inulin, polymer bags, polyethylene bags, storage, vitamin C, preventive and therapeutic canned products.

AZƏRBAYCANDA İSTEHSAL OLUNAN ÜZÜM ŞƏRABLARININ İSTEHLAK XASSƏLƏRİ VƏ KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

Fuad Sadiq oğlu Rəsulov
fuad5055@bk.ru
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycanda üzümçülük və şərabçılıq qədim tarixə malik olmaqla, bu sahə ölkənin kənd təsərrüfatı və sənaye sektorunun mühüm istiqamətlərindən biridir. İqlim şəraiti və torpaq münbitliyi Azərbaycanda yüksək keyfiyyətli üzüm sortlarının yetişdirilməsinə imkan yaradır. Bu da öz növbəsində müxtəlif növ şərab məhsullarının istehsalına zəmin yaradır. Məqalədə Azərbaycanda istehsal olunan üzüm şərablarının istehlak xassələri və keyfiyyət göstəriciləri elmi əsaslarla tədqiq edilir, şərabların növlərinə görə kimyəvi və orqonoleptik xüsusiyyətləri, eləcə də onların istehlak bazarında mövqeyi analiz olunur.

Azərbaycanda üzüm şərabları əsasən qırmızı, ağ, rozə və desert növlərində istehsal olunur. Hər bir şərab növü onun hazırlandığı üzüm sortuna, texnoloji emal prosesinə və saxlanma müddətinə görə fərqlənir. Məsələn, "Mədrəsə", "Saperavi", "Bayanshira", "Kara Qənd", "Rkatsiteli" kimi üzüm sortlarından hazırlanan şərablar tərkibindəki şəkər, turşuluq, spirt miqdarı və dad buketinə görə istehlakçılar tərəfindən seçilir. Qırmızı şərablar adətən daha yüksək tanin tərkibinə, tünd rəngə və kompleks aromatik buketə malikdir. Ağ şərablar isə yüngül turşuluq və daha incə dad xüsusiyyətləri ilə fərqlənir. Rozə şərablar, ağ və qırmızı şərabların xüsusiyyətlərini birləşdirərək daha yüngül və meyvəvari notlara malik olur. Desert şərabları isə daha çox şəkərli tərkibi ilə seçilir və xüsusi hallarda istifadə olunur.

Şərabların əsas keyfiyyət göstəricilərinə aşağıdakılar daxildir: spirt dərəcəsi (%), ümumi turşuluq (g/dm³), şəkər miqdarı (g/dm³), pH göstəricisi, uçucu turşuların miqdarı,

taninlər və polifenollar. Spirt dərəcəsi adətən 9–14% arasında dəyişir və üzümün şəkərli tərkibindən və fermentasiya prosesindən asılıdır. Məsələn, "Şamaxı" və "Göygöl" şərablarında bu göstərici 11–13% civarındadır. Ümumi turşuluq şərabın saxlama qabiliyyətinə və dad balansına təsir göstərir. Şəkər miqdarı xüsusilə desert şərablarında 30–120 g/dm³ səviyyəsində ola bilər. Keyfiyyətli şərablarda pH göstəricisi 3.2–3.8 aralığında olur, bu da mikrobioloji sabitliyə və dad profilinə təsir edir. Tanin və polifenollar qırmızı şərabların əsas komponentləri olaraq onların antioksidant xüsusiyyətlərini artırır, həm də dadına sıxlıq və davamlılıq verir. Bu komponentlər xüsusilə "Saperavi" və "Mədrəsə" sortlarından hazırlanan məhsullarda yüksək olur.

Orqonoleptik qiymətləndirmə şərabın görünüşü, ətri, dadı və ümumi harmoniyasına əsaslanır. Peşəkar dequstatorlar tərəfindən həyata keçirilən bu prosesdə rəngin şəffaflığı və intensivliyi, aromatik buketin dolğunluğu və uyumlu dad balansı əsas götürülür. Qırmızı şərablarda giləmeyvə, gavalı, qarağat notları üstünlük təşkil edir. Ağ şərablar daha çox alma, armud və çiçək ətirləri ilə seçilir. Desert şərablarında isə bal, quru meyvə və karamel tonları hiss edilir. Məsələn, "Göygöl Ağ" şərabı incə floral ətri və balanslı dadı ilə, "Mədrəsə Qırmızı" isə güclü tanin tərkibi və tünd giləmeyvə buketi ilə fərqlənir.

Şərabın keyfiyyəti onun istehsaldan sonra düzgün saxlanmasından da asılıdır. Temperatur, işıq və nəm səviyyəsi şərabın yetişməsinə və dadının inkişafına birbaşa təsir edir. Qırmızı şərablar 12–16°C, ağ və rozə şərablar isə 8–12°C temperaturda saxlanmalıdır. İdeal şəraitdə, bəzi şərablar illərlə saxlanılaraq dad və aroma baxımından daha da zənginləşir. İstehlak baxımından, şərabların istifadəsi qida ilə uyğunlaşdırılmalıdır. Qırmızı şərablar əsasən ət yeməkləri ilə, ağ şərablar isə balıq və yüngül salatlarla daha uyğundur. Desert şərabları şirniyyatlarla və ya təkbaşına aperitif kimi qəbul edilir.

Yekun olaraq qeyd etmək olar ki, Azərbaycan şərabçılıq sənayesi son illərdə ciddi inkişaf yolundadır. İqlim, torpaq və üzüm sortlarının zənginliyi bu sahənin potensialını artırır. Yerli şərablar həm kimyəvi tərkibi, həm də orqonoleptik keyfiyyətləri baxımından beynəlxalq standartlara cavab verir. Bu isə onların daxili və xarici bazarda daha rəqabətədavamlı olmasına imkan yaradır.

ƏDƏBİYYAT

1. Həsənov R., Əzizov F. "Şərabçılıq texnologiyası". Bakı: Elm və Təhsil, 2020.
2. Məmmədov İ. "Azərbaycan şərabçılıq sənayesində innovasiyalar". Aqrar Elmlər, 2021.
3. Əliyeva G. "Orqonoleptik və kimyəvi analiz üsulları". Bakı: ADNA Nəşriyyatı, 2018.
4. International Organisation of Vine and Wine (OIV), "Compendium of International Methods of Wine and Must Analysis", 2020.

RESEARCH OF CONSUMPTION PROPERTIES AND QUALITY INDICATORS OF GRAPE WINES PRODUCED IN AZERBAIJAN

Fuad Sadig oglu Rasulov
fuad5055@bk.ru
Azerbaijan State University of Economics

This study investigates the consumer characteristics and quality indicators of grape wines produced in Azerbaijan. The analysis focuses on the types of wines commonly manufactured in the country-red, white, rosé, and dessert wines-and evaluates their chemical composition such as alcohol content, acidity, sugar level, and pH, alongside organoleptic properties like color, aroma, and taste balance. The research emphasizes the importance of grape variety, fermentation technology, and storage conditions on the final quality of wine. Results indicate that Azerbaijani wines meet international standards in terms of both composition and taste, which enhances their competitiveness in domestic and export markets.

Key words: viticulture, winemaking, mirage aroma, dessert wines.

İDXAL OLUNAN BUĞDA UNUNUN ÇÖRƏKBİŞİRİLMƏ XASSƏLƏRİNİN TƏHLİLİ

Eldəniz Bayramov
e.bayramov@atu.edu.az
Aytac Şəmmədova
aytadjshammadli@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Taxılçılıq - kənd təsərrüfatının strateji və çox mühüm əhəmiyyət kəsb edən sahəsidir. Apardığımız araşdırmalar göstərir ki, dünyada ekoloji vəziyyətin kəskin pisləşməsi ilə əlaqədar olaraq yerli buğda sortları və onlardan alınan unlar bir çox qida məhsullarının istehsalı üçün o qədər də yararlı deyil [1]. Yararsız unu çörəkbişirmə müəssisəsində istifadə etmək məqsədi ilə reseptura komponentlərini istehsalata hazırlamaq [6,7], vermək [8, 9] və onlara energetik təsir etmək [10, 11, 12] üçün müxtəlif üsul və vasitələr tətbiq edilir ki, bu da fiziki-kimyəvi proseslərin [13, 14, 15] optimal getməsinə, xəmirin strukturunun yaxşılaşmasına, nəticədə çörək məmulatlarının keyfiyyət göstəricilərinin yaxşılaşmasına səbəb olur. Bu səbəbdən çörək və digər unlu məmulatlarının istehsalı üçün buğda xaricdən idxal olunur [2]. İdxal olunan buğda unundan yerli buğda unlarının, eləcə də çörək məmulatlarının keyfiyyətinin yaxşılaşdırılmasında istifadə edilir. Ona görə idxal olunan buğda unlarının keyfiyyət göstəriciləri və istifadəyə yaralığı haqqında məlumat bazasının yaradılması günün aktual problemlərindən biridir.

İşin məqsədi – Azərbaycana idxal olunan buğda ununun keyfiyyət göstəricilərini və istifadəyə yararlığını tədqiq etmək, çörəkbişirmə üçün tövsiyələr hazırlamaqdır.

Tədqiqat obyetki – idxal olunan "Совет хозяюшки" ticarət nişanlı əla sort buğda unudur.

Tədqiqatın aparılma metodikası – unun çörəkbişirilmə xassələrinin təyini metodikasına əsaslanır. Unun çörəkbişirilmə xassələri məlum metodika üzrə "Gəncə-Dəyirman"ın laboratoriyasında yerinə yetirilmişdir [3, 4, 5].

Tədqiqatın predmeti – idxal olunan buğda ununun çörəkbişirilmə xassələrini səciyyələndirən keyfiyyət göstəricilərinin tədqiqidir.

Tədqiqatın praktiki əhəmiyyəti – alınmış nəticələr un və çörək istehsalı ilə məşğul olan kiçik və orta biznesin sahibkarları üçün faydalı ola bilər.

Nəticələrin müzakirəsi. Aparılan ekspertizanın nəticələri cədvəldə göstərilmişdir.

Ekspertiza nəticəsində müəyyən edilmişdir ki, idxal olunan buğda unlarından daha çox istifadə olunan unlardan biri də "Совет хозяюшки" ticarət nişanlı əla sort buğda unudur. Cədvəldən göründüyü kimi "Совет хозяюшки" əla sort buğda ununda yaş kleykovinanın miqdarı 30.6%, gluten indeksi 94.77, dartılma uzunluğu 12 sm olduğu üçün keyfiyyətinə görə I qrupa aid, ağlığı 64.4 vahid, düşmə sayı 355 san, külün miqdarı 0.529%, rəngi ağ, dadı - buğda ununa xas, qoxusu - buğda ununa xas, nəmliyi isə 12.8% olmuşdur.

Ekspertizanın nəticəsindən məlum olur ki, idxal olunan buğda unlarının çörəkbişirilmə xassələrinin öyrənilməsi yerli buğda unlarının keyfiyyətini yaxşılaşdırmağa və çörək məmulatları istehsalının optimal parametrlərini müəyyənləşdirməyə imkan verir. Bunun üçün yerli və idxal olunan buğda unlarının çörəkbişirilmə xassələrini xarakterizə edən keyfiyyət göstəricilərinin müqayisəli ekspertizası aparılmalı və tövsiyələr hazırlanmalıdır.

Cədvəl.

"Совет хозяюшки" buğda ununun çörəkbişirilmə xassələrini xarakterizə edən keyfiyyət göstəriciləri

Göstəricilərin adı	Göstəricilərin qiyməti		Nümunə miqdarı	
	NS üzrə	Faktiki	Yoxlanı-lanlar	NS-a Uyğunluq
Orqanoleptik *	-	uyğun	2 kq	Uyğundur
Mineral qatışığı miqdarı **	-	hiss olunmur	2 kq	Uyğundur
Nəmliyi, max.%	15.0	12.8	2 kq	Uyğundur
Külü, quru maddə hesabıyla, max.%	0.55	0.529	2 kq	Uyğundur
№43 ipək ələkdə qalıq, max.%	5	1.9	2 kq	Uyğundur
Yaş kleykovinanın miqdarı, min.%	28,0	30.6	2 kq	Uyğundur
Yaş kleykovinanın keyfiyyəti, qrup	min. II qrup	I qrup	2 kq	Uyğundur
Düşmə sayı, min. san	185	355	2 kq	Uyğundur
Metal-maqnit qatışığı, max. mq/kq	3.0	yox	2 kq	Uyğundur
Ziyanvericilərlə yoluxması	yol verilmir	yox	2 kq	Uyğundur
Rəngi, min.vahid	54	64.4	2 kq	Uyğundur

*Rəng : Ağ, yaxud açıq sarıya çalar ağ.
Dad : Buğda ununa xas tamlı, kənar tamsız, turş və acı tamsız.
Qoxu : Buğda ununa xas qoxulu, kənar qoxusuz, üfunətsiz və kif qoxusuz.
**Unu çeynədikdə xırçıltı hiss olunmamalıdır.

Nəticə. Beləliklə, aparılan tədqiqat işində müəyyən olunmuşdur ki, "Совет хозяюшки" əla sort buğda ununun çörəkbişirilmə xassələri tələblərə cavab verir və çörəkbişirmə üçün yararlıdır. İdxal olunan buğda unlarının çörəkbişirilmə xassələrinin öyrənilməsi yerli buğda unlarının keyfiyyətinin yaxşılaşdırılmasına və çörək istehsalının optimal parametrlərini müəyyənləşdirməyə imkan verəcək. Bunun üçün gələcəkdə yerli və idxal olunan buğda unlarının keyfiyyət göstəricilərinin müqayisəli ekspertizası aparılmalıdır.

ƏDƏBİYYAT

1. Шаммадова, А.З., Байрамов, Э.Э. Определение значимого органолептического показателя качества муки // Техника и технология пищевых производств: тезисы докладов XIII Междунар. науч. конф. студентов и аспирантов, – Могилев: БГУТ, – 18 апреля – 19 апреля, – 2024, – 468 с, – с. 76.
2. Bayramov, E.Ə., Şəmmədova, A.Z. Azərbaycanda bütün növ un ehtiyatlarinin statistik təhlili // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş "Dördüncü sənaye inqilabı dövründə elm və texnologiyaların mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, – Gəncə: ATU, – 6 may –7 may, – 2024, – 435 s., – s. 109-111.
3. Bayramov, E.Ə. Buğda ununda yaş kleykovinanın miqdarının təyin edilməsi: metodik göstəriş / – Gəncə: Əsgəroğlu, – 2017, – 28 s.
4. Bayramov, E.Ə. Buğda ununda yaş kleykovinanın keyfiyyətinin təyin edilməsi: metodik göstəriş / – Gəncə: Əsgəroğlu, – 2017, – 28 s.
5. Bayramov, E.Ə. Laboratoriyada hazırlanmış çörək nümunəsinə əsasən unun çörəkbişirilməyə yararlığının təyini : metodik göstəriş / – Gəncə: Əsgəroğlu, – 2017, – 40 s.
6. Байрамов, Э.Э. Совокупность способов и средств подготовки рецептурных компонентов теста // – Краснодар: Известия вузов. Пищевая технология, – 2016. №4(352), – с. 106-109.
7. Байрамов, Э.Э. Способы и средства подготовки рецептурных компонентов теста // Инновационные технологии в науке и образовании: сборник статей VI

Международной научно-практической конференции, – Пенза: МЦНС, Наука и просвещение, – 5 ноября, – 2017. – 286 с. – с. 107-110.
8. Байрамов, Э.Э. Совокупность способов и средств подачи рецептурных компонентов теста в тестомесильную машину // – Краснодар: Известия вузов. Пищевая технология, – 2017. №4 (358), – с. 91-94.
9. Байрамов, Э.Э. Способы и средства подачи рецептурных компонентов теста // Наука – главный фактор инновационного прорыва в пищевой промышленности: сборник научных трудов юбилейного форума, посвященного 85-летию со дня основания ФГАНУ «Научно-исследовательский институт хлебопекарной промышленности», – Москва: Буки веди, – 23 ноября – 24 ноября, – 2017, – 280 с. – с. 245-246.
10. Байрамов, Э.Э., Годжаев, Т.Б. Энергетические воздействия, условия и средства подачи энергии при замесе теста // XI Международная научная конференция студентов и аспирантов «Техника и технология пищевых производств»,– Могилев: МГУП, – 18 апреля – 19 апреля, – 2019, – 425 с. с. 83.
11. Байрамов, Э.Э. Совокупность энергетических воздействий, условий и средств передачи энергии рецептурным компонентам теста // Известия вузов. Пищевая технология, – 2018. №2-3 (362-363), – с. 108-112.
12. Байрамов, Э.Э. Энергетические воздействия, условия и средства подачи энергии рецептурным компонентам теста // Актуальные направления инновационного развития животноводства и современных технологий продуктов питания, медицины и техники: сборник статьей международная научно-практической конференции, пос. Персиановский: Донской ГАУ, 28 ноября–29 ноября, 2017, 339 с. – с. 187-190.
13. Байрамов, Э.Э. Совокупность физико-химических процессов, развивающихся при замесе теста // – Москва: Хлебопродукты, – 2019. № 1, – с. 52-55.
14. Байрамов, Э.Э. Физико-химические процессы, развивающиеся при замесе теста на границе раздела компонентов // – Москва: Хлебопродукты, – 2019. №5, – с. 62-65.
15. Bayramov, E., Nabiev, A. Physical and chemical processes developing in the mass of components during dough mixing // – Odessa: Food science and technology. – 2019. Vol. 13, Iss. 3, p.10-17.

ANALYSIS OF BAKING PROPERTIES OF IMPORTED WHEAT FLOUR

Eldaniz Bayramov
e.bayramov@atu.edu.az
Aytac Shammadova
aytadjshammadli@gmail.com
Azerbaijan Technological University

The article analyzes the baking properties of imported wheat flour "Совет хозяюшки". It is established that wheat flour "Совет хозяюшки" is suitable for baking bread. The examination of baking properties of imported wheat flour shows that the use of imported wheat flour will further improve the quality of locally produced flour and determine the optimal parameters of bread baking.

Key words: flour, wheat, gluten, production.

BRENDİ XAMMALININ MEXANİKİ VƏ FİZİKİ-KİMYƏSİ XÜSUSİYYƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ

Məhəmməd Məmmədzadə
memmedzade_2020@inbox.ru
Mehman İsmayılov
m.ismayilov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Müxtəlif növ xammallardan alkoqollu içkilərin hazırlanmasının tarixi qədim dövrlərə gedib çıxır. Eramızdan əvvəl 7 min Şumerlər arpadan 247 pivə istehsal etdilər; Şumerlər və misirlilərin 5500 il əvvəl üzümdən şərab hazırladıqları məlumdur. Eramızdan əvvəl bağçılıq və şərabçılıq 2000 il əvvəl Anadoludan Yunanıstana, 600 il əvvəl isə İtaliya vasitəsilə Avropaya yayılmış, şərabçılıq inkişaf etmişdir. Şərabın assuriyalılar, hetlər və finikiyalılar tərəfindən istehsal edildiyi və bu bölgələrin həm də üzümün vətəni olduğu qeyd edilir. Anadoluda Hetlərdən sonra şərab istehsalı Romalılara, eramızdan əvvəl 2000-ci ildə Finikiyalılardan Yunanıstana yayıldı. Şərabçılığın tənəzzülü Səlcuqlar dövründə və milli dövlətlərin yaranması zamanı müşahidə edilmişdir.

Ölkəmizdə yetişdirilən müxtəlif meyvələrdən əldə edilən şərabı distillə etməklə əldə edilən içki olan meyvə brendi istehsalının özünəməxsus xüsusiyyətləri vardır. Nəzərə alsaq ki, ölkəmizdə istehsal olunan üzümlər əsasən təzə, eləcə də şirələrin, şərabın və konyak şərab materialının istehsalı üçün istifadə olunur, onda meyvə brendi istehsalının vacibliyini başa düşmək olar. Buna ötən əsrin 80-ci illərinə nisbətən üzüm istehsalının 20-30 dəfə azaldığını da əlavə etsək, digər xammaldan istifadənin nə qədər vacib olduğu aydın olar. Ölkəmizin turizm baxımından əhəmiyyətinin artması müxtəlif xammallardan hər bir bölgəyə uyğun, fərqli dad xüsusiyyətlərinə malik içkilərin istehsalının əhəmiyyətini artırır[1].

Baxmayaraq ki, spirtli içki olan alma şərabının istehsalı yoxdur.Geniş yayılmış, bu növ şərab böyük miqdarda istehsal olunur. Alma şirəsinin fermentasiyası ilə əldə edilən alma şərabı,bir çox ölkələrdə, o cümlədən Fransa, Almaniya, Avstriya,İsveçrə, İngiltərə, Amerika və Rusiyada istehsal olunur.

Alma şərabının istehsalında almanın xüsusi sortlarından istifadə olunur. Turşuların, şəkərin və taninlərin yüksək tərkibi, yüksək şirə məhsuldarlığı (80%),balanslaşdırılmış bir dada sahib olmaq üçün meyvənin sıx pulpası. Alma şərab materialına çevrilərkən onun çeşidi və kimyəvi tərkibi xammal seçimində mühüm rol oynayan göstəricilərdir. Buna görə kimi içkilərin hazırlanması üçün xammalın düzgün seçilməsi problem olaraq qalır [2].

Alkoqolun miqdarı 70-80 faiz arasında dəyişir.Fermentasiyadan sonra preslənmiş Ceje ikiqat distillə edilir. Dəmləndikdən və distillə edilmiş su ilə yuyulduqdan sonra hazır spirtli içki kimi istehlak edilir; spesifik marka Alkoqol miqdarı həcmcə yüzdə 57 ilə 72 arasında dəyişir. Şərab və ya fermentləşdirilmiş şirənin distillə edilməsi və sonra əldə edilən məhsulun becərilməsi ilə hazırlanır[3].

Konyak-tünd spirtli içki olub, üzüm şərablarının distilləsindən alınmış konyak spirtini saxlayıb yetişdirməklə hazırlanır. Konyakla üzüm arağını eyniləşdirmək olmaz. Çünki, üzüm arağı üzümçülük qalıqlarından (cecə, maya və s.) hazırlanır. Digər tərəfdən konyak özünün qızılı-kəhrəba rənginə, xoşagələn ətrinə və s. görə üzüm arağından fərqlənir. Konyakın tündlüyü 40-57 h.% arasında dəyişir. Konyak ilk dəfə, təqribən 300 il bundan əvvəl Fransanın Şaranta vilayətinin Konyak şəhərində istehsal olunmağa başlanmışdır[3].

Gavalı arağı Macarıstan, Çexiya və Slovakiya, Almaniya və İsveçrədə məşhurdur. Ərik arağı Macarıstan, Çexiya və Slovakiyada, eləcə də İsveçrədə də məşhurdur. Brendi üzüm şərablarından və ya fermentləşdirilmiş meyvə şirələrindən hazırlanmış tünd spirtli içkidir [4]. Fransanın Şarente bölgəsi 16-cı əsrdən bəri bütün dünyada brendlərin istehsalında liderdir. "Brandewijn" holland dilində "qovrulmuş və distillə edilmiş" deməkdir.

Qaranlıqdan və hazırlanma üsulundan asılı olaraq üç növ brendi var. Tünd konyakların tərkibində 80-90% spirt var. Fermentasiya edilmiş şirənin və şirənin distillə edilməsi ilə əldə edilir. Fermentasiya üçün az miqdarda, həmçinin distillə edilmiş su ilə əvvəlcədən yuyulmuş tünd şərabların istehsalı üçün istifadə olunur.

Məlumdur ki, Qızıl Əhmədi alma sortu xaricdən gətirilən sortlardan əla xüsusiyyətlərinə və fərqli qiymətlərinə görə fərqlənir. Tədqiq olunan sortların mexaniki tərkibi bir-birindən fərqlənirdi. Golden Delicious çeşidinin meyvəsinin uzunluğu 67,61 mm, eni 73,80 mm; Fuji üçün müvafiq olaraq 64,33 mm və 80,67 mm; Qızıl-Əhmədidə 71,24 mm və 78,31 mm; Starkspur Golden Delicious çeşidinin uzunluğu 71,20 mm və eni 75,90 mm idi. Meyvələrin çəkisi və həcminə görə hesablanan meyvə sıxlığı ən yüksək Qızıl Əhmədi sortunda 1,09, ən aşağısı isə Fudje və Simirenko sortlarında 0,82 olub. Meyvə pulpasının sərtliyinə görə birinci yeri 7,86 kq/sm2 qiymətlə Qızıl Əhmədi sortuna aid edib, və son yer Starkspur Golden Delicious ilə 4,98 kq/sm2 qiymətində olur.

Araşdırmalar göstərib ki, yetişməmiş meyvələr acı və ya büzücü bir dada malikdir. Həll olunan maddələrin daha az miqdarı və daha yüksək olması səbəbindən "yaşıl alma"nişasta və turşuların miqdarı. Artıq yetişmiş almalardan alınan şirə fərqlidir.Aşağı məhsuldarlıq və hazırlanması və saxlanması çətinliyi səbəbindən həddindən artıq açıq bir aroma malikdir. Ətraf mühitin pH-ı asılı olaraq alma turşusunun konsentrasiyası dəyişə bilər. Alınan nəticələrə əsasən yüksək keyfiyyətli güclü içkilər üçün almanın payız və qış sortlarından istifadə edilməsi məqsədəuyğun hesab edilmişdir. Alma suyunun tərkibindəki üzvi turşular böyüməni yavaşlata bilməz. Maya, kif və bakteriya, mikrobların nəzarətsiz böyüməsi şirənin saxlama müddətini azaldan əsas amillərdən biridir.

ƏDƏBİYYAT

1.Fətəliyev H.K., Əliyeva Ş.E., Musayev T.M. Meyvə və giləmeyvə şərablarının texnologiyası / Bakı: -Ekoprint, -2018, -312 s.
2.Baloğlanova K.V., Fətəliyev H.K., Ələkbərov A.M. Kalvados əldə etmək üçün alkoqolsuz alma şirəsi istehsalının tədqiqi // Pivə və içkilər, - 2020, №3. - səh. 68-74.
3.Mikayılov.V.Ş.Qida məhsullarının dequstasiyası / Bakı: Azərbaycan Kooperasiya Universiteti, -2012, - 384 s.
4.Fətəliyev H.K.Şərabın texnologiyası / Bakı: Elm, 2011, 596 s.

STUDY OF MECHANICAL AND PHYSICO-CHEMICAL PROPERTIES OF BRAND RAW MATERIALS

Mahammad Mammadzade
memmedzade_2020@inbox.ru
Mehman Ismayilov
m.ismayilov@atu.edu.az
Azerbaijan Technological University

Grape production in Azerbaijan has decreased by 20-30 times compared to the 80s of the last century, it becomes noticeable how important it is to use other raw materials. The purpose of the work is to study and evaluate raw materials for the production of brandy. For this purpose, we studied different varieties of apple raw materials. The mechanical composition of the studied varieties differed from each other. Apple juice samples have a soluble dry matter content of 11.2-16.10 Brix, and about 90% of them are carbohydrates, mainly glucose, fructose and sucrose. It was found that 250 the Kızıl Akhmedi apple variety differs from imported varieties in its excellent characteristics and different prices.

Key words: brandy,apple, wine, Gizil Akhmedi.

QARĞIDALININ SORT VƏ NÜMUNƏLƏRİNİNDƏNLƏRİNDƏ ZEİN EHTİYAT ZÜLALLARININ POLİMORFİZMİ

Hamlet Bəykişi oğlu Sadıqov[1]
hamlet.sadiqov@yahoo.com
Alış Ömər oğlu Eyvazov[2]
eyvazovalis@gmail.com
Genetik Ehtiyatlar İnstitutu[1]
Bakı Dövlət Universiteti[2]

Zein zülalları qarğıdalı dənnin endospermindəki ümumi ehtiyat zülallarının 60%-ni təşkil edir. Qarğıdalı dənindəki prolamin zülallarına zeinlər deyilir, digərləri isə qeyri-zeinlər kimi təsnif edilir. Əsasən, zein etanol spirtində (C_2H_5OH) həllolma qabiliyyətinə və ardıcıllıq homologiyasına görə bir neçə növə təsnif edilir [1]. Zein üç zülal fraksiyasından ibarətdir: α-zein (ümumi zeinin 75%-dən 85%-ə qədəri), təxminən 19 kDa və 22 kDa molekulyar kütləyə malik iki polipeptiddən ibarətdir və 95% etanolda həll olur; β-zein (ümumi zeinin 10%-dan 15%-ə qədəri), 17 kDa molekulyar kütləyə malikdir və 60% etanolda həll olur; və γ-zein (ümumi zeinin 5%-dən 10%-ə qədəri), 27 kDa molekulyar kütləyə malikdir [2,3]. Bu gün dünyada əsasən qarğıdalının hibridləşməsindən alınmış F_1 hibrid toxumlar əkilib becərilir. Belə ki, heterozos effektinə görə F_1 hibrid toxumlarının dən və yaşıl kütlə məhsuldarlığı sortlara nisbətən 1.5 dəfə yüksək olur.

Aparılan tədqiqat işində *Zea mays* L. növünə aid 25 yerli və introduksiya edilmiş qarğıdalı nümunəsinin dənlərinin endospermisinin əsas hissəsi olan, zein ehtiyat zülallarının elektroforetik analizi aparılmış və zeinkodlaşdıran lokusların allellərinin nəzarət etdiyi elktroforetik komponentlər identifikasiya edilmişdir.Qarğıdalı nümunələrinin dənlərində zein ehtiyat zülallarının elektroforetik analizini apararkən F.A.Poperelya (1988) metodundan istifadə edilmişdir [4].

Qarğıdalının 25 nümunəsini əhatə edən genotiplərdə zein ehtiyat zülalarının elektroforetik analizi nəticəsində, qarğıdalı nümunələri arasında cəmi 15 elektroforetik spektr və 29 pattern aşkar edilmiş və bu zein elektroforetik spektrlərin əmələ gətirdikləri patternlərin rastgəlmə tezliyi və nümunələr arasında polimorfizm müşahidə olunmuşdur. Zein ehtiyat zülalarının elektrofareqramları genetik determinə olunmuş əlamət kimi ətraf mühitin təsirindən və becərilmə şəraitindən aslı olaraq dəyişmir və sabit qalır.

Zein ehtiyat zülallarının elektroforeqramlarının A- zonasında 6 spektr və 11 müxtəlif pattern tədqiq edilmişdir. Zein ehtiyat zülallarının elektroforeqramlarının B- zonasında 5 spektr və 7 pattern müşahidə edilmişdir.Qarğıdalı nümunələrinin zein elektroforeqramların C- zonasında 4 spektr və 11 pattern müəyyən edilmişdir. Genotiplər arasında Nei-düsturunu tətbiq etməklə hər 3 zonaya görə genetik müxtəliflik indeksi hesablanmışdır. Aparılan hesablamalar nəticəsində A- zonasında (H=0,816) ən yüksək, B- zonasında (H=0,748) aşağı, C- zonasında isə (H=0,811) nisbətən yüksək genetik müxtəliflik indeksi müəyyən edilmişdir.

Tədqiqatda yerli və introduksiya olunmuş qarğıdalı genotipləri zein zülallarının sintezinə nəzarət edən lokuslarının elektroforeqramlarına görə paspotrlaşdırılmışdır.

ƏDƏBİYYAT

1. Esen, A. Separation of alcohol-soluble proteins (zeins) from Maize into three fractions by differential solubility. 1986. Plant Physiol. 80: 623-627.
2. Xu, W. , Reddy, N. and Yang, Y. , 2007. An acidic method of zein extraction from DDGS, Journal of Agricultural and Food Chemistry, 55, 6279-6284.
3. Yong. Z., Lili, C., Heng, Z., Nianqui, S., Chunlei, L., Yan, C. and Wei, K., 2015. Zein-based films and their usage for controlled delivery: Origin, classes and current landscape, Journal of Controlled Release, 206, 206–219.
4. Попореля Ф.А. Методические указания по электрофорезу зеина кукурузы для определения процента гибридности семян F_1. Москва, ВАСХНИЛ, 1988, 10 стр.

POLYMORPHISM OF ZEIN RESERVOIR PROTEINS IN CORN VARIETIES AND SPECIMENS

Hamlet Beykishi oglu Sadigov[1]
hamlet.sadigov@yahoo.com
Alish Omer oglu Eyvazov[2]
eyvazovalis@gmail.com
Institute of Genetic Resources[1]
Baku State University[2]

In the study, local and introduced maize genotypes were passported based on the electropherograms of loci controlling the synthesis of zein proteins. Electrophoretic analysis of zein reserve proteins in genotypes covering 25 maize samples revealed a total of 15 electrophoretic spectra and 29 patterns among the maize samples, with the occurrence frequency of these patterns and polymorphism observed between the samples. The electropherograms of zein reserve proteins in the A-zone showed 6 spectra and 11 different patterns, in the B-zone – 5 spectra and 7 patterns, and in the C-zone – 4 spectra and 11 patterns. As a result of the calculations, the highest genetic diversity index was determined in the A-zone (H=0.816), the lowest in the B-zone (H=0.748), and a relatively high value in the C-zone (H=0.811).

Key words: maize, zein, locus, genetic diversity, electrophoresis, electropherogram.

QURU MEYVƏLƏRİN KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN TƏHLİLİ

Məsud Laçın oğlu Rəhmətov
mesudunec@gmail.com
Kəmalə Əsgər qızı Mustafayeva
kemalemustafayeva38@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Torpaq-iqlim şəraitinə görə Azərbaycanın kənd təsərrüfatında meyvəçilik mühüm yerlərdən birini tutmaqdadır. Təzə meyvə və giləmeyvələr, onların emalından alınan müxtəlif məhsullar əhalinin gündəlik qida rasionunda çox mühüm əhəmiyyətə malikdir. Bunların tərkibində asan həzm olunan karbohidratlar, üzvi turşular, azot maddələri, mineral duzlar və vitaminlər vardır.

Araşdırmada tədqiqatın obyekti olaraq Azərbaycanın daxili bazarında satılan üzüm qurusu və ərik qurusu çeşidləri götürülmüşdür. Meyvə qurularının əmtəəlik səciyyəsi və keyfiyyət göstəriciləri öyrənilmişdir. Qurudulmuş meyvələr, həm tərkibində qiymətli qida maddələrinin mövcudluğu, həm də xoş şirin dada malik olmaqla insan orqanizminin qida komponentlərinə olan tələbatını ödəyir. Gündəlik qida rasionuna daxil olan qurudulmuş üzüm kimyəvi tərkibinin zənginliyi ilə seçilir.

Cədvəl 1. Müxtəlif üzüm qurusu sortlarının keyfiyyət göstəriciləri

Keyfiyyət göstəriciləri	Sortlar		
	Gəlinbarmağı	Çəhrayı Tayfu	Kişmiş
Saxarozanın kütlə payı, %-lə	3,381	4,640	5,169
Rütubətin kütlə payı	12,101	14,192	14,801
Zülallar, mq/100q	2,502	1,83	2,860
Yağlar, mq/100q	0,502	0,500	0,541
Karbohidratlar, mq/100q	66,81	70,9	73,01
Enerji dəyəri kkal (hər 100q-da)	276	295	308,0
Ümumi polifenol tərkibi mq (Əsas komponentlər /100q)	110,03	220,51	295,401

Cədvəlin məlumatlarından aydın olur ki, əsas keyfiyyət göstəriciərindən rütubətin miqdarı ən çox kişmiş sortundan alınan üzüm qurusunda müşahidə edilmişdir. Gəlinbarmağı sortunda isə rütubətin miqdarı ən az olmuşdur. Keyfiyyət göstəricilərindən zülalın miqdarı da ən çox Kişmiş sortundan olan üzüm qurusunda müşahidə olunmuş, Gəlinbarmağı sortunda Kişmiş sortundan bir az fərqli, Çəhrayı Tayfu sortunda isə ən az müşahidə olunmuşdur. Yağlar və karbohidratların miqdarına da nəzər salsaq görərik ki, ən üstün nəticə Kişmiş sortundan alınan üzüm qurusunda müşahidə olunur. Kişmiş sortu keyfiyyət göstəricilərinin üstün olduğuna görə enerji dəyəri də yüksək olur. Ümumi polifenol tərkibi də həmçinin üstün olmuşdur[2].

Cədvəl 2. Müxtəlif üzüm qurusu sortlarının tərkibində olan mineral maddələrin miqdarı

Mineral maddələr	Sortlar			
	Gəlinbarmağı (kütlədə %-lə)	Çəhrayı Tayfu (kütlədə %-lə)	Kişmiş (kütlədə %-lə)	Mersedes (kütlədə %-lə)
Natrium	1,9	1,711	0,979	1,21
Maqnezium	1,97	1,369	1,821	1,68
Silisium	0,351	0,210	-	0,241
Fosfor	3,852	2,91	3,89	3,441
Kükürd	1,891	1,049	2,040	1,67
Kalium	34,02	38,529	36,721	33,811
Kalsium	3,12	3,11	2,67	3,54

Qeyd etdiyimiz kimi qurudulmuş üzüm sortlarının kimyəvi tərkibindəki mineral maddələrə nəzər saldıqda görürük ki, natrium elementinin miqdarı Gəlinbarmağı üzüm sortunda ən yüksək, Kişmiş sortunda isə ən aşağı olmuşdur. Həm də Silisium elementi Kişmiş sortunda rast gəlinməmişdir. Digər üç sortda isə müvafiq olaraq cədvəldə verilmişdir [2].

Qurudulmuş meyvələr arasında ərik qurusu da kimyəvi tərkibinin zənginliyi ilə seçilir. Əsasən Orta Asiya sortlarından ("Mirsəncəli", "Xurmai", "Qaysi" və s.) istehsal olunan ərik qurusunun xarici görünüşü və dad xüsusiyyətləri yüksək qiymətləndirilir. Azərbaycanda isə ərik sortlarından "Növrəstə", "Haqverdi", "Sarı badami" və s. yetişdirilir.

Ərik qurusunun kimyəvi tərkibinə nəzər saldıqda görərik ki, onun tərkibində insan orqanizmi üçün vacib olan bir çox elementlər vardır. Belə ki, ərik qurusunun kimyəvi tərkibində vitaminlərdən -A, β- karotin, B1 vitamini, B2 vitamini, B4 vitamini, B5 vitamini, B6 vitamini, B9 vitamini, C, E, H, K və PP vitaminləri mövcuddur. Mineral maddələrdən isə silisium (Si), maqnezium (Mg), natrium (Na), kükürd (S), Fosfor (P), molibden (Mo), xrom (Cr), xlor (Cl), yod (J), kobalt (Co), dəmir (Fe), slen (Se), flüor (F), sink (Zn), manqan (Mn), mis (Cu) mövcuddur. Bu vitamin və mineralların miqdarı aşağıdakı cədvəldə aydın şəkildə verilmişdir [1].

Cədvəl 3. Ərik qurusunun tərkibində olan vitaminlər və mineral maddələrin miqdarı

Vitaminlər		Mineral maddələr	
A vitamini	583,1 mkq	Silisium	26,0 mq
β- karotin	3,50 mq	Maqnezium	105,01 mq
B_1 vitamini (Tiamin)	0,12 mq	Natrium	17,0 mq
B_2 vitamini (Riboflavin)	0,21 mq	Kükürd	33,90 mq
B_4 vitamini (Xolin)	13,90 mq	Fosfor	146,0 mq
B_5 vitamini (Pantoten turşusu)	0,5161 mq	Molibden	12,21 mkq
B_6 vitamini (Piridoksin)	0,1430 mq	Xrom	59,0 mkq
B_9 vitamini (Folatlar)	10,01 mkq	Xlor	3,0 mq
C vitamin (Askorbin turşusu)	4,0 mq	Yod	3,41 mkq

Cədvəldə verilənlərdən belə bir nəticəyə gəlmək olur ki, ərik qurusunun kimyəvi tərkibi olduqca zəngindir və insan sağlamlığı üçün çox xeyirlidir.

ANALYSIS OF QUALITY INDICATORS OF DRIED FRUITS

Mesud Lachin oglu Rahmatov
mesudunec@gmail.com
Kemale Asgar gizi Mustafayeva
kemalemustafayeva38@gmail.com
Azerbaijan State Economic University

In the study presented in the article, dried grapes and dried apricots sold on the domestic market of Azerbaijan were taken as the object of study. The commercial properties and quality indicators of dried fruits were studied. Dried fruits satisfy the needs of the human body for nutrients both due to the presence of valuable nutrients and due to a pleasant sweet taste. Dried grapes and dried apricots, included in the daily diet, are distinguished by the richness of their chemical composition and importance for the human body.

Key words: dried grapes, dried apricots, chemical composition, quality indicators.

ИЗУЧЕНИЕ ПОТРЕБИТЕЛЬСКИХ СВОЙСТВ И ПОКАЗАТЕЛЕЙ КАЧЕСТВА КОПЧЕНОЙ РЫБЫ, РЕАЛИЗУЕМОГО В ТОРГОВОЙ СЕТИ г. БАКУ

Фарида Рагиб кызы Гулиева
farida-gulieva76@mail.ru
Шамс Мирказым кызы Абдуллаева
shamsabdullayevaa@gmail.com
Азербайджанский Государственный Экономический Университет

Рыба и рыбные продукты имеют особое значение в питании человека. Они отличаются от других видов мяса своей высокой пищевой ценностью. Мясо рыбы содержит белки, легкоусвояемые жиры, витамины группы В, небольшое количество витамина С и много полезных минералов (фосфор, кальций, калий, железо, йод, цинк и др.). Рыбий жир чрезвычайно богат витаминами А и D, Омега-3 и Омега-6. Это прежде всего натуральный источник витамина А для организма. Следует отметить, что жиры, полученные из океанической рыбы, имеют более высокую биологическую ценность. [1].

Существует мнение, что рыбу полезнее употреблять в пищу зимой. На самом деле, по словам экспертов, не имеет значения, в какое время года вы едите рыбу. Главное — правильно соблюдать условия хранения. Всемирная организация здравоохранения рекомендует употреблять рыбу 3 раза в неделю в любое время года. Мясо рыбы не только вкусное и сочное, но и считается продуктом питания, который быстро усваивается организмом человека. Так, если охлажденная рыба переваривается за 1,5 часа, то яйца, молоко, белый хлеб и жареный картофель перевариваются за 2–2,5 часа, телятина — за 4 часа, а утка — за 7 часов. При этом в организме человека усваивается 96% белков рыбы и 96,7% жиров [3].

Следует отметить, что рыба и рыбные продукты отличается от других продуктов питания тем, что являются скоропортящимся. Это объясняется тем, что при хранении рыбы и рыбопродуктов в их составе происходят биохимические, химические и микробиологические процессы, что в конечном итоге приводит к снижению качества этих продуктов. Использование потребителями таких продуктов приводит к отравлениям. Поэтому особую важность приобретает проведение экспертизы показателей качества перерабатываемой рыбной продукции для предотвращения подобных случаев. Для этого с нашей стороны были изучены

химический состав и пищевая ценность, показатели качества копченой рыбы. Также были предоставлены данные о результатах экспертизы, проведенной по отдельным показателям.

При характеристике качества пищевых продуктов большое значение имеет оценка показателей качества этого продукта. Потому что анализ этих показателей по отдельности позволяет составить общее мнение об уровне качества продукта.

Качество рыбы и рыбопродуктов оценивается по следующим показателям: органолептическим; физико-химическим; микробиологическим; безопасности.

В торговой практике для оценки качества рыбы и рыбопродуктов в основном применяется органолептический метод. Главной отличительной особенностью метода оценки органолептических показателей является то, что такая оценка является быстрой, наглядной, точной и доступной для понимания. При оценке органолептических показателей определяют внешний вид, консистенцию, запах и вкус копченых рыбных продуктов [2].

При осмотре внешнего вида копченой рыбы необходимо учитывать, что копченая рыба может иметь специфические дефекты, такие как пятна от копчения, подтеки масла, различные механические повреждения. Она может быть заражена червями, поедающими кожу, иногда она может быть заражена личинками сырной мухи [3].

В ходе проведенной нами экспертизы в качестве объектов исследования были взяты 3 образца: «Скумбрия холодного копчения» фирмы "Dalğa", «Forel» фирмы «YELKEN» рыба холодного копчения, «Семга» рыба горячего копчения "NEMESTRADE" MMC. Качественные показатели этих образцов оценивались органолептическим и физико -химическим методами. Из органолептических показателей качества копченой рыбы были определены следующие показатели: внешний вид, цвет кожного покрова, консистенция, вкус и запах. В итоге по результатам органолептического исследования было установлено, что все взятые для анализа образцы рыбы как горячего так и холодного копчения соответствуют требованиям действующих нормативно-технических документов и отклонений от стандарта не наблюдается.

Таблица.

Физико-химические показатели копченой рыбы

Показатели качества	Наименование продукции		
	«Скумбрия холодного копчения» фирмы "Dalğa"	«Forel» фирмы «YELKEN" холодного копчения	«Семга» горячего копчения "NEMESTRADE" MMC
Содержание влаги	54,38	61,7	53,9
Массовая доля поваренной соли	8,9	7	3

Физико-химическим методом были определены массовая доля поваренной соли и содержание влаги. При определении массовой доли влаги использовался метод, основанный на высушивании. Массовая доля поваренной соли (NaOH) была определена аргентометрическим способом.

ЛИТЕРАТУРА

1. Данилов М.М., Пуриков Ф.М., Харенко Н.Ф. Товароведение рыбы и рыбных товаров. - М.: Экономика, 2008. - 216 с.

2. Родина Т.Г. / Товароведение и экспертиза рыбных товаров и морепродуктов. Учебник для Вузов - М.: издательский центр «Академия», 2007-400 с.
3. Шевченко В.В. Товароведение и экспертиза качества рыбы и рыбных товаров: Учебник для вузов. - С.-Пб.: Питер, 2010. - 256 с.

STUDY OF CONSUMER PROPERTIES AND QUALITY INDICATORS OF SMOKED FISH SOLD IN THE RETAIL NETWORK OF BAKU

Farida Rahib gizi Guliyeva
farida-gulieva76@mail.ru
Shams Mirkazim gizi Abdullayeva
shamsabdullayevaa@gmail.com
Azerbaijan State Economic University

The article is devoted to the "Study of consumer properties and quality indicators of smoked fish sold in the retail network of the city of Baku". When assessing the quality indicators of smoked fish, the organoleptic method determined the appearance, color of the skin, consistency, taste and smell. In the course of our studies, the mass fraction of table salt and the moisture content of smoked fish were determined by the physicochemical method.

Key words: smoked fish, quality, consumer properties, nutritional value.

BƏZİ YERLİ BUĞDA GENOTİPLƏRİNDƏ TASPSV GENİNİN EKSPRESSİYASININ ONTOGENETİK DƏYİŞMƏSİNİN ÖYRƏNİLMƏSİ

Aydan Məmmədova
aydan.mammad.02@mail.ru
Bakı Dövlət Universiteti

Buğda (*Triticum aestivum L.*) dünya miqyasında əsas qida mənbələrindən biri olmaqla, ərzaq təminatı və qlobal kənd təsərrüfatı sistemində mühüm əhəmiyyət kəsb edir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı (FAO) təşkilatının proqnozlarına görə mövcud dünya əhalisini ərzaq məhsulları ilə təmin etmək üçün 2000-ci illə müqayisədə 2030-cu ilə kimi dünyada ərzaq istehsalı 40%, 2050-ci ilə kimi isə 70% artırılmalıdır [4]. Dünya əhalisi və ona müvafiq olaraq da, qida tələbi hər keçən il daha da artmaqdadır. Buna görədə məhsuldarlığı artıra biləcək, davamlı və kefiyyətli buğda istehsalını dəstəkləyən genetik araşdırmalar böyük önəm qazanmışdır. Artmaqda olan dünya əhalisi, iqlim dəyişiklikləri və məhsuldar torpaq sahələrinin azalması buğda kimi strateji bitkilərdə məhsuldarlığın və stres davamlılığının artırılmasını prioritet elmi hədəfə çevirib [3,9].

Fotosintez nəticəsində yaranan karbonun daşınması və istifadəsi bitkilərin böyümə, inkişaf və məhsul formalaşdırma proseslərində əsas rol oynayır [8]. Bu prosesdə sakkaroza əsas məhsul kimi çıxış edir və onun sintezinin əsas mərhələsini sakkaroza fosfat sintetaza (SPS) fermenti kataliz edir [10]. SPS fermenti yalnız normal inkişaf proseslərində deyil, həm də bitkilərin abiotik stresslərə, xüsusilə istilik və quraqlıq streslərinə qarşı cavabında da mühüm rol oynayır [5, 7]. SPS-nin fəaliyyətinin tənzimlənməsi, bitkilərin enerji balansını qorumasına və osmotik tənzimlənməni təmin etməyə kömək edir [6]. Bu xüsusiyyətləri sayəsində SPS, bitkilərin ekstremal şəraitlərə uyğunlaşmasını asanlaşdırır və onların stresə davamlılığını artırır [2].

Tədqiqat üçün nümunələr Əkinçilik ET İnstitutunun təcrübə sahəsindən toplanmışdır. Buğda genotiplərinin yarpaqlarından RNT ekstraksiyası TRİZOL reagenti istifgadə edilərək ayrılmışdır. İzolə edilən ümumi RNT nümunələrinin təmizlik dərəcəsi və intaktlığı spektrofotometrik analiz üsulu ilə qiymətləndirilmişdir. Bu məqsədlə Thermo Scientific™ NanoDrop™ 2000 spektrofotometri istifadə olunmuşdur. Total RNT nümunərinin kDNT-si əks transkripsiya metodu ilə həyata keçirilmişdir. kDNT-nin sintezindən sonra, götürülmüş buğda genotiplərində saxaroza fosfat sintetaza (TaSPSV) geninin ekspressiya səviyyəsini təyin edilməsi məqsədi ilə qPCR metodunun köməyilə aparılmışdır. Tədqiqat nəticəsində

götürülən buğda genotiplərinin kollanma, boruya çıxma və yetkin flaq yarpaqlarında TaSPSV geninin ekspressiya səviyyələri öyrənilmişdir. Kollanma mərhələsində Qaraqılçıq 2 genotipində onun ekspressiyası daha yüksək olmuşdur. Boruya çıxma mərhələsində isə tədqiq olunan bütün buğda genotiplərində həmin genin ekspressiyası kollanma mərhələsinə nisbətən daha yüksək olmuşdur. Dən dolmanın ilkin mərhələsində flaq yarpaqlarında yumşaq buğdanının Qobustan genotipində Tale 38 genotipinə nisbətən daha yüksək ekspressiya müşahidə olunmuşdur.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq Azərbaycan şəraitində sahədə becərilmiş bəzi yerli bərk və yumşaq buğda genotiplərində SPSV genini ekspressiya səviyyələrinin ontogenetik dəyişmə dinamikası tədqiq olnmuşdur. Alınan nəticələr tədqiq olunan hər üç mərhələdə SPSV geninin ekspressiyasının genotipik və ontogenetik və genotipik olaraq fərqli dəyişdiyini, lakin öyrənilən bərk buğda genotiplərində onun ekspressiyasının kollanma və boruya çıxma mərhələlərində yumşaq buğda genotiplərinə nisbətən daha yüksək olduğu göstərilmişdir.

Tədqiqatın elmi və praktiki əhəmiyyəti onun buğdanın dən məhsuldarlığının formalaşmasında əsas ehtiyyat qida maddəsi olan nişastanın biosintezində daşınan şəkərlərin, biosintezində iştirak edən SPSV geninin rolunun aydınlaşdırmaqdan ibarətdir. Bu biliklər, gələcəkdə daha məhsuldar və iqlim dəyişikliyinə uyğunlaşa bilən buğda sortlarının inkişafını dəstəkləyərək, kənd təsərrüfatında məhsuldarlığı artırmağa və ərzaq təhlükəsizliyini təmin etməyə kömək edəcəkdir.

ƏDƏBİYYAT

1. Alptekin B., Langridge, P., Budak, H. Abiotic stress miRNomes in the Triticeae // Functional & Integrative Genomics. – 2016. – 17(2–3). – S. 145–170.
2. Bahieldin A., Atef, A., Edris, S., Gadalla, N.O., Ramadan, A.M., Hassan, S.M., Sabir, J.S.M. Field evaluation of transgenic wheat plants expressing the HVA1 gene for drought tolerance // Environmental and Experimental Botany. 2016. 130. S. 11–19.
3. Farooq M., Wahid, A., Kobayashi, N., Fujita, D., Basra, S.M.A. Plant drought stress: Effects, mechanisms and management // Agronomy for Sustainable Development. 2017. 29(1). S. 185-212.
4. Gupta A., Rico-Medina, A., Caño-Delgado, A.I. The physiology of plant responses to drought // Science. 2020. 368(6488). S. 266-269.
5. Gupta P., Saha, P., Sahoo, L. Understanding heat stress tolerance in plants: An overview of genetic, molecular, and physiological mechanisms // Plant Cell Reports. 2019. 38(10). S. 1259-1270.
6. Kaur H., Asthir, B. Proline: A key player in plant abiotic stress tolerance // Biologia Plantarum. 2017. 61(2). S. 201-209.
7. Lunn J.E., Delorge, I., Figueroa, C.M., Van Dijck, P., Stitt, M. Trehalose metabolism in plants // The Plant Journal. 2014. 79(4). S. 544-567.
8. Raines C.A. The Calvin cycle revisited. Photosynthesis Research. 2017. 134(1). S.35-52
9. Wang W., Vinocur, B., Altman, A. Plant responses to drought, salinity and extreme temperatures: Towards genetic engineering for stress tolerance // Planta. 2018. 218(1). S. 1-14.
10. Zhang Q., Liu X., Zhang W., Li T., Xu X., Han Y. Sucrose phosphate synthase and sucrose synthase are key enzymes for sucrose accumulation in sweet sorghum stems // Genes & Genomics. 2017. 39(4). S. 409-417.

STUDY OF ONTOGENETIC CHANGES IN TASPSV GENE EXPRESSION IN SOME LOCAL WHEAT GENOTYPES

Aydan Mammadova
aydan.mammad.02@mail.ru
Baku State University

Wheat (*Triticum aestivum L.*) is a key crop for global food security. Increasing food demand and climate change highlight the need for resilient and high-yielding wheat varieties. In this study, the expression dynamics of the TaSPSV gene, which encodes sucrose-phosphate synthase (SPS), were analyzed in local Azerbaijani wheat genotypes. RNA was extracted from leaves at tillering, stem elongation, and early grain-filling stages, and gene expression was measured using qPCR. Results showed that TaSPSV expression varied across stages and genotypes, with hard wheat genotypes generally exhibiting higher expression during tillering and stem elongation. However, during early grain filling, the highest expression was observed in the soft wheat genotype Gobustan. This study provides new insights into the ontogenetic regulation of TaSPSV under field conditions and supports future breeding efforts aimed at improving wheat yield and stress tolerance.

Key words: Triticum aestivum, Sucrose-phosphate synthase (SPS), TaSPSV gene, Ontogenetic development, Gene expression, qPCR analysis, Wheat genotypes, Wheat research under Azerbaijani conditions.

UNLU QƏNNADI MƏMULATLARININ KEYFİYYƏTİ VƏ TƏHLÜKƏSİZLİK GÖSTƏRICILƏRİNİN TƏDQİQİ

Dəyanət Namik oğlu Qasımov
deyanetqasimov01@gmail.com
Kəmalə Əsgər qızı Mustafayeva
kemalemustafayeva38@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Tədqiqat işi unlu qənnadı məmulatlarının keyfiyyətini şərtləndirən amilləri və onlara təsir göstərən fərqli faktorları araşdırır. Həmçinin, bu məmulatların qida təhlükəsizliyi baxımından qiymətləndirilməsi aparılmışdır. Unlu qənnadı məmulatlarının keyfiyyətinə təsir edən əsas amillər arasında xammal seçimi, istehsal texnologiyası, saxlanma şəraiti və təhlükəsizlik standartları mühüm rol oynayır. Tədqiqat nəticələri göstərir ki, bu amillərin düzgün idarə olunması məhsulların dad, tekstura, rəng və saxlama müddətinə müsbət təsir göstərir. Unun növü və keyfiyyəti, istifadə edilən yağların növü və tərkibi, həmçinin şəkər və s. xammallar məhsulun keyfiyyət göstəricilərini formalaşdırır. İstehsal prosesində temperatur, yoğrulma müddəti, fermentasiya şəraiti və bişirmə texnologiyası unlu qənnadı məmulatlarının düzgün struktur qazanmasına şərait yaradır[2].

Unlu qənnadı məmulatının kimyəvi tərkibi olduqca zəngindir. Növlərinə görə kimyəvi tərkibindəki maddələrin də miqdarı fərqli olur və bunu aşağıdakı cədvəldən aydın şəkildə görmək mümkündür.

Cədvəl 1.

Unlu qənnadı məmulatının kimyəvi tərkibi

Unlu qənnadı məmulatının adı	100 qramda olan maddələrin miqdarı, (%-lə və ya qramla)			Orqanizmə verdiyi enerji dəyəri
	Yağ	Şəkər	Nişasta	Kkal
Əla sort undan istehsal olunmuş şəkərli peçenye	11,8	23,6	50,8	417
Əla sort undan alınmış dartılmış xəmir-dən peçenye	8,8	18,8	56,8	397

Az şəkərli peçenye	23,6	16,6	44,8	477
Əla sort undan istehsal olunmuş qalet	10,2	2,2	66,2	393
Yağlı-içlikli vafli məmulatı	30,2	44,5	20,2	530

Cədvəlin məlumatlarından aydın olur ki, unlu qənnadı məmulatlarının kimyəvi tərkibində şəkər, yağ və nişastanın miqdarı olduqca çoxdur. Bu da məhsulun yüksək enerjivermə qabiliyyətinə malik olduğunu göstərir. Əla sort undan istehsal olunmuş dartılmış xəmirdən alınmış peçenyelərdə yağın miqdarı ən az, yağlı vafli məmulatında isə ən çox olmuşdur. Əla sort undan istehsal olunmuş qaletlərdə şəkərin miqdarı ən az, yağlı-içlikli vafli məmulatında isə ən çox olmuşdur. Buna görə də yağlı-içlikli vafli məmulatının enerjivermə qabiliyyəti daha yüksəkdir [1].

Unlu qənnadı məmulatlarının tərkibində mineral maddələrdən natrium, kalium, kalsium, dəmir və s. vardır. Məmulatın növündən asılı olaraq mineral maddələrin miqdarı dəyişir. Məsələn, müxtəlif peçenye növlərində, vafli məmulatlarında mineral maddələrin miqdarı aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 2.

Unlu qənnadı məmulatının kimyəvi tərkibind olan mineral maddələrin miqdarı

Unlu qənnadı məmulatının adı	Mineral maddələrin miqdarı, (mq%-lə)			
	Na	K	Ca	Fe
Əla sort undan istehsal olunmuş şəkərli peçenye	36,01	90,0	20,0	1
Əla sort undan alınmış dartılmış xəmirdən peçenye	32,01	104,0	28,0	0,90
Az şəkərli peçenye	60,1	129	24,0	1,70
Əla sort undan istehsal olunmuş qalet	12,0	112,0	18,01	1,11
Yağlı-içlikli vafli məmulatı	7,01	43,1	8,0	0,5

Cədvəlin məlumatlarından da göründüyü kimi natriumun və kaliumun miqdarı az şəkərli peçenye növlərində ən çox olmuşdur. Yağlı-içlikli vafli məmulatında isə bu mineral maddələrin miqdarı ən az olmuşdur. Əla sort undan alınmış dartılmış xəmirdən hazırlanan peçenyelərdə kalsiumun miqdarı ən üstün, vafli məmulatında isə ən aşağı olmuşdur. Dəmirin miqdarı isə şəkərli peçenye məmulatında çox, yağlı-içlikli vafli məmulatında ən az olmuşdur[1]. Unlu qənnadı məmulatlarının tərkibində şəkər və yağın kütlə payı çox olduğu üçün saxlanma şəraiti, rütubət və temperatur dəyişiklikləri onların keyfiyyətinə ciddi təsir edə bilər. Unlu qənnadı məmulatlarında mikrobioloji çirklənmə riski yüksəkdir. Bunun qarşısını almaq üçün sanitar-gigiyenik qaydalara riayət olunmalı, konservantların istifadəsi normativ çərçivədə saxlanılmalı və etiketləmə qaydalarına əməl edilməlidir. Əgər istehsal texnologiyasından başlayaraq qablaşdırma, daşınma, saxlanma qaydalarına əməl olunmazsa unlu qənnadı məmulatlarının keyfiyyətində qüsurlar yaranacaq. Məsələn, unlu qənnadı məmulatları içərisində vafli məmulatı tərkibinin zənginliyinə, məmulatın kövrəkliyinə görə sadaladığımız qaydalara riayət olunmadıqda keyfiyyətində qüsurlar yaranır. Bu qüsurlara nəzər salaq:

1. Vafli səthinin rütubətlənməsi qüsuru – məmulatın saxlandığı anbarda nisbi rütubət və temperatur rejiminin pozulması nəticəsində baş verir. Bu zaman vafli təbəqələri nəm çəkərək yumşalır və xırçıltısı tamamilə azalır.
2. Vafli içliyinin axması, vafli təbəqələrinin pozulması- ən çox saxlanma zamanı temperatur rejiminin kəskin dəyişməsi zamanı baş verir. Məmulatın xarici görünüşü dəyişir, üzərində yağ ləkələri əmələ gəlir.
3. Qablaşdırmanın üzərində yağ ləkələrinin görünməsi – temperatur rejiminin dəişməsi ilə əlaqədar olaraq yaranır. Vafli məmulatının təbəqələrinin arasındakı içlik sulanır və xarici görünüşü korlayır[3].

ƏDƏBİYYAT

1. Əhməd-Cabir İ. Əhmədov, Azər Ə.Hüseynov, "Qənnadı mallarının əmtəəşünaslığı" Dərslik, Bakı: "İqtisad Universiteti", 2010
2. Шепелев А.Ф. и др., Товароведение и експертиза кондитерских товаров. Издателский центр «Март». Ростов-на-Дону, 2002
3. Patel, R. & Singh, P. (2019). "Effects of Storage Conditions on Bakery Products." International Journal of Food Science, 12(3), 75-89.

RESEARCH OF QUALITY AND SAFETY INDICATORS OF CONFECTIONERY PRODUCTS

Dayanat Namik oglu Gasimov
deyanetqasimov01@gmail.com
Kemale Asgar gizi Mustafayeva
kemalemustafayeva38@gmail.com
Azerbaijan State Economic University

This study investigates the factors that determine the quality of baked confectionery products and the various elements influencing them. Additionally, an evaluation of these products in terms of food safety has been conducted. Key factors affecting the quality of baked confectionery products include raw material selection, production technology, storage conditions, and safety standards. The research findings indicate that proper management of these factors positively impacts the taste, texture, color, and shelf life of the products.

Key words: Baked confectionery products, cookies, mineral substances, wafer products.

TURŞUDULMUŞ SÜD MƏHSULLARININ İSTEHLAK XASSƏLƏRİ VƏ KEYFİYYƏTİNİN EKSPERTİZASI

Fəridə Rahib qızı Quliyeva
farida-gulieva76@mail.ru
Gülpəri Qənimət qızı Abdullayeva
abdullayevagulperi@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Süd və süd məhsulları insan orqanizmi üçün bioloji dəyəri yüksək olan qida məhsulları sırasındadır. Xüsusilə turşudulmuş süd məhsulları probiotik tərkibi, yüksək zülal miqdarı və funksional xüsusiyyətləri ilə sağlam qidalanmanın vacib komponenti hesab olunur[2]. Bu məhsulların keyfiyyət göstəriciləri bir sıra texnoloji, mikrobioloji və fiziki-kimyəvi amillərlə müəyyən olunur. Keyfiyyətin ekspertizası isə həmin amillərin məhsula təsirinin elmi cəhətdən dəyərləndirilməsinə imkan yaradır. Məqalədə turşudulmuş süd məhsullarının təsnifatı, istehlak xassələri və ekspertiza metodologiyası sistemli şəkildə təqdim olunur[1].

Turşudulmuş süd məhsulları müxtəlif texnoloji üsullarla fermentasiya olunmuş süd əsaslı qida məhsullarıdır. Ən geniş yayılmış növlərə qatıq, kefir, süzmə, qaymaq və ayran daxildir. Bu məhsulların orqonoleptik keyfiyyətləri - rəngi, dadı, qoxusu, konsistensiyası və görünüşü - istehlakçı seçimində əsas rol oynayır. Eyni zamanda, onların fiziki-kimyəvi xüsusiyyətləri, məsələn turşuluq səviyyəsi, yağ tərkibi, quru maddə və zülal miqdarı məhsulun texnoloji uyğunluğu və qida dəyərini müəyyən edir.

Məhsulun keyfiyyətinin elmi ekspertizası aşağıdakı istiqamətlər üzrə həyata keçirilir[5]:

- Fiziki-kimyəvi analiz: Titrimetrik üsulla turşuluğun (°T) müəyyən olunması, refraktometrik və qravimetrik metodlarla quru maddə və yağ tərkibinin təyini.

- Orqanoleptik qiymətləndirmə: Peşəkar dequstatorlar tərəfindən məhsulun tərkibi, dad və ətir xüsusiyyətləri 5 ballıq sistem üzrə qiymətləndirilir.

Turşudulmuş süd məhsullarının keyfiyyətinə aşağıdakı amillər birbaşa təsir edir[4]:

- Fermentasiya temperaturu və vaxtı: Optimal şəraitdə fermentasiya bakteriya aktivliyini stimullaşdırır və düzgün turşuluq təmin edir.

- Xammalın keyfiyyəti: Təzə, bakterioloji cəhətdən təhlükəsiz süd məhsulun stabil fiziki-kimyəvi göstəricilərinə zəmanət verir.

- Qablaşdırma texnologiyası və saxlama şəraiti: Hermetik və steril qablaşdırma məhsulun saxlanma müddətini və keyfiyyətini qoruyur.

Orqanoleptik göstəricilər məhsulun xarici görünüşü, rəngi, qoxusu, dadı və konsistensiyası kimi parametrlərlə qiymətləndirilir. Tədqiqat çərçivəsində seçilmiş üç fərqli turşudulmuş süd nümunəsi – Azərsüd, Atena və Milla firmaları – bu meyarlar əsasında müqayisəli şəkildə təhlil edilmişdir. Müvafiq nəticələr aşağıdakı cədvəldə əks etdirilmişdir.

Cədvəl 1

Turşudulmuş süd məhsullarının orqanoleptik xassələrinin müqayisəsi

Göstərici	Azərsüd (qatıq)	Atena (qatıq)	Milla (qatıq)
Xarici görünüş	Vahid, bərabər qatılıq, laylara ayrılma müşahidə olunmur	Qatı, homogen, parlaq səth	Yarımqatı, yüngül qatılıq, az miqdarda ayrılma ola bilər
Rəng	Təmiz ağ	Krem-ağ	Təbii süd rəngi, açıq krem çaları
Qoxu	Təzə süd qoxusu, əlavə qoxular yoxdur	Süd və turş süd qoxusunun harmoniyası	Azacıq kəsmikvari qoxu, təbii
Dad	Yumşaq turşməzə dad, balanslı	Aydın turşməzə dad, bir qədər kəskin	Yumşaq, azca şirinməzə dad

Bu araşdırma çərçivəsində Azərbaycan bazarında geniş yayılmış **Azərsüd**, **Atena** və **Milla** firmalarına məxsus turşudulmuş süd məhsullarının orqanoleptik xüsusiyyətləri təhlil edilmişdir. Hər bir məhsul ayrı-ayrılıqda müşahidə və dequstasiya olunaraq qeyd edilən meyarlara əsasən qiymətləndirilmişdir. Müvafiq göstəricilər cədvəl formasında qeyd olunmuş və nəticələr müqayisə olunmuşdur. Azərbaycan Dövlət İqtisad Universitetinin laboratoriyasında metodikaya uyğun olaraq 3 fərqli firmanın qatıq nümunəsinin fiziki-kimyəvi göstəriciləri analiz olunmuşdur. Analizin nəticələri aşağıdakı kimi olmuşdur:

Cədvəl 2

Turşudulmuş süd məhsullarının fiziki-kimyəvi göstəricilərinin müqayisəsi

Göstərici	Azərsüd (qatıq)	Atena (qatıq)	Milla (qatıq)
Kütlə payı ilə yağ miqdarı (%)	3.2	3.0	3.5
Zülal miqdarı (%)	2.8	2.9	3.0
Turşuluq (°T – Terner dərəcəsi)	80	85	75
Quru maddə (%)	11.5	12.0	11.8
pH göstəricisi	4.3	4.2	4.4

Azərsüd firmasına aid qatıqda yağ miqdarı təxminən 3.2% təşkil edir. Bu, qatıq üçün orta səviyyəli yağlılıq sayılır. Zülal tərkibi isə 2.8% olmaqla, məhsula həm doyumluluq, həm də qida dəyəri baxımından müsbət təsir göstərir. Turşuluq dərəcəsi 80°T civarındadır ki, bu da qatığın nə çox, nə də az turş olduğunu göstərir. Quru maddə təxminən 11.5% təşkil edir və bu, qatığın qatılığını qoruyur. pH göstəricisi 4.3 civarındadır, bu da süd məhsulunda mikrobioloji sabitliyin təmin olunduğunu göstərir. Xarici görünüşü ağ rəngdədir və bircins struktura malikdir. Dadı və qoxusu isə tipik turşməzə və təmiz süd məhsuluna xasdır.

Atena firmasının qatığında yağ miqdarı 3.0% civarındadır və zülal nisbəti 2.9%-ə çatır. Bu, məhsulun keyfiyyətli və balanslı olduğunu göstərir. Turşuluğu 85°T ilə bir qədər yüksəkdir, yəni digər firmalara nisbətən bir qədər turş dada malikdir. Quru maddə 12% təşkil edir, bu isə daha qatılıqlı bir quruluş yaradır. pH səviyyəsi 4.2-dir. Rəngi açıq kremdir, konsistensiyası isə hamar və laylara ayrılmamışdır. Dadında xoş süd və turşməzəlik hiss olunur.

Milla firmasının qatığı isə daha yağlı – 3.5% yağ tərkibli olub, zülal səviyyəsi 3.0%-dir. Bu göstəricilər məhsulun həm daha doyumlu, həm də qidalandırıcı olduğunu göstərir. Turşuluğu 75°T-dir, bu da daha yüngül turşluq hissi verir. Quru maddə 11.8% olub, konsistensiyanı stabil saxlayır. pH göstəricisi 4.4-dür. Xarici görünüşü ağ və parlaqdır, həm də bircinsdir. Dadı təzə, turşməzə və saf süd dadını xatırladır.

Araşdırmalar göstərir ki, turşudulmuş süd məhsullarının keyfiyyətinin elmi əsaslarla qiymətləndirilməsi onların istehsal və satış proseslərində təhlükəsizliyin təmin olunması baxımından zəruridir. Müasir ekspertiza metodlarının tətbiqi, fermentasiya rejiminə nəzarət, xammal seçimi və saxlama şəraitinin optimallaşdırılması məhsulun qida dəyərinin, orqonoleptik göstəricilərinin və texnoloji dayanıqlığının mühafizəsində əsas rol oynayır. Beləliklə, yüksək keyfiyyətli turşudulmuş süd məhsulları həm istehlakçı məmnuniyyətini, həm də ictimai səhiyyə tələblərini təmin edə bilər.

ƏDƏBİYYAT

1. Aschemann-Witzel, J., Varela, P., & Peschel, A. O. (2019). Consumers' perception and preference for natural food attributes. Trends in Food Science & Technology, 79, 103-112.
2. Granato, D., Nunes, D. S., & Barba, F. J. (2018). Probiotic dairy and non-dairy foods: Consumption, health benefits, and future trends. Comprehensive Reviews in Food Science and Food Safety, 17(5), 1277-1299.
3. Kumar, P., & Mishra, H. N. (2018). Critical factors in yogurt production: A review. Food Science and Biotechnology, 27(4), 1081-1093.
4. Patel, S., & Goyal, A. (2020). The current trends in the probiotic functional foods. Journal of Functional Foods, 72, 104082.
5. Ranadheera, C. S., Evans, C. A., Adams, M. C., & Baines, S. K. (2019). Probiotic yogurt impact on gut microbiota. International Journal of Dairy Technology, 72(1), 65-72.

EXPERTISE OF CONSUMPTION PROPERTIES AND QUALITY OF ACIDIZED MILK PRODUCTS

Farida Rahib Guliyeva
farida-gulieva76@mail.ru
Gulperi Ganimat Abdullayeva
abdullayevagulperi@gmail.com
Azerbaijan State Economic University

This article investigates the consumer properties and quality assessment methods of fermented dairy products such as yogurt, kefir, sour cream, and strained yogurt. The study aims to evaluate the physicochemical, microbiological, and organoleptic parameters based on modern scientific approaches. It has been determined that the fermentation process, storage conditions, and the quality of raw materials play a critical role in ensuring both the food safety and the functional properties of these products. The novelty of the research lies in the systematic integration of traditional quality indicators with advanced expert analysis techniques, highlighting their importance in the technological optimization and safety control of fermented dairy production.

Key words: Fermented dairy products, quality assessment, food safety, physicochemical properties, organoleptic evaluation.

DƏNLİ BİTKİLƏRİN İSTEHLAK XASSƏLƏRİNİN TƏHLİLİ

Onur Camal oğlu Umarov
umarovonur5@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycanda dənli bitkilərin becərilməsi çox qədim tarixə malikdir. Dünyanın bir çox ölkələrində olduğu kimi respublikamızda da taxılçılıq insanların əsas məşğuliyyət növlərindən biri hesab olunub. Taxılçılığın dəyərli bir sahə olması həm də onunla izah olunur ki, taxıldan əhali üçün ərzaq, yeyinti və yüngül sənaye üçün xammal, heyvandarlıq üçün isə yem hazırlanır. Respublika ərazisinin quru və nəmli, subtropik, kontinental və mülayim, yüksək dağlıq, aran, suvarma, dəmyə, nəmliklə az və ya çox təmin olunmuş iqlim şəraiti və müxtəlif torpaq tiplərinə malik olmasına baxmayaraq, buğdanın dünyada yayılmış 22 növündən 15 növünə respublikamızda rast gəlinir. Bunlardan yalnız 2 növü regionlarda geniş yayılıb. Hal-hazırda regionlarda buğdanın yumşaq və bərk buğda sortları daha çox əkilir. Son araşdırmalar və respublika ərazisində aparılan elmi tədqiqatların nəticələrinə görə Azərbaycan Respublikasının ərazisi buğda bitkisi, o cümlədən, bərk buğdanın vətəni hesab olunur. Bərk buğdadan, əsasən, makaron, vermişel, əriştə, qənnadı sənayesində geniş istifadə olunsa da, çörək bişirilməsində az istifadə olunur. Hal-hazırda yumşaq buğdanın əkin sahəsi respublikada birinci yeri tutur. Buğda unundan, 80-90 faiz çörək bişirilməsində istifadə olunur[1].

Tədqiqat işində Azərbaycanda dənli bitkilərin istehsalının və istehlakının vəziyyəti, idxalı, ixracı, ölkə üzrə ərzaq və toxum ehtiyatı araşdırılmışdır. Son illərdə buğdanın əkin sahələrinin artırılması və idxaldan asılılığın vəziyyəti öyrənilmişdir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin verdiyi məlumatlar əsasında ölkəmizdə ərzaq balansında olan dənli bitkilərin istehsal, idxal, ehtiyatların vəziyyəti aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 1. Azərbaycan Respublikasında dənli bitkilərin istehsalının vəziyyəti (tonla)

Dənli bitkilər	İstehsal (tonla)	İdxal (tonla)	Ehtiyatların cəmi (tonla)	Toxum üçün (tonla)
Buğda	1792419	1175341	3249019	132058
Arpa	1039019	47665	1266096	86647
Qarğıdalı	287001	73063	446804	1003
Vələmir	10179	223	15895	499
Sair dənlilərin cəmi	11315	15341	27678	62
Dənli paxlalılar	18229	12131	55093	1407

Cədvəldə verilənlərdən aydın olur ki, Azərbaycanda becərilən dənli bitkilər içərisində buğdanın istehsalı, idxalı, ehtiyatlar cəmi və toxum üçün ehtiyatı ən üstün olmuşdur. Arpa və qarğıdalının göstəriciləri də üstün hesab edilir. Ən aşağı göstərici isə vələmir bitkisində olmuşdur. Vələmir bitkisi üzrə istehsal 10179 ton təşkil edir, idxal göstəricisi isə aşağı olmuşdur.

Dənli bitkilərin istehsalının vəziyyətini araşdırılması aşağıdakı cədvəldə verilmişdir[2].

Cədvələ nəzər salsaq görərik ki, dənli bitkilərin istifadə istiqamətindən asılı olaraq müxtəlif cür dəyişir. Məsələn, mal-qara və quş yemi üçün nəzərdə tutulan dənli bitkilərdən arpanın istehsalı ən üstün olmuşdur. İxraca da nəzər saldıqda aydın olur ki arpa digər dənli bitkilərdən daha çox ixrac olunur. Buğda bitkisində də mal-qara və quş yemi məqsədilə istehsal arpaya nisbətən aşağıdır, lakin ixracı nəzərdə tutulmur.

Cədvəl 2. Azərbaycan Respublikasında dənli bitkilərin istehsalının vəziyyəti

Dənli bitkilər	Mal-qara və quş yemi üçün (tonla)	İxrac (tonla)	İtkilər (tonla)
Buğda	692425	-	53611
Arpa	963160	1942	17094
Qarğıdalı	177083	17	690
Vələmir	10924	-	223
Sair dənlilərin cəmi	8979	6	120
Dənli paxlalılar	1651	1326	436

Azərbacanda 2019-2023-cü illərdə dənli bitkilərin növlər üzrə (buğda, çovdar, arpa, dən üçün qarğıdalı, yulaf) illik məhsuldarlıq göstəriciləri aşağıdakı cədvəldə qeyd edilmişdir.

Cədvəl 3. Dənli bitkilərin növlər üzrə məhsuldarlığı (sent\ha)

Dənli bitkilər	2019-cu il	2020-ci il	2021-ci il	2022-ci il	2023-cü il
Buğda	32.2	31.7	33	32	33.8
Çovdar	22.3	20.4	18.5	19.5	19
Arpa	29.7	29.6	30.7	28.8	30
Dən üçün qarğıdalı	59.5	63.6	61.6	58.6	66.1
Yulaf	24.7	19.2	18.4	20.1	20.5

Cədvəlin məlumatlarından göründüyü kimi dənli bitkilər içərisində buğda və arpa ən yüksək məhsuldarlığa malikdir [2].

Dənli bitkilərin kimyəvi tərkibi — onun növündən, selleksiya sortlarından, becərildiyi torpaq-iqlim şəraitindən və aqrotexnikadan asılıdır. Taxılın tərkibində azotlu maddələr, fermentlər, karbohidratlar, yağlar, vitaminlər, mineral maddələr, su, turşular, aşı və boya maddələr vardır.

Azotlu maddələrin 90%-ə qədərini zülallar təşkil edir. Buğdada 12,7%, düyüdə 7,3%, qarabaşaqda 11,5%, paxlalılarda 34,9% zülal var. Dənli bitkilərdə olan zülallar əsasən sadə zülallardır. Aminturşuları tərkibinə görə ən dəyərlisi çovdar, qarabaşaq, düyü, paxlalılar, sonra isə arpa, vələmir və buğda zülalıdır. Nisbətən az dəyərli darı və qarğıdalıdır. Buğdanın və çovdarın zülalı şişmə qabiliyyətinə malik olub, elastiki (buğdada) və sovuşqan (çovdarda) kütlə əmələ gətirir. Buğdada elastiki yapışqanvari kütlə əmələ gətirməsinin çörəkçilikdə və makaron məmulatı istehsalında böyük texnoloji əhəmiyyəti var.

Lipidlər- (yağ və yağabənzər maddələr) dənli bitkilərdə nisbətən azdır. Buğda, çovdar düyü və arpada 2-3% lipid, darı və qarabaşaqda 3-4%, vələmir və qarğıdalıda 5-7%, noxud, lobya və mərcidə 2-2,5%, soyada 20%-ə qədər lipidlər vardır. Dənli bitkilərdəki yağın tərkibində fosfolipidlər və sterinlər, karotinoidlər və E vitamini (40-290 mq%), boya və ətirli maddələr vardır. Buğda rüşeymində 15%, qarğıdalı rüşeymində isə 35% yağ olur. Saxlanılma zamanı darı, vələmir və qarğıdalının tərkibindəki yağ tez qaxsıyır, lakin qarabaşağın yağı davamlıdır. Lipaza fermentinin təsiri nəticəsində yağlar hidrolizləşir və sərbəst yağ turşuları əmələ gəlir. Bu isə məhsulların keyfiyyətinə mənfi təsir göstərir.

Vitaminlərdən dənli bitkilərin tərkibində B qrupu (B1, B2, B6), PP, E, karotin, pantoten turşusu vardır. Vitaminliyinə görə buğda, çovdar, arpa, qarabaşaq və paxlalılar yüksək dəyərlidir. Qarğıdalıda B1 və PP vitaminləri nisbətən azdır[3].

ƏDƏBİYYAT

1. Əhməd-Cabir İ. Əhmədov, Nizami X. Musayev, Bitki mənşəli ərzaq məhsullarının ekspertizası. Dərslik. Bakı: 2005.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları. 2024.
3. Stanley P. Cauvain, Linda S. Young, The ICC Handbook of Cereals, Flour, Dough & Product Testing. 2009.

ANALYSIS OF CONSUMPTION PROPERTIES OF CEREALS

Onur Camal oglu Umarov
umarovonur5@gmail.com
Azerbaijan State Economic University (UNEC)

The research study examined the status of grain production and consumption in Azerbaijan, its import, export, and food and seed reserves in the country. The increase in wheat cultivation areas in recent years and the state of dependence on imports were studied. The fact that grain is a valuable sector is also explained by the fact that grain is used to prepare food for the population, raw materials for food and light industry, and feed for livestock. The high chemical composition and nutritional value of grain is of great importance for the human body.

Key words: cereals, production, wheat, nitrogenous substances.

MONASTİK İRS VƏ QASTRONOMIYA: CHARTREUSE LİKÖRÜ FRANSANIN MƏDƏNİ TARİXİNİN ÖLÜMSÜZLÜK İKSİRİ KİMİ

Hicran Rəşid qızı İsmayılova
hijranismayilova@yahoo.com
İlkin Əzizağa oğlu Əzizov
ezizovilkin2004@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Chartreuse şərabı Fransa mədəniyyətinin və tarixinin özünəməxsus bir simvoludur. Bu unikal içki, 1605-ci ildə Carthusian monastırında yaradılmış və 130-dan çox bitkinin qarışığından hazırlanaraq əsrlər boyu sirr kimi qorunmuşdur. Chartreuse şərabının resepti, monastır ənənələrinin və təbiət elminin birləşdiyi yeganə nümunələrdən biridir. Həm dini simvolizmi, həm də yüksək mətbəx mədəniyyətindəki rolu onun fərqliliyini təsdiqləyir. Chartreuse şərabı ilə bağlı tədqiqatlar alimlər və mütəxəssislər tərəfindən xüsusi maraq doğurmuşdur.

Tədqiqatçı Michel Pastoureau, Chartreuse şərabının Fransanın rəng simvolizmindəki yerinə diqqət çəkmiş, onun yaşıl rənginin ruhani və mistik məna daşıdığını vurğulamışdır. Digər tədqiqatlarda, məsələn, Jean-Robert Pitte-nin əsərlərində, şərabın kulinariya dəyəri və onun gastronomik ənənələrdəki təsiri geniş təhlil edilmişdir[1, 2]. Bu şərabın istehsal prosesi, istifadə edilən bitki ekstraktlarının kimyəvi xüsusiyyətləri və mürəkkəb distillə texnologiyası onu digər şərablardan fərqləndirir. Chartreuse şərabı yalnız bir içki deyil, həm də mədəni irsi, simvolizmi və müasir qida sənayesindəki rolu ilə öyrənilməyə layiq bir fenomen kimi aktuallığını qoruyur. Chartreuse likörləri adını Kartuzian Ordenindən (Chartreuse Ordeni) alır ki, bu da öz növbəsində 1084-cü ildə Bruno və yeddi yoldaşının məskunlaşmaq üçün seçdiyi yer olan Chartreuse "səhra"sından götürülmüşdür. Məhz bu sərt dağlarda onlar tənha və eyni zamanda cəmiyyət halında yaşamaq üçün ibadət və kontemplasiya məqsədilə bir hermitaj (müqəddəs tənhalığın mərkəzi) tikmişlər[3]. Chartreuse likörləri adını Kartuzian Ordenindən (Chartreuse Ordeni) alır ki, bu da öz növbəsində 1084-cü ildə Bruno və yeddi yoldaşının məskunlaşmaq üçün seçdiyi yer olan Chartreuse "səhra"sından götürülmüşdür. Chartreuse likörü dini irs və ekoloji uyğunlaşmanın sintezindən doğmuş unikal bir mədəni məhsul olaraq diqqəti cəlb edir.

1840-cı ildən başlayaraq, likörlər "Chartreuse" adı altında bazara təqdim edildi, lakin həmin dövrdə bu marka hələ rəsmi olaraq qeydiyyata alınmamışdı[3].



Şəkil. Chartreuse likörlərinin ticarət nişanı və orijinallığı

Chartreuse Likörünün İstehsal Texnologiyası: Mərhələlər və metodoloji əsaslandırma. Chartreuse likörü 1737-ci ildən etibarən Carthusian rahibləri tərəfindən istehsal edilməyə başlanmışdır. Bu içki 130 müxtəlif bitki, ədviyyat və otun qarışımından hazırlanır və bu qarışım xüsusi damıtma üsulu ilə alkoqola çevrilir. İstehsal prosesi gizli saxlanılır və bu sirləri yalnız iki rahib bilir. Chartreuse'un alkol tərkibi yüksəkdir; Yaşıl Chartreuse %55 alkoqol, Sarı Chartreuse isə %40 alkoqol tərkibinə malikdir. Bu yüksək alkoqol faizi Chartreuse'u digər içkilərdən ayıran əsas xüsusiyyətlərdən biridir. Digər alkoqollu içkilər, xüsusilə viski və rom, tək bir əsas maddədən (məsələn, qarğıdalı və ya şəkər qamışı) hazırlandığı halda, Chartreuse-da müxtəlif bitki və ədviyyatların qarışımı istifadə edilir. Həmçinin, Chartreuse yüksək alkoqol tərkibi ilə digər likörlərdən fərqlənir, çünki likörlər adətən daha aşağı alkoqol miqdarına malikdir. İstehsal zamanı istifadə olunan bitkilər və ədviyyatlar, çox diqqətlə seçilir və yalnız təbii maddələrdən istifadə olunur. Bununla yanaşı, Chartreuse istehsal prosesi zamanı əlavə kimyəvi maddələr və süni tərkiblərdən istifadə edilmir ki, bu da onu daha təbii bir içki halına gətirir[4]. Chartreuse likörünün istehsalı əsrlərdir qorunub saxlanılan və yüksək dərəcədə məxfiliklə həyata keçirilən bir sənət nümunəsidir. Bu unikal içkinin istehsal prosesi bir neçə əsas mərhələdən ibarətdir ki, hər biri diqqətli yanaşma və xüsusi texnologiyalar tələb edir. İlk addımda, 130-dan çox bitki və ədviyyat Kartuzian monastırının xüsusi reseptinə uyğun olaraq seçilir. Bu mərhələdə bitkilərin keyfiyyəti və təmizliyi vacib şərtlərdə qiymətləndirilir. Bitkilər qurudulur, xırdalanır və xüsusi nisbətdə qarışdırılır. Bu resept yalnız bir neçə rahib tərəfindən bilinir və onun məxfiliyi likörün eksklüzivliyini təmin edir. Seçilmiş bitkilər yüksək dərəcəli üzüm spirti ilə qarışdırılır və bir neçə həftə boyunca isladılır. Bu proses zamanı otların təbii aromatik və aktiv komponentləri spirtə keçir[6]. Maserasiya mərhələsi likörün əsas dad profilini müəyyənləşdirən kritik addımdır. Maserasiyadan alınan qarışım xüsusi distillə aparatlarına ötürülür. Distillə prosesi iki mərhələdə aparılır: birinci mərhələ otların əsas aromatik komponentlərini ayırır, ikinci mərhələ isə bu komponentlərin konsentrasiyasını artırır. Bu prosesin yüksək dəqiqliklə idarə olunması likörün keyfiyyətini təmin edir. Distillə edilmiş maye şəkər siropu və təmiz bulaq suyu ilə qarışdırılır. Bu mərhələ likörün alkoqol dərəcəsini tənzimləyir və onun balanslı dadını yaradır. Qarışdırmadan əvvəl və sonra nümunələr keyfiyyətə nəzarət laboratoriyasında analiz edilir[5]. Qarışım iri palıd çəlləklərində saxlanılır. Bu mərhələ likörün dadını zənginləşdirir və ona xüsusi aromatik komplekslik qazandırır. Maturasiya müddəti likörün növünə görə

dəyişir və bu müddətdə içkinin tərkibində kimyəvi reaksiya prosesi baş verir. Son mərhələdə likör filtrasiya edilir və xüsusi şüşələrə doldurulur. Hər şüşə üzərində "Grande Chartreuse" möhürü yerləşdirilir, bu da məhsulun autentikliyini təmin edir. Şüşələr istehsaldan sonra da bir müddət saxlanılır ki, likör tamamilə sabitləşsin. Chartreuse likörü tarixi boyunca dərman və tibbi məqsədlərlə istifadə edilmiş və zamanla yüksək alkoqol tərkibinə və bitki qarışımına görə əyləncə məqsədli bir içkiyə çevrilmişdir. Bu likörün tarixi mərhələləri və zamanla necə əyləncə və dada çevrildiyini izah edən cədvəl aşağıda verilmişdir. Bugünkü günə qədər Chartreuse, həm Fransanın yüksək mətbəxində, həm də qlobal kulinariya səhnəsində öz yerini qoruyur. Onun ərsəyə gələn illəri və mədəni dəyəri, Chartreuse'u təkcə bir içki olaraq deyil, həm də unikal bir mədəni irs kimi qiymətləndirilməsini təmin edir.

ƏDƏBİYYAT

1. Dufresne, A. (2006). Chartreuse: The History and the Mystery. Paris: Editions du Moniteur.
2. Baker, P. (2014). The Chartreuse Liqueur: A Cultural Icon of France. Cambridge University Press.
3. Chartreuse, Order of the (2011). The History of Chartreuse Liquor and the Carthusian Monks. Paris: Carthusian Monastery Press.
4. Guinness, J. (2018). The Craft of Distillation in France: A Look at Chartreuse and Other Liqueurs. London: Routledge.
5. Meyer, T. (2015). Liqueurs and Elixirs: Exploring the Mystery of Chartreuse. New York: Food History Press.

MONASTIC HERITAGE AND GASTRONOMY: CHARTREUSE LIQUEUR AS AN IMMORTAL ELIXIR IN THE CULTURAL HISTORY OF FRANCE

Hijran Rashid gizi Ismayilova
hijranismayilova@yahoo.com
İlkin Azizagha oglu Azizov
ezizovilkin2004@gmail.com
Azerbaijan Technological University

Chartreuse liqueur, or sometimes referred to as wine, is a unique drink that has left a deep mark on France's cultural and religious history. This wine was first made in 1605 at the Carthusian monastery and is known for its recipe, which was kept secret for centuries. The paper analyzes the monastic heritage, cultural, and culinary value of Chartreuse wine. The study of the drink's religious symbolism, as well as its scientific analysis, emphasizes its historical significance. A historical-cultural approach was applied as the research methodology. The monastery's traditions and the preservation of its recipes were investigated through documents, and the more than 130 plants and processing technologies used in the production of the liqueur were explored. The research results show that Chartreuse liqueur is an important symbol of France's cultural heritage. Its uniqueness is defined not only by its taste and quality but also by the monastic recipe and symbolic meaning preserved over centuries. Known as the "elixir of immortality," Chartreuse highlights both its historical heritage and cultural importance. The article thoroughly examines the path this rare drink has taken from its creation to the present day in both scientific and cultural contexts, presenting it as an inseparable part of France's national identity.

Key words: Chartreuse liqueur, cultural symbolism, French haute cuisine, distillation technology, gastronomy.

BƏRK BUĞDA (*T.DURUM* DESF.) GENOTİPLƏRİNDƏ DƏNİN FİZİKİ VƏ KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN DƏYİŞMƏ DİNAMİKASI

Əzizə İbrahimli
aziza097a@gmail.com
Samirə Salayeva
samirasalayeva@bsu.edu.az
Bakı Dövlət Universiteti

Cari tədqiqat işində Azərbaycan Respublikası Milli Genbankından əldə olunmuş və AR ETN Genetik Ehtiyatlar İnstitunun Abşeron Elmi-Tədqiqat bazasında yetişdirilmiş, 15 növmüxtəlifliyinə aid 21 bərk buğda (*T.durum* Desf.) genotipində dənin fiziki (şüşəvarilik, 1000 dənin kütləsi) və keyfiyyət (yaş və quru kleykovinanın faizlə miqdarı, kleykovinanın dartılması və kleykovinanın deformasiya əmsalı (KDƏ)) əlamətləri tədqiq edilmiş, əldə olunmuş göstəricilər əsasında PAST kompüter proqramı vasitəsi ilə variasiya-satistik analizi, Skewness və Kurtosis testləri aparılmışdır [2, 3].

Variasiya analizinin nəticələrinə əsasən, variasiya əmsalının ən kiçik qiyməti 8,41% olmaqla KDƏ əlaməti üzrə, ən yüksək qiymətləri isə 33,58% və 33,75% olmaqla, uyğun olaraq, kleykovinanın dartılması və quru kleykovinanın miqdarı, eləcə də, şüşəvarilik və yaş kleykovinanın miqdarı əlamətləri üzrə (müvafiq olaraq, 25,05% və 23,31%) izlənilmişdir ki, bu da sonuncuların genotiplərdə yüksək genetik müxtəlifliyindən xəbər verir. Dispersiya və standart kənarlanmanın ən yüksək qiymətləri isə, uyğun olaraq, 385.65% və 19.64% olmaqla şüşəvarilik əlaməti üzrə müəyyən edilmişdir.

Dənin tədqiq olunan 6 texnoloji göstəricisindən yalnız biri - kleykovinanın dartılması əlaməti üzrə həm Skewness, həm də Kurtosis testlərinin nəticələri (uyğun olaraq, 2,012±0,501** və 3,687±0,972**), 1% ehtimallıqla etibarlı olmaqla, cari keyfiyyət əlamətinin qiymətlərinin tədqiqat obyekti kimi seçilmiş genotiplərdə normal paylanmaya uyğun olmadığını sübut etmişdir.

Tədqiq olunmuş dənin texnoloji göstəricilərinin Skewness və Kurtosis testlərinin nəticələrinin histoqram əyriləri şəkil 1-də əks olunmuşdur. Belə ki, şüşəvarilik əlaməti üzrə 8 nümunə (uyğun olaraq, 2, 4, 7, 8, 16, 17, 18, 20 nömrəli genotiplər) 90-99% olmaqla, yüksək qiymətlərlə, 5 nümunə (uyğun olaraq, 6, 9, 10, 13, 19 nömrəli genotiplər) 70-80%, 2 nümunə (uyğun olaraq, 5, 15 nömrəli genotiplər) 60-70%, 4 nümunə (uyğun olaraq, 11, 12, 14, 21 nömrəli genotiplər) isə 50-60% aralığında qiymətlərlə səciyyələnmişdir. Şüşəvarilik əlamətinin ən kiçik göstəricisi 32% olmaqla *Bərəkətli-95* (1 nömrəli) genotipinə, ən böyük qiyməti isə 100% olmaqla *v.murciense* (3 nömrəli) genotipinə mənsub olmuşdur.

1000 dənin kütləsi əlaməti üzrə göstəricilər normal paylanmaya uyğun olmuş, 2, 4, 20 nömrəli genotiplərdə 42,8-44,8 q; 3, 9, 10, 13 nömrəli genotiplərdə 46-47,2 q; 1, 18, 19 nömrəli genotiplərdə 48-49,2 q; 6, 12, 15 nömrəli genotiplərdə 53,2-54,4 q və 5, 11, 14, 17 nömrəli genotiplərdə 55,2-57,2 q aralığında dəyişmişdir. 1000 dənin kütləsinin ən kiçik qiymətləri *v.mutico-lybicum* (16 nömrəli, 39.6 q) və *v.coerulesens* genotiplərində (7 nömrəli, 42 q), ən yüksək göstəricisi *v.erythromelan* (21 nömrəli) genotipində 59,2 q olmaqla müəyyyən edilmiş, *v.niloticum* (19 nömrəli) genotipində isə 50.8 q-a bərabər olmuşdur.


Şəkil 1-də verilmiş histoqramdakı əyri yaş kleykovinanın faizlə miqdarı əlaməti üzrə göstəricilərin normal paylanma uyğun dəyişdiyini əks etdirir. Belə ki, ən böyük qrupu formalaşdıran 6 nümunədə (uyğun olaraq, 1, 8, 9, 12, 13, 19 nömrəli genotiplər) yaş kleykovinanın %-lə miqdarı 26,2-28,4%; 11, 14, 16, 20, 21 nömrəli genotiplərdə 20-22%; 2, 4, 5, 17 nömrəli genotiplərdə 33-35,7% aralığında dəyişmişdir. Yaş kleykovinanın %-lə miqdrının ən kiçik göstəriciləri *v.mutico-aleksandrina* (15 nömrəli, 18,3%) və *v.mutico-hordeiforme* (18 nömrəli, 19%), ən yüksək göstəricisi (40%) isə *v.murciense* (3 nömrəli) genotipində müəyyən edilmişdir.

Quru kleykovinanın faizlə miqdarı əlaməti isə 11 nümunədə (uyğun olaraq 6, 8, 10, 11, 12, 13, 14, 16, 19, 20, 21 nömrəli genotiplər) 8-9,9% aralığında, 3 nümunədə (uyğun olaraq, 4, 5, 7 nömrəli genotiplər) 12,9-14,2%, digər 3 nümunədə (uyğun olaraq, 1, 15, 18 nömrəli genotiplər) 5,8-6,4% aralığında dəyişməklə normal paylanmaya uyğun olmuşdur. Quru kleykovinanın %-lə miqdarının ən yüksək göstəriciləri isə *v.murciense* (3 nömrəli) genotipində 19.5%-ə və *v.murciense* (2 nömrəli) genotipində 17.3%-ə bərabər olmaqla aşkarlanmışdır.

KDƏ 9, 11, 12, 14, 15, 18, 19 nömrəli genotiplərdə (7 nümunə) 110; 4, 5, 7, 13, 16, 17 nömrəli genotiplərdə (6 nümunə) 100; 1, 6, 8, 21 nömrəli genotiplərdə (4 nümunədə) isə ən yüksək qiymətlə - 120 qiyməti ilə seçilmişdir. Qruplaşmada iştirak etməyən 2, 3, 10 və 20 nömrəli genotiplərdə KDƏ ən aşağı göstəriciyə - 95-ə bərabər olmuşdur.

Kleykovinanın dartılması əlaməti isə 3, 5, 9, 10, 11, 12, 13, 14, 20 nömrəli genotiplərdə 9-10 sm aralığında qiymətlər almış, 1, 4, 16, 17, 18 nömrəli genotiplərdə 8 sm-ə, 7, 19 nömrəli genotiplərdə isə 7 sm-ə bərabər olmuşdur. Bu əlamətin ən yüksək göstəriciləri 20 sm və 18 sm olmaqla, uyğun olaraq, *v.niloticum* (8 nömrəli) və *v.africanum* (6 nömrəli) genotiplərində müəyyən edilmişdir.

Sürətlə dəyişən dünyanın hazırkı dövrünü İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) inkişafı xarakterizə edir. İKT artıq cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilmiş və bizi əhatə edən bütün sahələrə geniş şəkildə nüfuz etmişdir. Müasir dövrdə ölkənin sosial-iqtisadi potensialının yüksəldilməsi yüksək texnologiyalara, kompüterləşməyə, informasiyalaşdırmaya, istehsalın bütün sahələrinin intellektuallaşdırılmasına əsaslanan yeni iqtisadiyyatın formalaşdırılması kimi səciyyələnir. Bununla yanaşı, ölkənin sosial-iqtisadi potensialının yüksəlişi onun əhalisinin layiqli həyat keyfiyyətini təmin etmədən mümkün deyil. Əhalinin yüksək həyat keyfiyyətinin təmin edilməsi inkişaf üçün motivasiyanın, innovasiyalara düzgün münasibətin, resursları sərf etmək istəyinin əsas şərtidir. Sosial rifahın təmin olunduğu şəraitdə cəmiyyət yeni transformasiyaların dayağına çevrilməlidir. Yeni strategiyanı tərtib edənlər bunu başa düşür və qazanc əldə etməkdənsə, geniş miqyasda modernləşməyə, dövlətin özünün hərtərəfli möhkəmlənməsinə, yeni sosial dövlətin qurulmasına, yeni cəmiyyətin əsaslarının formalaşmasına, bunun üçün isə ilk növbədə həyat keyfiyyətinin yaxşılaşdırılmasına doğru istiqamət götürürlər [2].

Bu səbəbdən iqtisadi artım və makroiqtisadi sabitliyin qorunması, bazar institutlarının və pul siyasətinin gücləndirilməsi ilə yanaşı, həm də sosial sahənin inkişafı: əmək bazarının inkişafı hesabına sosial sabitliyin təmin edilməsi, bərabərsizliyin azaldılması və yoxsulluğun aradan qaldırılması, ictimai qurumların inkişaf etdirilməsi, insan mühitinin yaxşılaşdırılması mühüm amillər hesab edilir. Əhalinin İKT-dən gündəlik həyatda və istehsal sferasında istifadə etmək qabiliyyəti, ilk növbədə, insan potensialının səviyyəsi ilə müəyyən edilir. İnsan İnkişafı İndeksi (İİİ) cəmiyyətin üç mühüm xarakteristikasını özündə birləşdirən məcmu göstəricidir: 1) uzunömürlülük göstəricisi (doğulanda gözlənilən ömür uzunluğu); 2) təhsil göstəricisi (əhalinin savadlılıq səviyyəsi); 3) əhalinin rifah göstəricisi (adambaşına düşən ÜDM). Bir qayda olaraq, bu üç göstərici arasında birbaşa əlaqə (birbaşa korrelyasiya) mövcuddur. Tədqiqatlar göstərir ki, İnsan İnkişafı İndeksi üzrə aparıcı mövqeləri iqtisadi cəhətdən yüksək inkişaf etmiş dövlətlər tutur [3].

Müasir şəraitdə sosial sahənin fəaliyyət göstərməsi və inkişafı cəmiyyətdən birbaşa və əks əlaqə olmadan, informasiya mübadiləsi olmadan mümkün deyil. İnformasiya və kommunikasiyalar sosial sahənin idarə olunması və onun inkişafı prosesində əsas məqamlardır. Müasir dünyada heç bir təşkilat, daha çox sosial institut öz fəaliyyətinə tam informasiya təminatı olmadan, müasir informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə etmədən fəaliyyət göstərə bilməz. Sosial xidmət müəssisəsinin fəaliyyətinin informasiya təminatı sosial xidmətlərin səmərəliliyini və keyfiyyətini artırmaq məqsədi ilə sosial informasiyanın kommunikasiya kanalları vasitəsilə toplanmasını və yayılmasını, ictimaiyyətə çatdırılmasını, sosial institutlarla onların real müştəriləri arasında daimi əlaqənin yaradılmasını nəzərdə tutur.

Bəşər sivilizasiyasının inkişafında yeni mərhələnin əsasını həyati fəaliyyətini informasiyanın istehsalı, yayılması və istifadəsi proseslərini təmin edən informasiya cəmiyyəti təşkil edir.

Müasir şəraitdə elmi biliklər və informasiya resursları iqtisadiyyatın ən mühüm resursu kimi çıxış edir. Müasir cəmiyyətin bütün strukturu informasiya ilə işləməyə ən effektiv imkan verən istiqamətdə yenidən qurulmağa başlayır. Müəyyən bir şəxsin sosial əhəmiyyəti getdikcə daha çox ənənəvi malların, istehsal şəraitinin və ya pulun (kapitalın)

mövcudluğu ilə deyil, həm də hər şeydən əvvəl informasiya resurslarının, elmi biliklərin və məlumatların mövcudluğu, onun sosial statusu ilə müəyyən edilir. Prioritetlər getdikcə daha çox mülkiyyət və kapitaldan elmi bilik və informasiyaya keçir [1].

Tədqiqatlar sübut etmişdir ki, sosial-iqtisadi inkişafın alət hesab edilən informasiya texnologiyalarının yayılma sürəti sosial-iqtisadi inkişafın ümumi səviyyəsi ilə əlaqələndirilir. Son nəticə ondan ibarətdir ki, İKT iqtisadi artımın təşviqində və yoxsulluğun azaldılmasında mühüm rol oynayır. İnkişaf etməkdə olan ölkələrdə şirkətlər arasında aparılan sorğu göstərmişdir ki, İKT-dən istifadə edən şirkətlər istifadə etməyənlərə nisbətən daha sürətlə inkişaf edir, daha çox investisiya yatırır və daha məhsuldardır. İKT sənaye sahələrində məhsuldarlığa, iqtisadi səmərəliliyə, rəqabət qabiliyyətinə birbaşa təsir göstərmək üçün istifadə edilə bilər ki, bu da inkişaf etməkdə olan ölkələrin öz iqtisadiyyatlarını qura bilməsi üçün bir üstünlükdür.

Texnologiyanın idarə etdiyi dünya bu gün reallıqdır. Kənd təsərrüfatından sənayeyə qədər müasir cəmiyyətin bütün sahələrində texnoloji dəyişikliklərin izləri yaranıb. İKT ölkənin inkişafı və davamlılığı üçün mühüm parametrlərdən birinə çevrilib. İnkişaf prosesində əhəmiyyətinə görə İKT Minilliyin inkişaf məqsədlərindən birinə çevrilmişdir. Beləki, yoxsulluğa qarşı mübarizədə yeni texnologiyaların, xüsusilə İKT-nin üstünlükləri həmin sənəddə xüsusi olaraq vurğulanmışdır. Dünya Bankının inkişaf məqsədləri ilə informasiya və kommunikasiya üzrə son hesabatında qeyd olunur: "Yüksəksürətli internetə qoşulmada 10% artım iqtisadi artımı 1,3% artırır" [4].

Ölkəmizdə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət telekommunikasiya və informasiya texnologiyaları sektorunun inkişafına da müsbət təsir göstərmişdir. MDB məkanında daha çox ölkəmizdə İKT-nin inkişafı ilə bağlı mühüm addımlar atılmışdır. MDB ölkələri arasında ilk dəfə Azərbaycanda sabit telefon şəbəkəsi tam elektronlaşdırılmışdır. Artıq ölkəmizin istənilən yaşayış məntəqəsində yüksək sürətli, eləcə də genişzolaqlı internetə çıxış imkanı əldə olunmuşdur.

Azərbaycanda İKT sektorunun inkişafını əks etdirən göstəricilər aşağıdakı cədvəldə verilmişdir [5].

Cədvəl 1

İKT sektoru üzrə əsas göstəricilər

Göstəricilərin adı	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023
İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, milyon manat	1589,2	1555,9	1688,0	1826,8	2083,2	2158,2	2249,7	2514,8	2988,8
İKT sektorunda yaradılmış əlavə dəyərin həcmi, milyon manat	970,7	958,7	1038.1	1112,0	1293,3	1600,9	1663,8	1822,2	2144,9
İKT müəssisələri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalar, milyon manat	338,4	198,2	170,2	185,0	294,7	177,2	135,0	392,7	385,8
İKT məhsullarının idxalı, milyon manat	268,6	371,1	565,1	883,8	901,6	1055,9	1083,2	998,7	1510,2
İKT sektorunda çalışan işçilərin siyahı sayı, min nəfər	20,1	18,0	18,1	19,0	19,3	20,5	21,1	22,5	23,5

Mənbə: stat.gov.az

Cədvəldən göründüyü kimi İKT sektorunda məhsul (xidmətlər) buraxılışı 2015-ci ildə 1589,2 milyon manat təşkil etmişdirsə, 2023-cü ildə bu rəqəm 2988,8 milyon manat olmuşdur. İKT sektorunda yaradılmış əlavə dəyərin həcmi isə 2015-ci ildə 970,7 milyon manatdan 2144,9 milyon manata çatmışdır. Bundan əlavə İKT məhsullarının idxalı müvafiq dövrlər üzrə 268,6 milyon manatdan 1510,2 milyon manata yüksəlmişdir.

Azərbaycanda XXI əsrin tələblərinə cavab verən müasir informasiya infrastrukturunun, habelə iqtisadiyyatda mühüm yer tutan informasiya və kommunikasiya məhsulları sektorunun yaradılması işində ciddi nailiyyətlərin əldə olunması onu deməyə əsas verir ki, ölkəmiz iqtisadi cəhətdən qüdrətli dövlətdir.

İnformasiya kommunikasiya texnologiyaları ölkənin inkişafı və davamlılığı üçün mühüm amillərdən birinə çevrilmişdir. Müasir informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və tətbiqi iqtisadi və elmi-texniki tərəqqinin yeni mərhələsinə gətirib çıxarmışdır. Müasir informasiya texnologiyaları əhalinin həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsində, xüsusən də əmək qabiliyyətli əhalinin yoxsulluğunun aradan qaldırılmasında böyük əhəmiyyət kəsb edir.

İKT-nin praktiki fəaliyyətdə müsbət təsiri vaxta qənaət, zəruri informasiyanın sistemləşdirilməsi və bir yerdə saxlanılması, informasiyaya çıxışın asanlaşdırılması, onun yaradılması, redaktəsi və mübadiləsi, sənədlərin yaradılması və məlumat bazalarının aparılmasında bütün mütəxəssislərin fəaliyyətinə nəzarət və müştərilərin şəxsi məlumatlarının etibarlı mühafizəsinin təmin edilməsində ifadə olunur.

ƏDƏBİYYAT

1. А. Г.Каримов, Г.Р. Фаткуллина. Современные информационные технологии как инструмент сокращения бедности работающего населения. Цифровая социология / Digital Sociology / Т. 5, № 1 / 2022.
2. Е.Б.Архипова, С.Н.Панкова. Информатизация социальной сферы в условиях современных модернизационных процессов. Вестник Омского университета. Серия «Экономика». 2015. № 3.
3. И.А.Родионова, А.С.Гордеева. Роль информационных технологий в социально-экономическом развитии стран мира. Вопросы инновационной экономики. № 7 (7) / 2011.
4. Э.Р.Алиева .Г.А. Баммаева. Преимущества информационных технологий в социально-экономическом развитии. X Международная студенческая научная конференция. Студенческий научный форум – 2018.
5. https://www.stat.gov.az/source/digital_development/

THE ROLE OF İNFORMATİON AND COMMUNİCATİON TECHNOLOGİES İN SOCİO-ECONOMİC DEVELOPMENT

Zarifa Ismail qizi Nagiyeva
zarifa.naghiyeva@stat.gov.az
State Statistical Committee of the Republic of Azerbaijan
Center for Scientific Research and Statistical Innovations

Information and communication technologies have become one of the important factors for the development and sustainability of the country. The rapid development and application of modern information and communication technologies has led to a new stage of economic and scientific and technical progress. Modern information technologies are of great importance in improving the standard and quality of life of the population, especially in eliminating poverty among the working-age population.

The positive impact of ICT in practical activities is expressed in saving time, systematizing and storing necessary information in one place, facilitating access to information, its creation, editing and exchange, control over the activities of all specialists in creating documents and maintaining databases, and ensuring reliable protection of clients' personal data.

Keywords: socio-economic development, information and communication technologies, decent quality of life, scientific knowledge, information resources.

PROAKTİV İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ YANAŞMASI

Sakit Qambay oğlu Verdiyev
info_tel@inbox.ru
Kənan Rövşən oğlu Abdullayev
kenan.abdulllayev98@gmail.com
Israil Mehdi oğlu Məmmədov
memmedovisrayil97@gmail.com
Azərbaycan Texnologiya Universiteti

İnformasiya təhlükəsizliyi, məlumatların qorunması, şəbəkə təhlükəsizliyi və təşkilatların ümumi təhlükəsizliyinin təmin edilməsi baxımından çox vacibdir. Son illərdə şəbəkə hücumlarının və məlumat sızmalarının artması ilə birlikdə, ənənəvi reaktiv yanaşmaların yetərli olmadığı aydın olmuşdur. Bu səbəbdən təşkilatlar daha çox proaktiv təhlükəsizlik yanaşmalarına üstünlük verməyə başlamışdır. Proaktiv təhlükəsizlik, təhlükələrin və risklərin əvvəldən müəyyən edilməsi və onlara qarşı tədbirlər alınması məqsədini güdür. Bu yanaşmanın ən mühüm üstünlüyü, təhlükələr baş verməmişdən əvvəl onları müəyyən edərək qarşısını almaqdır. Bu tezisdə proaktiv təhlükəsizliyin tətbiq sahələri, müasir texnologiyaların rolu və tətbiqi yolları təhlil ediləcək.

Proaktiv informasiya təhlükəsizliyi yanaşması, təhlükələrin qarşısını almaq üçün əvvəlcədən planlaşdırılmış təhlükəsizlik tədbirlərini əhatə edir. Bu yanaşmanın əsas prinsipləri risklərin müəyyən edilməsi, təhdidlərin əvvəlcədən aşkar edilməsi və hadisələrin qarşısını almağa yönəlmiş tədbirlərdən ibarətdir.

İnformasiya təhlükəsizliyində risklərin idarə edilməsi, proaktiv yanaşmanın əsasını təşkil edir. Risk idarəetməsi prosesi, təşkilatın şəbəkə və məlumat sistemlərindəki mümkün təhlükələri təhlil edərək, onlara qarşı müvafiq tədbirlər alır. Risklərin qiymətləndirilməsi zamanı istifadə olunan metodlar, məsələn, ISO/IEC 27001 standartları və digər beynəlxalq təhlükəsizlik çərçivələri təşkilatların təhlükəsizlik strategiyalarını qurmağa kömək edir.

Proaktiv təhlükəsizlik alətləri, şəbəkə və məlumat təhlükəsizliyinin təmin edilməsi üçün istifadə olunur. Bu alətlər arasında SIEM (Security Information and Event Management), IDS/IPS (Intrusion Detection/Prevention Systems) və Firewall sistemləri yer alır. Bu alətlər, şəbəkə üzərində baş verən anomaliyaları, hücumları və digər təhlükələri əvvəlcədən müəyyən edərək, zərərli fəaliyyətlərə qarşı tədbirlər görür.

Maşın öyrənməsi və süni intellekt, proaktiv təhlükəsizlik yanaşmasında mühüm rol oynayır. Bu texnologiyalar şəbəkə trafikini və məlumatları analiz edərək, mümkün təhlükələri öncədən aşkar edir. Süni intellekt əsaslı alqoritmlər, şəbəkə üzərində baş verən təhdidləri real zamanlı izləyir və anomaliyaları dərhal müəyyən edir. Bu, təşkilatların şəbəkə və məlumat sistemlərinə qarşı edilən hücumları daha sürətli aşkar etməyə və qarşısını almağa imkan verir.

Zero Trust (Sıfır Etimad) modeli, şəbəkə təhlükəsizliyində ən müasir yanaşmalardan biridir. Bu modeldə, bütün istifadəçilərə, cihazlara və tətbiqlərə etimad edilmir. Hər bir giriş tələbində istifadəçi və cihazların doğruluğu yoxlanılır. Bu yanaşma, təşkilatın şəbəkəsini daha etibarlı edir, çünki istifadəçilərin və sistemlərin hər bir fəaliyyətini mütəmadi olaraq təhlil edir.

Şəbəkə təhlükəsizliyi, təşkilatların informasiya sistemlərinin qorunmasında əsas rol oynayır. Şəbəkə təhlükəsizliyinin təmin edilməsi üçün VPN, Firewalls, IDS/IPS və DDoS qorunma sistemləri istifadə olunur. Bu sistemlər, şəbəkədəki məlumatların qorunmasını təmin edir, haker hücumlarının qarşısını alır və məlumatların təhlükəsizliyini artırır.

Məlumatların qorunması üçün müasir şifrələmə metodları və identifikasiya sistemləri tətbiq edilir. End-to-end şifrələmə və ikili təsdiqləmə (MFA) sistemləri istifadəçilərin məlumatlarını qoruyur və yalnız etibarlı şəxslərin məlumatlara girişini təmin edir. Bu

metodlar, xüsusilə məlumat sızmalarını və hacker hücumlarını önləyərək məlumat təhlükəsizliyini gücləndirir.

REFERENCES

1. Singer P.W. "Cybersecurity and Cyberwar: What Everyone Needs to Know", ABŞ - 2014
2. Mark S.S. "Information Security: Principles and Practice", ABŞ - 2024

PROACTIVE INFORMATION SECURITY APPROACH

Sakit Qambay oglu Verdiyev
info_tel@inbox.ru
Kenan Rovshan oglu Abdullayev
kenan.abdulllayev98@gmail.com
Israil Mehdi oglu Mamedov
memmedovisrayil97@gmail.com
Azerbaijan Technological University

Information security is one of the main factors ensuring the successful operation of organizations in modern times. In recent years, approaches to ensuring information security have changed and there has been a transition from reactive security to proactive security. The proactive security approach involves the preliminary analysis of risks and the implementation of appropriate security measures in order to prevent threats. The purpose of this thesis is to provide extensive information on the analysis and application of proactive information security using modern methods. It explains how the security of organizations is ensured through security policies, machine learning, artificial intelligence, network monitoring and other modern technologies. As a result, the importance of proactive approaches that increase the effectiveness of the security of organizations is emphasized.

Keywords: Proactive security, information security, machine learning, artificial intelligence, network monitoring, risk management, SIEM, security tools, data encryption, Zero Trust.

QABA YEMLƏRİN HAZIRLANMASI VƏ PAYLAŞMASI TEXNOLOGİYASININ VƏ TEXNİKİ VASİTƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Rövşən Mustafa oğlu Hacıyev [1]
r.hajiyev@atu.edu.az
Emin Nəsib oğlu Hacıyev [2]
eminh4408@gmail.com
Azad Samir oğlu Babayev [2]
azadbabaev82@gmail.com
Nicat Rövşən oğlu Qədimov [2]
qedimovnicat33@gmail.com
Azərbaycan Texnologiya Universiteti[1]
Azərbaycan Dövlət Aqrar Universiteti[2]

Giriş. Kənd təsərrüfatının inkişafı və kənd təsərrüfatı məhsulları, xammal və ərzaq bazarlarının tənzimlənməsinə dair qarşıya qoyulan əsas vəzifələrdən biri aşağıdakılardır: kənd təsərrüfatı məhsullarının əsas növlərinin istehsalının artırılmasının stimullaşdırılması; kənd təsərrüfatı məhsulları, xammal və ərzaq məhsulları üzrə daxili və xarici bazarların tənzimlənməsinin səmərəliliyinin artırılması; idarəetmə formalarının dəstəklənməsi, kənd təsərrüfatının inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə və kiçik fermer təsərrüfatlarına elmi dəstək və kənd təsərrüfatı məhsulları, xammal və ərzaq bazarlarının tənzimlənməsi [1].

Heyvanların məhsuldarlığını artırmaqla eyni zamanda istehsal xərclərini azaltmağın əsas yollarından biri heyvanların balanslaşdırılmış yemlərlə yemləndirilməsidir. Buna görə

də, yemdən rasional istifadə heyvanlara yalnız hazırlanmış formada, eləcə də digər komponentlərlə qarışdırılaraq yüksək keyfiyyətli yem şəklində verilməsini nəzərdə tutur.

Botaniki tərkibindən və becərilmə üsulundan asılı olaraq paxlalı, dənli və dağ otlarından hazırlanan samandan istifadə olunur. Ən çox yayılmış saman paxlalı otlardan hazırlanır. Bu samanda 1 kq-da 0,5-0,6 yem vahidi və 150-220 q-a qədər həzm olunan protein var. Keyfiyyətli dənli otların samanının tərkibində 1 kq-da 0,45-0,55 yem vahidi və 40-50 q həzm olunan protein vardır.

Mal-qaranın dənli və paxlalı otların qarışıq küləş yemləndirilməsi ən təsirli olur.

Preslənmiş qaba yem səpələnən qaba yemə nisbətən bir sıra üstünlükləri var. Preslənmiş küləşin hazırlanmasında mexaniki itkilər 2...2,5 dəfə azalır. Yemin daşınması xərcləri azaldılır və nəqliyyat vasitələrinin daşıma qabiliyyətindən daha səmərəli istifadə olunur. Bununla belə, bu formada hazırlanmış qaba yemdən əvvəlcədən hazırlanmadan istifadə etmək olduqca çətindir.

Qaba yemlərin yemləmə üçün hazırlanmasının əsas mərhələlərindən biri xırdalama texnoloji prosesidir, çünki yem asanlıqla həzm olunmalı və yaxşı mənimsənilməlidir. Yem istehsalı müəssisələrində zootexniki tələblərə cavab verməli olan axınlı texnoloji xətlər (ATX) yaradılır. Bu tələblər aşağıdakılardır:

• yemin bərabər və dəqiq paylanmasının təmin edilməsi;

• yemin çirklənməsinin və fraksiyalara ayrılmasının qarşısının alınmasının təmin edilməsi;


• heyvanların xəsarət almalarının qarşısının alınmasının təmin edilməsi;

• elektrik təhlükəsizliyinin təmin edilməsi;

• təsərrüfatda olan bütün mal-qaraya xidmət olunması;

• maşınların tərkibinin və xəttin strukturunun seçilməsi ilə texnoloji prosesin yerinə yetirilməsinin səmərəliliyinin təmin edilməsi.

Yem paylama texnologiyasına şəkil 1-də verilmiş yemin paylanması prosesini təmin etməyə yönəlmiş bir sıra texniki vasitələr daxildir.



Şəkil 1. Yemin hazırlanması və paylanmasının texnoloji xətti.

Yem paylayıcı iki əməliyyatı yerinə yetirir: o, yemi yükləmə nöqtəsindən paylama məntəqəsinə daşıyır və onu dozalarla axurlara paylayır. Dozalı yem paylama əsas funksiya olub yem paylayıcı texniki vasitələri adi nəqliyyat vasitələrindən fərqləndirir. Bu, müxtəlif növ heyvandarlıq binalarını, heyvanların saxlanma sistemlərini və üsullarını, yemin fiziki - mexaniki xassələrini və yemləmə üsullarını nəzərə alaraq yem paylayıcıların konstruksiyalarının müxtəlif olmasının səbəbidir.

Preslənmiş formada (preslər, rulonlar) yığılmış qaba yemin hazırlanması və paylanması üzrə mövcud texnologiyalar yükləmə, doğrama, xırdalama, daşınma, dozalaşdırma və paylama kimi bir sıra texnoloji əməliyyatları nəzərdə tutur. Bu texnoloji əməliyyatlar yüksək enerjili, metal tutumlu texniki avadanlıq tələb edir, məsələn, ПЭ-0,8Б yükləyicisi; Т-150 traktorla aqreqatlaşan ИРТ-165 (80) yem

xırdalayıcısı; və ya qaba yemi xırdalama xətti ЛИС-3.01; МТЗ-80 traktoru ilə aqreqatlaşan КТУ-10А yem paylayıcısı.

Nəticədə, proseslərin enerji tutumunun azaldılması istiqamətində texnologiyaların və texnoloji vasitələrin təkmilləşdirilməsi problemi yaranır; texniki xidmət personalının minimuma endirilməsi; bir maşında bir sıra əməliyyatları birləşdirmək ehtiyacı, yəni universal texniki avadanlıqların yaradılması. Belə texniki vasitələr daha çox xaricdə, Hollandiya, Böyük Britaniya və ABŞ kimi ölkələrdə geniş yayılmışdır.

GOWEIL-dən silindrik rulonlar şəklində olan silos, senaj və küləşin xırdalanması və axurlara paylanması üçün nəzərdə tutulmuş bıçağı qeyd etmək olar. Bıçaq rulonu asanlıqla kəsir və eyni zamanda fermanın yem koridorunda hərəkət edərək yemi paylayır. RBA rulon açıcısı yem masasına birbaşa yemin optimal paylanmasına imkan verir. UNIBALL LUCLAR silindrik rulonların və preslərin xırdalanması ilə eyni vaxtda paylanması üçün nəzərdə tutulmuşdur.


КТУ-10А və PMM-5,0 kimi səyyar yem paylayıcılardan geniş istifadə olunur, lakin onların konstruksiya xüsusiyyətləri pres və ya rulonlar şəklində hazırlanmış yemin paylanmasına imkan vermir, bu, yalnız ИРТ-165 və ya ИРТ-80 kimi yem xırdalayan maşınlarında rulonların xırdalanmasından sonra mümkündür. Bununla belə, bu, əlavə əmək xərcləri, maddi resurslar və preslənmiş yemin yüklənməsi, daşınması və paylanması prosesini təmin etmək üçün texniki vasitələrin işlənməsi ilə bağlıdır. Bu çatışmazlıqların qarşısını almaq üçün bu prosesi mexanikləşdirmək lazımdır [2].

Texniki vasitələrin geniş çeşidi rulonlarda formalaşan qaba yemi paylamaq üçün yeni universal maşınların daimi axtarışını göstərir [2].

Belə maşınların konstruksiyalarının daha da təkmilləşdirilməsi işçi orqanın (dozalaşdırıcı aparatın) və kəsici aparatların konstruksiyalarının təkmilləşdirilməsi yolu ilə getməlidir. Yem paylayıcıların təsnifatı şəkil 2-də göstərilmişdir [2, 3].

Tədqiqatın materialları və metodları. Yem hazırlama prosesi xammalı hazır yem məhsuluna çevirən ardıcıl çevrilmələr toplusu kimi təqdim edilə bilər.

Yem istehsalının gətirilmiş xərclərini minimuma endirməyə meylli olduğu ifadəni iqtisadi və riyazi model şəklində təqdim edərək, azaldılmış xərclərin meyarına uyğun olaraq variantları qiymətləndirəcəyik.



Şəkil 2. Yem paylayıcıların təsnifatı.

İqtisadi və riyazi modeli aşağıdakı ifadə ilə göstərək [4]:

$$\begin{cases} \left(I_i = EK_i\right) Q_i t_i \to \min \\ t_i \le \left[t_i\right] Q_i t_i \ge G_m \\ E_i \le E.0 \le \gamma_i \le \left[\gamma_i\right] \end{cases} \quad (1)$$

burada *İ* – *i*-ci texnoloji prosesi yerinə yetirəmək üçün istismar xərcləri, *man*;
E – normativ əmsal, *man*;
K_i – *i*-ci texnoloji prosesi yerinə yetirmək üçün sərmayə qoyuluşları, *man*;
Q_i – *i*-ci məhsulun istehsalı üçün xəttin məhsuldarlığı *kq/saat*;
t_i – yem qarışığının *i*-ci komponentinin hazırlanma və heyvanlara paylanma

müddəti, *saat*;

$[t_i]$ – yem qarışığının *i*-ci komponentinin hazırlanması və heyvanlara paylanması üçün buraxılan müddət, *saat*;

O_i – istehsal olunan *i*-ci məhsulun miqdarı, *kq*;

E_i – *i*-ci məhsulun istehsalında enerji sərfi, *MJ*;

E_n – *i*-ci məhsulun istehsalında nominal enerji sərfi, *MJ*;

γ – yemin hazırlanması və paylanması proseslərinin keyfiyyət göstəriciləri.

Texnoloji xətlərin və texniki vasitələrin parametrlərini əsaslandırmaq üçün gətirilmiş xərclərin müəyyən edilməsini aşağıdakı düsturla yerinə yetiririk:

$$\frac{\sum_{i=1}^{n}\left(I_i + E_n K_i\right) Q_i \left[t_i\right]}{Nq_i} \to \min, \qquad (2)$$

burada *n* – baxılan proseslərin sayı;

$İ_i$ – *i*-ci proses üzrə istismar xərcləri;

E_n – səmərəliyin normativ əmsalı;

K_i – *i*-ci proses üzrə sərmayə qoyuluşu;

Q_i – *i*-ci xəttin (texniki vasitələrin) məhsuldarlığı;

$[t_i]$ – zootexniki tələblərə görə *i*-ci xəttin (texniki vasitələrin) buraxılan işləmə müddəti 1,5-2 saatdır;

N – heyvanların sayı;

q_i – heyvan başına *i*-ci növ yemin miqdarı.

İfadədə $Q_i[t_i]$ hasili avadanlığın etibarlılığını nəzərə alaraq hazırlanmış və ya paylanmış yem miqdarını G_m xarakterizə edir.

Müəyyən fərziyyələri nəzərə alaraq yaza bilərik:

$$Q_i \left[t_i\right] = G_m = N_{q1}, \qquad (3)$$

(3) ifadəsindəki ikinci bərabərlik işarəsi şərti olaraq qoyulur, çünki yemin hazırlanması onun qidalılıq dəyərini artırmağa imkan verir.

Yemin hazırlanmasına (paylanmasına) ayrılan vaxtı nəzərə almaqla Q_c sisteminin məhsuldarlığını müəyyən edə bilərik:

$$Q_q = \frac{N_{q1}}{\left[t_1\right]} \le Q_1 \qquad (4)$$

(2) sisteminin birinci komponentini aşağıdakı formada yazaq:

$$\sum_{i=1}^{n}\left(N_1 + E_n K_i\right) Q_i t_i K_e \le N q K_e S, \qquad (5)$$

burada K_e – yemin qidalılıq dəyərinin məhsula çevrilmə əmsalıdır.

Bu ifadədən heyvanların və quşların məhdud sayını [*N*] və ya onların orta məhsuldarlığını $[qK_e]$ müəyyən etmək olar ki, bu zaman yem hazırlama və paylama sistemi kimi işlənib hazırlanmış və ya seçilmiş variantından istifadə edilməsi effektiv olur:

$$\left[N\right] = \frac{\sum_{i=1}^{n}\left(N_i + E_n K_i\right) Q_i \left[t_i\right]}{q K_e S},$$

$$\left[qK_e\right] = \frac{\sum_{i=1}^{n}\left(N_i + E_n K_i\right) Q_i \left[t_i\right]}{NS}.$$

Beləliklə, iqtisadi - riyazi model (ifadə 1) maddi xərclər (N_i; K_i, *man*), texnoloji (t_i; G_m) və konstruktiv (Q_j) parametrlərini, həmçinin keyfiyyət (γ_i) və enerji göstəricilərini, prosesi nəzərdən keçirilən məhsul istehsalı sisteminin parametrlərini birləşdirir. Bu modelin elmi əhəmiyyəti ondan ibarətdir ki, o, bu xərcləri, göstəriciləri və parametrləri qarşılıqlı əlaqədə nəzərdən keçirməyə, eləcə də heyvandarlıq məhsulları

istehsalının effektivliyinin artırılması yollarını təhlil etməyə imkan verir.

(1) modelə uyğun olaraq, rulonlardan gövdəli yemlərin hazırlanması və paylanması prosesləri ilə əlaqədar, yemin hazırlanması və paylanması müddətinin zootexniki müddətlə uyğun olması, proseslərin enerji göstəricilərinin uyğun olmaması lazımdır. Proseslərin enerji göstəriciləri nominal enerji istehlakından çox olmamışdır və keyfiyyət göstəriciləri məqbul olanlara uyğundur [4]:

$$t_p \le z_p t_S \le [t], \qquad (6)$$

burada t_p – paylama müddəti, *s*;

z_p – paylayıcının gedişlərinin sayı;

t_S – yemin hazırlanması və paylanması dövrünün müddəti, *s*;

$[t]$ – zootexniki tələblərə uyğun olan buraxıla bilən paylama müddəti, *s*.

Paylayıcının gedişlərinin sayı aşağıdakı düsturla ifadə olunur:

$$z_p \frac{Ng_b}{G_r}, \qquad (7)$$

burada *N* – heyvanların baş sayı;

g_b – heyvanların bir başına yem paylanma norması, *kq/baş*;

G_r – rulonun kütləsi.

Təhlil göstərir ki, rulonlardan gövdəli yeminin hazırlanması və paylanması müddətini azaltmaq, enerji xərclərini azaltmaq üçün rulonun yüklənməsi, paylama məntəqəsinə daşınması, dozalaşdırılması eyni vaxtda xırdalanma və paylanma kimi bir neçə texnoloji əməliyyatı bir avtomobildə birləşdirmək lazımdır. Yuxarıda qeyd edilənləri yemin hazırlanması və paylanmasının dövriyyə müddətini təyin edən ifadə ilə verilə bilər:

$$t_S = t_p + t_t + t_x + t_v, \qquad (8)$$


burada t_p – rulonların yüklənmə müddəti, *s*;

t_t – daşınma müddəti, *s*;

t_x – materialın eyni vaxtda xırdalanması ilə dozalaşdırılması müddəti, *s*;

t_v – hazırlanmış gövdəli yemlərin paylanma müddəti, *s*.

Nəticələr və müzakirə. Tədqiqatlar nəticəsində bir sıra texniki həllər işlənib hazırlanmışdır ki, bu da rulonlarda formalaşmış qaba yemlərin yemlənməyə hazırlanması və paylanması və öz-özünə yükləmə, eyni vaxtda xırdalanma ilə yemin daşınması və paylanması proseslərini birləşdirən kiçik ölçülü yem paylayıcının yaradılmasının texnoloji prosesinin işlənib hazırlanması üçün əsas olmuşdur.



Şəkil 3. Qaba yem xırdalayan-paylayan maşının konstruktiv və texnoloji sxemi: 1 - bunker; 2 - xırdalayıcı barabanlar; 3 - bıçaq seqmentləri; 4 - eninə (boşaltma) nəqletdirici; 5 - uzununa zəncirli-plankalı nəqletdirici; 6 - yay; 7 - rulon fiksatoru; 8 - dəstək; 9 - əks kəsici deka; 10 - məhdudlaşdırıcı şəbəkə; 11 - sabitlənmiş çərçivə; 12 - yay.

Təklif olunan xırdalayıcı - paylayıcı rulonlarda formalaşmış qaba yemin eyni vaxtda xırdalanması ilə paylanmasına imkan verir (şəkil 3).

Rulon şəklində olan qaba yemlərin hazırlanması və paylanmasının texnoloji prosesi aşağıdakı kimi gedir. Traktorun GAV-dan sürət qutusu vasitəsilə doğrama barabanları və eyni zamanda uzununa və boşaltma nəqletdiriciləri işə salınır. Uzununa nəqletdiricinin

rulonla qarşılıqlı təsiri nəticəsində sonuncu öz oxu ətrafında fırlanır, xırdalayıcı barabanlarının seqmentləri isə yem materialının layını çıxarır, onu xırdalayaraq boşaltma nəqletdiricisinə verir, bunun vasitəsilə qaba yem heyvanların axuruna verilir.

Yekun. Təklif olunan konstruktiv - texnoloji sxem əsasında traktorla aqreqatlaşan qurğu bir maşınla rulonlara formalaşmış yemlərin həm xırdalanmasını və həm də paylanmasını yerinə yetirməyə malik olmaqla belə texnologiyanın kiçik təsərrüfatlarda tətbiqi enerji və metal tutumluluğu və həmçinin əmək xərclərinin azalması baxımından iqtisadi effekt əldə etməyə imkan verir.

ƏDƏBİYYAT

1. Сарбатова Н.Ю. Совершенствование процесса приготовления и раздачи грубых кормов рулонной заготовки: Дис. канд. техн. наук. Ставрополь, 2006. – 196 с.
2. Токарев В.С. Кормление животных с основами кормопроизводства: учеб. пособие / В.С.Токарев. – М. : ИНФРА-М, 2017. – 592 с.
3. Фролов В.Ю., Сысоев Д.П., Сарбатова Н.Ю., Марченко А.Ю. Ресурсосберегающие технологии приготовления и раздачи кормов на животноводческих фермах малых форм хозяйствования. Техника и оборудование для села. – 2013. – №3. – с.15-17.
4. Харитонов, Д.В. Политика Азербайджана в области сельского хозяйства: основные тенденции, проблемы и новые перспективы / Д.В.Харитонов. // Молодой ученый. – 2015. – №8 (88). – с.407-413. – URL: https://moluch.ru/archive/88/17447/

IMPROVEMENT OF TECHNOLOGY AND TECHNICAL MEANS OF PREPARATION AND DISTRIBUTION OF ROUGHAGE

Rovshan Mustafa oglu Hajiyev [1]
r.hajiyev@atu.edu.az
Emin Nasib oglu Hadjiyev [2]
eminh4408@gmail.com
Azad Samir oglu Babayev [2]
azadbabaev82@gmail.com
Nijat Rovshan oglu Gadimov [2]
qedimovnicat33@gmail.com
Azerbaijan Technological University[1]
Azerbaijan State Agricultural University[2]

The article notes that rational use of feed is ensured in case of feeding them to animals only in prepared form, as well as in the form of high-quality feed mixed with other components. Existing technologies for the preparation and distribution of pressed feed (presses, rolls) involve a number of process operations, such as loading, grinding, transportation, dosing and distribution. These process operations require energy-intensive, metal-intensive technical equipment. The problem of improving technologies and technological means in the direction of reducing the energy intensity of processes; minimization of service personnel; the need to combine a number of operations in one machine, i.e., creating universal technical equipment, arises. The analysis of the designs of technical means used for the preparation and distribution of animal feed is carried out, and a chopper-distributor device is developed that allows for the simultaneous grinding of feed. A classification of feed distributors is developed, an economic and mathematical model is presented and, based on it, a design and technological scheme of the chopper-distributor is presented.

Keywords: technical means, roll, chopper-distributor, classification, design and technological scheme, roughage, equipment, mathematical model, technology.

HEYVANDARLIQ MƏHSULLARI İSTEHSALINDA MİKROİQLİMİN ROLU

Razim Əzim oğlu Səidov [1]
r.saidov@mail.ru
Nurlan Ülvi oğlu Nəcəfli [2]
najaflinurlan@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti [1]
Azərbaycan Dövlət Aqrar Universiteti[2]

Aktuallıq. Hazırda ölkənin kənd təsərrüfatı sahəsi qarşısında bütöv bir problemlər kompleksi durur ki, bunların arasında enerji resurslarına qənaət edilməsi ən öndə gələnlərdən sayılır [1]. Məsələ ondadır ki, vaxtı ilə heyvandarlığın texniki təminatını müəyyənləşdirən maşınlar sistemi ucuz enerji və digər növ resuruslara hesablandığından hazırki bazar münasibətləri dövründə enerjiyə qənaət baxımından özünü doğrulda bilməmişlər. Çox vaxt enerji daşıyıcılarının baha olması üzündən əmtəəlik məhsul istehsal edən heyvandarlıq müəssələrində tələb olunan texnoloji proseslər pozulur, bu isə öz növbəsində külli miqdarda məhsul itkisi ilə müşaiyət olunur.

Bu faktorlar ümumilikdə sahənin rəqabət qabiliyyətliliyini xeyli dərəcədə aşağı salır, bəzi təsərrüfatlar işini dayandırır və yaxud istiqamətini dəyişdirirlər. Bütün bunlar ölkədaxili ümumi ərzaq istehsalı tərkibində idxal payının artmasına səbəb olur.

Eyni zamanda məlumdur ki, ölkənin ərzaq təhlükəsizliyini primitiv texnologiya əsasında fəaliyyətə məcbur olan kəndli təsərrüfatı və idxal məhsulları hesabına təmin edilə bilməz.

Odur ki, aqrar sahə mütəxəsissləri mütəmadi olaraq ölkənin süd və ət emal müəssisələrinin yüksək keyfiyyətli yerli xammalla təmin olunması məsələsini irəli sürürlər [1]. Hazırda sahənin ikişaf prespektivi korporasiya əsasında iri istehsal sahələrinin yaranmasının labüd olduğunu göstərir. Məhz bu baxımdan da daha iri heyvanlarlıq müəssisələrinin və onun yeni şəraitə uyğun texniki təchizatının təmin olunmasını aktuallaşdırmışdır.

Tədqiqat obyekti və metodu. Tədqiqat obyekti olaraq heyvandarlıq binalarının mikroiqlim təminatı götürülmüşdür. Tədqiqata metodoloji yanaşma mövcud texnologiyalar üzrə aparılmış nəzəri və eksperimental tədqiqat nəticələrinin təhlilinə, tədqiqatların davam etdirilmə istiqamətinin formalaşmasına əsaslanmışdır[2, 3, 4, 5].

Nəticə və onların müzakirəsi. Burada yüksək məhsuldar, texnoloji tip sayılan hayvanlar saxlanan binaların mikroiqlim tələblərinin ödənilməsi və onun enerji resuruslarına qənaət əsasında qurulması olduqca böyük əhəmiyyət kəsb edir. Başqa sözlə qeyd olunanlar üçün yaxşı düşünülmüş texnoloji sistem tələb olunur ki, onun əsas elementlərinə aşağıdakıları aid etmək olar: ⁎lazımi istehsal, xidmət və məişət otaqları olmaqla nəzərdə tutulmuş heyvan miqdarını yerləşdirmək üçün ferma binası; ⁎məhsul verən heyvan qrupu; ⁎heyvan qrupunun səmərəli istismarı və onlara xidməti təmin etmək üçün maşın, mexanizm və aparatlar; ⁎tələb olunan mikroiqlim parametrlərini saxlayan və nəzarətini təmin etmək üçün maşın, mexanizm, aparat və cihazlar; ⁎heyvanlara düzgün xidmət göstərən və bütün avadanlıqları savadlı istismar edə bilən, lazımi peşəkar vərdişlərə malik əmək kollektivi.

Mikroiqlim faktorunun təhlili göstərir ki, heyvanların fizioloji vəziyyətinə təsir edən əsas parametrlərə temperatur, nəmlik, atmosferin qaz tərkibi, işıqlanma, səs təzyiqi səviyyəsi, havanın hərəkət sürəti, bina daxilində havanın toz və bakteriyalarla çirklənməsi aiddirlər [2, 3]. Bu parametrlər heyvanların həyat fəaliyyəti, heyvanlara xidmət göstərən maşın, mexanizm və aparatların işindən asılı olur və yaxud onlar tərəfindən yaranmış olur. Bu səbəbdən başqa bina daxilində mikroiqlimə binaların quruluşu, onun hansı materialdan inşa edilməsi də təsir göstərir [4, 5]. Daha çox təsir göstərən amillər isə binanı əhatə edən landşaft, ətraf mühitin vəziyyəti: xarici havanın temperaturu və nəmliyi, küləyin sürəti və

istiqaməti, xarici havanın temperatur və nəmliyinin gün ərzində ilin fəsilləri üzrə dəyişməsidir [6, 7].

Müxtəlif heyvan və quş qrupları üçün mikroiqlimin optimal parametrləri mütəxəssislər tərəfindən müəyyən edilmişdir [8, 9]. Bu barədə elmi əsərlərdə, dərslik və sorğu kitablarında kifayət qədər məlumat vardır. Hələlik rəqəmlərdə dayanmadan heyvandarlıq binalarında mikroiqlimin elmi cəhətdən əsaslandırılmış normalarına riayət edilmədikdə heyvandarlıq müəssisələrinin hansı itkilərlə qarşılaşdıqlarına diqqət yetirək. Normalardan kənarlaşdıqda sağım 10...20%, diri kütlə artımı 20...30% azalıq, cavan heyvanın çıxdaş olması 5...40% artır, heyvanların istismar dövrü 15...20% azalır, məhsul vahidinə yem və əmək sərfi artmış olur [10].

Lazımi mikroiqlim şəraitinə riayət edilmədikdə heyvandarlıq binasının və texnoloji avadanlıqların xidmət müddəti 3 dəfə azalır, onların təmirinə xərclər artır, heyvandarlıq müəssisəsində çalışan işçilərin sağlamlığına zərər yetirilir və əmək məhsuldarlığı aşağı düşür.

Aydındır ki, heyvandarlıq binalarında elmi cəhətdən əsaslandırılmış mikroiqlim parametrlərinə riayət edilməsi – heyvanların yemləndirilməsi, suvarılması, peyinin çıxarılması və məhsul istehsalı ilə əlaqəli digər texnoloji əməliyyatlar kimi olduqca vacibdir. Ancaq əksər təsərrüfatlarda heyvandarlıq binalarının mikroiqlimi normativ parametrlərə uyğun deyildir. Binalarda ammonyak və karbon qazı səviyyəsi yüksək, nəmlik 90% -ə yaxındır. Bəzi yerlərdə səs təzyiqi səviyyəsi də normadan artıqdır. Nəticədə planlaşdırılmış məhsulun əldə edilməməsi, cavan malqaranın çıxdaşının çox olması, yem sərfinin artması, xidmət personalının xəstələnmə hadisələrinin çoxalması müşahidə edilir. Heyvandarlıq binalarında mikroiqlim vəziyyətinin pis olmasını demək olar ki, bütün təsərrüfatlar əlverişli vasitələrin olmaması ilə izah edirlər. Əslində hər heyvandarlıq təsərrüfatında mikroiqlimə məhsul istehsalı texnoloji sisteminin ayrılmaz hissəsi kimi baxılmalıdır. Demək olar ki, bunun dərk edilməməsi heyvandarlıq binalarında mikroiqlimin yarıtmaz vəziyyətdə olmasına təsir edən səbəblərdən biridirsə ikinci səbəb mikroiqlim sistemlərinin yaradılması üzrə mühəndis məsələlərinin həllində bir sıra faktorların kifayət qədər dəyərləndiriməsidir. Məhz bu ikinci səbəb təcrübədə mikroiqlim parametrlərinin normativ göstəricilərə uyğun gəlməməsinə şərait yaratmışdır. Məlumdur ki, layihələndirmə mərhələsində bütün parametrlərdən daha çox havadəyişmə və işıqlanmaya diqqət yönəldilir. Söz yox ki, havalandırma mikroiqlim sisteminin vacib bir hissəsidir. Ancaq bu parametr mikroiqlimin digər parametrləri, istilikdəyişmə prosesi və resurs-enerji qoruyucu məfhumla birgə əlaqədə qiymətləndirilməlidir.

Yekun. Bir daha heyvandarlıq binasında mikroiqlimin necə olmasına nəzər salaq. O, istismar baxımından qarşıya qoyulan funksiyanı yerinə yetirə bilən, etibarlı, az material tutumlu, qulluğu sadə və hazırlanması ucuz olmalıdır. Təcrübə göstərir ki, bu sahədə yerli şəraitə uyğun təkmilləşdirilmiş sistemlərin tətbiqi zamanı qoyulan xərclər əlavə məhsul hesabına 4-6 ay ərzində özünü doğrultmuşdur. Burada əgər cavan malqaranın çıxdaşının, məhsul vahidinə yem sərfinin, işçilərin xəstələnmə hallarının azalması, heyvanların təsərrüfat məqsədli istismar müddətinin artması və s. faktorlar da nəzərə alınarsa iqtisadi səmərənin daha çox olmağını gözləmək olar.

ƏDƏBİYYAT

1. Məmmədov Q.B. Müasir heyvandarlığın texnoloji xüsusiyyətləri // Azərbaycan Aqrar Elmi. – 2006, №5-6. – s.111-112.
2. Карташова А.Н. Гигиена животных. – Минск: НВЦ Манфина, 2007. – 292с.
3. Кулиев Р.С. Экспериментальная система микроклимата для коровника с утилизацией тепла// Аграрная наука. – 2014, №5. – с.25-26.
4. Максимов Н.В., Козлова Н.П. Реконструкция коровников и микроклимат // Сельскохозяйственные вести. – Санкт-Петербург, 2005, №2. – с.12-13.

5. Чикалев А.И. Зоогигиена с основами проектирования животноводческих объектов: Учебное пособие.– Санкт Петербург: Изд-во «Лань», 2006.– 224с.
6. Мартынова Е., Ястребова Е. Формирование микроклимата животноводческих помещений под воздействием температуры наружного воздуха // Молочное и мясное скотоводство. – 2012, №4. – с.24-27.
7. Zentner E. Stallklima im Rinderstall // Fort Bildung fur Tierarzte, Raumberg – Gumpenstein. – Irdning, 2009. – p.77-81.
8. Кудрин М.Р., Ижболдина С.Н. Микроклимат и его значение // Аграрная наука. – 2011, №9. – с.15-16.
9. Мурусидзе Д., Зайцев А., Степанова Н. Температура и влажность воздуха: влияние на здоровье и продуктивность животных // Ветеренария сельскохозяйственных животных. – 2011, №11. – с.50-52.
10. Брос Тайт-Ханс. Экономия на лекарствах. Микроклимат в помещении и здоровье животных // Новое сельское хозяйство. – 2011, №4. – с.70-71.

THE ROLE OF MICROCLIMATE IN LIVESTOCK PRODUCTION

Rasim Azim oglu Saidov [1]
r.saidov@mail.ru
Nurlan Ulvi oglu Najafli [2]
najaflinurlan@gmail.com
Azerbaijan State University of Economics[1]
Azerbaijan State Agrarian University[2]

The article notes that among the complex of problems facing the country's agricultural sector, energy saving occupies one of the most important places. Often, due to the high cost of energy, technological processes required at livestock enterprises producing commercial products are disrupted, which is accompanied by large volumes of product losses. Ensuring the microclimate requirements of buildings for keeping livestock, classified as a high-performance, technological type, as well as energy saving are of great importance. Analysis of the microclimate factor shows that the main parameters affecting the physiological state of animals are temperature, humidity, air pollution, illumination, sound pressure level, air speed, air pollution with dust and bacteria inside the building. Ventilation is an important part of the microclimate system. However, this parameter should be assessed in conjunction with other microclimate parameters, the heat exchange process and the concept of resource and energy conservation.

Keywords: microclimate, factor, ventilation, resource conservation, livestock enterprise, gas content, norm, temperature, humidity, pollution.

HEYVANDARLIQ TULLANTILARININ ƏTRAF MÜHİTƏ MƏNFİ TƏSİRİ PROBLEMLƏRİ VƏ ONLARIN ARADAN QALDIRILMA YOLLARI

Qabil Balakişi oğlu Məmmədov
gabilmammadov66@adau.edu.az
Rəşad Fərhad oğlu Fərhadov
resadferhadov003@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti

Aktuallıq. Ölkənin iqtisadi inkişafının istiqamətlərindən biri də resursqoruyucu texnologiyaların inkişafıdır. Bu cür texnologiyalar texnoloji məqsədlər üçün yanacaq və digər enerji mənbələri, xammal, material, hava, su və digər resursların az sərfiyyatı ilə məhsulların istehsalını təmin edir. Bunlara ikinci dərəcəli resursların istifadəsi, tullantıların utilizasiyası və s. daxildir. Bir çox alimlər heyvandarlıq tullantılarının təbiətə ciddi ziyan vurduğunu iddia edirlər. Hər il tullantı kimi təsərrüfatlarda tonlarla peyin və quş zığı yığılır. Sənaye müəssisələrinin çoxunda çirkab su təmizləyici qurğular yoxdur - bütün bunlar ətraf mühitə zərərli təsir göstərir.

Kənd təsərrüfatı tullantılarından düzgün istifadə edilməsi dünyamızda qlobal və mühüm problemdir. Bu, bir tərəfdən biokütlə enerjisindən istifadə edərək ondan maye və qaz yanacağı (bioqaz) əldə etmək imkanları ilə əlaqələndirilir, digər tərəfdən su obyektlərinin çirklənməsinin və torpaq örtüyünün heyvandarlıq təsərrüfatlarından peyin axınında aşkar olunan patogen mikroorqanizmlər və helmintlərlə çirklənməsinin qarşısını alır [1]. Bu məsələnin əsası ondan ibarətdir ki, kənd təsərrüfatı tullantıları (peyin, quş zığı, çirkab su) düzgün idarə olunmadığı təqdirdə, onlar torpaq, su ehtiyatları və atmosferə ciddi ziyan vura bilər. Bununla belə, bu tullantılardan düzgün istifadə edildiyi təqdirdə, onlar alternativ enerji mənbələrinə çevrilə bilər və eyni zamanda təbiətin daha az çirklənməsinə imkan yaradar.

Torpağın, havanın, bitki örtüyünün, yerüstü və qrunt sularının nitrat və mikroblarla çirklənməsinin qarşısını almaq üçün heyvandarlıq tullantılarının emalı və saxlanması texnologiyalarına riayət etmək lazımdır. Peyinin tərkibində çoxlu miqdarda patogen bakteriyalar var. Tullantılar emal olunmadan yığıldıqda insanlar və heyvanlar üçün mənfi təsir mənbəyi olmaqla, müxtəlif xəstəliklərə səbəb ola bilər [2]. İri heyvandarlıq təsərrüfatları ətraf mühitə böyük ziyan verə bilirlər. Müasir tendensiyaları izləmək üçün bu təsərrüfatlar modernləşdirilməlidir. Bunların əksəriyyəti, yəni iri heyvandarlıq kompleksləri heyvandarlıq tullantılarının, xüsusilə də peyinin mikroorqanizmlərin təsiri altında anaerob qıcqırma yolu ilə bioqaz və biogübrə istehsalına əsaslanan bioqaz qurğuları quraşdırır. Bioqaz istehsalı metanın atmosferə buraxılmasının və qlobal istiləşmənin qarşısını almağa kömək edir.

İri heyvandarlıq komplekslərinin fəaliyyət göstərməsi komplekslərdə texnoloji əməliyyatların yüksək səviyyədə mexanikləşdirilməsi və avtomatlaşdırılması ilə izah olunur ki, bu da yüksək əmək məhsuldarlığına, yemlərdən səmərəli istifadəyə və nəticədə məhsulun maya dəyərini kəskin azaltmağa imkan verir [3].

Tədqiqat obyekti və metodu. Tədqiqat obyekti olaraq heyvandarlıq tullantılarının emalı və bioqaz və kompostun hazırlanması texnologiyası götürülmüşdür. Tədqiqata metodoloji yanaşma mövcud texnologiyalar üzrə aparılmış nəzəri və eksperimental tədqiqat nəticələrinin təhlilinə, tədqiqatların davam etdirilmə istiqamətinin formalaşmasına əsaslanmışdır [4, 5, 6].

Nəticə və onların müzakirəsi. Tədqiqatın nəticələri göstərir ki, iri heyvandarlıq komplekslərinin fəaliyyəti onların təbii mühitinin ekoloji şəraitinin pisləşməsi ilə müşayiət olunur. Komplekslərdə, peyinin hidravliki üsulla təmizlənməsindən istifadə edildikdə heyvanın növündən və heyvandarlıq komplekslərinin tutumundan asılı olaraq gündə 100-7000 kubmetr miqdarında peyin tullantıları toplanır.

Heyvandarlıq və quşçuluq təsərrüfatları əsasən ət, süd, yumurta və onların emal məhsullarının istehsalı ilə yanaşı, istehsalın ekoloji təhlükəsizliyinə və müəssisələrin tullantısız texnologiyalara keçirilməsinə yönəldilməlidir. Ümumiyyətlə, üzvi tullantıların fermentasiyası əhalinin enerjiyə olan tələbatının əhəmiyyətli hissəsini ödəməklə resurslara qənaət edə bilərlər [4].

Resursqoruyucu texnologiyalar, əsasən, yanacaq, su, xammal və enerji mənbələrinin səmərəli istifadəsi ilə bağlıdır. Bu cür texnologiyalar, həmçinin tullantıların yenidən emalını və ikinci dərəcəli resursların istifadəsini özündə birləşdirir [5]. Heyvandarlıq sahəsində isə bu, aşağıdakı istiqamətlərlə əlaqəlidir:

Biokütlə enerjisi: heyvandarlıq tullantıları, o cümlədən peyin və quş zığı, biokütlə enerjisinin əsas mənbələridir. Bu tullantılardan bioqaz (metan) almaq mümkündür. Bioqaz istehsalı prosesi, tullantıların anaerob şəraitdə fermentasiyası nəticəsində qaz (metan və karbon qazı) ayrılması ilə baş verir. Bioqaz, elektrik və istilik enerjisi üçün istifadə edilə bilər, bu da yanacaqlara olan asılılığı azaldır [6, 7].

Kompost hazırlamaq: peyin və digər üzvi tullantılar kompostlaşdırılmaqla təbii gübrəyə çevrilməsi kimyəvi gübrələrdən istifadəni azaldır və torpağın keyfiyyətini

yaxşılaşdırır. Kompostlaşdırma prosesi həmçinin tullantıların atılması nəticəsində yaranan çirklənməni aradan qaldırır.

Tullantıların təmizlənməsi: heyvandarlıq sahəsində yaranan çirkab suların təmizlənməsi üçün müasir texnologiyalardan istifadə edilməsi, su obyektlərinin çirklənməsinin qarşısını alır. Çirkab suların təmizlənməsi zamanı patogen mikroorqanizmlər və helmintlər kimi sağlamlığa ziyan vuran risklər də aradan qaldırılır [3].

İkinci dərəcəli resursların istifadəsi: təsərrüfatlarda istifadə olunan materialların (məsələn, döşəmə materialları) yenidən emalı və ya digər məqsədlər üçün istifadəsi.

Bununla yanaşı heyvandarlıq sahəsindən yaranan tullantılar, ətraf mühitə bir sıra zərərli təsirlər göstərə bilir. Orta hesabla, böyük fermer təsərrüfatlarında tonlarla peyin və quş zığı yığılır. Bu tullantılar düzgün şəkildə emal edilmədikdə, torpağa aşırı miqdarda azot və fosfor daxil olur, bu da torpağın deqradasiyasına səbəb olur. Həmçinin, torpağa ağır metallar (mis, sink) və digər zərərli maddələr də keçə bilər. Təsərrüfatlardan axıdılan tullantılar çaylara, göllərə və yeraltı suya düşdükdə suyun eutrofikasiyasına (çox miqdarda qida maddələrinin olması) səbəb olaraq su ekosistemlərini pozur. Suyun çirklənməsi, insan və heyvan sağlamlığı üçün də risk yaradır, çünki patogen mikroorqanizmlər və helmintlər su vasitəsilə yayılır. Tullantıların parçalanması zamanı metan (CH_4) və azot oksidi (N_2O) ayrılır ki, bu da qlobal istiləşməyə səbəb olan əsas istixana qazlarıdır [4]. Amonyak (NH_3) ayrılması isə turşulu yağışların əmələ gəlməsinə səbəb olur. Bununla yanaşı heyvandarlıq tullantıları, infeksiyalara (məsələn, salmonelyoz, brusellyoz) və parazitlərə səbəb olmaqla insanların və heyvanların sağlamlığı üçün təhlükə yaradır.

Hazırda heyvandarlıq müəssisələrində əmələ gələn istehsal və istehlak tullantılarının utilizasiyası, komplekslərdə istehsal olunan və ətraf mühitə potensial antropogen təsir mənbələri olan külli miqdarda peyin və peyin tullantılarının utilizasiyası və emalı aktual məsələdir.

XX -ci əsrin sonlarında heyvandarlığın sənaye əsasına keçirilməsi ilə əlaqədar heyvandarlıq təsərrüfatlarında mal-qaranın baş sayının artması qlobal xarakter daşımaqla və dünyanın bir çox ölkələrində müşahidə olunmuşdu. Heyvandarlıq kompleksləri və təsərrüfatlardan ətraf mühiti (hava, torpaq, su) çirkləndirən əsas mənbələr havaya atılan tullantılar və maye tullantılardır.

Heyvandarlıq təsərrüfatlarından havaya atılan tullantılar təkcə atmosferə deyil, həm də yerüstü sulara əhəmiyyətli dərəcədə təsir göstərir. Heyvandarlıq təsərrüfatlarında ətraf mühitin çirklənməsinin əsas mənbəyi heyvanlar saxlanılan yerlərdir. Heyvanlardan gələn qoxu zərərsiz sayılsa da, insanları qıcıqlandırır, xoşagəlməz qoxular 5-17 km radiusda yayılır.

Deməli, kənd təsərrüfatında heyvandarlığının ətraf mühitə mənfi təsiri təkcə torpağa, suya (kənd təsərrüfatı tullantıları ilə çirklənmiş ərazilərdə yerüstü su mənbələri) deyil, həm də atmosfer havasına da təsir edir. Göründüyü kimi heyvandarlıq tullantılarının zərərsizləşdirilməsi və faydalı enerji və yeni məhsullar istehsal etmək üçün emal edilməsi texnologiyalarını inkişaf etdirmək lazımdır.

Yekun. Heyvandarlıq tullantılarından düzgün istifadə edilməsi, həm ətraf mühitin qorunması, həm də iqtisadi inkişaf üçün əhəmiyyətli bir imkan yaradır. Resursqoruyucu texnologiyaların inkişafı, bioqaz istehsalı, bioenerji, kompostlaşdırma və tullantıların təmizlənməsi kimi tədbirlər, dünya üzərində qlobal miqyasda həyata keçirilməlidir [8]. Bu, yalnız təbiəti qorumaqla kifayətlənmir, həm də davamlı inkişaf üçün yeni perspektivlər açır.

Bioenerji qurğuları, yalnızca kənd təsərrüfatı rayonları və kiçik təsərrüfatlar üçün deyil, həmçinin regional enerji və ekoloji strategiyaların vacib elementi kimi də qiymətləndirilə bilər. Bu qurğular, resurslara qənaət etməyə, enerji çatışmazlığını aradan qaldırmağa və ətraf mühitin qorunmasına böyük töhfə verməklə onların geniş tətbiqi, davamlı inkişaf prinsiplərinə uyğun gəlir və ölkənin enerji təhlükəsizliyini gücləndirir.

ƏDƏBİYYAT

1. Малофеев, В.М. Биотехнология и охрана окружающей среды: Учебное пособие. – М.: Издательство Арктос, 1998. – 188 с

2.Тищенко, Н.Ф. Охрана атмосферного воздуха. Справочник, М. Химия. 2003г.-369 с.

Saytın HTML və DOM (Document Object Model) strukturunu təhlil etmək üçün CSS seçiciləri və XPath metodlarından geniş istifadə olunur. CSS seçiciləri vasitəsilə müəyyən HTML elementlərini seçmək və onların xüsusiyyətlərini öyrənmək mümkündür. XPath isə daha çevik və mürəkkəb sorğular yaratmağa imkan verən bir üsuldur. Bu metodlar sayəsində veb saytın müxtəlif bölmələrində yerləşən məlumatlar avtomatik olaraq çıxarılıb sistemləşdirilə bilər. Bununla yanaşı, "Regular Expressions (Regex)" metodu mətn əsaslı məlumatların strukturlaşdırılması üçün tətbiq olunur və spesifik nümunələri aşkar etmək üçün istifadə edilir. Veb saytların arxitekturasını təhlil edərkən daxili və xarici linklərin strukturu xüsusi əhəmiyyət kəsb edir. Link analizini avtomatlaşdırmaq üçün "Network Graphs" və "PageRank" kimi alqoritmlər tətbiq edilir. Bu metodlar sayəsində saytın daxili keçid sisteminin effektivliyi ölçülür və optimallaşdırma üçün ən yaxşı yanaşmalar müəyyən edilir. Saytın linklərinin vizuallaşdırılması və onun arxitekturasının qrafik təsviri üçün "Gephi", "Graphviz" kimi vasitələrdən istifadə olunur [1, 6]. SEO analizləri üçün isə "Ahrefs", "SEMrush" və "Moz" kimi alətlərdən istifadə olunur. Bu platformalar saytların daxili və xarici linklərini analiz edərək onların SEO uyğunluğunu qiymətləndirir və optimallaşdırma tövsiyələri verir. Saytların performans və SEO optimallaşdırılması üçün avtomatlaşdırılmış analizlər aparılır. "Google Lighthouse" aləti saytların yüklənmə sürətini, istifadəçi təcrübəsini və SEO göstəricilərini qiymətləndirir. "Google Search Console" isə saytların axtarış sistemlərində necə indeksləndiyini təhlil etməyə və səhvləri aşkar etməyə kömək edir. "GTmetrix" və "PageSpeed Insights" alətləri vasitəsilə saytların yüklənmə müddəti, HTTP sorğularının sayı və istifadə olunan resursların səmərəliliyi ölçülür. Bu vasitələr saytın optimallaşdırılması üçün dəyərli məlumatlar təqdim edərək, istifadəçi təcrübəsini yaxşılaşdırmağa kömək edir.

Maşın öyrənməsi və təbii dil emalı (NLP) metodları da veb saytların analizində geniş istifadə olunur [7, 9]. Bu metodlar saytların məzmununu avtomatik qruplaşdırmaq, təsnif etmək və oxşar məzmunları müəyyən etmək üçün tətbiq edilir. "Clustering (K-Means, DBSCAN)" metodları saytın fərqli bölmələrini müəyyən edərək onların strukturunu başa düşməyə kömək edir. "Natural Language Processing (NLP)" metodları isə məzmunun semantik analizini apararaq, saytın istifadəçi yönümlü olub-olmadığını müəyyən edir.

ƏDƏBİYYAT

1.Linear Time-Variable Systems," Int. J. Control (1983). Bhat and N. McAvoy, "Use of Neural Nets for Dynamic Model and Control of Chemical Processes," Comp.

2.Chem. Eng., (1990). Bhat, T. McAvoy, "Information Retrieval From A Stripped Back-propagation Network," AIChE Meeting (1990). Brengel, D. D., and W. D. Seider, "Multistep Nonlinear Predictive Controller," Ind. Eng. Chem. Res., 28, 1812 (1989).

3.W. E. Stewart, "Sensitivity Analysis of Initial Value Problem With Mixe ODES and Algebraic Equation," Computer. 2003

4.Chem. Eng.10, 359 (1985). Cuthrell, L. T. Biegler and J. E, "Improve Infeasible Path Optimizations for Sequential Modular Simulator: 11. 2007

5.Optimization the Algorithm," Comp. Chem. Eng., 9, 257 (1985). G. Bastin Dochain, "Adaptive Control of Fedbatch Bioreactor," Chem.Eng

6.English. Communication systems., 87, 67 (1990). K. S. Sin and Goodwin, G. C., Adaptive Filter Predictions and Control communication, Englewood Cliffs, NJ (1984), Prentice-Hall,.

7.Gostomski, H. R. Bungay, "Multivariable Control of Continuous Cultures," AIChE Meeting (1990).

8.D .Hasloop, and B. R. Holt, "A Network Neural Structure for System Identifications," Procpect. of American Control Conf., 2460 (1990).
9.Y. Arkun and E.Hernandez, "Neural Network Model and an Extend DMC Algorithm to Control Nonlinear System," American Control Conf., 2454 (1990).
10.H. Mukai, B. Joseph and Jang, S. "Comparison of Two Approach to On-Line Parameters and State Estimation of Noonlinear System," English. Chem. 25, 809 (1986)

AUTOMATION METHODS FOR STRUCTURAL ANALYSIS OF WEBSITES

Aykhan Subhi oglu Mursalzade
murselzadeayxan@gmail.com
Odlar Yurdu University

Automating the structural analysis of websites enables efficient and accurate data extraction, analysis, and visualization. Thanks to automated methods, the internal structure of websites, content flow, and information architecture can be more easily understood and managed. Automating the data extraction and analysis processes allows for more reliable and faster results by minimizing human errors. Various tools and technologies provide a wide range of opportunities for optimizing the structural analysis of websites. Analysis of the HTML and DOM structure with XPath and CSS selectors, as well as extracting data in JSON and XML formats, provides a systematic approach. The obtained structured data for optimizing and developing websites can be used to enhance the user experience and improve performance. This approach plays an important role for both web developers and SEO specialists. Automating the structural analysis of websites makes web development and analysis processes more efficient. When the right tools and methodologies are applied, this approach increases the quality of data, helps to detect security vulnerabilities, and ensures continuous optimization of systems.

The research study analyzed the internal links of the site to determine which pages were most important, and the importance of visualizing and optimizing the overall structure of the site through linking.

The scientific achievement of the research work is the optimization of the process of automating the structural analysis of websites, using various technologies and tools for the systematic collection, processing, and analysis of data.

Keywords: automation, analysis, site structure, optimization, technology, method.

TELEKOMMUNİKASİYA ŞƏBƏKƏLƏRİNDƏ ZƏDƏLƏNMƏLƏRİN AVTOMATİK DİAQNOSTİKASİ ÜÇÜN HİBRİD YANAŞMALARIN PERSPEKTİVLƏRİ

İsrail Mehdi oğlu Məmmədov
memmedovisrayıl19@gmail.com
Tamaşa Şahəddin qızı Əliyeva
tamashaaliyeva1@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Telekommunikasiya şəbəkələrində zədələnmələrin diaqnostikası xidmət keyfiyyətinin təmin edilməsi və istismar xərclərinin optimallaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Ənənəvi metodlar yüksək dəqiqlik və etibarlılıq tələb etsə də, mürəkkəb və dinamik şəbəkə strukturlarında onların effektivliyi məhduddur. Bu tezisdə optik liflərdə zədələnmələrin aşkarlanması və diaqnostikası üçün süni intellekt və klassik analiz üsullarının kombinasiyasına əsaslanan hibrid yanaşmaların tətbiqi tədqiq olunur. Nəzarətli öyrənmə modelləri, OTDR siqnallarının emalı və ekspert sistemləri əsasında hibrid yanaşmaların effektivliyi təhlil edilir. Təklif olunan metodlar diaqnostika prosesini sürətləndirmək, səhv aşkarlanma ehtimalını azaltmaq və insan müdaxiləsini minimuma endirmək potensialına malikdir.

Telekommunikasiya şəbəkələri müasir informasiya cəmiyyətinin əsas dayaqlarından biri olaraq məlumat ötürülməsinin fasiləsiz və etibarlı şəkildə həyata keçirilməsini təmin edir. Bu şəbəkə-lərdə siqnalın stabil və keyfiyyətli ötürülməsi üçün istifadə edilən infrastruktur müxtəlif xarici və daxili amillərin təsiri nəticəsində zədələnə bilər. Telekommunikasiya sistemlərində əsasən iki növ kabel infrastrukturu mövcuddur: fiber-optik şəbəkələr və mis kabel şəbəkələri. Hər iki sistemin özünəməxsus üstünlükləri olsa da, onlar müxtəlif fiziki, texnoloji və ətraf mühit amillərinin təsirinə məruz qalaraq müxtəlif növ zədələnmələrlə qarşılaşa bilərlər.

Fiber-optik şəbəkələr daha sürətli və uzun məsafəli siqnal ötürülməsini təmin edən, işıq siqnalları ilə məlumat göndərən şüşə və ya plastik əsaslı kabellərdən ibarətdir. Lakin bu kabellər çox həssas olduqları üçün fiziki təsirlər, ətraf mühit amilləri və qeyri-düzgün quraşdırma nəticəsində zədələnə bilirlər. Ən çox rast gəlinən problemlərdən biri kabel qırılmalarıdır ki, bu əsasən tikinti işləri və ya yeraltı qazıntılar zamanı baş verir. Bundan əlavə, fiber-optik kabellərin həddindən artıq bükülməsi və ya sıxılması siqnalın zəifləməsinə səbəb olur. Optik siqnalların ötürülməsində baş verən sönmə və əksolunma hallarının baş verməsi siqnalın keyfiyyətinin aşağı düşməsinə və məlumat itkisinə gətirib çıxara bilər [5]. Ətraf mühitin təsiri də fiber-optik kabellərin işləmə qabiliyyətinə mənfi təsir edə bilər. Xüsusilə temperatur dəyişiklikləri, rütubət və kimyəvi maddələr optik liflərin strukturunda dəyişikliklərə səbəb olaraq siqnalın keyfiyyətini azalda bilər.

Mis kabel şəbəkələri isə elektrik siqnalları vasitəsilə məlumat ötürən və əsasən köhnə telefon və DSL xətləri üçün istifadə edilən texnologiyadır. Bu şəbəkələr elektromaqnit təsirlərə qarşı həssasdır və kənar elektrik xətləri ilə qarşılıqlı təsir nəticəsində siqnalın keyfiyyəti pisləşə bilər. Gürültü və interferensiya problemləri məlumat ötürülməsi zamanı siqnal itkisinə və rabitənin qeyri-sabitliyinə səbəb olur. Bundan əlavə, mis naqillər zamanla oksidləşərək siqnalın müqavimətini artırır və beləliklə, ötürülmə keyfiyyəti aşağı düşür [2]. Rütubət və korroziya da mis kabellərin zədələnməsinə və əlaqənin pozulmasına gətirib çıxarır. Digər əsas problemlərdən biri də naqil qırılmalarıdır ki, bu, kabelin yaşlanması, fiziki təsirlər və ya heyvanların naqilləri gəmirilməsi nəticəsində baş verə bilər.

Bu zədələnmələrin qarşısının alınması və vaxtında aşkarlanması üçün müasir diaqnostika texnologiyalarından istifadə olunur. Fiber-optik şəbəkələrdə ən çox istifadə edilən analiz cihazlarından biri OTDR cihazıdır ki, bu da siqnalın zəifləməsini və qırılma nöqtələrini müəyyən etməyə kömək edir. Mis kabellərdə isə TDR testləri vasitəsilə naqilin hansı hissəsində problem olduğu təyin edilir. Bundan əlavə, spektral analizatorlar, termal kameralar və süni intellekt əsaslı avtomatik monitorinq sistemləri kabel infrastrukturunda baş verən zədələnmələri daha sürətli və dəqiq şəkildə müəyyən etməyə imkan yaradır [3].

Hibrid yanaşmaların əsas üstünlüklərindən biri, müxtəlif mənbələrdən əldə edilən məlumatların kombinasiyasına əsaslanaraq daha dəqiq analizlərin aparılmasıdır. Məsələn, OTDR cihazlarının verdiyi nəticələr süni intellekt modelləri tərəfindən təhlil edilərək, yalnız zədələnmənin yeri deyil, həm də problemin səbəbi daha dəqiq müəyyən edilə bilər [1]. Bu, diaqnostika prosesinin avtomatlaşdırılmasına və texniki mütəxəssislərin iş yükünün azalmasına gətirib çıxarır.

Eyni zamanda, maşın öyrənmə alqoritmləri keçmiş arıza məlumatlarını təhlil edərək, potensial problemləri öncədən proqnozlaşdıra bilər ki, bu da profilaktik təmir işlərinin daha effektiv planlaşdırılmasına şərait yaradır. Avtomatlaşdırılmış sistemlər vasitəsilə real vaxt rejimində məlumatların toplanması və analiz edilməsi sayəsində, şəbəkə operatorları infrastrukturun vəziyyətini daimi nəzarətdə saxlaya bilirlər. Xüsusilə, uzaqdan idarə olunan sensorlar və ağıllı analiz sistemləri müxtəlif hava şəraiti, mexaniki təsirlər və elektromaqnit müdaxilələrin yaratdığı problemləri anında aşkar edərək, mümkün zədələnmələrin qarşısını almağa kömək edir.

Nəticə. Telekommunikasiya şəbəkələrində hibrid diaqnostika yanaşmaları ənənəvi metodlarla müqayisədə daha yüksək dəqiqlik və operativlik təmin edir. Süni intellekt və avtomatlaşdırılmış nəzarət sistemlərinin tətbiqi sayəsində, rabitə xətlərində baş verən problemlər vaxtında aşkar edilərək, xidmət keyfiyyətinin artmasına və əməliyyat xərclərinin azalmasına töhfə verir. Gələcəkdə bu texnologiyaların daha da inkişaf etdirilməsi və geniş miqyasda tətbiqi ilə telekommunikasiya şəbəkələrinin daha dayanıqlı və etibarlı hala gəlməsi gözlənilir.

ƏDƏBİYYAT

1. İlan F Akyildiz, Ahan Kak, Sunai Nie, 6G and Beyond: The Feature of Wireless Communication Systems, IEEE AccesS. 2020 , 8-30 s.
2. Kutlusoy, Z. Yapay Zekâ ve Gelecek. İstanbul:Doğu Kitapevi. 2019, s. 35-40
3. Öztürk, K., & Şahin, M. E. Yapay Sinir Ağları ve Yapay Zekâ'ya Genel Bir Bakış. Takvimi Vekayi. 2018, 25-36 s.
4. T. Zhou et al., "In situ optical backpropagation training of diffractive optical neural networks," Photonics Res. 2020, 940–953 s.
5. Voulodimos, Doulamis, Doulamis A., & Protopapadakis, E. Deep learning for computer vision: A brief review. Computational Intelligence and Neuroscience, 2018, 250-251 s.

PROSPECTS OF HYBRID APPROACHES FOR AUTOMATIC FAULT DIAGNOSIS IN TELECOMMUNICATION NETWORKS

İsrail Mehdi oglu Memmedov
memmedovisrayıl19@gmail.com
Tamasha Shadaddin qizi Aliyeva
tamashaaliyeva1@gmail.com
Azerbaijan Technological University

Fault diagnosis in telecommunication networks is of great importance in terms of ensuring service quality and optimizing operating costs. Although traditional methods require high accuracy and reliability, their effectiveness is limited in complex and dynamic network structures. This thesis studies the application of hybrid approaches based on a combination of artificial intelligence and classical analysis methods for detecting and diagnosing faults in optical fibers. The effectiveness of hybrid approaches based on supervised learning models, OTDR signal processing, and expert systems is analyzed. The proposed methods have the potential to accelerate the diagnostic process, reduce the probability of false detection, and minimize human intervention.

Keywords: Artificial intelligence, optical network, OTDR device

WEB TƏTBİQLƏRİNDƏ SQL İNJECTİON VƏ XSS HÜCUMLARINA QARŞI MÜDAFİƏ YOLLARI

Nicat Fikrət oğlu Cəfərov
nijatjafarov7@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə web tətbiqləri bir çox xidmətin əsasını təşkil edir. Bu tətbiqlərdəki təhlükəsizlik boşluqları kiberhücumlar üçün əlverişli şərait yaradır. Ən çox rast gəlinən hücum növlərindən ikisi SQL Injection və Cross-Site Scripting (XSS) hücumlarıdır. Bu hücumlar istifadəçi məlumatlarının oğurlanmasına, məlumat bazalarının pozulmasına və sistemin ümumi təhlükəsizliyinə ciddi təhdid yarada bilər.[1]

SQL Injection – hücumçunun web tətbiqinə zərərli SQL kodu yeridərək məlumat bazasına icazəsiz müdaxilə etməsi prosesidir. Mümkün nəticələr məlumatların oğurlanması və ya dəyişdirilməsi, admin hesabına giriş və sistemin çökməsi ola bilər SQL Injection hücumlarının qarşısını almaq üçün bir neçə effektiv yanaşmadan istifadə olunur. Əvvəlcə, istifadəçi tərəfindən daxil edilən məlumatların birbaşa SQL sorğularına daxil edilməsinin qarşısını almaq üçün hazır (prepared) SQL ifadələrindən istifadə edilməlidir.

Bu üsul, PHP-də PDO, Python-da isə parametrizə olunmuş sorğular vasitəsilə həyata keçirilir və SQL kodlarının icrasının qarşısını effektiv şəkildə alır. Digər vacib yanaşmalardan biri isə ORM (Object-Relational Mapping) texnologiyalarından istifadəyə üstünlük verməkdir; məsələn, Django ORM və ya Hibernate kimi alətlər vasitəsilə proqramçı SQL sorğularını birbaşa yazmadan məlumat bazası ilə əlaqə qurur və bu da təhlükəsizlik risklərini əhəmiyyətli dərəcədə azaldır.

Bundan əlavə, istifadəçi tərəfindən daxil edilən bütün məlumatlar mütləq şəkildə filtrasiya və validasiya edilməlidir. Hər bir input konkret gözlənilən formata uyğun olmalı və potensial təhlükəli simvollardan təmizlənməlidir. Eyni zamanda, məlumat bazası istifadəçilərinə yalnız zəruri olan səlahiyyətlərin verilməsi də vacibdir; məsələn, tətbiq sadəcə oxuma əməliyyatı aparırsa, yazma və silmə hüquqları həmin istifadəçiyə verilməməlidir. Nəhayət, tətbiqin təhlükəsizlik səviyyəsini artırmaq üçün sistemdə baş verən səhvlərin detallı mesajlarını istifadəçiyə göstərmək olmaz; bunun əvəzinə ümumi və qeyri-texniki bir mesaj göstərilməli, əsl səhv məlumatları isə yalnız sistem administratoruna yönləndirilməlidir. Bu yanaşmaların birgə tətbiqi SQL Injection hücumlarına qarşı effektiv müdafiə təmin edir.[2]

XSS hücumu – hücumçunun web tətbiqinə zərərli JavaScript kodları yerləşdirməsidir. Bu kodlar digər istifadəçilərin brauzerlərində işlədilərək şəxsi məlumatların oğurlanmasına səbəb olur. Mümkün nəticələr sessiya məlumatlarının oğurlanması ,istifadəçi brauzerinin yönləndirilməsi və ya manipulyasiyası və fişinq hücumları ola bilər. XSS (Cross-Site Scripting) hücumlarının qarşısını almaq üçün web tətbiqlərdə bir sıra müdafiə mexanizmlərinin tətbiqi vacibdir. İlk növbədə, istifadəçi tərəfindən daxil edilən məlumatların kodlaşdırılması xüsusi əhəmiyyət daşıyır. Bu zaman HTML etiketləri və xüsusi simvollar müvafiq HTML entitilərinə çevrilir; məsələn, < simvolu < şəklində göstərilir ki, bu da həmin kodların brauzer tərəfindən icra edilməsinin qarşısını alır.

Bundan əlavə, Content Security Policy (CSP) mexanizmi tətbiq olunmalıdır. Bu siyasət brauzerə hansı skriptlərin icazəli olduğunu bildirir və icazəsiz mənbələrdən gələn skriptlərin qarşısını alaraq XSS riskini əhəmiyyətli dərəcədə azaldır. Tətbiqlərdə həmçinin XSS hücumlarını filtrasiya edən xüsusi kitabxalardan istifadə olunmalıdır. Məsələn, DOMPurify və OWASP Java Encoder kimi alətlər zərərli skriptləri avtomatik aşkarlayıb silmək üçün geniş istifadə olunur.

Bunlarla yanaşı, həm daxil olan məlumatların (input), həm də çıxış zamanı göstərilən məlumatların (output) sanitizasiyası vacibdir. Yəni məlumatlar təmizlənməli və yalnız təhlükəsiz məzmun istifadəçiyə təqdim olunmalıdır. Son olaraq, cookie təhlükəsizliyini təmin etmək üçün HTTPOnly və Secure flag-ləri aktiv edilməlidir. Bu flag-lər vasitəsilə cookie-lərə yalnız HTTP vasitəsilə daxil olmaq mümkün olur və onlar JavaScript tərəfindən oxuna bilmir, bu da sessiya oğurluğu riskini əhəmiyyətli dərəcədə azaldır.

Web tətbiqlərinin təhlükəsizliyi istifadəçilərin məlumatlarının qorunması baxımından həyati əhəmiyyət daşıyır. SQL Injection və XSS kimi hücumlara qarşı düzgün müdafiə tədbirləri görülmədikdə, həm istifadəçilər, həm də sistem sahibi ciddi zərərlə üzləşə bilər. Bu baxımdan təhlükəsizlik prinsiplərinə uyğun proqramlaşdırma vərdişlərinin mənimsənilməsi və tətbiqlərin mütəmadi audit olunması vacibdir.

ƏDƏBİYYAT

1. Zhou, H., & Zhang, Y. (2020). *Cloud Computing and its Impact on Information Security.* International Journal of Cloud Computing and Services Science, 8(3), 15-22.
2. https://learn.microsoft.com/en-us/sql/relational-databases/security/sql-injection

WAYS TO PROTECT AGAİNST SQL İNJECTİON AND XSS ATTACKS İN WEB APPLİCATİONS

Nijat Fikrat oglu Jafarov
nijatjafarov7@gmail.com
Azerbaijan Technological University

Security vulnerabilities in web applications, especially attacks like SQL Injection and Cross-Site Scripting (XSS), can result in data theft, system compromise, and a general decrease in the level of security. To prevent SQL Injection attacks, the use of prepared statements, ORM technologies, input validation and filtering, limited database privileges, and proper handling of error messages are essential. In the case of XSS attacks, encoding user inputs into HTML entities, applying a Content Security Policy (CSP), using filtering libraries, sanitizing both input and output, and ensuring cookie security through flags like HTTPOnly and Secure are necessary. The combined and consistent application of these methods ensures that web applications function more securely and reliably. Programming habits based on security principles and regular audits of systems are especially important in this regard.

Keywords: filtering libraries, ORM technologies, database privileges.

MƏXFİ İNFORMASİYANIN AUDİO FAYLLARDA STENOQRAFİK GİZLƏDİLMƏSİ TEXNOLOGİYALARI

Emin Mahmud oğlu Namazov
e.namazov@atu.edu.az
Gülnarə Məmmədəli qızı Əliyeva
gulnara.aliyeva2005@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Müasir informasiya cəmiyyətində məlumatların qorunması və məxfiliyinin təmin olunması texnologiyaları getdikcə daha böyük əhəmiyyət kəsb edir. Bu sahədə tətbiq olunan metodlardan biri də stenoqrafiyadır. Stenoqrafiya, məlumatın mövcudluğunu gizlətməklə onu başqa bir məlumat axını içində görünməz hala gətirən üsuldur və kriptoqrafiyadan əsas fərqi da məhz bundadır. Xüsusilə audio fayllarda stenoqrafiyanın tətbiqi, məlumatların insan qulağı ilə seçilməyəcək formada gizlədilməsinə imkan yaratdığı üçün bu texnologiya təhlükəsizlik baxımından son dərəcə effektiv hesab olunur.

Audio stenoqrafiya sahəsində istifadə olunan əsas üsullardan biri LSB (Least Significant Bit) texnikasıdır. Bu texnikada audio siqnalın ən az əhəmiyyətli bitləri dəyişdirilərək gizli informasiya yerləşdirilir. Digər bir üsul olan Echo Hiding texnologiyasında isə audio siqnalın üzərinə zəif əks-səda əlavə edilir; bu əlavə insan qulağı tərəfindən fərq olunmasa da, rəqəmsal analiz vasitəsilə çıxarılması mümkündür. Bundan əlavə, Phase Coding metodu siqnalın fazasının dəyişdirilməsi ilə məlumatların kodlaşdırılmasını təmin edir, Spread Spectrum üsulu isə məlumatı siqnalın daha geniş spektrinə yayaraq gizlədilməni çətinləşdirir.[1]

Stenoqrafiya sistemlərinin effektivliyini qiymətləndirmək üçün bir neçə əsas meyar mövcuddur. Bunlara gizlilik səviyyəsi, yəni məlumatın aşkar edilmədən ötürülməsi, qavranmazlıq – yəni insan tərəfindən fərq edilməməsi, davamlılıq – siqnal sıxılması və ya səsin keyfiyyətində dəyişikliklərə qarşı müqavimət, və daşıma qabiliyyəti – yəni nə qədər məlumatın gizlədilə biləcəyi daxildir. Bu meyarlar əsasında sistemlərin texniki səviyyəsi müəyyən olunur.[2]

Müasir dövrdə audio stenoqrafiya texnologiyalarının inkişafı süni intellekt və dərin öyrənmə texnologiyalarının tətbiqi ilə daha da təkmilləşmişdir. Neyron şəbəkələr vasitəsilə audio faylların analiz edilməsi və avtomatik olaraq məlumat yerləşdirilməsi prosesi

mümkün olmuşdur. Eyni zamanda psixoakustik modellərə əsaslanan yeni kodlaşdırma üsulları daha yüksək qavranmazlıq səviyyəsi təqdim edir. Bütün bu texnologiyalar müxtəlif proqram təminatlarında öz əksini tapmışdır. Açıq mənbəli Steghide, DeepSound və AudioStego kimi alətlər audio fayllar üzərində stenoqrafik əməliyyatların aparılmasına şərait yaradır.

Audio stenoqrafiya texnologiyaları müxtəlif sahələrdə tətbiq olunur. Bunlara dövlət və hərbi qurumlarda təhlükəsiz informasiya ötürülməsi, senzura şəraitində jurnalistlərin məlumat ötürməsi, həmçinin bank-maliyyə sektorunda autentifikasiya sistemlərinin qurulması daxildir. Lakin bu texnologiyaların istifadəsi ilə yanaşı, müəyyən risklər də mövcuddur. Məsələn, stenoqrafik hücumlar və steqo-analiz vasitəsilə gizli məlumatın aşkara çıxarılması mümkündür. Bu səbəbdən, stenoqrafiya sistemləri həm də bu hücumlara qarşı davamlı olmalıdır.

Nəticə olaraq, audio fayllarda stenoqrafiya texnologiyası məxfi məlumatların təhlükəsiz və effektiv şəkildə ötürülməsi üçün mühüm alət hesab olunur. Onun daha geniş tətbiqi üçün həm nəzəri biliklərin artırılması, həm də texnoloji təkmilləşmələrin davam etdirilməsi zəruridir. Gələcək tədqiqatlar isə maşın öyrənməsi texnologiyaları ilə birləşdirilmiş, dinamik və adaptiv stenoqrafiya sistemlərinin yaradılması istiqamətində aparıla bilər.

ƏDƏBİYYAT

1. Öztürk, N., & Yılmaz, R. (2019). *Bulut Bilişim ve Güvenlik Tehditleri: Bir İnceleme.* Bilgisayar Mühendisliği Dergisi, 23(4), 45-58.
2. Kumar, A., & Singh, M. (2019). *Blockchain Technology in Personal Data Protection: A Survey.* International Journal of Computer Science and Network Security, 19(7),

TECHNOLOGİES FOR STENOGRAPHİC HİDİNG OF CONFİDENTİAL INFORMATİON İN AUDİO FİLES

Emin Mahmud oglu Namazov
e.namazov@atu.edu.az
Gulnara Mammadali qizi Aliyeva
gulnara.aliyeva2005@gmail.com
Azerbaijan Technological University

In the digital age, the protection of confidential information is of critical importance. One of the methods used to ensure information security is steganography — a technique focused on concealing the very existence of a message being transmitted. Audio steganography is particularly effective, as the human ear cannot easily detect minor alterations in audio signals, making this method highly discreet. This paper explores key audio steganography techniques such as LSB (Least Significant Bit), Echo Hiding, Phase Coding, and Spread Spectrum. It also discusses key evaluation criteria for steganographic systems, including imperceptibility, robustness, payload capacity, and security level. Modern approaches involving machine learning and psychoacoustic models are analyzed as well. The study highlights the practical applications of audio steganography in fields such as security, journalism, and finance, and suggests directions for future research.

Keywords: audio steganography, robustness, payload capacity.

FİBER-OPTİK ƏLAQƏ XƏTLƏRİNİN SİQNAL MODULYASİYASININ RİYAZİ MODELLƏŞMƏSİ

İsrail Mehdi oğlu Məmmədov
memmedovisrayil19@gmail.com
Akif Səməndər oğlu Qələndərov
a.qelenderov@uteca.edu.az
Leyla Nəsrəddin qızı Hüseynova
leylahuseynova852@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Məqalədə spektral effektiv siqnal modulyasiya formatları əsasında soliton fiber-optik rabitə xətlərində (FOCL) optik siqnalın yayılmasının riyazi modelləşdirilməsi problemlərindən bəhs edilir. Biz bu keyfiyyəti ötürərkən spontan emissiya səs-küyünün hərəkətsizliyini, qeyri-xətti təhrifləri və fiber optik əlaqələrin uzunluğunu öyrəndik. Soliton və adi dispersiyanı kompensasiya edən fiber optik əlaqələr üçün optik siqnalların müqayisəli xüsusiyyətlərinə sahibik.

Fiber-optik xətlər adi xətlərlə müqayisədə daha yüksək məlumat ötürmə performansını, eləcə də daha yüksək səviyyəli modulyasiya formatlarını təmin edir. Koherent məlumat ötürülməsi kontekstində fiber optik solitonlar bir çox səviyyəli faza modulyasiyasından istifadə etməyə imkan verir və bununla da rabitə əlaqəsinin spektral səmərəliliyini azaldır[1]. Hal-hazırda fiber-optik rabitə xətlərinin optik spektral səmərəliliyinin təsviri və onun istifadəsi üçün məhdudiyyətlər öyrənilir. Bu xətlər əsas artım həddinin spektrinə effektiv şəkildə tətbiq edilir. Bu xətlər əsasən qeyri-spektral Kerr effektinin səmərəliliyi ilə həmsərhəddir. Qeyri-xətti Schräger tənlikləri elektronun maqnit sahəsinin tətbiqini təsvir etmək üçün ümumiləşdirilmiş tənliklərdə istifadə olunur [2].

$$\frac{\partial y}{\partial x} = -i\frac{\beta_2}{2}\frac{\partial^2 A}{\partial t^2} + i\gamma|A|^2A + iN(z,t)$$

Burada A (z, t) sahə amplitüdünün kompleks zərfi, t vaxt, z lif boyunca məsafə, β2 xromatik dispersiya parametri, γ qeyri-xəttilik parametridir.

Tənlikdəki N(z, t) termini optik olaraq gücləndirilmiş spontan emissiya (ASE – Gücləndirilmiş Spotan Emissiya, yəni İSTİFADƏ – gücləndirilmiş spontan emissiya) nəticəsində yaranan səs-küy yaratmasını təsvir edir[3,4,5].


$$N_{ASE} = n_{sp}h\omega\alpha L$$

Burada h Plank sabiti, ω tezlik, α itki, L yayılma məsafəsi, nsp spontan emissiya parametridir.

Ədədi modelləşdirmə fiziki proseslərə parçalanmanın Furye üsulu (Split Step Fourier Method, yəni Furye ayırma üsulu) əsasında aparılmışdır (3).

Orijinal amplituda olduğu kimi, qəbuledicidə də siqnalın amplitudasından istifadə etdik. Rəqəmsal siqnalın işlənməsinin bu üsulu bir çox optik problemlərdə (16-19) özünü sübut etdi və hazırda siqnal ötürülməsinin keyfiyyətinin yaxşılaşdırılması üçün ən perspektivli müasir üsullardan biridir (20). Soliton fiber optik əlaqələri üçün bu üsul kanallararası qarşılıqlı əlaqəni və qonşu impulsların bir-biri ilə qarşılıqlı təsirini azaltmağa imkan verir.

Buna görə də, adi rabitə xətlərində SNR yüksək olduqda (40 dB-dən çox) siqnal 1500 km-dən çox məsafəyə xətasız ötürülə bilər. Bu vəziyyətdə adi bir əlaqənin maksimum ötürmə məsafəsi ən aşağı (-6 dBm) ilə əldə edilir.



Gücü P0 və 4500 km-dir.

Qarşı tərəfdə Soliton rabitə xətləri (Şəkil), L-nin azalmasına daha yüksək müqavimət göstərir. Buradakı kompüter dəyərləri 9% -dən çox deyil, bu yaxşı siqnal keyfiyyətini və səhvsiz bir həllin mümkünlüyünü göstərir. Şəkildəki əyrilər arasındakı uyğunsuzluq. 2a kiçikdir $[2,6]$. Burada kompüter və gücdə P artımı intersolion qarşılıqlı əlaqənin artması ilə əlaqələndirilir və səhvsiz dekodlaşdırmanın mümkün olduğu siqnal ötürmə məsafəsi maksimuma çatmır.

ƏDƏBİYYAT

1. Turitsyn S.K., Bale B., Fedoruk M.P. Phys. Rep. 521, (2012)
2. Tkach R. Bell Labs Tech.J., 14, (2010)
3. Rafique D., Ellis A.D. İEEE Photonics Technol. 1838, (2011)
4. Essiambre R,J. Proc, Optical Fiber Communication Conf. (Geneva, 2011)
5. Schmogrow R., Winter M., Meyer M., Hillerkuss D., Wolf S., et al. Opt.Express/ 317 (2012)
6. Ezra I., Kahn J.M. J.Lightwave Technol., 26(2008)
7. Gainov V., Gurkin N., Lukinih S., Akopov S., Makovejs S., Ten S., Nanii O., Laser Phys. Lett., (2013)

MATHEMATICAL MODELING OF FIBER-OPTIC COMMUNICATION LINES

Israil Mahdi oglu Mammadov
memmedovisrayil19@gmail.com
Akif Samander oglu Galandarov
a.qelenderov@uteca.edu.az
Leyla Nasreddin gizi Huseynova
leylahuseynova852@gmail.com
Azerbaijan Technological University

The article deals with the problems of mathematical modeling of optical signal propagation in soliton fiber-optic communication lines (FOCL) based on spectrally efficient signal modulation formats. We studied the inertia of spontaneous emission noise, nonlinear distortions and the length of fiber-optic links when transmitting this quality. We have comparative characteristics of optical signals for soliton and conventional dispersion-compensated fiber-optic links. Fiber-optic lines provide higher data transmission performance compared to conventional lines, as well as higher-level modulation formats. In the context of coherent data transmission, fiber-optic solitons allow the use of multi-level phase modulation, thereby reducing the spectral efficiency of the communication link.

Keywords: fiber-optic links, higher-level modulation formats.

KOMPÜTER OYUNLARININ İNSAN HƏYATINDA ROLU

Nəhayət Aqranom qızı Sadıxova
nehayet_2000@mail.ru
Ülvi Rauf oğlu Rəfizadə
u.refizade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Bu gün informasiya cəmiyyətinin inkişafı cəmiyyətdə sosial dəyişiklikləri qaçılmaz edir. Fərdi sosiallaşma mexanizmlərinin transformasiyasını tələb edən yeni texnologiyalar yaranır.

Yeni texnologiyalar yeni sosial münasibətlər yaradır. İnformasiya texnologiyalarının bütün sahələrə tətbiqi insanların şəxsi ünsiyyətə ehtiyacını azaldır. Rəqəmsallaşma dünyada mədəni inqilablara səbəb olur. Bu, əsas sosial qurumları kəskin şəkildə dəyişdirir və daim dəyişən sosial normalara uyğunlaşmağın daha dərindən başa düşülməsini tələb edir. Yeni nəsil insanları rəqəmsal cəmiyyətdə inkişaf etmək üçün bu prosesi mənimsəməlidirlər.

Cəmiyyətin qlobal informasiyalaşması bəşəriyyətin tarix boyu əvvəllər qarşılaşmadığı yeni problemlərin bütöv bir kompleksini yaratdı. Şəbəkə kommunikasiyalarında subyekt faktiki reallıqdan – fərdin "mən"indən ayrıldı. İnternetlə kommunikativ qarşılıqlı əlaqə zamanı real insanın "mən"ini əvəz edən müəyyən bir "virtual subyekt" formalaşır.[1]

Qeyd etmək lazımdır ki, insan təkcə sosial varlıq deyil, həm də bioloji varlıqdır və onlar sosiallaşma formalarına yaxşı uyğunlaşırlar. Onlardan biri də insan fəaliyyətində aparıcı rol alan oyunlardır. Cəmiyyətin rəqəmsallaşması ənənəvi oyunları kompüter oyunları ilə əvəz etmək zərurətinə gətirib çıxarır.

Kompüter oyunları insan həyatının gündəlik əyləncəsinin ayrılmaz hissəsinə çevrilib. Dünyada milyonlarla insan hər gün müntəzəm olaraq kompüterdə oyun oynayır. Bu oyunlar vaxt keçirmək üçün əyləncəli bir yol olsa da, onların insanın psixi sağlamlığına, həyat tərzinə müsbət və mənfi təsirləri danılmazdı.

Kompüter oyunu, oyun prosesini təşkil etməyə, oyun tərəfdaşları ilə ünsiyyət qurmağa və ya özü tərəfdaş kimi çıxış etməyə xidmət edən kompüter proqramıdır.

Kompüter oyunları bir neçə mərhələdən keçərək inkişaf etmişdir:

1952-ci ildə ilk məntiqi kompüter oyunu "OXO" yaradıldı.

1958 - İlk tenis simulyatoru "Tennis for Two" yaradıldı. Bu oyunda iki nəfər topu sıçratmaq üçün hərəkət edən platformalara nəzarət edir.

1962 - "SpaceWar!" adlı kompüter oyunu yaradıldı. Burada ekranda uçan və bir-birinə atəş açan iki kiçik kosmik gəmini idarə etmək lazım idi.

1974-cü il. İlk mülki kompüter şəbəkəsi Telenet açıldı. 32-yə qədər oyunçunun eyni vaxtda kosmos fonunda onlayn mübarizə apardığı "SpaSim" oyunu yaradıldı.

6 iyun 1984-cü ildə dünyaca məşhur rus oyunu "Tetris" hazırlandı və "Döyüş şəhəri" (daha çox "Tanklar" kimi tanınır) oyunu yaradıldı.

Video oyunların insanın psixoloji vəziyyətinə təsiri məsələsi tədqiqatçılar üçün hər zaman açıq qalır. Oyunların həm mənfi, həm də müsbət təsirlərinə dair sübutlar var.

Kompüter oyunlarının ən əhəmiyyətli müsbət təsirlərindən biri onların idrak funksiyalarını (koqnitiv funksiyaları) yaxşılaşdırmaq qabiliyyətidir. Araşdırmalar göstərir ki, oyunlar beynin informasiyanı emal etmək, problemləri həll etmək və tez qərar qəbul etmək qabiliyyətini gücləndirə bilər. Buna səbəb odur ki, bir çox oyun oyunçulardan tapşırıqları yerinə yetirmək və səviyyələrdə irəliləmək üçün diqqətli və strateji düşünməyi tələb edir.

Bir çox tədqiqatçılar kompüter oyunlarının insanların, ən çox da məktəb yaşlı uşaqların psixikasına zərərli olduğunu düşünürlər. Bunu oyunda insanı təşviş və qorxuya salan təhlükəli səhnələrlə əlaqələndirirlər.

Məktəblərdə tədris prosesində kompüter oyunları kifayət qədər ciddi əhəmiyyət kəsb edir. Onların düzgün strukturu, məqsədyönlü təbliği var və onların vasitəsilə əldə edilən

təcrübə, biliklər praktikada yaxşı tətbiq olunur. Məhz bu xüsusiyyətlər tədris proseslərində istifadə olunan kompüter oyunlarını digərlərindən fərqləndirir.

Bəzi oyunlar həyatda insana kömək edir, ona müxtəlif keyfiyyətləri öyrədir və inkişaf etdirir, ancaq belə oyunların sayı azdır. Hətta bəzən elə olur ki, oyun oynamağa sərf olunan həddindən artıq vaxt təkcə asılılıq deyil, həm də psixi pozğunluqlar və ya hətta müxtəlif xəstəliklər yaradır.

Kompüter oyunları sayəsində istənilən yaşda olan uşaqlarda reaksiya sürətini, diqqətlilik və bacarıqlarını inkişaf etdirə bilərik. Ancaq bütün oyunlar belə təsir göstərə bilməz - təəssüf ki, bir çox oyunlar uşağın tərbiyəsinə yalnız mənfi təsir göstərir.

Ənənəvi oyunlar və kompüter oyunlarını müqayisə etmək çox vaxt oxşar nəticələrə gətirib çıxarır. Təəssüf ki, bəzi ənənəvi və kompüter oyunları uşaqlara "qeyri-sağlam münasibətlər" öyrədir və onların gündəlik həyatına keçir. Yetkin uşaqlar simulyasiya edilmiş zorakılıqla kollektiv həyət oyunlarında iştirak edirlər. Məsələn, iştirakçıları ələ keçirmə, döyüş oyunları, sorğu-sual və işgəncə vasitəsilə ssenariləri canlandırmaq və zorakılığı təsvir etmək. [3].

Bu formalar arasında müəyyən ziddiyyət yaranır ki, onun nəticələri həll olunarsa, gələcək nəsillərin fiziki və psixi sağlamlığına təsir göstərəcək.

Uşaqların (məktəbəqədər və məktəb yaşı) informasiya sosiallaşmasının mənfi nəticələrinin yaranmasının qarşısını almaq üçün lazımi tədbirlərdən biri uşaqların kompüterdə oyun fəaliyyətinin araşdırılması və monitorinqlərin aparılmasıdır.

ƏDƏBİYYAT

1. Лазарева, М.В. & Хасанова, Москва. 2023. Современное управление и цифровизация., 307 с.

2. Кочетков Н. В., Воложаева Е. Н. Взаимосвязь увлечённости онлайн-играми и мотивации к обучению разностатусных школьников // Психологическая наука и образование. 2021. М. 26. № 4. С. 34–42.

3. Фельдт Ф.И., Киев. 2003. Компьютерные игры: обучение или развлечение?, 154 с.

THE ROLE OF COMPUTER GAMES IN HUMAN LIFE

Nehayet Agranom qizi Sadikhova
nehayet_2000@mail.ru
Ulvi Rauf oglu Rafizade
u.refizade@atu.edu.az
Azerbaijan Technological University

This article examines the issue of using one of the most powerful social and psychological factors of influence on the spirituality of young people - computer games in the educational process. The results of social surveys and experiments are presented. Aspects that should be taken into account when creating computer educational games are proposed. The problems that arise when creating and using pedagogical computer games are listed, and the authors' proposals are given as solutions.

Keywords: Ideology, spirituality, computer games, didactics, psychophysiology, methodology, imitation.

SÜNİ İNTELLEKT VƏ FƏRDİ MƏLUMATLARIN TƏHLÜKƏSİZLİYİ

Ləman Yamən qızı Nəbiyeva
lemannebiyeva2023@gmail.com
Mingəçevir Turizm Kolleci

Süni intellekt (Sİ) texnologiyalarının sürətlə inkişaf etməsi fərdi məlumatların qorunması və kibertəhlükəsizliyə dair yeni suallar meydana çıxarır. Yeni texnologiyalar şəxsi məlumatların sui-istifadəsi, ümumilikdə məxfiliyin məhv edilməsi yönündə əlavə risklər yaradır [3]. Sİ sistemləri iri həcmdə məlumatı emal edir və analiz edir ki, bu da məlumatların gizliliyinin qorunmasını çətinləşdirir. Fərdi məlumatlara təhdid yaradan bəzi faktorlar vardır:

1. **Məlumat sızması** – Sİ sistemlərinin topladığı məlumatlar kibercinayətkarların hədəfindədir. Süni intellekt sistemlərində məlumat sızması müxtəlif yollarla baş verə bilər: k**iberhücumlar, zəif təhlükəsizlik tədbirləri** və s.
2. **Dəqiqliyin manipulyasiyası** – Məlumat manipulyasiya edilərək Sİ-nin yanlış nəticələr verməsinə səbəb ola bilər.
3. **Avtomatlaşdırılmış diskriminasiya** – Sİ sistemləri qeyri-adekvat və ya çarpaz verilənlər üzərində qurulduqda məlumatları yanlış şəkildə işləyə bilər.
4. **Fərdi məlumatların şəffaflıq problemi** – Vətəndaşlar öz məlumatlarının necə və nə üçün istifadə edildiyini bəzən bilmir.

Fərdi məlumatların tamlığı və təhlükəsizliyi üçün lazımı tədbirlər görülməli, toplanmış məlumatların itirilməsinin qarşısını almaq üçün ağlabatan səylər göstərilməlidir [1, s. 138]. Məsələn: Ş**ifrələmə texnologiyalarını gücləndirmək, yəni** məlumatların mümkün olduqca şifrələnmiş formada saxlanması. Şifrələmə texnologiyaları süni intellekt sistemlərində məlumatların təhlükəsizliyini təmin etmək üçün vacib bir vasitədir; **Təhlükəsiz alqoritmlər yaratmaq** – Sİ sistemlərinin etik qaydalara əməl etməsini təmin etmək. Çünki təhlükəsiz süni intellekt alqoritmləri inkişaf etdirmək fərdi məlumatların qorunması və kibertəhlükəsizliyin təmin edilməsi üçün vacibdir; **Təhlükəsizliyə dair qanunvericiliyin təkmilləşdirilməsi** – Fərdi məlumatları qoruyan qanunlar daha effektiv həyata keçirilməlidir. Süni intellektin təhlükəsiz istifadəsini təmin etmək üçün qanunvericiliyin təkmilləşdirilməsi vacibdir. Süni intellekt texnologiyalarının inkişafına uyğun olaraq hüquqi çərçivələr yenilənməlidir; **Fərdi məlumat sahiblərinin məlumatlandırılması** – Məlumat subyektlərinə fərdi məlumatlarının toplandığı və necə istifadə ediləcəyi barədə məlumat verilməlidir. Təşkilat şəxslərin hər hansı bir sorğu və ya şikayətlə təşkilatla necə əlaqə qura biləcəyi barədə məlumat verməlidir [1, s. 138]. Vətəndaşlar fərdi məlumatlarının süni intellekt sistemləri tərəfindən sui-istifadə olunması halında hüquqlarını necə qoruyacaqlarını bilməlidirlər.

Nəticə etibarilə, süni intellekt və fərdi məlumatların təhlükəsizliyi çağın ən aktual problemlərindən biridir. Bu texnologiyanın fəydalarından istifadə edərkən, onun fərdi məlumatlara vura biləcəyi potensial zərərlərə də diqqət etmək vacibdir. Effektiv təhlükəsizlik strategiyaları və qanunvericilik islahatları vasitəsilə bu problemləri həll etmək mümkün ola bilər.

ƏDƏBİYYAT

1. Rzayeva G,, İbrahimova A. (2021.) Süni intellekt, insan hüquqları və fərdi məlumatların təhlükəsizliyi. Dərs vəsaiti. Bakı: "Nurlar" nəşriyyatı, 200 s.
2. https://data.edu.az/az/data-bloq/suni/
3. https://socialresearchjournal.az/index.php/2023/10/04/suni-intellekt-texnologiyalarinin-inkisafi-ve-tetbiqinin-sosial-neticeleri/

ARTIFICIAL INTELLIGENCE AND PERSONAL DATA SECURITY

Laman Yamen qizi Nabiyeva
lemannebiyeva2023@gmail.com
Mingachevir Tourism College

Abstract. The rapid development of artificial intelligence (AI) technologies raises new questions about personal data protection and cybersecurity. AI systems process and analyze large amounts of information, which makes it difficult to protect data privacy. A number of steps are being taken to ensure data security. Artificial intelligence and personal data security are one of the most pressing issues of our time. While using the benefits of this technology, it is important to pay attention to the potential harm it can cause to personal data. It may be possible to solve these problems through effective security strategies and legislative reforms.

Keywords: Artificial intelligence, personal data, cybersecurity, data breach, encryption

TRANSRADİAL PROTEZLƏR: AVADANLIQ VƏ İDARƏETMƏ SİSTEMLƏRİNİN İNKİŞAF TRENDLƏRİ

Ayşən Əli qızı Aslanova
aysheneli14@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Protez, itirilmiş bədən hissəsinin funksionallığını və ya görünüşünü təmin etməyə yönəlmiş bir qurğudur. Müasir protezlər, istifadəçinin həyat keyfiyyətini artırmağa və gündəlik fəaliyyətlərini daha az xarici yardım ilə yerinə yetirməsinə imkan yaratmağa çalışır. Transradial protezlər, əl və ya biləkdən yuxarı bir hissənin itirilməsi nəticəsində istifadə edilən xüsusi protezlərdir. Bu protezlər, əllə idarə edilə bilən və ya mexaniki şəkildə işləyən süni bilək və əl sistemlərindən ibarətdir. Əsas məqsəd, istifadəçiyə gündəlik həyat fəaliyyətlərini minimum xarici köməklə yerinə yetirməyə imkan yaratmaqdır.

Metodlar: Bu nəzərdən keçirmə məqaləsində, müasir transradiyal protezlərin avadanlıq sistemləri qısa şəkildə müzakirə olunmuşdur. Məqsəd, onun mexaniki sistemlərinin inkişafında istifadə olunan son texnologiyalar haqqında anlayış təmin etməkdir: terminal qurğular, süni bilək oynaqları və bədən qoşulmaları. Bu kontekstdə, tutma hərəkəti üçün terminal qurğularının ən son avadanlıq dizaynları təqdim olunur, çünki bu, transradiyal protezlərin əsas funksiyasıdır. Protez bilәkləri və bədən qoşulmalarının avadanlıq dizaynları da nəzərdən keçirilir. Nəhayət, transradiyal protezlərin dizaynı üzrə son trendlər və gələcək istiqamətlər araşdırılmış və təqdim edilmişdir.

Nəticələr: Ölçü, forma, çəkisi, davamlılıq, görünüş və funksionallıq, transradiyal protez hazırlanarkən nəzərə alınmalı əsas amillərdir. Bundan əlavə, mövcud inkişaflar insanın üst əlinə yaxınlaşır. Lakin, bu cihazların mövcudluğu yüksək texnologiya və yüksək qiymət səbəbindən minimumdur ki, bu da transradiyal protezlərin daha da inkişaf etdirilməsini zəruri edir.

ƏDƏBİYYAT

1. Cipriani, C., & Castellini, C. (2011). A review of control systems in myoelectric prosthetics. IEEE Transactions on Biomedical Engineering, 58(9), 2835-2848. https://doi.org/10.1109/TBME.2011.2163506
2. Zhang, X., & Xu, W. (2017). Advanced prosthesis control systems based on real-time neural signals. Journal of Neural Engineering, 14(6), 066013. https://doi.org/10.1088/1741-2552/aa8c67

3. Zhou, Z., & Chen, Z. (2015). Design of a hybrid control system for prosthetic arms. International Journal of Robotics Research, 34(5), 555-563. https://doi.org/10.1177/0278364914561738

TRANSRADIAL PROSTHETICS: TRENDS IN THE DEVELOPMENT OF EQUIPMENT AND CONTROL SYSTEMS

Ayshen Ali qizi Aslanova
ayshеneli14@gmail.com
Azerbaijan Technological University

A prosthesis is a device designed to restore the functionality or appearance of a lost body part. Modern prosthetics aim to improve the user's quality of life and allow them to perform daily activities with minimal external assistance. Transradial prostheses are specialized prosthetics used after the loss of a hand or part of the forearm. These prostheses consist of artificial wrist and hand systems that can be manually controlled or mechanically operated. The primary goal is to enable the user to perform daily life activities with minimal external help.

Keywords: Anatomy and biomechanics; Body attachments; Prosthetic wrists; Latest devices; Transradial prosthetics.

STEQANOQRAFİK SİSTEMLƏRİN KİBER TƏHLÜKƏLƏRƏ QARŞI DAYANIQLIĞININ ANALİZİ

Emin Mahmud oğlu Namazov
e.namazov@atu.edu.az
Gülnarə Məmmədəli qızı Əliyeva
gulnara.aliyeva2005@gmail.com
Azərbaycan Texnologiya Universiteti

İnformasiya texnologiyalarının sürətli inkişafı ilə bərabər, məlumatların qorunmasına yönəlmiş texnologiyalar da inkişaf etmişdir. Şifrələmə texnologiyalarından fərqli olaraq, steqanoqrafiya məlumatın mövcudluğunu gizlətməklə onun təhlükəsizliyini təmin edir. Steqanoqrafik sistemlər vasitəsilə məlumatlar şəkillər, audio və video faylların daxilində gizlədilərək ötürülür və bu da onları klassik şifrələmədən fərqli və əlavə təhlükəsizlik qatına sahib edir. Lakin kibertəhlükələrin artması ilə bu sistemlər də müxtəlif hücumlara məruz qala bilər. Bu səbəbdən, steqanoqrafik sistemlərin zəifliklərini müəyyən etmək və onları aradan qaldırmaq vacib məsələdir.

Steqanoqrafik sistemlər rəqəmsal təhlükələrdən tam şəkildə sığortalanmamışdır və müxtəlif növ kibertəhlükələrə qarşı həssas ola bilər. Bu təhlükələrdən biri olan steqanoanaliz hücumları zamanı hücum edən tərəf steqanoqrafik obyektlərdə gizli məlumatın mövcudluğunu aşkar etməyə çalışır; xüsusilə LSB metodlarının istifadə olunduğu hallarda şəkillər üzərində aparılan statistika əsaslı analizlə bu tip məlumatların aşkarlanması mümkündür. Digər təhlükə, məlumatın dəyişdirilməsi və ya təhrif olunması ilə nəticələnən tamper hücumlarıdır; bu zaman faylın strukturu qəsdən və ya təsadüfən dəyişdirilərək oradakı gizli informasiya zədələnə bilər. Format konvertasiyası, xüsusilə də məlumatın sıxılması ilə müşayiət olunan itkiyə səbəb olan (lossy compression) çevrilmələr, steqanoqrafik obyektlərin içindəki məlumatı yararsız hala sala bilər. Nəhayət, bəzi hallarda zərərli proqram təminatları və botnetlər steqanoqrafiyanı istifadə edərək gizli əlaqə kanalları qurur və bu da sistemlər üçün əlavə təhlükə mənbəyinə çevrilir.[1]

Steqanoqrafik sistemlərin kibertəhlükələrə qarşı dayanıqlığını artırmaq üçün aşağıdakı tədbirlər görülə bilər:

- Güclü steqanoqrafik alqoritmlərin istifadəsi: Məsələn, LSB əvəzinə DCT və ya DWT əsaslı metodların tətbiqi daha yüksək dayanıqlıq təmin edir.

- Dinamik steqano profillərin yaradılması: Eyni metoddan davamlı istifadə əvəzinə dəyişkən strategiyalarla məlumat yerləşdirmə.
- Steqanoanaliz alətləri ilə özünü test etmək: Gizlədilən məlumatın aşkar edilə biləcəyini yoxlamaq üçün mütəmadi testlər.
- Kriptoqrafiya ilə birgə istifadə: Məlumatın əvvəlcə şifrələnib, daha sonra steqanoqrafik obyektə yerləşdirilməsi, ikiqat təhlükəsizlik təbəqəsi yaradır.
- Format sabitliyi üçün uyğun fayl tiplərinin seçilməsi: Kompressiyaya davamlı formatlar (məsələn, PNG) seçilməlidir.[2]

Steqanoqrafiya müasir informasiya təhlükəsizliyi sahəsində vacib alətlərdən biridir. Lakin bu texnologiyanın effektivliyi, onun qarşılaşdığı kibertəhlükələrə qarşı dayanıqlılığından asılıdır. Bu səbəbdən steqanoqrafik sistemlərin təhlükəsizlik testləri, müasir steqanoanaliz metodlarına qarşı müqaviməti və dinamik müdafiə üsullarının tətbiqi vacibdir. Gələcək tədqiqatlarda süni intellekt və maşın öyrənməsi əsaslı metodların tətbiqi ilə daha güclü və çevik steqanoqrafik sistemlərin yaradılması mümkün ola bilər.

ƏDƏBİYYAT

1. Fridrich, J. "Steganography in Digital Media: Principles, Algorithms, and Applications", Cambridge University Press, 2010.
2. **Kumar, A., & Singh, M. (2019).** *Blockchain Technology in Personal Data Protection: A Survey*. International Journal of Computer Science and Network Security, 19(7).

ANALYSİS OF THE RESİLİENCE OF STEGANOGRAPHİC SYSTEMS AGAİNST CYBER THREATS

Emin Mahmud oglu Namazov
e.namazov@atu.edu.az
Gulnara Mammadali qizi Aliyeva
gulnara.aliyeva2005@gmail.com
Azerbaijan Technological University


In the modern landscape of information security, steganography has emerged as a powerful technique for protecting the confidentiality and integrity of data. Unlike traditional cryptographic methods that conceal the content of information, steganography aims to hide the very existence of the message itself. This paper presents a comprehensive analysis of the fundamental principles of steganographic systems and their application areas in the digital domain. It explores various types of digital steganography, including image, audio, video, and text-based approaches, elaborating on their operational mechanisms and practical implementations in fields such as military communication, secure journalism under censorship, digital rights management (DRM), and authentication systems. In conclusion, the role of steganographic systems in the field of cybersecurity is becoming increasingly significant. Strengthening their resilience against cyber threats is a critical area of research with both theoretical and practical implications. Future directions in this domain may include the integration of artificial intelligence and machine learning for adaptive steganographic techniques, leading to the development of more intelligent and robust security frameworks.

Keywords: robust security frameworks, authentication systems.

RƏNGLİ GÖRMƏ VƏ GÖRMƏ DİAPAZONUNDAN KƏNAR DİAPAZONDA GÖRMƏ


Ziyadxan Əli oğlu Məhərrəmov
ziyadxan.meherremov@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Rəng yalnız onun üç komponenti mövcud olduqda mövcuddur: görmə, obyekt və işıqlandırma. Təmiz ağ işıq rəngsiz olaraq qəbul edilsə də, emal zamanı bütün mümkün rəngləri özündə birləşdirir. Ağ işıq bir obyektə dəydikdə, səth bəzi rənglər udur və digərlərini əks etdirir; Yalnız əks olunan rənglər rəng qavrayışını yaradır [6]. Şəkil 1 – də ağ işığın rənglərə ayrılması göstərilib.Praktiki olaraq ağ rəng üç əsas rəgin –qırmızı,yaşıl və göy rəngin qaışığıdır. Bu rənglərin nisbətini dəyişməklə istənilən rəng çalarını əldə etmək olar . Rəngli televizya məhz bu üç əsas rəgdən - qırmızı,yaşıl və göy rənglərindən istifadə etməklə yaradılıb.Hazırda Yer kürəsində üç əsas rəngli televizya sis-temindən - NTSC, PAL и SECAM istifadə olunur.



Şəkil 1. Ağ işığın rənglərə ayrılması

İnsan gözü 150 mindən çox rəng və çalarları ayırd edə bilir. Bu fotoreseptorların varlığı hesabına mümkün olur [2]. Fotoreseptorlar - kolbacıqlar və çubuqcuqlara ayrılır . Çubuqcuqlar işığın parlaqlığını (intensivliyini – kvantların miqdarını), kolbacıqlar isə işığın rənglərini (tezlikləri) qeydə alan sensorslar rolunu yerinə yetirir. Qeyd edək ki, göz tək- tək kvantları hiss etmək qabliyyətinə malikdir. Kolbacıqlar və çubuqcuqlar 370 nm-dən 710 nm - ə (423THs ÷ 811THs) qədər dalğa uzunluğuna malik olan işığı – elektromaqnit dalğalarını hiss edə bilirlər (şəkil 2).




Şəkil 2. Görünən işıq diapazonu

C. K. Maksvell, 1873 – cü ildə Kraliyyət cəmiyyətinə yazdığı "Elektromaqnit sahəsinin dinamiki nəzəriyyəsi" məqaləsi ilə o günə qədərki dövrə aid olan əlaqəsiz müşahidələri, eksperimentləri, elektrik, maqnetizm və optikaya dair tənlikləri vahid , ziddiyyətsiz nəzə - riyyə halında birləşdirdi. Maksvell, elektromaqnit dalğalarının varlığını nəzəri sübut etdi. 1888-ci ildə isə Henrix Hers eksperimental olaraq elektromaqnit dalğalarının mövcudluğunu sübuta yetirdi [3].

Öz təbiətinə görə işıq elektromaqnit dalğası olduğundan elektrodinamikanın bütün qanunlarına tabedir. Bununla belə işıq ikili xarakterə (dualizm) malikdir, yayıldıqda özünü dalğa kimi, udulma - buraxılma proseslərində isə özünü zərrəcik (kvant) kimi aparır.

Foton fundamental zərrəcikdir, elektromaqnit sahəsinin kvantıdır. Elektromaqnit şüalanması fotonlar şəklində yayılır və udulur. Foton həm hissəcik, həm də dalğa xüsusiyyətlərinə malikdir (dualizm). Onun elektrik yükü və sükunət kütləsi sıfra bərabərdir. Foton ancaq hərəkətdə kütləyə malik olur. Fotonun enerjisi Plank dusturu ilə müəyyən olunur, yəni $E = h\nu$, ($h = 6{,}63 \cdot 10^{-34}$ C·san. = $4{,}14\ 10^{-15}$ eV·san.,Plank sabitidir, ν –elektromaqnit rəqslərinin tezliyidir). Fotonun impulsu $p = mc = E/c$ münasibəti ilə müəyyən olunur ($c \approx 3 \cdot 10^{8}$ m/san.–işığın vakuumdakı sürətidir).

Müasir dünya – kainat öz quruluşuna görə maddidir, atom, molekullardan, elementar zərrəciklərdən təşkil olunub və enerji çevrilmələri ilə müşaiyət olunur. Atomun muasir modeli Rezerford – Bor modelinə əsaslanır [5]. Şəkil 3- də atomun modelləri göstərilib. Rəngli görmə, atomun Rezerford – Bor modelinə görə daha aydın dərk edilir. Təbiətin bütün prosesləri enerji mübadiləsi ilə müşaiyət olunur və bu deyilənlər görmə hadisəsinə də aiddir. Fərz edək ki, E = hv kvantlarından ibarət olan şüa (işıq) cisim üzərinə düşür. Bu zaman atomun orbitindəki electron fotonla qarşılıqlı təsirdə olur, hər iki zərrəciyin qarşılıqı təsirdə olması ehtimallı hadisədir və yaranan effektlər fotoun enerjisindən asılıdır. Orbital elktronun rabitə enerjisindən ($E_{or\cdot rab.}$) asılı olaraq kvant, fotoeffekt, Kompton effekti, electron-pozitron cütlüyü yarada bilir.



Şəkil 3. Atomun modelləri


Kvantın enerjisi $E_{or\cdot rab.}$ enerjisindən kiçik olduğu halda da, fotonun təsirindən elektron öz normal hərəkət orbitini dəyişərək daha mürəkkəb trayektoriyalı əyrixətli hərəkət edir (elektronun orbitində sarsıntı yaranır). Elektromaqnit dalğasının şüalanmasının əsas şərti yükün təcilli hərəkəti olduğundan orbital elektron, sarsıntının nəticəsi olaraq özündən həmin atomun orbital elektronuna (həmih atoma) xas olan tezliyi şüalandırır (şəkil 4). Beləlikə düşən spektrdən, yalız üzərinə düşdüyü maddənin atomuna xas olan tezliklər seçilərək şüalanır. Subyekt (görmə hissi olan canlılar) bu tezlikləri rəng kimi qavrayır. Hidrogen atomunun ən kiçik radiusunun $5\cdot10^{-11}$ m, yəni diametrinin 10^{-10} m olduğunu xatırlasaq, fotonla atomun təmas müddəti $t = 10^{-10}$ m : $3\cdot10^{8}$ m/san.≈ 3,(3) $\cdot10^{-19}$ san. tərtibində olar. Bu qədər qısa muddətdə hidrogen atomunun elektronu fotonla qarşılıqlı təsirdə olur. Digər atomlar üçün bu müddət bir qədər çoxdur, buna baxmayaraq belə bir qısa müddətdə atomlar, kənardan təsirlənən generatorlarda olduğu kimi özlərindən yalnız onlara məxsus olan tezlikləri (rəngləri) generasiya edirlər və nəticədə subyekt cisim və ya əşyaları rəngli görür.



Şəkil 4.

Görmə diapazonundan kənar diapazonda rəngli görmə müasir insanın əsas tələbatlarından biridir. Ona görə də həm infraqırmızı həm də ultrabənövşəyi alt diapazonlarda görmə cihazları yaradılıb. İnsanlar görmə diapazonundan (təqribən 400 nm-dən 700 nm -ə (430THs ÷ 750THs)) kənarda gözlə görə bilmir. Ona görə də görmə diapazonundan kənar diapazonda görmək üçün tezliklərin çevrilməsinin superheterodin prinsipindən istifadə edilə bilər.

Fərz edək ki, rentgen diapazonundakı $f_{rent.}$ Tezliyini gözlə görmək lazımdır. Bu məqsədlə heterodin tezliyi se- çilməlidir və bu tezliyin qiyməti elə olmalıdır ki,$|f_{rent.} - f_{het.}|$ $f_{gör.}$ olsun. $f_{gör.}$ –görmə diapazonundakı tezlikdir.



Şəkil 5.

Bu prinsipdə görünməyən diapazondakı tezlikləri görmək olar. Onu da qeyd edək ki, telik artdıqca dalğa uzunluğu kiçilir və ayırdetmə qabliyyəti artır. Texniki səbəblərdən bu üsul günümüzdə praktiki tətbiqini tapmayıb.

Günümüzdə görmə diapazonundan kənar diapazonda –infraqırmızı və ultrabənövşəyi diapazonlarda işləyən cox sayda cihaz və qurğular –binokllar, monokulyarlar və s. istehsal olunur.

ƏDƏBİYYAT

1. Гвоздовский И.В, Зелепукина Е.К, Лапицкая И.А, Лапицкий К.М, Павлов И.Н, Пройков А.Ю, Янина Г.М / Под ред. Григорьева С.В.- Волновая и квантовая оптика. Издательство МЭИ, М.: 2016.- 112с.
2. Mənbə: https://optic-center.ru/articles/fakty-o-zrenii/osobennosti-cvetovogo-zreniya-cheloveka/
3. Mənbə: https://habr.com/ru/users/Galperin_Mark/
4. Mənbə: https://www.youtube.com/watch?v=u-EUvtrF2wc
5. Mənbə: https://www.yaklass.ru/
6. Mənbə: https://www.cambridgeincolour.com/ru/tutorials-ru/color-perception.htm

COLOR VISION AND VISION IN THE RANGE OUTSIDE THE VISUAL RANGE

Ziyadkhan Ali oglu Maharramov
ziyadxan.meherremov@mail.ru
Azerbaijan Technological University

Color vision is the result of the interaction between three components: vision, the object, and lighting. Although pure white light is perceived as colorless, it contains all possible colors, and colors become visible when an object absorbs some wavelengths and reflects others. The human eye can distinguish over 150,000 colors, thanks to photoreceptors called rods and cones. Rods detect light intensity, while cones are responsible for color perception. The visible spectrum ranges from approximately 370 nm to 710 nm. Light, as an electromagnetic wave, exhibits both wave and particle (quantum) properties.

According to the Rutherford-Bohr atomic model, color perception is linked to the interaction between photons and electrons in atoms. Techniques based on frequency conversion principles, like superheterodyne conversion, are suggested for extending vision beyond the visible range into infrared and ultraviolet regions. Modern devices, such as infrared and ultraviolet binoculars and monoculars, are examples of technologies enabling human vision beyond the visible spectrum.

Keywords: Color vision, electromagnetic waves, visible spectrum, photoreceptors, photon, Rutherford-Bohr model, superheterodyne conversion, infrared vision, ultraviolet vision.

İNFORMASİYA SIZMALARININ QARŞISINI ALMA SİSTEMLƏRİ

Nuridə Məhəmmədəli qızı Bayramova [1]
nuridabayramova0@gmail.com
Mahil İsa oğlu Məmmədov [2]
mahil.adau.infotex@gmail.com
Azərbaycan Texnologiya Universiteti[1]
Azərbaycan Dövlət Aqrar Universiteti[2]

Giriş. Rəqəmsal mühitin genişlənməsi ilə məlumat sızmaları informasiya təhlükəsizliyi üçün ciddi təhdidə çevrilmişdir. Bu məqalədə məlumat sızmalarının qarşısını alma sistemləri – DLP texnologiyalarının prinsipləri, tətbiqi və qanunvericiliklə əlaqəsi araşdırılır.

Metodologiya. Məqalə keyfiyyətli tədqiqat yanaşmasına əsaslanaraq, normativ hüquqi sənədlərin (qanunlar, konstitusiya), mövcud ədəbiyyatların və aktual texniki mənbələrin (elmi məqalələr, texnologiya hesabatları) təhlili əsasında hazırlanmışdır. Müqayisəli analiz və konseptual yanaşma üsullarından istifadə olunmuşdur.

Müzakirə və qiymətləndirmə. DLP sistemləri – yəni informasiya sızmalarının qarşısını alma sistemləri – təşkilatlarda məxfi informasiyaların qorunması üçün əvəzolunmaz vasitə kimi çıxış edir. Bu texnologiyalar, xüsusilə informasiya həcminin sürətlə artdığı və kibertəhlükələrin çoxaldığı bir dövrdə aktualdır. DLP-nin əsas xüsusiyyətlərindən biri, qorunan şəbəkə perimetrini keçən informasiya axınlarını izləməsi və nəzarət altında saxlamasıdır. Beləliklə, sistem potensial informasiya sızmalarını aşkar edib qarşısını ala bilir.

Bu cür sistemlərin effektivliyi bir neçə əsas amildən asılıdır: informasiyaların düzgün təsnifatı, fasiləsiz monitorinq və çevik reaksiya mexanizmləri. DLP sistemlərinin fəaliyyət prinsipi adətən üç mərhələyə bölünür: identifikasiya, monitorinq və reaksiya. İlkin mərhələdə hansı informasiyaların qorunmalı olduğu müəyyən edilir. Bu mərhələdə təşkilat daxilində məxfi informasiya profili formalaşdırılır ki, bu da gələcək müdafiə tədbirlərinin əsasını təşkil edir.

İkinci mərhələdə sistem aktiv şəkildə informasiya axınlarını analiz edir və daxili alqoritmlər əsasında məxfi məlumatları tanıyır. Əgər sızma riski mövcuddursa, sistem dərhal həmin ötürülməni bloklayır və insident haqqında hesabat yaradır. DLP sistemləri tətbiq sahələrinə görə agent əsaslı və şəbəkə keçid səviyyəsində çalışan sistemlərə bölünür. Agent əsaslı sistemlər birbaşa istifadəçi cihazlarına quraşdırılır və onların davranışlarını izləyir. Şəbəkə səviyyəsində çalışan sistemlər isə daha çox trafikin nəzarəti və analizi üçün istifadə olunur. DLP yanaşması "data-centric security" – informasiya yönümlü təhlükəsizlik prinsipinə əsaslanır. Bu yanaşmaya görə, əsas diqqət informasiya infrastrukturuna deyil, birbaşa informasiyaların özünə yönəldilir. Nəticədə həm daxili istifadəçilərdən gələn, həm də xarici hücumçulardan qaynaqlanan risklərə qarşı daha səmərəli müdafiə sistemi qurulur.

İnformasiyaların təhlükəsizliyinin təmin olunması məqsədilə DLP sistemlərində üç əsas kateqoriyaya əsaslanan təsnifat tətbiq olunur:

- Data-in-use (istifadə olunan informasiyalar),
- Data-at-rest (saxlanılan informasiyalar),
- Data-in-motion (ötürülən informasiyalar) [1].

Bu yanaşma informasiyaların bütün həyat dövrünü əhatə edir və hər mərhələdə risklərin qarşısını almağa şərait yaradır [2]. DLP sistemlərinin tətbiqi yalnız texniki həllərlə kifayətlənməməlidir. Təşkilati yanaşma, işçi heyətinin maarifləndirilməsi, insidentlərin düzgün təhlili və mütəmadi yenilənmə sistemi – bunlar DLP-nin ümumi effektivliyini artıran əsas amillərdir[3].

Eyni zamanda, bu texnologiyaların bəzi məhdudiyyətləri də mövcuddur. Məsələn, dəyişən kibertəhdidlərə qarşı sistemlərin daim yenilənməsi tələb olunur ki, bu da əlavə resurs və zaman sərfiyyatı deməkdir. Bu səbəbdən DLP sistemlərinin uğurlu tətbiqi informasiya təhlükəsizliyi üzrə peşəkar kadrların mövcudluğunu və güclü korporativ təhlükəsizlik mədəniyyətinin formalaşdırılmasını tələb edir. Gələcəkdə DLP texnologiyalarının inkişafı süni intellekt və maşın öyrənməsi alqoritmləri ilə sıx əlaqəli olacaq. Bu sistemlər artıq

proqnozlaşdırıcı analiz funksiyalarına malikdir və mümkün insidentlərə daha tez və dəqiq reaksiya verməyə imkan yaradır [4].

Nəticə. DLP sistemləri müasir informasiya təhlükəsizliyi strategiyalarının vacib tərkib hissəsidir. Onların uğurlu tətbiqi texnoloji yanaşmalarla yanaşı, hüquqi tələblərə uyğunluq və təşkilati dəstək tələb edir. Süni intellektlə inteqrasiya bu sistemlərin gələcək inkişafını daha da gücləndirəcəkdir.

ƏDƏBİYYAT

1. Alneyadi, S., Sithirasenan, E., & Muthukkumarasamy, V. (2016). A survey on data leakage prevention systems. *Journal of Network and Computer Applications*, 62, 137-152. https://doi.org/10.1016/j.jnca.2015.12.018
2. Androulidakis, I. (2020). Mobile phone security and forensics: A practical approach. Springer.
3. Aydın, M., & Yıldız, T. (2021). Veri sınıflandırma ve DLP çözümleri. Bilgi Güvenliği Dergisi, 9(2), 45-59.
4. Cisco. (2022). Data Loss Prevention Explained. https://www.cisco.com

DATA LOSS PREVENTİON SYSTEMS

Nurida Mahammadali qizi Bayramova [1]
nuridabayramova0@gmail.com
Mahil İsa oglu Mammadov [2]
mahil.adau.infotex@gmail.com
Azerbaijan Technolgical University [1]
Azerbaijan State Agrarian University [2]

This article analyzes Data Loss Prevention (DLP) systems in terms of protecting confidential information within organizations. The main functions of DLP systems, their areas of application, classification principles, and compliance with legislation are examined. Attention is also paid to both the technical and organizational aspects of this technology.

Keywords: Information security, DLP technologies, data leakage, information protection, network security.

ВЛИЯНИЕ ИНТЕРНЕТА ВЕЩЕЙ (IOT) НА РАЗВИТИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА (ИИ)

Айида Магомедия кызы Маммедова [1]
a_memmedova@atu.edu.az
Гульназ Сейтбековна Жилкишбаева [2]
gulnaz.zhilkishbayeva@yu.edu.kz
Азербайджанский Технологический Университет[1]
Каспийский Университет технологий и инжиниринга им.Ш.Есенова Актау, Казахстан[2]

В последние десятилетия наблюдается стремительное развитие технологий, таких как Интернет вещей (IoT) и Искусственный интеллект (ИИ), которые оказывают значительное влияние на различные аспекты жизни общества. Статья посвящена исследованию взаимосвязи между этими технологиями и анализу того, как интеграция IoT с ИИ может способствовать ускоренному развитию умных систем, улучшению их эффективности и решению сложных задач.

Рассмотрены основные направления развития, вызовы и перспективы интеграции IoT и ИИ, а также влияние этого процесса на различные отрасли.

Введение. Интернет вещей (IoT) представляет собой сеть устройств, подключенных к интернету, которые могут собирать, обмениваться и анализировать данные. В свою очередь, Искусственный интеллект (ИИ) охватывает технологии, которые позволяют машинам выполнять задачи, требующие интеллектуальной обработки информации, такие как обучение, распознавание образов и принятие решений. Сочетание этих технологий открывает новые возможности для создания

более интеллектуальных и автономных систем, которые могут взаимодействовать с окружающей средой и адаптироваться к изменениям в реальном времени [1].

Материалы и обсуждения. Технологические основы и взаимодействие IoT и ИИ. IoT включает в себя устройства, такие как датчики, камеры, устройства для мониторинга здоровья, а также бытовую технику, которая способна собирать данные о своем состоянии и окружающей среде. Взаимодействие таких устройств между собой и с централизованными вычислительными системами обеспечивает эффективный сбор и обработку информации.

ИИ использует алгоритмы машинного обучения, нейронные сети и другие методы для анализа больших объемов данных и принятия решений на основе полученной информации. В контексте IoT ИИ играет важную роль в обработке данных, поступающих с устройств, в автоматизации процессов и в принятии интеллектуальных решений.

Взаимодействие IoT и ИИ. Синергия IoT и ИИ позволяет создать умные системы, которые способны не только собирать данные, но и использовать их для принятия решений без участия человека. Например, в умных городах устройства IoT могут собирать данные о движении транспорта, а ИИ — анализировать их и оптимизировать дорожное движение. В медицине устройства IoT могут мониторить состояние здоровья пациента, а ИИ — предсказывать возможные заболевания на основе анализа данных [2].

Преимущества интеграции IoT и ИИ. Одним из основных преимуществ интеграции IoT и ИИ является создание автономных систем, которые могут самостоятельно адаптироваться к изменениям внешней среды. Например, умные дома, которые автоматически регулируют температуру, освещенность и даже безопасность на основе данных с датчиков, или промышленная автоматизация, где IoT-устройства и ИИ совместно контролируют процессы.

Улучшение эффективности и принятие решений.Использование ИИ для анализа данных с устройств IoT позволяет принимать более обоснованные решения, минимизируя ошибки и повышая оперативность. Например, в сельском хозяйстве датчики IoT могут следить за состоянием почвы и растений, а ИИ — прогнозировать урожайность и оптимизировать использование ресурсов.

Новые возможности для инноваций. Интеграция IoT и ИИ способствует созданию новых продуктов и сервисов, которые ранее были невозможны. Например, в области транспорта — это системы автономного вождения, которые используют данные от множества датчиков и алгоритмы ИИ для безопасного движения.

Методы исследования. Вызовы и проблемы интеграции IoT и ИИ. Одним из самых серьезных вызовов при интеграции IoT и ИИ является обеспечение *безопасности данных*. Устройства IoT часто собирают чувствительную информацию, и использование ИИ для ее анализа создает дополнительные риски утечек данных и хакерских атак. Это требует разработки надежных методов защиты данных на всех уровнях системы.

Совместимость и стандарты. Разнообразие устройств IoT, их протоколов и стандартов создают проблемы для интеграции с ИИ. Для эффективного взаимодействия различных технологий необходимо разработать единые стандарты и протоколы, что является одной из ключевых задач для дальнейшего развития данной области [3].

Этические и социальные вопросы. Использование ИИ и IoT также поднимает важные этические вопросы, связанные с конфиденциальностью, автоматизацией

рабочих мест и контролем за личной жизнью. Эти аспекты требуют внимательного рассмотрения и регулирования на уровне законодательства.

Перспективы развития и влияние на различные отрасли. Интеграция IoT и ИИ имеет огромный потенциал для различных отраслей, включая здравоохранение, энергетику, транспорт, образование и другие. Например, в медицине она может привести к созданию более точных систем диагностики и прогнозирования, в сельском хозяйстве — к улучшению устойчивости к климатическим изменениям, а в логистике — к оптимизации цепочек поставок и сокращению затрат [3].

Заключение. Влияние Интернета вещей (IoT) на развитие Искусственного интеллекта (ИИ) представляет собой важный шаг в создании более умных, автономных и эффективных систем. Несмотря на существующие вызовы, такие как безопасность данных и совместимость технологий, интеграция IoT и ИИ открывает новые возможности для инноваций и значительных улучшений в различных сферах жизни. Будущее этой технологии обещает еще большее взаимодействие между устройствами и интеллектуальными системами, что приведет к созданию более высокоэффективных и адаптивных решений для различных отраслей.

ЛИТЕРАТУРА

1. Zhang, Y., & Zhang, J. (2023). Internet of Things and Artificial Intelligence:Convergence and Impact on Smart Systems. Journal of Technology Integration, 15(3), 89-101.
2. Liu, X., & Wang, L. (2022). Artificial Intelligence for the Internet of Things: A Survey. IEEE Transactions on Industrial Informatics, 18(5), 2150-2162.
3. Lee, S., & Kim, J. (2021). IoT and AI Integration: Challenges and Opportunities. Journal of Smart Cities, 4(2), 45-56.

THE IMPACT OF THE INTERNET OF THİNGS (IOT) ON THE DEVELOPMENT OF ARTİFİCİAL INTELLİGENCE (AI)

Ayida Mahammadiyya qizi Mammedova[1]
a_memmedova@atu.edu.az
Gulnaz Seytbakovna Zhilkishbaeva [2]
gulnaz.zhilkishbayeva@yu.edu.kz
Azerbaijan Technological University[1]
Caspian University of Technology and Engineering named after Sh. Yessenov Aktau, Kazakhstan[2]

In recent decades, there has been rapid development of technologies such as the Internet of Things (IoT) and Artificial Intelligence (AI), which have a significant impact on various aspects of society. The article is devoted to the study of the relationship between these technologies and the analysis of how the integration of IoT with AI can contribute to the accelerated development of smart systems, improving their efficiency and solving complex problems. The main development directions, challenges and prospects of the integration of IoT and AI, as well as the impact of this process on various industries are considered.

Keywords: Internet of Things (IoT), Artificial Intelligence (AI), smart systems, data analysis, technological integration, automation, data security.

MÜASİR İDARƏETMƏ TEXNOLOGİYALARI - İNFORMASİYANIN İDARƏ EDİLMƏSİ

Nəhayət Aqranom qızı Sadıxova
nehayet_2000@mail.ru
Kənan Rövşən oğlu Abdullayev
k.abdullayev@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Sosial-iqtisadi sistemlərdə idarəetmə texnologiyaları təşkilatlarda, cəmiyyətdə və iqtisadiyyatda resursların, proseslərin və strukturların səmərəli idarə edilməsini təmin edən müxtəlif metodlar, alətlər, yanaşmalar və sistemlərin məcmusudur. Bu texnologiyalar qərar qəbulunu təkmilləşdirməyə, prosesləri optimallaşdırmağa, məhsuldarlığı artırmağa və strateji məqsədlərə doğru yönəlmişdir.

Soaial iqtisadi sistemlərin əsas idarəedici texnologiyaları aşağıdakılardır:

- informasiya texnologiyaları;

İnformasiya texnologiyaları informasiyanın toplanması, saxlanması, emalı və ötürülməsini təmin edir və müasir idarəetmə sistemlərində əsas rol oynayır. Verilənlər bazası idarəetmə sistemləri, verilənlərin analizinin proqram təminatı, idarəetmə informasiya sistemləri və s. qərar qəbulunun səmərəliliyini yüksəltməyə kömək edir.

- rəqəmsal texnologiyalar;

İnternet, süni intellekt , data analitikası, bulud hesablamaları və avtomatlaşdırılmış sistemlər kimi rəqəmsal texnologiyalar idarəetmə proseslərini optimallaşdırmağa, proqnozlaşdırmanı təkmilləşdirməyə və biznesin səmərəliliyini artırmağa kömək edir.

- modelləşdirmə və optimallaşdırma;

Riyazi modelləşdirmə, optimallaşdırma üsulları və simulyasiya bizə mürəkkəb prosesləri təhlil etməyə, müxtəlif strategiyaların nəticələrini proqnozlaşdırmağa və əsaslandırılmış idarəetmə qərarları qəbul etməyə imkan verir.

- layihənin idarə edilməsi;

layihənin idarə edilməsi texnologiyaları layihələri effektiv şəkildə planlaşdırmağa, onlara nəzarət etməyə və həyata keçirməyə kömək edir. Bu texnologiyalar qarşıya qoyulan məqsədlərə müəyyən edilmiş vaxtda və büdcə daxilində çatmağa nail olunmağı təmin edir.

- keyfiyyətin idarə edilməsi;

Keyfiyyəti idarəetmə üsulları məhsulun, xidmətlərin keyfiyyətinin, müştəri məmnuniyyətini və təşkilatın rəqabət qabiliyyətinin artırılmasına yönəldilən bir idarəetmə üsuludur.

İnformasiyanın idarə edilməsi informasiyadan istifadə edən və onun emalı ilə məşğul olan istifadəçilərin fəalliyətlərini əlaqələndirmək üçün nəzərdə tutulmuş yeni bir istiqamətdir. İstifadəçi fəalliyətlərinə informasiya texnologiyaları, informasiya təhlükəsizliyi, marketinq, reklam işləri və s. daxildir.

İnformasiyanın idarə edilməsi informasiyanın etibarlı və optimallaşdırılmış şəkildə toplanması, saxlanması, axtarışı və istifadəsidir.

İnformasiyanı idarəetmə texnologiyaları informasiyanı toplamaq, saxlamaq, emal etmək, ötürmək, təhlil etmək və idarə etmək üçün istifadə olunan metodların, proseslərin, proqram təminatının və texniki vasitələrin məcmusudur. [2]

İnformasiya bütün iş dünyasının mərkəzində dayanır. Ondan çoxsaylı, müxtəlif istifadələri idarə etmək üçün sistemlərə ehtiyac yarandı. Bu məqsədlə də informasiya idarəetmə sistemləri hazırlanmışdır. Bu sistemlərə verilənlərin toplanması, identifikasiyası, təhlili, saxlanması, təqdim edilməsi və yayılması daxildir. Bu sistemlər bir çox biznes proseslərdə aparıcı rol oynayır.

Biznes proseslərinin inkişafında əsas rol oynayan idarəetmə texnologiyalarına mühitin və sənədin idarəedilməsii, korporativ portalların və biznes proseslərinin idarə edilməsi, biliklərin idarə edilməsi, verilənlərin saxlanması və intellektual analizi kimi [1] texnologiyalar daxildir.

İnformasiyanın idarəetmə sistemləri müxtəlif prosesləri asanlaşdırmaqla yanaşı, həm də xüsusi qlobal məqsədlər və ya tətbiqlər üçün istifadə olunur. Məsələn, təşkilatlar əməkdaşlar

haqqında olan vacb verilənləri (maaş, vergi tutumları, kateqoriyalar və s.) bu sisemlərin köməyi ilə idarə edirlər.

Səhiyyədə, tibbi təcrübələrdə, xəstəxanalarda, sağlamlıq sistemlərində və sığorta şirkətlərində bu sistemlərdən xəstə haqqında olan məlumatları, o cümlədən tibbi qeydləri və sağlamlıq vəziyyətlərinə və ya maraq dairələrinə uyğun olaraq ünsiyyət qurmaq üçün istifadə edilə bilən verilənləri idarə etmək üçün istifadə edirlər.

Elektron ticarətdə informasiya idarəetmə sistemlərindən məhsul və müştəri məlumatlarının kompleks massivlərini təşkil etmək və emal etmək üçün istifadə olunur.

İdarəetmədə informasiyanın emalının əsas texnologiyaları aşağıdakılardır:

Verilənlər Bazasının İdarəetmə sistemləri (Database Management System –DBMS) – strukturlaşdırılmış verilənlərin effektiv təşkilini və saxlanmasını təmin edir və təhlükəsizliyi, tamlığı, verilənlərə müraciəti təmin etməklə verilənləri idarə edir.

Sənədlərin idarə edilməsi sistemləri (Document Management System DMS) – elektron və ya kağız sənədlərin təşkilini, onların hərəkətinə nəzarəti və izlənməsini təmin edir.

Elektron Sənəd İdarəetmə Sistemləri (Electronic Document Management Systems EDMS) - yalnız elektron formada olan sənədlərə aiddir. DMS-ə bənzər funksiyaları var. EDMS sənəd mübadiləsini asanlaşdırır və kağız sənədlərdən asılılığı azaldır.

Layihə İdarəetmə Sistemləri (Project Management Systems PMS) - bir layihə daxilində layihələrin və fərdi tapşırıqların icrasını planlaşdırmaq, idarə etmək və izləmək üçün istifadə olunur. Adətən tapşırıq, resurs, büdcə və son tarix idarəetmə funksiyalarını əhatə edir.

Biznes Proseslərinin İdarə Edilməsi Sistemləri (Business Process Management Systems BPMS) – təşkilat daxilində biznes proseslərini modelləşdirməyə, avtomatlaşdırmağa, təhlil etməyə və optimallaşdırmağa imkan verir, daha yaxşı koordinasiya və nəzarəti təmin edir.

Müəssisə Resurslarının Planlaşdırılması sistemləri (**Enterprise Resource Planning** ERP) - resursların planlaşdırılmasının müxtəlif aspektlərini, o cümlədən maliyyə, istehsal, xammal və hazır məhsul ehtiyatları, satış, logistika və başqalarını birləşdirərək vahid informasiya məkanının yaradılmasını təmin edir.

Bu gün şirkət və təşkilatlarda istifadə olunan əsas informasiya idarəetmə metodları və texnologiyaları bunlardır. Qeyd edək ki, bu texnologiyalar təşkilatlara informasiyadan səmərəli istifadə etməyə və öz resurslarını idarə etməyə kömək edən hərtərəfli informasiya idarəetmə sistemlərini yaratmaq üçün bir-biri ilə qarşılıqlı əlaqədə ola bilərlər.

ƏDƏBİYYAT

1. В.В.Ильин, О.Ю. Вологжанин, Я.Н. Немов, Пермь. 2021., Информационные системы в управлении, 293 с.
2. И. Б. Тесленко Д. В. Виноградов, Владимир. 2018. Информационные системы управления производственной компанией. Учебное пособие, 116 с.

MODERN MANAGEMENT TECHNOLOGIES - INFORMATION MANAGEMENT

Nahayat Agranom gizi Sadikhova
nehayet_2000@mail.ru
Kenan Rovshan oglu Abdullayev
k.abdullayev@atu.edu.az
Azerbaijan Technological University

The article discusses information management technologies. The relevance of creating an automated information management system and the functionality of these systems are shown.

Keywords: information, information technology, digital technology, modeling, document management, information management system, data base

KOMPÜTER STEQANOQRAFİYASI VƏ ONUN ƏSAS PRİNSİPLƏRİ


Emin Mahmud oğlu Namazov
e.namazov@atu.edu.az
Gülnarə Məmmədəli qızı Əliyeva
gulnara.aliyeva2005@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Kompüter texnologiyalarının inkişafı steqanoqrafiyanın təkamülünə yeni impuls vermiş və informasiya təhlükəsizliyi sahəsində yeni istiqamət olan kompyuter steqanoqrafiyasının yaranmasına şərait yaratmışdır.

Qlobal şəbəkələrin genişlənməsi və daha çox insanın bu texnologiyalardan istifadə etməsi steqanoqrafiyanın əhəmiyyətini artırmışdır. Araşdırmalar göstərir ki, kompyuter steqanoqrafiyası daim inkişaf edir və yaxın gələcəkdə bu sahəyə maraq daha da artacaqdır. İnternet şəbəkəsinin sürətli inkişafı və geniş yayılması informasiya təhlükəsizliyinə yeni yanaşmalar tələb edir. İnternet üzərindən informasiya mübadiləsinin təhlükəsizliyinin təmin edilməsi, müəllif hüquqlarının qorunması, məxfiliyin saxlanması, elektron ticarət və bank əməliyyatlarının təhlükəsizliyi kimi məsələlər hələ də tam həllini tapmamışdır. Bununla yanaşı, kibercinayətkarlıq, haker hücumları və digər təhlükələr informasiyanın qorunması üçün yeni metodların yaradılmasını zəruri edir. İnformasiya texnologiyalarının inkişafı isə bu yeni üsulların tətbiqini mümkün edir.[1]

Mövcud kriptoqrafik metodlar informasiya təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynasa da, kompüter virusları, trojan proqramları, məntiqi bombalar, spam və digər zərərverici proqramlar hələ də ciddi problemlər yaradır..Bu baxımdan, kompyuter steqanoqrafiyası və kriptoqrafik üsulların birgə tətbiqi informasiya təhlükəsizliyinin gücləndirilməsində effektiv nəticələr verə bilər.

Kompyuter steqanoqrafiyası, klassik steqanoqrafiyanın kompyuter texnologiyaları əsasında inkişafı nəticəsində yaranmış yeni bir sahədir. Bu metod informasiya təhlükəsizliyini təmin etmək üçün məxfi məlumatları müxtəlif rəqəmsal fayllar daxilində gizlətməyə imkan verir.[2] Steqanoqrafiya sahəsində, kriptosistemlərdə olduğu kimi, steqosistem anlayışı mövcuddur. Steqosistem - məlumatın gizli ötürülməsi üçün istifadə olunan metod və vasitələrin məcmusudur (Sxem 1).



Sxem 1. Steqosistemlər iş prinsipi

Müasir steqosistemlərdə əsasən iki növ fayl iştirak edir:
Məlumat (məxfi fayl) – gizlədilməsi nəzərdə tutulan məzmun
Konteyner (daşıyıcı fayl) – məxfi məlumatın yerləşdirildiyi fayl
Konteynerlər iki növə ayrılır:
Orijinal (boş) konteyner – tərkibində məxfi məlumat olmayan fayl
Yekun (doldurulmuş) konteyner – içərisində məxfi məlumat yerləşdirilmiş fayl

Steqanoqrafik açar isə məlumatın konteynerə daxil edilməsi və çıxarılması prosesini müəyyən edən məxfi elementdir.

Kompüter steqanoqrafiyasının tətbiqində əsas amil seçilən kodlaşdırma metodudur. Qlobal şəbəkələrin və multimedia texnologiyalarının inkişafı informasiya təhlükəsizliyini

gücləndirmək üçün yeni metodların işlənib hazırlanmasını zəruri etmişdir. Rəqəmsal audio və video siqnalların ötürülməsi zamanı yaranan qeyri-dəqiqliklər və məlumatların izafiliyi steqanoqrafiya üçün əlverişli mühit yaradır.[3]

Rəqəmsal şəkil və səs fayllarına edilən dəyişikliklər onların funksionallığını pozmur. İnsan hissiyyatı bu cüzi dəyişiklikləri fərqləndirməkdə çətinlik çəkir.

ƏDƏBİYYAT

1. Qasımov V.Ə. İnformasiya təhlükəsizliyinin əsasları. Dərslik. Bakı: MTN Maddi-texniki Təminat Baş İdarəsinin Nəşriyyat- Poliqrafiya Mərkəzi. 2009, 340 s.
2. Öztürk, N., & Yılmaz, R. (2019). Bulut Bilişim ve Güvenlik Tehditleri: Bir İnceleme. Bilgisayar Mühendisliği Dergisi, 23(4), 45-58.
3. Kumar, A., & Singh, M. (2019). Blockchain Technology in Personal Data Protection: A Survey. International Journal of Computer Science and Network Security, 19(7),

COMPUTER STEGANOGRAPHY AND İTS BASİC PRİNCİPLES

Emin Mahmud oglu Namazov
e.namazov@atu.edu.az
Gulnara Mammadali qizi Aliyeva
gulnara.aliyeva2005@gmail.com
Azerbaijan Technological University

Computer technologies have significantly advanced steganography, leading to the emergence of computer-based steganography as a vital method for information security. The rapid expansion of global networks and the increasing use of the internet emphasize the growing importance of this technology. While cryptographic methods play a significant role in safeguarding information, the combination of steganography and cryptography offers enhanced security against emerging threats such as cybercrime and malicious software. Modern steganographic systems involve concealing secret data within digital files (e.g., images, audio, and video) in a way that is undetectable to the human eye or ear. As multimedia technologies evolve, steganography continues to adapt, providing secure and efficient means of protecting sensitive information.

Keywords: Steganography, Modern İnformation, Firewalls, Information Security, Multimedia Technologies, Computer Technologies

AĞILLI NƏQLİYYAT SİSTEMLƏRİ VASİTƏSİLƏ MOBİLLİK PROBLEMLƏRİNİN İDARƏ OLUNMASI

Vüsalə Nuru qızı Bayramova [1]
vusalabairamova@mail.ru
Cəmilə Mais qızı Əliyeva [2]
a.cema70@mail.ru
İsmət Alim oğlu Qədimov [2]
ismetqedimov038@gmail.com
Azərbaycan Texnologiya Universiteti[1]
Odlar Yurdu Universiteti[2]

Ağlı Nəqliyyat Sistemləri (ANS) müasir dövrdə nəqliyyat sektorunda qarşıya çıxan çətinliklərin aradan qaldırılması və şəhər mobilliyinin effektiv şəkildə idarə olunması baxımından əhəmiyyətli rol oynayır. Ağlı nəqliyyat sistemləri real vaxt rejimində nəqliyyat vasitələrinin hərəkətinə nəzarət etməyə, yollardakı yükü analiz etməyə və dinamik qərarlar qəbul etməyə imkan verir. Bu sistemlər GPS texnologiyaları, sensorlar, kamera müşahidələri və avtomatlaşdırılmış idarəetmə qurğuları ilə təchiz olunur. Mobillik problemlərinin idarə olunmasında ANS-in tətbiqi həm də enerji effektivliyinin artırılmasına və ətraf mühitin mühafizəsinə töhvə verir. Avtomobillərin yollarda keçirdiyi vaxtın azalması,

yanacaq sərfiyyatının və tullantıların minimuma endirilməsi ekologiya üçün müsbət nəticələr yaradır.

Müasir dövrdə şəhər mühitinin davamlı inkişafı və sosial-iqtisadi rifahın təmin olunması üçün nəqliyyat sistemlərinin səmərəli təşkili və idarə olunması xüsusi əhəmiyyət kəsb edir. Urbanizasiya prosesinin sürətlənməsi, şəhər əhalisinin artması və avtomobil parkının genişlənməsi nəticəsində mövcud nəqliyyat infrastrukturunun imkanları getdikcə məhdudlaşır və bu, bir sıra mobillik problemlərinə səbəb olur. Yol tıxacları, vaxt itkisi, yanacaq sərfiyyatının artması, ətraf mühitin çirklənməsi, hava keyfiyyətinin pisləşməsi və yol-nəqliyyat hadisələrinin çoxalması bu problemlər sırasında önə çıxır. Bütün bu çağırışlar fonunda nəqliyyat sektorunda yeni və innovativ yanaşmalara ehtiyac yaranmışdır.

Bu kontekstdə Ağlı Nəqliyyat Sistemləri (ANS) müasir texnologiyalara əsaslanan və şəhər mobilliyini daha səmərəli şəkildə idarə etməyə imkan verən kompleks həllər toplusu kimi çıxış edir.Ağlı Nəqliyyat Sistemləri nəqliyyat sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə, nəqliyyat vasitələrinin hərəkətinin izlənməsi, marşrutların optimallaşdırılması, sərnişin və yük axınının düzgün yönləndirilməsi, yol şəraitinə dair məlumatların təhlil olunması və real vaxtda qərarların qəbul edilməsi üçün mühüm vasitədir. Bu sistemlər sayəsində nəqliyyat infrastrukturuna olan təzyiq azalır, istifadəçilər üçün daha təhlükəsiz, sürətli və çevik hərəkət imkanları yaradılır [1].

Dövlət tərəfindən nəqliyyat sahəsində həyata keçirilən rəqəmsallaşdırma strategiyaları, nəqliyyat idarəetmə mərkəzlərinin yaradılması və ictimai nəqliyyatın müasirləşdirilməsi kimi addımlar ANS-in inkişafı üçün əlverişli zəmin yaradır. Eyni zamanda, ağıllı parkinq sistemləri, elektron ödəniş vasitələri, GPS əsaslı marşrut təyin etmə və fövqəladə hallarda operativ cavab imkanlarının yaradılması ANS-in şəhər həyatına inteqrasiyasını sürətləndirir.

Bu işin məqsədi ağlı nəqliyyat sistemləri vasitəsilə mobillik problemlərinin necə idarə olunduğunu araşdırmaq, bu sahədə mövcud problemləri və onların həlli yollarını müəyyənləşdirmək, həmçinin Azərbaycan şəraitində ANS-in tətbiq perspektivlərini qiymətləndirməkdən ibarətdir [2].

Əldə ediləcək nəticələrin elmi əsaslara söykənməsi və tədqiqatın məqsədinə uyğun şəkildə qurulması üçün istifadə olunan material və metodların düzgün seçilməsi xüsusi əhəmiyyət daşıyır. Mövcud tədqiqat çərçivəsində ağıllı nəqliyyat sistemlərinin mobillik problemlərinin idarə olunmasındakı rolunu araşdırmaq üçün həm nəzəri, həm də tətbiqi yanaşmalar bir araya gətirilmişdir. Əsas məqsəd, şəhər nəqliyyatı sistemlərində ANS-in tətbiqi nəticəsində yaranan səmərəlilik dərəcəsini, texnoloji imkanları və real problemlərin həllinə təsirini kompleks şəkildə təhlil etməkdir.

Ağıllı Nəqliyyat Sistemləri şəhər mobilliyinin səmərəli idarə olunmasında mühüm rol oynayır [3]. Bu sistemlərin tətbiqi nəticəsində tıxacların azalması, sərnişin daşımada sürətin artması, yanacaq sərfiyyatının optimallaşdırılması və yol qəzalarının minimuma endirilməsi müşahidə olunur.

ANS həm texnoloji, həm də sosial baxımdan nəqliyyat infrastrukturunun modernləşməsinə və əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə töhfə verir. Beləliklə, bu sistemlər müasir şəhər həyatının ayrılmaz tərkib hissəsinə çevrilərək dayanıqlı inkişaf üçün strateji vasitə kimi çıxış edir.

ƏDƏBİYYAT

1. Akbar, M. A., Khan, A. A., & Hyrynsalmi, S. (2019). Role of quantum computing in shaping the future of 6G technology. Information and SoftwareTechnology,170,107454.

2. An, S., Lee, B.-H., & Shin, D.-R. (2011). A survey of intelligent transportation systems. In Proceedings of the 2011 Third International Conference on Computational Intelligence, Communication Systems and Networks (pp. 332–337). IEEE.

3. Avcı, İ., & Koca, M. (2023). Cybersecurity attack detection model, using machine learning techniques. Acta Polytechnica Hungarica, 20, 29–44.

MANAGING MOBILITY PROBLEMS THROUGH INTELLIGENT TRANSPORT SYSTEMS

Vusala Nuru qizi Bayramova[1]
vusalabairamova@mail.ru
Jamila Mais qizi Aliyeva[2]
a.cema70@mail.ru
Ismet Alim oglu Qadimov[2]
ismetqedimov038@gmail.com
Azerbaijan Technological University[1]
Odlar Yurdu University[2]

Intelligent Transport Systems (ITS) play an important role in overcoming the challenges faced in the modern transport sector and in effectively managing urban mobility. Intelligent transport systems allow for real-time monitoring of vehicle movements, analysis of road loads, and dynamic decision-making. These systems are equipped with GPS technologies, sensors, camera surveillance, and automated control devices. The application of ITS in managing mobility problems also contributes to increasing energy efficiency and environmental protection. Reducing the time spent by vehicles on the road, minimizing fuel consumption, and minimizing emissions have positive consequences for the environment.

Keywords: Intelligent transportation systems, mobility problems, urban transportation, management.

İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN MÜASİR DÖVRDƏ ƏHƏMİYYƏTİ

Ababil Faxrəddin qızı Nağıyeva
ababil.nagiyeva@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə informasiya cəmiyyətin ən qiymətli resurslarından biri hesab olunur. İnformasiya texnologiyalarının sürətli inkişafı və rəqəmsallaşma prosesi nəticəsində məlumatların ötürülməsi, saxlanması və emal edilməsi daha geniş vüsət almışdır. Bu isə informasiya təhlükəsizliyinin təmin olunmasını vacib məsələlərdən birinə çevirmişdir. Xüsusilə dövlət qurumları, özəl müəssisələr və fərdi istifadəçilər üçün informasiya təhlükəsizliyi həm texniki, həm də hüquqi baxımdan əhəmiyyətli rol oynayır.

İnformasiya təhlükəsizliyi – informasiyanın icazəsiz müdaxilədən, dəyişdirilmədən, silinmədən və yayılmadan qorunmasını təmin edən tədbirlər toplusudur. Müasir dünyada informasiya sistemlərinə qarşı təhdidlər getdikcə daha mürəkkəb və təsirli xarakter alır. Kibertəhlükələr – viruslar, zərərverici proqram təminatı, haker hücumları və sosial mühəndislik kimi metodlarla həyata keçirilir. İnformasiya təhlükəsizliyinin əsas prinsiplərinə aşağıdakılar daxildir:

- Məlumatların məxfiliyi (confidentiality)
- Məlumatların bütövlüyü (integrity)
- Məlumatların əlçatanlığı (availability)

Hər hansı bir məlumat sisteminin təhlükəsizliyi bu üç əsas prinsipin qorunması ilə ölçülür [1,3]. Müəssisələr üçün müştəri məlumatlarının qorunması, kommersiya sirrlərinin saxlanması və daxili əməliyyatların gizliliyi həyati əhəmiyyət daşıyır. Texnologiyanın inkişafı ilə informasiya təhlükəsizliyi sahəsində yeni yanaşmalar meydana çıxmışdır. Süni intellektin tətbiqi, avtomatlaşdırılmış monitorinq sistemləri, kriptoqrafiya və blokçeyn texnologiyaları bu sahədə effektiv həllər təklif edir. Dövlətlər səviyyəsində də informasiya

təhlükəsizliyi ön plana çıxır [2]. Məlumat müharibələri, kibercasusluq və dezinformasiya kampaniyaları müasir siyasi və hərbi strategiyaların bir hissəsinə çevrilmişdir.

Buna görə də ölkələr informasiya təhlükəsizliyi strategiyaları hazırlayır, milli təhlükəsizlik konsepsiyalarına bu məsələləri daxil edirlər. Təhsil müəssisələrində bu sahədə biliklərin artırılması və maarifləndirmə tədbirləri də vacibdir. İnsan amili informasiya təhlükəsizliyində ən zəif halqa hesab olunur [4]. Buna görə də istifadəçilərin təhlükəsizlik qaydaları barədə məlumatlandırılması, güclü parollardan istifadə, şübhəli linklərdən çəkinmək kimi sadə, lakin təsirli vərdişlər formalaşdırılmalıdır.

Nəticə olaraq demək olar ki, informasiya təhlükəsizliyi müasir dövrdə yalnız texnoloji məsələ deyil, eyni zamanda strateji və sosial əhəmiyyətə malik bir sahədir. İnformasiya resurslarının qorunması üçün texniki, hüquqi və maarifləndirmə tədbirləri kompleks şəkildə həyata keçirilməlidir. İnformasiya təhlükəsizliyinin təmin edilməsi hər bir fərdin və qurumun məsuliyyətidir və bu məsuliyyətin şüurlu şəkildə dərk olunması vacibdir.

ƏDƏBIYYAT

1. Stallings, W. (2017). Information Security: Principles and Practice. Pearson Education.
2. ISO/IEC 27001:2022 - Information security management systems — Requirements.
3. Azərbaycanın "İnformasiya, informasiyalaşdırma və informasiya mühafizəsi haqqında" Qanunu.
4. Kibertəhlükəsizlik üzrə beynəlxalq təcrübələr və milli strategiyalar – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi materialları.

THE IMPORTANCE OF INFORMATION SECURITY IN THE MODERN ERA

Ababil Fakhreddin qizi Nagiyeva
ababil.nagiyeva@mail.ru
Azerbaijan Technological University

In the modern era, information is regarded as one of the most valuable resources. The rapid advancement of information technologies and the widespread digitalization process have made the protection of data more critical than ever. Information security ensures the confidentiality, integrity, and availability of data against unauthorized access, modification, or destruction. As cyber threats become increasingly complex, implementing robust security measures has become essential for governments, businesses, and individuals alike. This paper discusses the importance of information security in today's world, highlighting technological, legal, and educational aspects, and emphasizes the need for a comprehensive approach to safeguard sensitive information in the digital age.

Keywords: Information Security, Cybersecurity, Data Protection, Confidentiality, Integrity, Availability, Cyber Threats, Digitalization, Risk Management, Information Systems, National Security.

İNTELLEKTUAL ŞƏHƏRLƏR ÜÇÜN PERSPEKTİVLƏR VƏ TEXNOLOJİ İNKİŞAFLARIN ROLU

Vüsalə Nuru qızı Bayramova [1]
vusalabairamova@mail.ru
Cəmilə Mais qızı Əliyeva [2]
a.cema70@mail.ru
İsmət Alim oğlu Qədimov [2]
ismetqedimov038@gmail.com
Azərbaycan Texnologiya Universiteti[1]
Odlar Yurdu Universiteti[2]

İntellektual şəhərlər müasir cəmiyyətin texnoloji inkişafla paralel şəkildə formalaşan urbanizasiya modelidir. Bu prosesdə süni intellekt sistemləri, sensor texnologiyaları, böyük verilənlərin təhlili və avtomatlaşdırılmış qərarvermə alqoritmləri aparıcı rol oynayır.Texnoloji inkişaf bu şəhərlərdə yalnız infrastrukturun optimallaşdırılması ilə məhdudlaşmır, həm də sosial inklüzivlik, vətəndaş iştirakçılığı və şəffaflıq prinsiplərinin gücləndirilməsinə yönəldilir.

Bu təcrübələr göstərir ki, intellektual şəhər modelinin uğuru yalnız texnoloji təchizatla deyil, həm də idarəetmə strukturunun çevikliyi, sosial mədəniyyətin uyğunlaşma səviyyəsi və insan kapitalının keyfiyyəti ilə sıx bağlıdır. İnformasiya və texnologiyaların sürətli inkişafı ilə birlikdə XXI əsrdə şəhər mühitinin təşkili və idarə olunması sahəsində köklü dəyişikliklər müşahidə olunmaqdadır. Əhali artımı, urbanizasiyanın miqyasının genişlənməsi, təbii resursların tükənməsi, ekoloji problemlərin dərinləşməsi və şəhər infrastrukturuna olan təzyiqlərin artması fonunda ənənəvi şəhər idarəetməsi modelləri getdikcə yetərsiz qalır. Bu reallıq yeni, daha çevik, ağıllı və davamlı idarəetmə formalarının axtarılmasını labüd etmişdir. Məhz belə bir mərhələdə "intellektual şəhər" konsepsiyası aktuallıq qazanmış və qlobal səviyyədə strateji bir hədəfə çevrilmişdir.İntellektual şəhər anlayışı yalnız texnoloji yeniliklərin tətbiqini deyil, həm də sosial, iqtisadi və ekoloji davamlılığın təmin edilməsini hədəfləyən kompleks və çoxşaxəli bir modeldir. Bu şəhərlərdə əhalinin gündəlik ehtiyaclarını daha effektiv şəkildə qarşılamaq, həyat keyfiyyətini yüksəltmək və şəhər resurslarını optimal formada idarə etmək əsas məqsədlər sırasındadır. Belə yanaşmanın tətbiqi nəticəsində şəhərlərin idarə olunması real vaxt rejimində məlumatların toplanması, təhlili və tətbiqi ilə həyata keçirilir [1]. Bu isə öz növbəsində qərarvermə proseslərini sürətləndirir, şəffaflaşdırır və onların daha effektiv olmasına imkan yaradır.

Texnoloji inkişafın sürətləndiyi müasir dövrdə intellektual şəhər modellərinin tətbiqi artıq konseptual səviyyədən praktiki mərhələyə keçmişdir. Bu proses yalnız infrastrukturun rəqəmsallaşdırılması ilə məhdudlaşmır, eyni zamanda idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, vətəndaşların rifahının yüksəldilməsi və ekoloji davamlılığın təmin edilməsi məqsədi daşıyır. İntellektual şəhər modelinin uğurla həyata keçirilməsi üçün əsas komponentlər arasında nəqliyyat, enerji, təhsil, səhiyyə, sənaye və sosial xidmətlərin inteqrasiyası mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, şəhər mühitinin ağıllı sistemlər vasitəsilə idarə olunması — məsələn, enerji sərfiyyatının avtomatlaşdırılması, tullantıların optimallaşdırılmış toplanması, ictimai nəqliyyatın adaptiv tənzimlənməsi — resursların daha səmərəli istifadəsini təmin edir və şəhər sakinlərinin gündəlik həyat keyfiyyətini artırır. Bu cür inteqrasiya edilmiş yanaşma şəhərlərin yalnız yaşamaq üçün yer deyil, eyni zamanda davamlı inkişaf üçün innovativ platforma rolunu oynamasını mümkün edir [2].

İntellektual şəhərlər üçün perspektivlər və texnoloji inkişafların rolu günümüzdə urbanizasiyanın yeni mərhələyə keçidini ifadə edən ən aktual və strateji mövzulardan biridir. Bu model yalnız texnoloji yeniliklərin tətbiqini deyil, eyni zamanda sosial inteqrasiya,

idarəetmədə şəffaflıq və ətraf mühitin qorunması kimi çoxşaxəli məqsədləri özündə birləşdirir. Ağıllı şəhər yanaşması, mövcud şəhər problemlərinə kompleks və innovativ həll yolları təqdim etməklə yanaşı, gələcəkdə urban mühitin daha funksional, inklüziv və davamlı şəkildə təşkili üçün bir çərçivə yaradır [3]. Texnologiyanın rolu burada sadəcə texniki proseslərin avtomatlaşdırılması ilə məhdudlaşmır. Süni intellekt, böyük verilənlər, əşyaların interneti (IoT), rəqəmsal platformalar və avtomatlaşdırılmış idarəetmə sistemləri sayəsində nəqliyyatdan səhiyyəyə, enerjidən ictimai təhlükəsizliyə qədər bütün sahələrdə effektivlik və çeviklik təmin edilir.

ƏDƏBİYYAT

1. Hüseynova, A., & Mazanova, O. (2023). The leading role of digital technologies in the development of the smart city concept in Azerbaijan. *International Journal of Information Technology and Computer Science*, 15(3), 1–10.ResearchGate+1ResearchGate+1
2. Hüseynova, A., Mazanova, O., Khudiyeva, P., Muradova, H., Haciyeva, L., & Najafova, K. (2022). Innovative way of solution of "Smart City" in Azerbaijan – City problems. *WSEAS Transactions on Business and Economics*, 19, 1394–1402.ResearchGate+1WSEAS+1
3. Məmmədov, E. (2021). Building smart cities and villages in Azerbaijan: Challenges and opportunities. *Baku Research Institute*.bakuresearchinstitute.org

PROSPECTS FOR INTELLIGENT CITIES AND THE ROLE OF TECHNOLOGICAL DEVELOPMENTS

Vusala Nuru qizi Bayramova [1]
vusalabairamova@mail.ru
Jamila Mais qizi Aliyeva [2]
a.cema70@mail.ru
Ismet Alim oglu Qadimov [2]
ismetqedimov038@gmail.com
Azerbaijan Technological University [1]
Odlar Yurdu University [2]

Intelligent cities are an urbanization model that is being formed in parallel with the technological development of modern society.

In this process, artificial intelligence systems, sensor technologies, big data analysis and automated decision-making algorithms play a leading role. Technological development in these cities is not limited to the optimization of infrastructure, but is also aimed at strengthening the principles of social inclusion, citizen participation and transparency.

These experiences show that the success of the intelligent city model is closely related not only to technological equipment, but also to the flexibility of the management structure, the level of adaptation of social culture and the quality of human capital.

Keywords: digital transformation, technological development, artificial intelligence, big data, smart infrastructure.

ОДЕЛИРОВАНИЕ ЭЛЕКТРИЧЕСКОЙ СХЕМЫ ВИРТУАЛЬНОЙ ЛАБОРАТОРНОЙ РАБОТЫ «ТРАНСФОРМАТОР С СЕРДЕЧНИКОМ» НА КОМПЬЮТЕРНОЙ ПРОГРАММЕ ЛАБОРАТОРНОГО ОБОРУДОВАНИЯ LUCAS-NUELLE LAB SOFT

Джамиля Исмаил кызы Мехтиева[1]
cemile.adau@gmail.com
Лейла Насраддин гызы Гусейнова[2]
leylahuseynova852@gmail.com
Азербайджанский Государственный Аграрный Университет[1]
Азербайджанский Технологический Университет[2]

На протяжении более чем 30 лет Lucas-Nuelle, со штаб-квартирой в Керпене (Германия), совершенствует технологии и выпускает обучающие системы в таких ключевых областях как: электрический инженерин и альтернативная энергетика, электроника, коммуникации и автомобильные технологии.

Компания Lucas-Nuelle – это высококачественные проверенные временем дидактические системы для технического профессионального обучения и повышения квалификации. Трансформаторы представляют собой одно из наиболее важных технических применений явления индукции. В основном трансформаторы могут работать только с переменным напряжением. Они решают многие технические задачи:

-передача электрической энергии

-регулировка напряжения

-надежное разделение с сетевым напряжением

Зачастую первостепенной задачей трансформатора является изоляция от электрических цепей. Например, поскольку напряжение сети в 220 В является опасным, то большинство трансформаторов в бытовых приборах сконструированы как разделительные трансформаторы, с двумя раздельными обмотками, обеспечивающими гальваническое разделение между "опасной стороной" и "безопасной стороной". Трансформатор имеет первичную обмотку, т.е. обмотку, которая получает электрическую энергию и вторичную обмотку, т.е. обмотку, которая отдает электрическую энергию [1]. Кроме этого, трансформатор характеризуется следующими параметрами:

– напряжение первичной обмотки (первичное напряжение) u_1 и напряжение вторичной обмотки (вторичное напряжение) u_2

– первичный ток i_1 и вторичный ток i_2

– число витков в первичной обмотке n_1 и во вторичной обмотке n_2

